XBT-10

# Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı

## Onuncu baxış

## I cild (I hissə)

Ümumdünya Səhiyyə Təşkilatı
Cenevrə
2012

ICD-10

# International Statistical Classification of Diseases and Related Health Problems

## Tenth Revision

## VOLUME 1

World Health Organization
Geneva
1992

**I cild*** Giriş
ÜST-nin xəstəliklərin təsnifatı üzrə əməkdaşlıq edən mərkəzləri
Beynəlxalq konfransın onuncu baxış üzrə hesabatı
Üçrəqəmli rubrikaların siyahısı
Üçrəqəmli rubrikaların , dördrəqəmli yarımrubrikaların tam siyahısı və onların məzmunu
Yenitörəmələrin morfologiyasının kodlaşdırılmış namenklaturası
Ölüm və xəstələnmə göstəricilərinin yekun statistik hesabatlarının işlənilməsi üçün xüsusi siyahılar
Təriflər
Nomenklatur əsasnamə

**II cild** Təlimatlar toplusu

**III cild** Əlifba göstəricisi

---

* I cild azərbaycanca nəşirdə 2 hissədən ( texniki səbəblərlə bağlı ) ibarətdir. I hissəyə giriş və I-XIII siniflər, II hissəyə XIV-XXII siniflər, yenitörəmələrin morfologiyasının kodlaşdırılmış namenklaturası, ölüm və xəstələnmə göstəricilərinin yekun statistik hesabatlarının işlənilməsi üçün xüsusi siyahılar, təriflər və nomenklatur əsasnamə daxildir.

ÜST-nin kitabxana xidməti; nəşrlərin kataloqlaşdırılması
Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı;
10-cu baxış
Tərkibi: I cild – Statistik işləmələr üçün xüsusi siyahılar;
II cild – Təlimatlar toplusu;
III cild – Əlifba göstəricisi.

1. Təsnifat I. Adı: XBT-10
İSBN 92 4 154419 8 (v. 1) İSBN 92 4 154420 1 (v. 2) İSBN 92 4 154421 X (v. 3)

Ümumdünya Səhiyyə Təşkilatının nəşrləri “müəllif hüquqlarının qorunması haqda” Ümumdünya konvesiyasının 2 saylı Protokol əsasnaməsi ilə qorunur. Təkrar nəşr və ya nəşrin tərcüməsi üçün (hissəvi və ya *in toto*) müraciətləri Ümumdünya Səhiyyə Təşkilatının (İsveçrə, Cenevrə) nəşriyyat şöbəsinə göndərmək lazımdır. Ümumdünya Səhiyyə Təşkilatı məmnuniyyətlə belə müraciətləri təmin edir.

© World Health Organization, 1992
© Ümumdünya Səhiyyə Təşkilatı, 2012

# Mündəricat

**Giriş** ..........

**Minnətdarlıq** ..........

**Xəstəliklərin Beynəlxalq Təsnifatı üzrə ÜST-nin əməkdaşlıq mərkəzləri** ..........

**Xəstəliklərin Beynəlxalq Təsnifatının onuncu baxılışı üzrə Beynəlxalq Konfransın hesabatı** ..........

**Üçrəqəmli rubrikaların siyahısı** ..........

**Üçrəqəmli rubrikaların, dördrəqəmli yarımrubrikaların tam siyahısı və onların məzmunu** ..........

- I Bəzi infeksion və parazitar xəstəliklər ..........
- II Yenitörəmələr ..........
- III Qan, qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizmin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozğunluqlar ..........
- IV Endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğunluqları ..........
- V Psixi pozğunluqlar və davranış pozğunluqları ..........
- VI Sinir sistemi xəstəlikləri ..........
- VII Gözün və gözün əlavə aparatının xəstəlikləri ..........
- VIII Qulağın və məməyəbənzər çıxıntının xəstəlikləri ..........
- IX Qan dövranı sisteminin xəstəlikləri ..........
- X Tənəffüs sisteminin xəstəlikləri ..........
- XI Həzm sisteminin xəstəlikləri ..........
- XII Dəri və dərialtı toxumanın xəstəlikləri ..........
- XIII Sümük-əzələ sisteminin və birləşdirici toxumanın xəstəlikləri ..........

# Giriş

Xəstəliklərin təsnifatı anlayışına, müəyyən edilmiş meyarlar əsasında ayrı-ayrı patoloji halların daxil edildiyi qruplaşdırmalar sistemi kimi tərif vermək olar. Təsnifat yaratmaq üçün çoxlu sayda prinsiplər mövcuddur və hansı prinsiplərə əsaslanmaq – statistik məlumatların nə məqsədlə toplanmasından asılıdır. Bütövlükdə isə, xəstəliklərin statistik təsnifatı, müəyyən sayda qruplaşmalarda, başqa sözlə, rubrikalarda bütün məlum patoloji halları əks etdirə bilməlidir.

İlk dəfə 1893-cü ildə Bertilyon təsnifatı və ya ölüm səbəblərinin beynəlxalq siyahısı kimi meydana çıxmış Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin Beynəlxalq Təsnifatı indiyə kimi 10 dəfə yenidən baxılıb təkmilləşdirilmişdir. (Təsnifatın qəbul edilməsi tarixi haqqında 2-ci cilddə geniş məlumat verilmişdir). Təsnifat adından məlum olan məzmunu əks etdirə bildikdən, həm də təkcə xəstəlik və travmalar üçün deyil, daha geniş anlamda işlənməyə başlandıqdan sonra artıq hamıya məlum olan ixtisar – XBT qəbul edildi. Müasir təsnifatda patoloji hallar elə qruplaşdırılmalıdır ki, onun ümumi epidemioloji məqsədlər, eləcə də tibbi- sanitar yardımın keyfiyyətini qiymətləndirilməsi üçün istifadəsinin yüksək dərəcədə əlverişliliyi təmin olunsun.

XBT-nin onuncu baxışı üzrə iş 1983-cü ildə Cenevrədə XBT-10 üzrə keçirilmiş hazırlıq müşavirəsi ilə başlamışdır. İş proqramı ÜST-nin xəstəliklərin təsnifatı üzrə əməkdaşlıq mərkəzlərinin rəhbərlərinin müntəzəm görüşlərində müəyyən olunmuşdu. Çoxsaylı müşavirələr, o cümlədən 1984-cü və 1987-ci illərdə XBT-10 üzrə keçirilmiş Ekspertlər Komitəsinin müşavirəsi bu işə rəhbərliyi təmin etmişdi.

Ayrı-ayrı ekspertlərin və çoxsaylı mütəxəssis qruplarının texniki köməyi ilə yanaşı, ÜST-nin üzvü olan dövlətlərdən və regional bürolardan çoxlu sayda iradlar və təkliflər alınmışdır. Belə ki, XBT-nin yenidən baxılması üzrə layihə təklifləri 1984 və 1986-cı illərdə dünyanın bütün ölkələrində yayılmışdı.

Alınmış irad və təkliflər göstərirdi ki, təsnifatdan istifadə edənlərin bir çoxu XBT-yə təkcə adi «diaqnostik informasiyaların» deyil (bu terminin geniş mənasında), həmçinin digər məlumat növlərinin də daxil edilməsini məqsədəuyğun sayır. Bu qəbildən olan çoxsaylı tələbatları ödəmək məqsədilə təsnifatlar «ailəsi» adlanan, mərkəzində öz struktur və formaları ilə ənənəvi XBT dayanan bir konsepsiya yaradılmışdır. Beləliklə, XBT özü ümumi məqsədlər üçün, başqa sözlə, diaqnostik informasiyalar üçün tələbatı ödəyir. Digər, əlavə təsnifatlar isə XBT ilə birgə həmin informasiyalara yanaşmada istifadə oluna bilər, yaxud da tamam başqa informasiyalarla işləyə bilər (xüsusilə terapevtik və ya cərrahi əməliyyatlar və əlilliklə bağlı informasiyalarla).

İstifadəçilərin tələbatını daha yaxşı ödəyə biləcək bazis strukturlarını yaratmaq məqsədilə təsnifatın bundan əvvəlki, IX baxışının nəticələri təzədən işlənib təkmilləşdirildiyi müddət ərzində daxil olan təkliflər əsasında bir neçə alternativ modelin qiymətləndirilməsi aparılmışdır. Lakin aydın olmuşdur ki, təsnifatın ənənəvi modeli zamanın sınağından çıxmışdır və əksər istifadəçiləri həmin modelin başqa bir yenisi ilə əvəz edilməsi qane etməzdi. Belə ki, yeganə dəyişən göstəriciyə və başqa struktur üstünlüklərinə malik olmaqla bərabər, tez-tez rastlaşan hallara – xüsusən ictimai səhiyyə üçün əhəmiyyət kəsb edən və müəyyən maliyyə qoyuluşu tələb edən tipik hallara ənənəvi modeldə xüsusi diqqət yetirilməsi bu qənaətə gəlməyə əsas vermişdir.

Beləliklə, Onuncu baxış araşdırılarkən görmək olar ki, XBT-nin ənənəvi strukturu saxlanılmışdır: lakin, kodlaşdırmanın rəqəm sistemi əlifba-rəqəm sistemi ilə əvəz edilmişdir. Bu isə, təsnifatın hüdudlarını genişləndirməyə və sonrakı təkrar müzakirələri rəqəm sisteminin tamlığını pozmadan keçirməyə imkan verir.

Təsnifatdan optimal istifadəni təmin etmək məqsədilə immun mexanizmlərin bəzi pozğunluqları "Qan və qanyaradıcı orqanların xəstəlikləri" sinfinə daxil edilmişdir (III sinif). Göz və gözün əlavə aparatının xəstəlikləri, həmçinin qulaq və məməyəbənzər çıxıntının xəstəlikləri üçün yeni siniflər yaradılmışdır. Əvvəlki əlavə təsnifatların tərkibində olan – sağlamlığa təsir göstərən xarici səbəb və amillər, həmçinin, səhiyyə müəssisələrinə müraciətlər – əsas təsnifata daxil edilmişdir.

Bir sıra diaqnostik hallar üçün xüsusi işarə (†) və ulduzdan (*) istifadə etməklə Doqquzuncu baxışda daxil edilmiş ikiqat kodlama sistemi saxlanılmış və genişləndirilmişdir. "Ulduzcuğun" mahiyyəti oxşar fəsillərdə üçrəqəmli səviyyədə saxlanılmışdır.

## XBT-10-un üç cildinin məzmunu

Təsnifatın təqdim olunma forması dəyişmiş, hal-hazırda o üç cilddən ibarətdir:

**I cild.** Statistik işləmələr üçün xüsusi siyahı.
Burada Onuncu baxış üzrə Beynəlxalq konfrans haqqında hesabat, üç və dördrəqəmli rubrikalar səviyyəsində xüsusi təsnifat, yenitörəmələrin morfoloji təsnifatı, xəstələnmə və ölüm haqqında məlumatları işləmək üçün xüsusi cədvəlləşdirilmiş siyahılar, təriflər və nomenklatur hallar verilmişdir.

**II cild.** Təlimatlar toplusu.

Bu cilddə əvvəllər I cildə daxil olan tibbi şəhadətnamə və təsnifatların tərtib olunmasına aid xeyli yeniləşmiş göstərişlər; 1-ci cilddən, cədvəlləşdirilmiş siyahılardan istifadə və XBT-dən istifadənin planlaşdırılması haqqında təlimat materialları və tövsiyələr verilmişdir. Bu cilddə həmçinin əvvəllər 1-ci cildə daxil olan tarixi materiallar da verilmişdir.

**III cild.** Əlifba göstəricisi.
Bu cilddə göstərici özü, göstəriciyə aid giriş və ondan istifadə qaydası haqda hərtərəfli təlimat verilmişdir.

Təsnifat 1989-cu ildə XBT-nin Onuncu baxışına həsr olunmuş Beynəlxalq konfrans tərəfindən bəyənilmiş, Ümumdünya səhiyyə assambleyasının 43-cü sessiyası tərəfindən aşağıdakı qətnamədə qəbul edilmişdir:

Ümumdünya səhiyyə assambleyasının 43-cü sessiyası XBT-nin Onuncu baxışı üzrə Beynəlxalq konfransın məruzəsini müzakirə edərək:

I. Konfransın tövsiyə etdiyi aşağıdakı müddəaları təsdiq edir:

1. 1993-cü ilin 1 yanvarından qüvvəyə minən xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatının Onuncu baxışına daxil edilməli olan üçrəqəmli rubrikaların və dördrəqəmli yarımrubrikaların tam siyahısı, həmçinin xəstələnmə və ölüm səbəblərinin qısa cədvəl siyahısı;
2. ana ölümü, fetal, perinatal, neonatal və uşaq ölümü ilə bağlı təriflər, standartlar və hesabatlara qoyulan tələblər;
3. xəstələnməyə səbəb olan əsas halların kodlaşdırılması və ölümün əsas səbəblərinin kodlaşdırılmasına aid olan qayda və təlimatlar;

II. "Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı üzrə rəhbərliyin" nəşri baş direktora həvalə edilir.

III. Konfransın aşağıdakı məsələlər üzrə tövsiyələrini müdafiə edir:

1. əsas təsnifat olmaqla eyni zamanda bir neçə əlavə təsnifatlar və həmçinin xəstəliklərin beynəlxalq nomenklaturası ilə bağlı olan Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı üzrə xəstəliklərin və sağlamlıqla bağlı problemlərin təsnifat blokunun konsepsiyasını və tətbiqini:
2. təkrar müzakirələrin onillik dövr çərçivəsində məlumatların yeniləşdirilməsi prosedürlərini yaradılmasını.

Oxuculara təqdim olunan bu nəşr barədə bütün rəylər və təkliflər Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnformatika və Statistika İdarəsi tərəfindən məmnuniyyətlə qarşılanacaqdır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İnformatika və Statistika İdarəsi
370014, Bakı şəhəri, Kiçik dəniz küçəsi 4.
Telefon: 93-63-92
Faks: 93-76-47
İnternet: www.mednet.az
E-mail: mednet@mednet.az

# Minnətdarlıq

1948-ci il Altıncı baxışdan başlayaraq XBT-nin dövri olaraq müzakirəsi ÜST tərəfindən koordinasiya olunmuşdur. Təsnifatın tətbiqinin genişlənməsilə bağlı ondan istifadə edənlərin təbii olaraq müzakirələrdə iştirak etmək arzusu yarandı. Onuncu baxış – nəhəng beynəlxalq fəaliyyətin, əməkdaşlığın və kompromislərin nəticəsidir. ÜST çoxsaylı beynəlxalq və milli işçi qruplarına və müxtəlif ölkələrin ayrı-ayrı mütəxəssislərinə öz minnətdarlığını bildirir.

# Xəstəliklərin beynəlxalq təsnifatı üzrə ÜST-nin əməkdaşlıq mərkəzləri

XBT- dən istifadə, sağlamlıqla bağlı problemlərin təsnifatının inkişafı və istifadəsində meydana çıxan çətinliklərlə bağlı ölkələrə yardım məqsədilə ÜST-nin xəstəliklərin təsnifatı üzrə 9 əməkdaşlıq mərkəzi yaradılmışdır.

Diqqətə layiqdir ki, ölkələr, bu mərkəzlərin diqqətini XBT-dən istifadə zamanı özlərinin rastlaşdığı problemlərə yönəldə bilmişlər. Xüsusilə kifayət qədər tez-tez rast gələn bir hal – yeni xəstəlik üçün müvafiq kod olmadıqda – bu cəhət çox mühümdür. XBT-nin indiyə qədər müzakirələrarası dövrdə təkmilləşdirilməsinin aparılmasına baxmayaraq, təklif olunmuşdur ki, yeni xəstəlik üçün müvafiq kod daxil edilməsi zərurəti meydana çıxdıqda, mərkəzlərin köməyilə bunu tə'min edən mexanizm yaradılsın.

ÜST-nin rəsmi əməkdaşlıq mərkəzləri ilə yanaşı zərurət olduqda istifadəçilərin məsləhət alması üçün müvafiq milli məlumat mərkəzləri və müəssisələri də yaradılmışdır.

İngilis dilli istifadəçilər üçün 3 mərkəz yaradılmışdır. Əlaqə ÜST-nin əməkdaşlıq mərkəzinin rəhbəri vasitəsilə aşağıdakı unvanlar üzrə saxlanıla bilər:

Australian Institute of Health
GPO Box 570
Canberra ACT 2601, Australia

Office of Population Censuses and Surveys
St. Catherine's House
Kingsway 10
London WC 2B 6JP England

National Center For Health Statistics
3311 Toledo Road
Hyattsville MD20782
United States of America

Digər 6 mərkəzin (milli dil və ya dillər qrupu) ünvanları aşağıdakılardır:

Peking Union Medical College Hospital Chinese Academy of Medical Sciences Beijing 100730
China (Çin dili)

INSERM
44 Chemin de Ronde F-78110 Le Vesinet France (fransız dili)

Department of Social Medicine
University Hospital
S-751-85 Uppsala
Sweden (Şimali Avropa ölkələri üçün )

Faculdade de Saude Publica Universidade de Sao Paulo
Avenida Dr Arnaldo 715
715 - Cerqueira Cesar
01246-904 - Capital - SP Brasil (portuqaliya dili)

Российская Федерация
Москва, 103064
Ул. Воронцово поле, 12
НИИ социальной гигиены, экономики и управления здравоохранением им. Н.А.Семашко (русский язык)

Centro Venezolano de Clasificacion de Enfermedades
Edificio Sur, 9o Piso
M.S.A.S.,
Centro Simon Bolivar, P.O. Box 6653
Caracas
Venezuela (ispan dili

# Xəstəliklərin Beynəlxalq Təsnifatının onuncu baxışı üzrə Beynəlxalq Konfransın hesabatı

Xəstəliklərin Beynəlxalq Təsnifatının onuncu baxışı üzrə beynəlxalq konfrans Ümumdunya Səhiyyə Təşkilatı tərəfindən Cenevrə qərargahında 25 sentyabr – 2 oktyabr 1989-cu il tarixdə keçirilmişdir. Konfransda adları aşağıdakı siyahıda göstərilmiş, ÜST-nin üzvü olan – 43 ölkədən nümayəndələr iştirak etmişdir:

Anqola
Avstraliya
Baqam Adaları
Belçika
Braziliya
Bolqarıstan
Burundi
Kanada
Çin
Kuba
Kipr
Danimarka
Finlandiya
Fransa
Almaniya Demokratik Respublikası
Almaniya Federativ Respublikası
Macarıstan
Hindistan
İndoneziya
İzrail
Yaponiya
Küveyt
Lüksemburq
Madaqaskar
Mali
Malta
Mozambik
Hollandiya
Nigeriya
Portuqaliya
Koreya Respublikası
Seneqal
Sinqapur
İspaniya
İsveç
İsveçrə
Tayland
Uqanda
SSRİ
Birləşmiş Ərəb Əmirlikləri
Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı
ABŞ
Venesuela

Konfransda iştirak etmək üçün Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, ÜST-nin regional bürosu, o cümlədən Beynəlxalq Tibb Elmi təşkilatları şurası və fəaliyyət sahəsi xərçəng hadisələrinin qeydiyyatı, karlıq, epidemiologiya, ailə təbabəti, ginekologiya və mamalıq, hipertenziya, səhiyyə statistikası, profilaktik və sosial təbabət, nevrologiya, psixiatriya, reabilitasiya, cinsi yolla keçən xəstəliklər olan 12 digər qeyri-hökumət təşkilatları öz nümayəndələrini göndərmişdilər.

ÜST-nin baş katibinin adından Konfransı baş katibin köməkçisi d-r J.P. Jardel açıq elan etdi.

D-r Jardel geniş konsultativ və hazırlıq işləri barədə məlumat verərək qeyd etdi ki, nəticələri indi bu müzakirənin təklifləri içində olan həmin işlər, müzakirələrarası adi intervala nisbətən daha çox vaxt tələb etmişdir. O, qeyd etdi ki, Onuncu müzakirənin yeni, onun statistik istiqamətini gücləndirən və sərhədlərinin genişlənməsini əks etdirən, «Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı» adı vardır. Bununla belə daha əlverişli XBT abbreviaturası saxlanılır. D-r Jardel yeni, ayrı-ayrı siniflərin mahiyyətini daha yaxşı tarazlaşdırmağa imkan verən və növbəti əlavələrin və dəyişikliklərin daxil edilməsi üçün yer saxlayan əlifba-rəqəm kodlaşdırma sxeminin daxil edilməsinə göstəriş verdi. O ,həmçinin, həddən artıq mürəkkəbləşmiş dördrəqəmli variant əlverişli olmadığı hallar üçün, əlifba göstəricisi və üçrəqəmli rubrikalara malik XBT üzrə vəsait (rəhbərlik) yaratmaq məramı haqda da məlumat verdi.

Konfransda aşağıdakı vəzifəli şəxslər seçildilər:

*Sədr:*
Dr R.H.C. Wells (Avstraliya)

*Sədrin müavinləri:*
Dr H.Bay-Nielsen (Danimarka)
Dr R.Braun (ADR)
Dr R.A.Israel (ABŞ)
Dr R.Laurenti (Braziliya)

*Məruzəçilər:*
Dr P.Maguin (Fransa)
Xanım E.Taylor (Kanada)

Konfransın katibliyinin tərkibinə daxil ediliblər:
Dr J.P.Jardel, baş katibin göməkçisi, ÜST, Cenevrə, İsveçrə
Dr H.R.Hapsara, direktor, epidemioloji nəzarət, səhiyyənin və mövcüd olan tendensiyanın vəziyyətini qiymətləndirilməsi şöbəsi, ÜST, Cenevrə, İsveçrə
Dr J.C.Alary, baş tibb mütəxəssisi, epidemioloji və statistik xidmətlərin möhkəmləndirilməsi, ÜST, Cenevrə, İsveçrə (katib)
Cənab A.LHours, texniki mütəxəssis, epidemioloji və statistik xidmətlərin möhkəmləndirilməsi ÜST, Cenevrə, İsveçrə
Prof P.W.Janisch, ADR (müvəqqəti müşavir) Cənab T.Kruse, Danimarka (müvəqqəti müşavir) Dr K.Kupka, Fransa (müvəqqəti müşavir)
Dr L.Leowski, Polşa (müvəqqəti müşavir)
Xanım R.M.Loy, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı (müvəqqəti müşavir)
Cənab R.H.Seeman, ABŞ (müvəqqəti müşavir)

Katibliyin işində ÜST qərargahanın digər texniki şöbələrinin nümayəndələri iştirak etdilər. Konfrans Onuncu baxışın siniflərinin məzmununa aid təkliflərdən və nəşr olunacaq rəhbərliyə daxil olan, onun tətbiqi prosesinə aid, təsnifat bloku («ailəsi») və bununla əlaqədar suallara aid materiallardan ibarət gündəlik qəbul etdi.

## 1. Xəstəliklərin Beynəlxalq Təsnifatının (XBT) tətbiq edilmə tarixi və inkişafı

Konfrans statistik təsnifatın 18-ci əsrdən başlayan heyrətamiz tarixinə diqqət ayırdı. Təsnifatın ilkin müzakirələri yalnız ölüm səbəblərinə aid idi, lakin Altıncı baxış zamanı (1948-ci il) təsnifat letal nəticəyə gətirməyən halların daxil edilməsi ilə genişləndirildi. Əhatə dairəsinin belə genişləndirilməsi Doqquzuncu baxışa qədər davam etdi, belə ki, bu zaman yeni əlavələr ən müxtəlif təşkilatların dairəsinin statistik ehtiyaclarını ödəmək üçün həyata keçirilmişdir. Bundan sonra, Doqquzuncu baxış üzrə Beynəlxalq Konfransda (Cenevrə, 1975-ci il) [1] nəşr üçün təbabətdə əlavə proseduralar təsnifatı və pozğunluqlar, əmək qabiliyyətinin azalması və əlilliyin təsnifatı tövsiyə edildi və bəyənildi.

## 2. XBT-nin Onuncu baxışına təkliflərin hazırlanması üzrə fəaliyyətin qısa icmalı

Konfransdan öncə alınmış təkliflər toplusu, ÜST-nin mənzil-qərargah səviyyəsində və bütün dünya üzrə geniş fəaliyyətinin nəticəsidir. İşin proqramına ÜST-nin xəstəliklərin təsnifatı üzrə əməkdaşlıq

edən mərkəzlərinin rəhbərlərinin müntəzəm görüşlərində nəzarət edilirdi.

1984-cü [2] və 1987-ci ildə [3] iclası keçirilən və məqsədi işin istiqaməti üzrə qərar qəbul etmək və son təkliflərin formalaşdırılması olan XBT üzrə (onuncu baxış) ÜST-nin xüsusi müşavirələri və ekspertlər komitəsi tərəfindən vacib göstərişlər verildi.

XBT-nin quruluşunun münasibliyi, xüsusilə ölümün və tibbi-sanitar göstəricilərin statistikasının qeydiyyatını aparmaq üçün ən müxtəlif ehtiyaclara uyğun olması məqsədilə xəstəliklərin və sağlamlıqla əlaqədar problemlərin statistik təsnifatının radikal analizinə geniş hazırlıq fəaliyyəti həsr olunub. Kodlaşdırma sisteminin növbəti müzakirələrdə dağılmasının minimuma endirilmək marağı ilə stabilləşdirilmək yolları və həmçinin XBT-nin ayrı-ayrı fəsil tərkibinin düzgün tarazlaşdırılmasının təminatının mümkünlüyü öyrənildi.

Görünür ki, hətta yeni strukturlar olduqda belə bir təsnifat bütün tələblərə cavab verə bilməz. Ona görə də, təsnifatlar bloku ("ailəsi") konsepsiyası işləndi ki, bu blokun mərkəzində, ölüm və xəstələnmə hallarının ənənəvi statistikası problemlərini həll etməyə imkan verən və özək rolunu oynayan əsas XBT durur; eyni zamanda, tələbatı başqa təsnifatlarda qismən ödənilmiş problemlər blokun başqa üzvləri tərəfindən "tam həll olunacaqdır". Əməkdaşlıq edən mərkəzlər XBT-nin quruluşunun müxtəlif alternativ modellərini öyrəniblər və belə bir nəticəyə gəliblər ki, onların hər birinə qusurlar xasdır və heç birinin mövcud quruluşu dəyişməyə imkan verən üstünlüyü yoxdur. Doqquzuncu baxışı qiymətləndirmək məqsədilə keçirilən xüsusi iclaslar təsdiq etdi ki, təsnifatdan istifadə edənlərin bir qismi XBT-nin mövcud quruluşunu yararsız hesab etsələr də , çoxları bütün aşkar qüsurlara baxmayaraq onun güclü tərəflərini görərək məmnundurlar və hazırkı formada saxlanılmasını istəyirlər.

Rubrikaların daha yaxşı tarazlaşdırılmasına yardım edə bilən, növbəti əlavələrin daxil edilməsi üçün kifayət qədər ehtiyat sahə yarada bilən və kodların dağılmaması şərti ilə dəyişikliklərə kömək edən kodlaşdırıcı karkas yaratmaq nöqteyi-nəzərindən əlifba-rəqəm kodları daxil edən müxtəlif sxemlər öyrənildi.

Bu materiallar əsasında qəbul edilən qərarlar, Onuncu baxış üçün təklif edilmiş yeni siniflərin müvəffəqiyyətli layihələrinin hazırlanması yolunu davam etdirdi. Onlar iki dəfə ÜST-nin üzv-ölkələri, həmçinin maraqlı tərəflərin iştirakı ilə mərkəzlərin və ekspertlər komitəsi rəhbərlərinin iclaslarında müzakirə olunub. Bir çox beynəlxalq peşəkar-mütəxəssislər cəmiyyəti, ayrı-ayrı mütəxəssislər və ekspertlər, ÜST-nin qərargah şöbələri və regional büro konfransdan əvvəl ÜST-nin XBT üzrə cavabdeh şöbələrinə, təklif və uyğun materialların hazırlanması üzrə əməkdaşlıq edən mərkəzlərə öz məsləhət və tövsiyələrini vermişlər. ÜST bu köməyə görə çox minnətdardır.

# 3. XBT-nin Onuncu baxışına ünvanlanan təkliflərin ümumi xarakteristikası və mahiyyəti

Onuncu baxışa yönəlmiş təkliflərdə əsas daxil edilən yenilik-dördrəqəmli rubrikada bir hərf və sonra üç rəqəm gələn əlifba-rəqəm kodlaşdırma sxeminin istifadəsidir. Belə sistem kodlaşdırmanın quruluşunun ölçülərini iki dəfədən artıq (Doqquzuncu baxış ilə müqayisədə) böyütməyə imkan verdi. Rubrikalara hərflərin və ya hərflər qrupunun daxil edilməsi hər sinifdə 100-ə qədər üçrəqəmli kateqoriya kodlaşdırmağa imkan verir. Əlifbanın 26 hərfindən 25-i istifadə edilib; U hərfi növbəti əlavələrin, dəyişikliklərin daxil edilməsi məqsədi ilə və ya XBT-nin növbəti müzakirəsinə qədərki dövrdə milli və millətlərarası səviyyələrdə yaranan problemləri həll etmək üçün aralıq təsnifatların mümkün işləmələri zamanı istifadə etmək üçün vakant kimi saxlanılıb.

Bəzi üçrəqəmli rubrikalar həmçinin qəsdən boş saxlanılıb ki, gələcəkdə onları genişləndirməyə və yenidən baxmağa imkan versin, həm də belə boş rubrikaların sayı müxtəlif siniflərdə eyni deyildir. Lakin düzümü anatomik oxlu olan bloklar tərkibində sonrakı dəyişikliklərin geniş olmayacağı güman edildiyinə görə daha az vakant rubrikalara malikdir.

Doqquzuncu baxışda 17 sinif və 2 əlavə təsnifat-travma və zəhərlənmələrin xarici səbəblərinin əlavə təsnifatı (E kodu), sağlamlıq vəziyyətinə təsir edən faktorların və səhiyyə müəssisələrinə müraciətin əlavə təsnifatı (V kodu) vardır. Onuncu baxış üzrə (Cenevrə, 1983-cü il) [4] hazırlıq iclaslarında qeyd edilmiş və

digər iclaslarda müdafiə edilmiş tövsiyələrə uyğun olaraq, qərara alındı ki, sonuncu iki sinfi əlavə bölmə kimi deyil, əsas təsnifatın tərkib hissəsi kimi qəbul etmək lazımdır.

Onuncu baxışa verilən təkliflərdə siniflərin daxil edilmə qaydası Doqquzuncu baxışdan fərqlənmirdi, lakin əldə olan boş sahədən daha səmərəli istifadə etmək üçün ümumi siyahıda bəzi siniflərin yerdəyişdirilməsi və qruplaşdırılması icra edildi, daha dəqiq: Doqquzuncu baxışda «Endokrin sistemin xəstəlikləri, qidalanma, maddələr mübadiləsi, immunitet pozğunluqları» sinfinə aid olan immun mexanizm pozğunluqları «Qan və qanyaradıcı orqanların xəstəlikləri» sinfinə daxil edilib. Yeni "Qan və qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizmi cəlb edən ayrı-ayrı pozğunluqlar» sinfi indi «Yenitörəmələr» sinfindən sonra gəlir və D hərfi ilə işarələnib.

«Sinir sistemi və duyğu üzvlərinin xəstəlikləri» sinfinin əvvəllər təklif olunmuş variantlarının müzakirəsi zamanı aydın oldu ki, 100 üçrəqəmli rubrika daxilində bütün vacib məqamları bir hərflə ifadə etmək qeyri-mümkündür. Buna görə də qərara alındı ki, üç müstəqil sinif yaradılsın: «Sinir sistemi xəstəlikləri» (G hərfi) və iki yeni «Göz və onun əlavə aparatının xəstəlikləri» və «Qulaq və məməyəbənzər çıxıntının xəstəlikləri» (sonuncu iki sinif yenidir və H hərfi ilə işarə edilir).

«Sidik-cinsiyyət sisteminin xəstəlikləri», «Hamiləlik, doğum və doğuşdan sonrakı dövr», «Perinatal dövrdə yaranan xüsusi hallar» və «Anadangəlmə anomaliyalar, deformasiyalar və xromosom pozğunluqları» hazırda bir-birinin ardınca gəlir və siyahıda XIV-XVII sinifləri əmələ gətirirlər.

Keçmiş əlavə siniflərin əsas təsnifata daxil edilməsi və iki yeni sinfin yaradılması Onuncu baxış tərəfindən təklif edilmiş siniflərin ümumi sayının 21-ə qədər artmasına səbəb olmuşdur. Bəzi siniflərin adları onların məzmununu daha dəqiq ifadə etmək məqsədi ilə dəyişdirilmişdir.

XBT-ni radikal dəyişdirməzdən əvvəl aşağıdakı siniflərə aid olan uyğun sahə yoxlamaları keçirilib:
V. Psixi pozğunluqlar və davranış pozğunluqları
XIX. Travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin bəzi digər nəticələri
XX. Xəstələnmə və ölümün xarici səbəbləri.

II sinif «Yenitörəmələr» həmçinin sahə yoxlamalarına məruz qalmışdır, lakin onun tərkibində dəyişikliklər minimaldır.

Onuncu müzakirə tərəfindən aşağıdakı yeni tövsiyyələr təklif edilib:

- Hər bir sinfin başlanğıcında göstərilmiş, bəzi nozoloji formaların sinifdən çıxarılması haqda qeydlər, siniflərin tibbi ierarxiyasını izah etmək və tək-tək orqan və sistemlərin patoloji dəyişiklikləri əsasında qurulmuş, spesifik qruplaşdırılmış siniflərin digər siniflərə nisbətən üstünlüyə malik olduğunu dəqiq göstərmək və spesifik qruplaşdırılmış siniflər arasında «Hamiləlik, doğum və doğumdan sonrakı dövr» və «Perinatal dövrdə yaranan tək-tək hallar» siniflərinin digərinə nəzərən üstünlüyə malik olduğunu dəqiq göstərmək məqsədilə xeyli genişləndirilib.
- Hər bir sinfin əvvəlində ona daxil edilmiş üçrəqəmli rubrikaların və həmçinin (əgər ehtiyac varsa) «ulduzla» işarələnmiş kateqoriyaların xülasə şəklində bloku verilir; bu, siniflərin quruluşunu açmaq və ulduzla işarələnmiş rubrikalardan istifadəni asanlaşdırmaq məqsədilə edilib.
- Cədvəlli siyahıda olan qeydlər təsnifatın bütün istifadə halları üçün məqbuldur; əgər qeyd yalnız xəstələnməyə və ya yalnız ölümə aiddirsə, onda o, xəstələnmə və ölümün kodlaşdırma qaydaları müşayiət edən xüsusi qeydlərə daxil edilib.
- Doqquzuncu baxış bir sıra nozoloji formaları dərman vasitələri tərəfindən törədilmiş kimi artıq eyniləşdirmişdir. Belə yanaşma sonrakı inkişafına XBT-10-un hazırlanmasında çatmışdır və çoxlu belə hallar ayrıca seçilmişdir.

Vacib yenilik bəzi siniflərin sonunda tibbi proseduralardan sonra yaranmış pozğunluqlara dair rubrikaların siyahısının daxil edilməsi olmuşdur. Bu rubrikalar müxtəlif müdaxilələr nəticəsində yaranmış ciddi halları, məsələn, orqanın çıxarılmasından sonra endokrin və metobolik pozğunluqları və ya digər xüsusi patoloji halları, məsələn, mədədə əməliyyatdan sonra dempinq-sindromunu özündə birləşdirmişdir. Orqanizm üçün xüsusi xarakter daşımayan, postprosedur hallar, qəfil ağırlaşmalar da daxil olmaqla, məsələn, hava emboliyası və ya əməliyyatdan sonra şok əvvəllər olduğu kimi «Travmalar, zəhərlənmələr və xarici səbəblərin bəzi digər nəticələri» sinfinə daxil edilib.

Digər dəyişikliklər ondan ibarətdir ki, əgər Doqquzuncu baxışda dördrəqəmli kodlarla işarələnmiş çoxlu sayda rubrikaların, yarımrubrikaların tərtibi və mahiyyəti haqda düzgün təsəvvür əldə etmək üçün üçrəqəmlilərlə əlaqədar oxumaq lazım gəlirdisə, indi konfransda təklif olunmuş layihədə adlar bir qayda olaraq tam və müstəqildirlər.

Doqquzuncu baxış tərəfindən daxil edilmiş «nişan» və «ulduz» sistemi kimi məlum olan, xəstəliyin etiologiyası və əlamətlərini nəzərə alan ikili kodlaşdırma sistemi tənqid predmeti olmuşdur. Tənqidə hər şeydən əvvəl o fakt məruz qaldı ki, təsnifat tez-tez eyni zamanda həm xəstəliyin əlamətlərinin təsvirini və həm də hər iki oxda meydana çıxan, eyni diaqnostik işarələrə malik üç-və dördrəqəmli rubrika və yarım rubrika səviyyəsində digər informasiyanı özündə saxlayır. Lakin, bir çox mütəxəssislərin fikrincə, bu sistem kifayət qədər tam deyildir. Bu qüsurları Onuncu baxışda aradan qaldırmaq üçün ulduzla işarələnmiş məlumat fakultativ istifadə üçün 82 bircinsli üçrəqəmli rubrikalarda toplanıb. Belə yanaşma məlumatı iki xətt üzrə yığaraq və işləyərək ikili kodlaşdırma aparmağa imkan verir: əsas xəstəliyin ümumi prosesi haqqında və onun konkret əlamətləri və ya orqan və ya sistem səviyyəsində ağırlaşması haqqında.

Onuncu baxışın təklif edilmiş bu xüsusiyyətləri konfrans tərəfindən qəbul edildi.

Doqquzuncu baxışa nisbətən dəyişikliklər daxil edilmiş hər bir sinfin və yeni əlavələr haqqında əsas məlumatların təqdimatı aparıldı. Sinfin quruluşu və tərkibində dəyişikliklərə dair bəzi suallar konfransda diskussiyalara səbəb oldu. Katiblik tərəfindən aparılan bu bölmələrin təkmilləşdirilməsi işi mübahisəli suallarda razılığa səbəb oldu.

# 4. Ana və uşaq sağlamlığına aid olan standartlar və təriflər

Konfrans Onuncu baxışda ana ölümünün statistikasına, o cümlədən antenatal, perinatal, neonatal və uşaq ölümünün statistikasına dair tövsiyə olunan təriflərə, standartlara və digər təkliflərə maraqla yanaşdı. Bu tövsiyələr göstəricilərin müqayisəliliyini yaxşılaşdırmaq məqsədi ilə çağırılmış bir sıra xüsusi iclasların və məsləhətləşmələrin işinin nəticəsi olmuşdur.

Konfrans Doqquzuncu baxış zamanı qəbul edilmiş diridoğulma və ölüdoğulma təyinlərinin qüvvədə qalması ilə razılaşdı. Konfrans bir qədər diskussiyadan sonra ana ölümü məsələsi üzrə işçi qrup yaratdı və onun tövsiyələri əsasında Doqquzuncu baxış tərəfindən qəbul olunmuş ana ölümü təyinini saxlamaqla razılaşdı.

Ana ölümü statistik göstəricilərinin keyfiyyətini yaxşılaşdırmaq, hamiləlik dövründə və ya hamiləliklə bağlılığı olan ölümə aid göstəricilərin toplanmasında alternativ metodların tətbiq edilməsi üçün; həm-çinin ölümün doğuşdan 42 gün ötdükdən sonra baş verdiyi və birbaşa mamalıq səbəbləri ilə əlaqədar olduğu hallarda ölüm qeydiyyatını təkmilləşdirmək üçün işçi qrup tərəfindən formalaşdırılmış iki əlavə təyin daxil edilmişdir: "hamiləliklə əlaqədar ölüm" və "gecikmiş ana ölümü" (təriflər II cild səh. 122-də verilib).

Konfrans ölkələrə, ölüm haqqında şəhadətnaməyə, ölümdən öncəki hamiləlik və bir il ərzindəki hamiləliklə bağlı sualların daxil edilməsini tövsiyyə edir.

Konfrans diridoğulmaların sayının bütün doğulmaların cəmindən (diri doğulma və ölü doğulmaların sayı) daha universal göstərici olduğunu qəbul etdi və onun ana ölümünə dair əmsalın məxrəci kimi daxil edilməsini qəbul etdi (2-ci cildə bax).

Perinatal, neonatal və 1 yaşa qədər uşaq ölümünə gəldikdə isə doğulanların koqortalarına əsaslanan nəşr olunan göstəriciləri təkidlə müəyyənləşdirmək və differensasiya etmək tövsiyə olunur.

Konfrans yaşı tam vaxt vahidləri ilə, həyatın birinci gününü sıfırıncı gün kimi qəbul edərək, ifadə etmək praktikasını təsdiq etdi.

Konfrans XBT-nin Onuncu baxışına ana, antenatal, perinatal, neonatal və 1 yaşa qədər uşaq ölümünə aid olan tərifləri, standartları və hesabatlara tələbləri daxil etməyi tövsiyyə edir.

# 5. Statistik işləmələr üçün kodlaşdırma, seçmə qaydaları və siyahılar

## 5.1. Ölüm göstəricilərin statistik işləmələri üçün kodlaşdırma və ölümün səbəbini seçmə qaydası

Konfransa ölümün əsas səbəbinə aid seçmə və modifikasiya qaydalarının baxılış prosesi və uyğun təlimat göstərişləri haqda məlumat verildi (Doqquzuncu baxışda necə əks olunduğu haqda); nəticədə qaydalara bəzi dəyişikliklər daxil edildi, təlimat göstərişləri isə xeyli işləmələrə məruz qaldı.

Konfrans

Doqquzuncu baxışda göstərilmiş ölümün ilkin işləmələri üçün ölüm səbəblərini seçmə qaydalarını Onuncu baxışda göstərilmiş qaydalarla əvəz edilməsini tövsiyyə edir (2-ci cild).

Konfransda həmçinin, ölümün ilkin səbəbinin kodlaşdırılmasını və müşayət edən səbəblərin şərhi zamanı istifadə üçün əlavə təlimat göstərişlərinin hazırlığı və baxılışı haqda məlumat verildi. Belə ki, bu göstərişlər kodlaşdırma zamanı göstəricilərin müqayisə imkanını yaxşılaşdırmağa imkan verir, konfrans onların Onuncu baxışa daxil edilməsinə razılıq verdi.

Konfransda çoxsaylı halların kodlaşdırılmasının və ölüm səbəbləri ilə əlaqədar onların analizinin davam etdiyi qeyd edildi. Bu fəaliyyət konfransda müdafiə edildi, lakin Onuncu baxışda hər hansı xüsusi qayda və ya analiz metodlarının daxil edilməsi nəzərdə tutulmadı.

Ekspertlər Komitəsi ölüm səbəbi haqqında beynəlxalq tibbi şəhadətnamə formasını müzakirə edərək təsdiq etdi ki, çoxsaylı xəstəliklər və tibbi müdaxilələrin nəticələri ilə törənmiş əhalinin qocalması və ölüm hallarının böyük payı ilə xarakterizə olunan vəziyyət , ölümün ilkin səbəbi və bilavasitə səbəbi arasında daxil edilmiş mümkün qeydlərin sayca artmasına səbəb olmuşdur; bu o deməkdir ki, bir çox ölkələrdə ölüm haqqında şəhadətnaməyə daha çox patoloji hallar daxil edilir, buna görə komitə ölüm haqqında şəhadətnamənin I hissəsinə əlavə sətir (d) daxil etməyi tövsiyə etdi.

Konfrans, beləliklə, iştirakçı-ölkələrə lazım olan hallarda ölüm haqqında tibbi şəhadətnamənin I hissəsinə əlavə sətrin (d) daxil edilməsinin mümkünlüyünün müzakirəsini tövsiyə edir.

## 5.2. Xəstələnmə göstəricilərinin statistik işləmələri üçün kodlaşdırma və seçmə qaydaları

Doqquzuncu baxış ilk dəfə xəstələnmənin qeydiyyatı və kodlaşdırılması üzrə və xüsusilə xəstələnmə statistikasının təqdimatı üçün tək hal seçimi üzrə tövsiyələrə malik idi. Doqquzuncu baxışda təqdim edilmiş təriflərin və seçmə qaydalarının istifadə təcrübəsi onların məqsədəuyğun olmasını və izahata, o cümlədən gələcəkdə səhiyyə işçiləri tərəfindən diaqnostik məlumatın qeydiyyatının təkmilləşdirilməsinə və xüsusi problemli hallara daha dəqiq tövsiyələrin daxil edilməsinə ehtiyacın olmasını göstərdi.

Elə bu görüşdə XBT-nin müzakirəsi üzrə 1975-ci il konfrasında edilmiş tövsiyələr və tibbi-sanitar yardımın təqdimi epizodunun vahid səbəb üzrə analizi üçün seçilmiş müvafiq hallar və çoxsaylı halların kodlaşdırılmasının mühafizəkar statistikaya əlavə kimi aparılması nöqteyi-nəzəri (əgər bu təsdiqlənibsə) bəyənilmişdir. Qeyd edildi ki, Onuncu baxış bütün aydınlığı ilə göstərməlidir ki, əksər göstərişlər yalnız o zaman qəbul edilə bilər ki, «epizoda» aid olan «əsas xəstəliyin» kodlaşdırılması adekvat olsun və per se «epizod» konsepsiyası məlumatların toplanmasına kömək edən metoda uyğun gəlsin.

Konfrans uyğun olaraq

Onuncu baxışa xəstələnmənin qeyd və kodlaşdırılması üzrə əlavə göstərişlərin daxil edilməsini tövsiyə edir; bundan başqa «əsas halın» açıqcasına qeyri-düzgün qeydiyyatının qarşısını almaq üçün «əsas hal» və «digər hallar» anlayışlarının təyinləri modifikasiya edilmiş qeyd qaydaları ilə birləşdirilməlidir (bütün bunlar 2-ci cildə daxil edilib).

Konfrans həmçinin

Tövsiyyə edir: «Əsas halın» XBT-də təklif olunmuş ikili sistemlə kodlaşdırıldığı diaqnozlarda mütləq hər iki kod († və * işarələri ilə) qeyd olunsun; belə ki, bu, analizin alternativ variantlarını həyata keçirməyə imkan verər.

Konfrans, istifadəçilərə gələcəkdə yardım etmək üçün geniş izahat və nümunələrin daxil edilməsinin vacibliyi ilə razılaşdı.

## 5.3. Ölüm və xəstələnmə göstəricilərinin statistik işləmələri üçün səbəblər siyahısı

Konfransda Doqquzuncu baxışın rubrikalarının əsas siyahısının istifadəsi zamanı yaranan çətinliklər haqqında və ölüm göstəricilərinin statistik analizi üçün rubrikaların yeni siyahısının işlənməsi və nəşri üçün əsasən ÜST tərəfindən göstərilən fəaliyyət haqqında məlumat verildi.

Görülən işin gedişində aydın oldu ki, bir çox ölkələrdə 5 yaşınadək uşaqların ölüm göstəricisi körpə ölümü göstəricisinə nisbətən daha əhəmiyyətli olubdur və buna görə də, işləmələr üçün yalnız körpə ölümünün göstəricilərini hazırlamaq üçün səbəblər siyahısına deyil, körpə ölümü və 5 yaşınadək uşaq ölümünün göstəricilərini hazırlamaq üçün səbəblər siyahısına malik olmaq daha məqsədəuyğundur.

Konfransa müzakirə üçün siniflərin adları daxil olan və ehtiyac olduqda istifadə etmək üçün ehtiyat rubrikaları olan, ikinci variantla hazırlanmış körpə və uşaq ölümünün ümumi siyahısının iki variantı təqdim olunmuşdur.

Ölüm göstəricilərinin işləmələri üçün təqdim olunmuş səbəblər siyahısı ilə əlaqədar bildirilmiş narahatçılığı nəzərə alaraq, bir neçə əlavə rubrikaların daxil edilməsinin mümkünlüyünü müzakirə etmək üçün kiçik işçi qrup yaradıldı. İşçi qrupun hesabatı Konfrans tərəfindən qəbul edildi və (I cild, 2-ci hissə) ölüm səbəblərinin siyahısında öz əksini tapdı.

Xəstələnmənin statistik işləmələrinin toplumu üçün siyahıların əvvəlində Konfrans həm təklif edilmiş toplum siyahının, həm də hər bir sinif üçün nümunə kimi seçilmiş rubrikalarla siniflərin adları əsasında nəşrin model siyahısının icmalını verdi. Belə siyahıların ən geniş mənada bütün xəstəliklərin işləmələri üçün praktik məqbulluğu barəsində ciddi şübhələr söyləníldi. Konfransın iştirakçıları təqdim olunmuş siyahıların stasionar müalicəyə ehtiyacı olan xəstəliklərin statistik işləmələri üçün daha çox yararlı olması ilə və sonraki işlərin xəstələnmənin digər formaları üçün yararlı olan siyahıların yaradılmasına yönəltmək lazım olması ilə razılaşdılar. Bundan başqa, Onuncu müzakirədə bildirildi ki, ölüm və xəstələnmənin statistik işləmələri üçün toplum siyahılar istifadəsi üzrə izahatlar və təlimatlarla müşayiət olunmalıdır.

Konfransda edilmiş mülahizələrə və işçi qrupun nəticələrinə görə Onuncu müzakirəyə işləmələr və nəşr üçün bu siyahıların adlarında dəqiqliyə və böyük məlumatlılıq əldə etməyə nail olmaq üçün maksimum qüvvə sərf edərək, siyahıların daxil edilməsi qərara alındı. İştirakçılar bu kateqoriyaların alternativ işləmələrini asanlaşdırmaq üçün, «ulduzlarla» işarələnmiş rubrikalardan istifadə etməklə xəstələnmənin işləmələri üçün siyahının ikinci variantının yaradılması məsələsində də razılığa gəldilər.

# 6. Təsnifatlar ailəsi

## 6.1. Təsnifatlar ailəsi konsepsiyası

Doqquzuncu baxışın hazırlanma prosesində aydın oldu ki, yalnız təkcə XBT bütün lazımı məlumata malik ola bilməz və ancaq xəstəliklərin və sağlamlıqla bağlı problemlərin «təsnifatlar ailəsi» güman ki, ictimai səhiyyənin bütün ehtiyaclarına cavab verəcək. Buna görə də 70-ci illərin sonundan başlayaraq mümkün həllin müxtəlif variantları müzakirə edilib və onlardan biri modul seriyasından ibarət əsas XBT idi ki, bu modul seriyalarından bəziləri onunla iyerarxiya sırası ilə əlaqəlidir, digərləri isə əlavə rol oynayırlar.

Araşdırmalardan və əməkdaşlıq edən müxtəlif mərkəzlərin iştirakı ilə diskussiyalardan sonra təsnifatlar

«ailəsi» konsepsiyası müfəssəl işlənildi və 1987-ci ildə komitə tərəfindən baxıldı, o isə aşağıdakı təsnifatlar sxemini tövsiyə etdi.

Konfrans

ÜST-yə xəstəliklərin və sağlamlıqla əlaqədar problemlərin təsnifatlar «ailəsi» konsepsiyasını işləyib tamamlamağı tövsiyə edir.

XBT-nin özünün və bu «ailə» konsepsiyasının bir vahid halında birləşdirilməsinin müdafiəsi məqsədi ilə Konfrans tərcümə və ya adaptasiya hazırlıqları zamanı göstəricilərin beynəlxalq üyğunluğu naminə ÜST tərəfindən sanksiya verilmişlərdən savayı Onuncu baxışın üçrəqəmli rubrikalarının və dördrəqəmli rubrikalarının tərkiblərində (adlarında göstərildiyi kimi) heç bir dəyişiklik etməməyi tövsiyə edir. ÜST-nin katibliyi XBT üçün cavabdehlik daşıyır və hər hansı nəşr (milli statistik nəşrlər istisna olmaqla) və ya bu təsnifat əsasında tərcümələr üçün mərkəzi konsultativ orqan kimi fəaliyyət göstərir. ÜST təcili olaraq XBT-nin tərcüməsi və adaptasiyası məramı ilə və ya XBT-yə dair digər təsnifatların hazırlanması fikri ilə xəbərdar edilməlidir.

**Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin təsnifatlar bloku ("ailəsi")**




Konfrans sağlamlığa, o cümlədən gündəlik aktivliyə, həmçinin ictimai və fiziki mühitə uyğun olaraq qocalığın tibbi-sosial və çoxölçülü qiymətləndirilməsində XBT-nin müxtəlif «ailə» üzvlərinin istifadəsini və əlaqəsini böyük maraqla müzakirə etdi. Göstərildi ki, XBT-nin və əmək qabiliyyətinin pozulmasının, azalmasının və əlilliyin Beynəlxalq Təsnifatının istifadəsi, xüsusilə Onuncu baxışın XXI sinfində təklif

olunmuş kodların tətbiqi zamanı qiymətli məlumat əldə etmək olar.

## 6.2. Mütəxəssislər tərəfindən istifadə üçün XBT-nin adaptasiyaları

Konfransa psixi sağlamlıq proqramı sahəsində Onuncu müzakirənin adaptasiyası üzərində iş planları haqqında məlumat verilmişdir. Belə ki, müvafiq tövsiyyələr hazırlanmaqdadır ki, bu tövsiyyələr təcrubi psixiatriya sahəsində çalışan mütəxəssislərin istifadəsi üçün variantları; psixi sağlamlığın qorunması problemlərini tədqiq edən mütəxəssisələrin istifadəsi üçün elmi cəhətləri; uşaq yaşda pozulmaların və yaşlıların problemlərinin çoxcəhətli təsnifatını; həmçinin ümumi profilli mütəxəssislərin istifadəsi üçün variantları müşayiət edəcəkdir.

Psixiatriyaya və nevrologiyaya aid XBT kodları həmçinin bu sahələrə dair əvvəlki tövsiyələrə uyğun olaraq tətbiq edilməlidir.

Konfransda həmçinin qeyd olundu ki, stomotologiyada tətbiq etmək üçün ilk adapsiya olunmuş variantlardan birinin (ICD-DA) yaradılması zamanı XBT-nin əsas quruluş və funksiyaları saxlanılmışdır. ICD-DA-nın Onuncu baxış ilə əlaqədar yenidən baxılması son hazırlıq mərhələsindədir.

Konfransda onkologiya üzrə xəstəliklərin təsnifatının ikinci nəşri təqdim olundu (XBT-O); bu yenitörəmələrin həm topoqrafiyasını, həm də morfologiyasını əks etdirən çox istiqamətli təsnifatdır. Uzun müddət ərzində daxil edilən XBT-O-nun morfoloji kodları təftiş və intensiv sahə yoxlamalarından keçmişdir. İkinci nəşrin topoqrafik kodları Onuncu baxışın S00-S80 rubrikalarında əsaslanıb və onun nəşri ümümdünya səhiyyə baş məclisinə Onuncu baxışın bəyənilməsi ilə əlaqədar təqdim ediləcəkdir.

Ümumi tibbi praktika sahəsində adaptasiyanın əhəmiyyətliliyi barəsində razılıq əldə olundu və bu sahədə məşğul olan qrupların ÜST ilə əməkdaşlıq etmə arzuları haqqında Konfransa məlumat verildi. Digər ixtisaslar üzrə adaptasiyalara, hansı ki, sayının artması ehtimal olunur, gəldikdə isə burda əsas rolu məlumatın yığılmaşı, işlənməsi və yayılması üzrə mərkəz kimi özünü göstərən ÜST-nin tövsiyələri oynayır.

## 6.3 İlkin tibbi-sanitar yardıma məlumat dəstəyi

Konfransın 1975-ci il müzakirəsi üzrə tövsiyələrinə uyğun olaraq, ÜST-nin Cənubi-Şərqi Asiya üzrə Regional bürosu Dehli şəhərində 1976-cı ildə işçi qrup yaratdı. Simptomatik assosiasiyaların müfəssəl siyahısı yaradıldı, onun əsasında isə 2 qısa siyahı (biri-ölüm səbəbləri üçün, digəri isə-səhiyyə müəssisələrinə müraciətlər üçün) yaradıldı. Həmin sistemin sahə yoxlamaları bu regionun ölkələrində aparılırdı, əldə edilmiş nəticələr isə simptomatik assosiasiyaların siyahısının və hesabat formalarının müzakirəsi üçün istifadə edilmişdir. Bu müzakirədən keçmiş variant 1978-ci ildə ÜST tərəfindən «Qeyri tibbi personal tərəfindən sağlamlıq haqda məlumatların qeydiyyatı və bildirilməsi» [5] kitabçasında nəşr olunub.

1978-ci ildən həyata keçirilməyə başlayan «2000-ci ilə kimi hamıya sağlamlıq» qlobal strategiyası UST-nin üzv-ölkələrində məlumat sistemlərinin işlənməsi zamanı problemlərin artmasına səbəb oldu. 2000-ci il üçün tibbi-sanitar statistika üzrə beynəlxalq konfransda (Belluco, İtaliya, 1982-ci il) [6] qeyri-tibbi personal tərəfindən verilmiş məlumatların səhiyyənin idarə edilməsi məqsədi ilə əldə edilmiş və istifadə olunan digər növ məlumatlarla birləşdirilməsində çətinliklər qeyri-tibbi personalın materialının qeydiyyat sisteminin daha geniş tətbiq edilməsində ciddi maneə kimi qiymətləndirildi. İlkin tibbi-sanitar yardımın statistik təsnifatı (Cenevrə, 1985-ci il) [7] üzrə konsultativ iclas qeyri-tibbi personal tərəfindən verilmiş məlumatların köməyi ilə məlumat yardımını unifikasiya etməyə, səhiyyə xidmət orqanlarının idarə edilməsinə və məişət səviyyəsində xidmətə imkan verən yanaşmanın qəbul edilməsinin vacibliyini qeyd etdi.

Konfransda, sağlamlıq, risk faktorları və səhiyyə vəsaitlərinə dair problemlər və ehtiyaclarla əhatə olunmuş cəmiyyətin əhalisinin sağlamlıq vəziyyəti haqqında məlumatın inkişaf və tətbiqində ölkələrin təcrubəsi haqqında məlumat verildi. Bu təcrübə cəmiyyət səviyyəsində qeyri-ənənəvi statistik metodların işlənməsinin vacibliyi konsepsiyasını ayrı-ayrı ölkələrdə məlumat boşluqlarını doldurmaq və onların məlumat sistemlərini gücləndirmək üsulu kimi təsdiq edir. Qeyd edildi ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr yerlərdə bu metodları və ya sistemləri təkmilləşdirməlidirlər, belə ki, xəstələnmənin, danışıq dilinin, mədəniyyətin xarakterində fərqlər bu metodları digər region və ölkələrə asan ötürülməsinə mane olur.

## 6.4 Pozğunluqlar, əmək qabiliyyətinin azalması və əlillik

Pozğunluqların, əmək qabiliyyətinin azalmasının və əlilliyin beynəlxalq təsnifatı [8] ÜST tərəfindən 1980-cı ildə ingilis dilində, 1975-ci il müzakirəsi üzrə konfransın tövsiyələrinə və Ümümdünya Səhiyyə Baş Məclisinin 1976-cı ildə qəbul etdiyi WHA 29.35 [9] qətnaməsinə uyğun olaraq aprobasiya məqsədi üçün nəşr olundu.Bu vaxtdan etibarən təsnifatın araşdırılması və işləmələri müxtəlif istiqamətdə getdi.

Üç elementin -pozğunluq, əmək qabiliyyətinin azalması və əlilliyin əsas təyinləri şübhəsiz əmək qabiliyyətinin azalması probleminə münasibətin dəyişməsində vacib alət oldular: «Pozğunluq» anlayışı XBT-yə daxil olan terminlər çərçivəsindən xeyli dərəcədə kənara çıxmasına baxmayaraq, hər yerdə qəbul edildi. «Əmək qabiliyyətinin azalması» təyini, baxmayaraq ki, tez-tez əlilliklə nəticələnən bu halın ağırlığını dərəcələndirmək üçün uyğun kodlaşdırılmaya böyük diqqət yetirilməsinə ehtiyac duyulur, ümumiyyətlə reabilitasiya və reabilitasiya qrupları üzrə mütəxəssislərin fəaliyyət sahəsinə uyğun gəlmişdir. Bundan başqa, fərd və ətraf mühitin qarşılıqlı təsirini göstərmək üçün «əlillik» anlayışına yenidən baxılmasına daha çox ehtiyac duyulur.

Məhdud əmək qabiliyyətli şəxslərə xidmət sahəsində ideyaların və praktik fəaliyyətin surətlə inkişafı Konfransda təqdim etmək üçün təsnifatın yenidən baxılmasını vaxtında tamamlamağa imkan vermədi. Onuncu müzakirənin başlamasına qədər yeni variantın nəşrinin az ehtimallığı haqda məlumat verildi.

## 6.5 Təbabətdə proseduraların təsnifatı

Təbabətdə prosedurların beynəlxalq təsnifatı (ICPM) [10] ÜST tərəfindən 1978-ci ildə 1975-ci il müzakirəsi üzrə Konfransın tövsiyələrinə ümumdünya səhiyyə baş məclisinin 1976-cı ildə qəbul etdiyi WHA 29. 35[9] qətnaməyə uyğun olaraq aprobasiya məqsədi üçün nəşr olundu. Təsnifat bir neçə ölkə tərəfindən qəbul edildi , bəzi ölkələrdə cərrahi əməliyyatların milli təsnifatları üçün əsas kimi istifadə olundu.

Xəstəliklərin təsnifatı üzrə əməkdaşlıq mərkəzlərinin rəhbərləri etiraf etdilər ki, təkliflərin işlənməsi, onlara aid mülahizələrin alınması prosesini, ÜST tərəfindən vacib hesab olunan qüsurların ləğvi işini və nəşrini prosedura kimi sürətlə inkişaf edən bir sahədə tamamlamaq mümkün deyildi. Ona görə də mərkəz rəhbərləri prosedurların təsnifatının müzakirəsini XBT-nin Onuncu baxışına daxil etməməyi tövsiyə etdilər.

1987-ci ildə ekspertlər Komitəsi ÜST-yə Onuncu baxış üçün heç olmasa ümumi şəkildə 5-ci sinfin təcrübəli variantını («cərrahi prosedurlar») ICPM müzakirə istəyi ilə müraciət etdi. Bu istəyi və bir sıra ölkələrin ehtiyacını nəzərə alaraq, Katiblik belə prosedurların statistik işləmələri üçün rubrikaların siyahısını hazırlamağa cəhd etdi.

Bu siyahı mərkəzlərin rəhbərliyinə 1989-cu ildə onların görüşü zamanı təqdim olundu və orada onun milli təqdimatlar üçün rəhbərlik olacağı, cərrahi prosedurların statistikası üzrə nəşrlərə xidmət edəcəyi və oxşar təsnifatların müqayisəliliyinə kömək olacağı barəsində razılıq əldə olundu. Bu siyahının məqsədi prosedurları (və prosedura qruplarını) eyniləşdirmək və bunun əsasında onların müqayisə qabiliyyətini yaxşılaşdırmağa imkan verən milli təsnifatları işləməkdir.

Konfransda bu siyahının dəyərliliyi barədə, hətta Onuncu baxış fəaliyyətə başladıqdan sonra hər hansı nəşrlər meydana çıxsa belə bu siyahının təkmilləşdirilməsi üzrə işin davam etdirilməsinin vacibliyi barədə razılıq əldə olundu.

## 6.6 Xəstəliklərin beynəlxalq nomenklaturası

1970-ci ildən XBT-ni tamamlayan Xəstəliklərin beynəlxalq nomenklaturasının (XBN) hazırlıq işinə Beynəlxalq tibbi elmi cəmiyyətlər şurası cəlb edilmişdir.

XBN-in yaradılmasında əsas məqsəd hər nozoloji formaya yeganə bir ad verməkdir. Adın seçilməsində əsas meyarlar onun özünəməxsusluğu, ikimənalılığın olmaması, sadəlik, xəstəliyin mahiyyətini ifadə etmək

və onu törədən səbəbləri (mümkün olduğu qədər) göstərməkdən ibarətdir.

Adları tövsiyə edilmiş bütün xəstəliklərin və sindromların tərifləri qısa-konkret və tək mənalıdır (mümkün olduğu qədər), hər tərif sinonimlər siyahısı ilə tamamlanıb.

Konfransın gedişi zamanı aşağı tənəffüs yollarının xəstəliklərinin, infeksion xəstəliklərin (virus, bakterial, parazitar, həmçinin mikozların), ürək-damar sistemi xəstəliklərinin siyahısı işıq üzü gördü, həzm sistemi, qadın cinsiyyət orqanları, sidik sistemi, kişi cinsiyyət orqanları xəstəliklərinin, maddələr mübadiləsi xəstəliklərinin və endokrin xəstəliklərin, qan, qan yaradıcı orqanların və immun sistemin, sümük əzələ sisteminin və sinir sisteminin siyahılarının üzərində iş davam etdirildi. Gələcək nəşrlərdə psixi xəstəliklərin, qulaq, boğaz-burun xəstəliklərinin, həmçinin göz və onun əlavə aparatının xəstəliklərinin siyahısı nəzərə alınacaq.

Konfrans xəstəliklərin müasir, normativ və beynəlxalq nomenklaturasının XBT-nin inkişafında və tibbi məlumatın müqayisə imkanının yaxşılaşdırılmasında böyük rolunun olduğunu etiraf etdi.

Bununla əlaqədar Konfrans ÜST-nin və Beynəlxalq tibbi-elmi cəmiyyətlər şurasının belə nomenklaturanın vaxtında tamamlanması və daxil edilməsi üçün daha qənaətli yolların axtarışında səylərini müdafiə etməyi tövsiyə edir.

## 7. XBT-nin Onuncu baxışının həyata keçirilməsi

Konfransa ÜST-nin Onuncu baxışın dördrəqəmli rubrikalarının müfəssəl siyahısının üç cilddə nəşr etmək məqsədi haqda məlumat verilmişdir. Birinci cildə statistik işləmələr üçün rubrikaların siyahısı, ikinci cildə - uyğun təriflər, standartlar, qaydalar və təlimatlar, üçüncü cildə isə - əlifba göstəricisi daxil edilib.

Daha sonra Konfransda Onuncu baxışın üçrəqəmli rubrikalarının siyahısının variantı bütün əlavələr və çıxarılanları özündə saxlayan ayrıca nəşr kimi çap etdiriləcəyi barəsində məlumat verildi: bu nəşrə həmçinin uyğun təriflər, standartlar, qaydalar, təlimatlar və ixtisar edilmiş əlifba göstəricisi də daxil ediləcək.

A16.0 rubrikasında göstərilən hallar, bakterioloji və histoloji müayinələr aparılmadan

## A16.2 Ağ ciyər vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

Ağ ciyər vərəmi
Vərəm mənşəli:
- ağ ciyər fibrozu
- bronxoektaziya
- pnevmoniya
- pnevmotoraks

} bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

## A16.3 Döş qəfəsi limfa düyünlərinin vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

Kökönü
Döşdaxili
Mediastinal
Traxeobronxial
} limfa düyünlərinin bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən vərəmi

***Çıxarılıb:*** döş qəfəsi limfa düyünlərinin vərəmi, birincili vərəm kimi müəyyən edilmiş (A16.7)

### A16.4 Qırtlaq, traxeya və bronxların vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

bronxların
qırtlağın
səs tellərinin
traxeyanın
} vərəmi ( bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən )

### A16.5 Vərəm plevriti, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

Plevranın vərəmi
Vərəm mənşəli:
- empiema
- plevrit
} bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

***Çıxarılıb:*** tənəffüs orqanlarının birincili vərəmi zamanı qeydə alınan vərəm plevriti (A16.7)

### A16.7 Tənəffüs orqanlarının birincili vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

Tənəffüs orqanlarının birincili dəqiqləşdirilməmiş vərəmi
İlkin vərəm kompleksi

### A16.8 Digər tənəffüs orqanlarının vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən

Mediastinal
Burun-udlağın
Burnun
Əlavə ciblərin
} bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən vərəmi

### A16.9 **Tənəffüs orqanlarının lokalizasiyası dəqiqləşdirilməmiş vərəmi, bakterioloji və ya histoloji təsdiq olunması göstərilmədən**

Tənəffüs orqanlarının ƏGO vərəmi
ƏGO vərəm

## A17† Sinir sisteminin vərəmi

### A17.0† Vərəm meningiti (G01*)

Beyin (baş beyin) (onurğa beyin) qişalarının vərəmi
Vərəm leptomeningiti

### A17.1† Meningeal tuberkuloma (G07*)

Beyin qişalarının tuberkuloması

### A17.8† Sinir sisteminin digər lokalizasiyalı vərəmi

Baş beynin
Onurğa beyninin
} tuberkuloması vərəmi

Vərəm mənşəli:
- baş beyin absesi (G07*)
- meninqoensefalit (G05.0*)
- mielit (G05.0*)
- polinevropatiya (G63.0*)

### A17.9† Sinir sisteminin dəqiqləşdirilməmiş vərəmi (G99.8*)

## A18 Digər orqanların vərəmi

### A18.0† Sümük və oynaqların vərəmi

Bud-çanaq oynağının vərəmi (M01.1*) Diz oynağının vərəmi (M01.1*) Onurğa sütununun vərəmi (M49.0*) Vərəm mənşəli:
- artrit (M01.1*)

- mastoidit (H75.0*)
- sümük nekrozu (M90.0*)
- ostit (M90.0*)
- osteomielit (M90.0*)
- sinovit (M68.0*)
- tenosinovit (M68.0*)

## A18.1† Sidik-cinsiyyət orqanlarının vərəmi

Sidik kisəsinin vərəmi† (N33.0*)
Uşaqlıq boynun vərəmi†(N74.0*) Böyrək vərəmi† (N29.1*)
Kişi cinsiyyət orqanlarının vərəmi† (N51.–*) Uşaqlığın vərəmi† (N29.1*)
Qadınların kiçik çanaq orqanlarının vərəm mənşəli iltihabı† (N74.1*)

## A18.2 Vərəm mənşəli periferik limfadenopatiya

Vərəm adeniti
***Çıxarılıb:*** limfa düyünlərinin vərəmi :
müsariqə və peritonarxası limfa düyünlərinin vərəmi (A18.3)
döş qəfəsi limfa düyünlərinin vərəmi ( A15.4 , A 16.3)
vərəm mənşəli traxeobronxial adenopatiya (A15.4, A16.3)

## A18.3 Bağırsağın, peritonun və müsariqə limfa düyünlərinin vərəmi

Anus və düz bağırsağın vərəmi† (K93.0*) Yoğun və nazik bağırsağın vərəmi† (K93.0*)
Peritonarxası (limfa düyünlərinin) vərəm Vərəml mənşəli:

- assit
- enterit† (K93.0*)
- peritonit† (K67.3*)

## A18.4 Dəri və dərialtı toxumanın vərəmi

İndurativ dəri vərəmi (düyünlü vaskulit)(Erythema induratum)
Qurdeşənəyi (Lupus):

- vərəm
- ƏGO
- göz qapağının† (H03.1*) Skrofuloderma

***Çıxarılıb:*** qırmızı qurdeşənəyi (L93.–)
sistemli qırmızı qurdeşənəyi (M32.–)

## A18.5† Göz vərəmi

Vərəm mənşəli:

- xorioretinit† (H32.0*)
- episklerit† (H19.0*)
- interstisial keratit† (H19.2*)
- iridosiklit† (H22.0*)
- keratokonyunktivit † (H19.2*)

***Çıxarılıb:*** göz qapağının adi qurdeşənəyi (A18.4)

## A18.6† Qulaq vərəmi

Orta qulağın vərəmi † (H67.0*)

***Çıxarılıb:*** vərəm mastoiditi (A18.0†)

## A18.7† Böyrəküstü vəzilərin vərəmi (E35.1*)

Vərəm mənşəli Addison xəstəliyi

## A18.8 Digər dəqiqləşdirilmiş orqanların vərəmi

Vərəm :

- Endokardın +(I 39.8*)
- Miokardın + (I 41.0*)
- Perikardın +(I 32.0*)
- Qida borusunun+ (K 23.0*)
- Qalxanabənzər vəzinin+ (E 35.0*)

A19 Miliar vərəm
***Daxil edilib:*** disseminasiyalı vərəm generalizə olunmuş vərəm vərəmli poliserozit
A19.0 Bir dəqiqləşdirilmiş lokalizasiyalı kəskin miliar vərəm
A19.1 Çox lokalizasiyalı kəskin miliar vərəm
A19.2 Dəqiqləşdirilməmiş lokalizasiyalı kəskin miliar vərəm
A19.8 Miliar vərəmin digər formaları
A19.9 Dəqiqləşdirilməmiş lokalizasiyalı miliar vərəm

## Bəzi bakterial zoonozlar (A20-A28)

A20 Taun
***Daxil edilib:*** *Yersinia pestis* tərəfindən törədilən infeksiya
A20.0 Taunun bubon forması
A20.1 Dəri-selülyar taunu
A20.2 Ağ ciyər taunu
A20.3 Taun meningiti
A20.7 Taunun septik forması
A20.8 Taunun digər formaları
A20.9 Dəqiqləşdirilməmiş taun

A21 Tulyaremiya
***Daxil edilib*** **:***Francisella tularensic* tərəfindən törədilən infeksiya
dovşan qızdırması
maral milçəyi qızdırması
A21.0 Tulyaremiyanın xoralı-vəzili forması
A21.1 Tulyaremiyanın göz vəzili forması
A21.2 Ağ ciyər tulyaremiyası
A21.3 Mədə-bağırsaq tulyaremiyası
A21.7 Generalizə olunmuş tulyaremiya
A21.8 Tulyaremiyanın digər formaları
A21.9 Dəqiqləşdirilməmiş tulyaremiya

A22 Qarayara (Sibir yarası)
***Daxil edilib:*** *Bacillus anthracis* tərəfindən törədilən infeksiya
A22.0 Qarayaranın dəri forması
Bədxassəli:
- Karbunkul
- Pustula

A22.1 Qarayaranın ağ ciyər forması
**Ragpicker xəstəliyi**
**Woolsorter xəstəliyi**
A22.2 Qarayaranın mədə-bağırsaq forması
A22.7 Qarayara sepsisi (qarayaranın septik forması)
A22.8 Qarayaranın digər formaları

A22.9 Dəqiqləşdirilməmiş qarayara

## A23 Brusellyoz

***Daxil edilib:*** Malta qızdırması
Aralıq dənizi qızdırması
dalğavari qızdırma

A23.0 ***Brucella melitensis*** tərəfindən törədilən brusellyoz
A23.1 ***Brucella abortus*** tərəfindən törədilən brusellyoz
A23.2 ***Brucella suis*** tərəfindən törədilən brusellyoz
A23.3 ***Brucella canis*** tərəfindən törədilən brusselyoz
A23.8 Brusselyozun digər formaları
A23.9 Dəqiqləşdirilməmiş brusselyoz

## A24 Manqo (dabaq) və melioidoz

A24.0 Manqo
*Pseudomonas mallei* tərəfindən törədilən infeksiya
*Burkholderia mallei* tərəfindən törədilən infeksiya
A24.1 Kəskin və ya ildırımsürətli melioidoz
- Melioidoz pnevmoniya
- Melioidoz sepsis

A24.2 Yarımkəskin və xroniki melioidoz
A24.3 Digər dəqiqləşdirilmiş meliodioz
A24.4 Dəqiqləşdirilməmiş melioidoz

ƏGO Pseudomonas pseudomallei tərəfindən törədilən infeksiya
ƏGO *Burkholderia pseudomallei* tərəfindən törədilən infeksiya
Whitmore xəstəliyi

## A25 Siçovul dişləməsindən törəyən qızdırma

A25.0 Spirillyoz
Sodoku
A25.1 Streptobasillyoz
Epidemik oynaq eriteması
Heyverhil qızdırması
Siçovul dişləməsindən törəyən streptobasillyar qızdırma
A25.9 Siçovul dişləməsindən törəyən dəqiqləşdirilməmiş qızdırma

## A26 Erizipeloid (donuz qızılyeli)

A26.0 Dəri erizipeloidi
Azan eritema
A26.7 ***Erysipelothrix*** tərəfindən törədilən sepsis
A26.8 Erizipeloidin digər formaları
A26.9 Dəqiqləşdirilməmiş erizipeloid

## A27 Leptospiroz

A27.0 Sarılıqlı - hemorragik leptospiroz
*Leptospria interrogans serovar icterohaemorrhagiae* tərəfindən törədilən leptospiroz
A27.8 Leptospirozun digər formaları
A27.9 Dəqiqləşdirilməmiş leptospiroz

### A28 Başqa rubrikalarda təsnif olunmayan digər bakterial zoonozlar

### A28.0 Pasterellyoz

### A28.1 Pişik cırmaqlamasından törəyən qızdırma

Pişik cırmaqlaması xəstəliyi

### A28.2 Bağırsaqdan xaric iersinioz

***Çıxarılıb:*** *Yersinia enterocolitica* tərəfindən törədilən enterit (A04.6)
taun (A20.–)

### A28.8 Başqa rubrikalarda təsnif olunmayan digər dəqiqləşdirilmiş bakterial zoonozlar

### A28.9 Dəqiqləşdirilməmiş bakterial zoonozlar

## Digər bakterial xəstəliklər (A30-A49)

### A30 Cüzam (Hansen xəstəliyi, lepra)

***Daxil edilib:*** *Mycobacterium leprae* tərəfindən törədilən infeksiya
***Çıxarılıb:*** cüzamın uzaq nəticələri (B92)

### A30.0 Differensiasiya olunmamış cüzam

I cüzamı

### A30.1 Tuberkloid cüzam

TT cüzamı

### A30.2 Hüdudlu tuberkloid cüzamı

BT cüzamı

### A30.3 Hüdudlu cüzam

BB cüzamı

### A30.4 Hüdudlu leprotamoz cüzam

BL cüzamı

### A30.5 Lepromatoz cüzam

LL cüzamı

### A30.8 Cüzamın digər formaları

### A30.9 Dəqiqləşdirilməmiş cüzam

### A31 Digər mikobakteriyalar tərəfindən törədilən infeksiyalar

***Çıxarılıb:*** cüzam (A30.–)
vərəm (A15-A19)

### A31.0 ***Mycobacterium*** tərəfindən törədilən ağ ciyər infeksiyası

*Mycobacterium*
- *avium*
- *intracellulare* [Battey bacillus]
- *kansasii*

} tərəfindən törədilən infeksiya

### A31.1 ***Mycobacterium*** tərəfindən törədilən dəri infeksiyası

Buruli yarası
*Mycobacterium*
- *marinium*
- *ulcerans*

} tərəfiindən törədilən infeksiya

**A31.8 *Mycobacterium* tərəfindən törədilən digər infeksiyalar**

**A31.9 *Mycobacterium* tərəfindən törədilən dəqiqləşdirilməmiş infeksiya**

ƏGO atipik mikobakterial infeksiya
ƏGO mikobakterioz

## A32 Listerioz

***Daxil edilib:*** listerioz mənşəli qida infeksiyası
***Çıxarılıb:*** yenidoğulmuşların (səpələnmiş) listeriozu (P37.2)

**A32.0 Dəri listeriozu**

**A32.1† Listeriozlu meningit və meningoensefalit**

Listerioz mənşəli:

- meningit (G01*)
- meninqoensefalit (G05.0*)

**A32.7 Listerioz sepsisi**

**A32.8 Listeriozun digər formaları**

Listerioz mənşəli:

- serebral arteriit † (I68.1*)
- endokardit † (I39.8*) Listeriozun göz vəzi forması

**A32.9 Dəqiqləşdirilməmiş listerioz**

## A33 Yenidoğulmuşun tetanusu

## A34 Mamalıq tetanusu

## A35 Tetanusun digər formaları

***Daxil edilib:*** ƏGO tetanus
***Çıxarılıb:*** yenidoğulmuşların tetanusu (A33)
mamalıq tetanusu (A34)

## A36 Difteriya

**A36.0 Udlaq difteriyası**

Difteriya mənşəli membranoz angina
Damaq badamcıqlarının difteriyası

**A36.1 Burun-udlaq difteriyası**

**A36.2 Qırtlaq difteriyası**

Difteriya mənşəli larinqotraxeit

**A36.3 Dəri difteriyası**

***Çıxarılıb:*** eritrazma (L08.1)

**A36.8 Difteriyanın digər formaları** Difteriya mənşəli:

- konyuktivit † (H13.1*)
- miokarditi† (I41.0*)
- polinevriti† (G63.0*)

**A36.9 Dəqiqləşdirilməmiş difteriya**

## A37 Göy öskürək

**A37.0 *Bordotella pertussis* tərəfindən törədilən göy öskürək**

**A37.1 *Bordetella parapertussis* tərəfindən törədilən göy öskürək**

**A37.8 *Bordotella* növünə aid digər dəqiqləşdirilmiş törədicilər tərəfindən törədilən göy öskürək**

A37.9 Dəqiqləşdirilməmiş göy öskürək

## A38 Skarlatina

***Çıxarılıb:*** streptokokk anginası

## A39 Meninqokokk infeksiyası

A39.0† Meninqokokk meningiti (G01*)

A39.1† Uoterxaus-Frideriksen sindromu (E35.1*)

Meninqokokk mənşəli hemorragik adrenalit
Meninqokokk mənşəli adrenal sindrom

A39.2 Kəskin meninqokokkemiya

A39.3 Xroniki meninqokokkemiya

A39.4 Dəqiqləşdirilməmiş meninqokokkemiya

ƏGO meninqokokk bakteriemiyası

A39.5† Ürəyin meninqokokk mənşəli iltihabi xəstəlikləri

Meninqokokk mənşəli:

- kardit ƏGO (I52.0*)
- endokardit (I39.8*)
- miokardit (I41.0*)
- perikardit (I32.0*)

A39.8 Digər meninqokokk infeksiyaları

Meninqokokk mənşəli:

- artrit† (M01.0*)
- konyuktivit† (H13.1*)
- ensefalit† (G05.0*)
- görmə sinirinin nevriti† (H48.1*) Postmeninqokokk artriti† (M03.0*)

A39.9 Dəqiqləşdirilməmiş meninqokokk infeksiyası

## A40 Streptokokk sepsisi

***Çıxarılıb:***
- doğuş ərəfəsində əmələ gələn (O75.3)
- neonatal dövrdə əmələ gələn (P36.0-P36.1)
- uşaqlıqdankənar və ya molyar hamiləliklə əlaqədar abortdan sonra əmələ gələn (O03- O07, O08.0)
- peyvənddən sonra əmələ gələn (T88.0)
- infuziya, transfuziya və ya terapevtik inyeksiyadan sonra əmələ gələn (T80.2)

proseduradan sonrakı (T81.4) doğuşdan sonrakı (O85)

A40.0 A qrup stretokokkların törətdiyi sepsis

A40.1 B qrup streptokokkların törətdiyi sepsis

A40.2 D qrup streptokokkların törətdiyi sepsis

A40.3 ***Streptococcus pneumoniae*** tərəfindən törədilən sepsis

Pnevmokokk sepsisi

A40.8 Digər streptokokk sepsisi

A40.9 Dəqiqləşdirilməmiş streptokokk sepsisi

## A41 Digər sepsis

***Çıxarılıb:*** ƏGO bakteriemiya (A49.9)

doğuş ərəfəsində əmələ gələn (O75.3)

- uşaqlıqdankənar və ya molyar hamiləliklə əlaqədar abortdan sonra əmələ gələn (O03-O07, O08.0)
- peyvənddən sonra əmələ gələn (T88.0)

- infuziya, transfuziya və ya terapevtik inyeksiyadan sonra əmələ gələn (T80.2)

Həmçinin aşağıda göstərilən etiologiyalı sepsislər:

- aktinomikoz (A42.7)
- herpes virusu (B00.7)
- qonokokk (A54.8)
- kandidoz (B37.7)
- listerioz (A32.7)
- meninqokokk (A39.2-A39.4)
- neonatal (yenidoğulmuşların) (P36.–)
- doğuşdan sonrakı (O85)
- proseduradan sonrakı (T81.4)
- qarayara (A22.7)
- streptokokk (A40.–)
- tulyaremiya (A21.7)
- bağırsaqdanxaric iersinioz (A28.2)
- *Erysipelothrix* (A26.7)

septiki:

- melioidoz (A24.1)
- taun (A20.7)

toksiki şok sindromu (A48.3)

A41.0 ***Staphylococcus aureus*** tərəfindən törədilən sepsis

A41.1 Stafilokokkun digər dəqiqləşdirilmiş növü tərəfindən törədilən sepsis

A41.2 Stafilokokkun dəqiqləşdirilməmiş növü tərəfindən törədilən sepsis

A41.3 ***Haemophilus influenzae*** tərəfindən törədilən sepsis

A41.4 Anaerob mikroblar tərəfindən törədilən sepsis

***Çıxarılıb:*** qazlı qanqrena (A48.0)

A41.5 Digər qram-mənfi mikroorqanizmlər tərəfindən törədilən sepsis

A41.8 Digər dəqiqləşdirilmiş sepsis

A41.9 Dəqiqləşdirilməmiş sepsis

Qeyd : Septiki şoku identifikasiya etmək məqsədilə əlavə koddan (R 57.2) istifadə olunur.
Septiki şok
Septisemiya

## A42 Aktinomikoz

***Çıxarılıb:*** aktinomisetoma (B47.1)

A42.0 Ağ ciyər aktinomikozu

A42.1 Abdominal aktinomikoz

A42.2 Boyun-üz aktinomikozu

A42.7 Aktinomikoz sepsisi

A42.8 Digər aktinomikozlar

A42.9 Dəqiqləşdirilməmiş aktinomikoz

## A43 Nokardioz

A43.0 Ağ ciyər nokardiozu

A43.1 Dəri nokardiozu

A43.8 Nokardiozun digər formaları

A43.9 Dəqiqləşdirilməmiş nokardioz

## A44 Bartonellyoz

### A44.0 Sistem bartonellyozu
Oroy qızdırması

### A44.1 Dəri və dəri-selikli qişa bartonellyozu
Peru ziyili (Verruga peruana)

### A44.8 Digər bartonellyozlar

### A44.9 Dəqiqləşdirilməmiş bartonellyoz

## A46 Qızılyel
***Çıxarılıb:*** doğuşdan sonrakı dövrdə əmələ gələn və ya doğuşdan sonrakı qızılyel (O86.8)

## A48 Başqa rubrikalarda təsnif olunmayan digər bakterial xəstəliklər
***Çıxarılıb:*** aktinomikoz misetoma (B47.1)

### A48.0 Qazlı qanqrena
*Clostridium* tərəfindən törədilən:
- sellyulit
- əzələ nekrozu

### A48.1 Legionerlər xəstəliyi

### A48.2 Pnevmoniyasız müşahidə olunan legionerlər xəstəliyi [Pontiak qızdırması]

### A48.3 Toksiki şok sindromu
***Çıxarılıb:*** ƏGO sepsis (A41.9)
ƏGO endotoksik şok (R57.8)

### A48.4 Braziliya purpur qızdırması
*Haemophilus aegyptius* tərəfindən törədilən sistem infeksiyası

### A48.8 Digər dəqiqləşdirilmiş bakterial xəstəliklər

## A49 Dəqiqləşdirilməmiş lokalizasiyalı bakterial infeksiya
***Çıxarılıb:*** xəstəliklərin törədicisi kimi digər siniflərdə təsnif olunan bakterial amillər (B95–B96)
rikketsiyalar tərəfindən törədilən ƏGO infeksiya (A79.9)
spiroxetlər tərəfindən törədilən ƏGO infeksiya (A69.9)
xlamidiyalar tərəfindən törədilən, ƏGO infeksiya (A74.9)
ƏGO meninqokokk infeksiyası (A39.9)

### A49.0 Dəqiqləşdirilməmiş lokalizasiyalı stafilokokk infeksiyası

### A49.1 Dəqiqləşdirilməmiş lokalizasiyalı streptokokk infeksiyası

### A49.2 ***Haemophilus influenzae*** tərəfindən törədilən dəqiqləşdirilməmiş lokalizasiyalı infeksiya

### A49.3 Mikoplazma tərəfindən törədilən dəqiqləşdirilməmiş lokalizasiyalı infeksiya

### A49.8 Dəqiqləşdirilməmiş lokalizasiyalı digər bakterial infeksiyalar

### A49.9 Dəqiqləşdirilməmiş bakterial infeksiya
ƏGO bakteriemiya

# Əsasən cinsi yolla keçən infeksiyalar (A50-A64)

***Çıxarılıb:*** insanın immun çatışmazlıq virusu (İİÇV) tərəfindən törədilən xəstəlik (B20-B24)
Reyter xəstəliyi (M02.3)
qeyri-spesifik və qeyri-qonokokk mənşəli uretritlər (N34.1)

## A50 Anadangəlmə sifilis

### A50.0 Aşkar simptomlarla müşahidə olunan erkən anadangəlmə sifilis

2 yaşına qədər uşaqda erkən təzahür olunan istənilən anadangəlmə sifilitik vəziyyət
Erkən anadangəlmə sifilis:

- dərinin
- dəri və selikli qişaların
- daxili orqanların

Erkən anadangəlmə sifilitik:

- laringit
- okulopatiya
- osteoxondropatiya
- faringit
- pnevmoniya
- rinit

### A50.1 Gizli formalı erkən anadangəlmə sifilis

2 yaşına qədər uşaqlarda heç bir klinik əlamətləri olmayan , lakin seroloji reaksiyanın müsbət, onurğa beyin mayesinin sınağının isə mənfi olması ilə rast gəlinən anadangəlmə sifilis

### A50.2 Dəqiqləşdirilməmiş erkən anadangəlmə sifilis

2 yaşına qədər uşaqlarda rast gəlinən ƏGO anadangəlmə sifilis

### A50.3 Gecikmiş anadangəlmə sifilitik göz patologiyası

Gecikmiş anadangəlmə sifilitik interstisial keratit † (H19.2*) DRTO gecikmiş anadangəlmə sifilitik okulopatiya†(H58.8*) ***Çıxarılıb:*** Hetçinson triadası (A50.5)

### A50.4 Gecikmiş anadangəlmə neyrosifilis [yuvenil neyrosifilis]

Yuvenil paralitik demensiya
Yuvenil:

- proqressiv iflic
- bel quruması (tabes dorsalis)
- taboparetik neyrosifilis

Gecikmiş anadangəlmə sifilitik:

- ensefalit† (G05.0*)
- meningit† (G01*)
- polineyropatiya† (G63.0*)

Bu xəstəliklə yanaşı gedən psixi pozğunluqları göstərmək üçün əlavə koddan istifadə edin.
***Çıxarılıb:*** Hetçinson triadası (A50.5)

### A50.5 Aşkar simptomlarla müşahidə olunan gecikmiş anadangəlmə sifilisin digər formaları

Doğulduqdan 2 il və daha artıq müddətdən sonra aşkar simptomları müşahidə edilən istənilən gecikmiş anadangəlmə sifilitik vəziyyət
*Clutton* oynaqları †(M03.1*) Hetçinson:

- dişləri
- triadası

Gecikmiş anadangəlmə:

- kardiovaskulyar sifilis† (I98.0*)
- sifilitik:
- artropatiya† (M03.1*)
- osteoxondropatiya† (M90.2*) Sifilitik yəhərəbənzər burun

### A50.6 Gizli formalı gecikmiş anadangəlmə sifilis
2 yaşdan yuxarı uşaqlarda heç bir klinik əlamətləri olmayan, lakin seroloji reaksiyanın müsbət, onurğa beyin mayesinin sınağının isə mənfi olması ilə rast gəlinən anadangəlmə sifilis

### A50.7 Dəqiqləşdirilməmiş gecikmiş anadangəlmə sifilis
2 yaşdan yuxarı uşaqlarda rast gəlinən ƏGO anadangəlmə sifilis

### A50.9 Dəqiqləşdirilməmiş anadangəlmə sifilis

## A51 Erkən sifilis

### A51.0 Cinsiyyət orqanlarının birincili sifilisi
ƏGO sifilitik şankr

### A51.1 Anal nahiyyənin birincili sifilisi

### A51.2 Digər lokalizasiyalı birincili sifilis

### A51.3 Dəri və selikli qişaların ikincili sifilisi
Latum (enli) kondiloma

Sifilitik:

- alopesiya (dazlıq)† (L99.8*)
- leykoderma† (L99.8*)
- selikli qişalarda sifilitik ocaqlar

### A51.4 İkincili sifilisin digər formaları
İkincili sifilitik:

- qadında kiçik çanaq orqanlarının iltihabi xəstəlikləri †(N74.2*)
- iridosiklit† (H22.0*)
- limfadenopatiya
- meningit† (G01*)
- miozit† (M63.0*)
- DRTO okulopatiya† (H58.8*)
- periostit † (M90.1*)

### A51.5 Erkən gizli sifilis
Yoluxma müddəti iki ildən az olmaq şərtilə heç bir klinik əlamət meydana çıxmadan, seroloji reaksiyanın müsbət, onurğa beyin mayesinin sınağının isə mənfi olması ilə rast gəlinən (qazanılmış) sifilis

### A51.9 Dəqiqləşdirilməmiş erkən sifilis

## A52 Gecikmiş sifilis

### A52.0† Ürək-damar sisteminin sifilisi
ƏGO kardiovaskulyar sifilis (I98.0*) Sifilitik:

- aorta anevrizmi (genişlənməsi) (I79.0*)
- aorta çatmamazlığı (I39.1*)
- aortit (I79.1*)
- serebral arteriit (I68.1*)
- ƏGO endokardit (I39.8*)
- miokardit (I41.0*)
- perikardit (I32.0*)
- ağ ciyər çatmamazlığı (I39.3*)

### A52.1 Aşkar simptomlarla müşahidə olunan neyrosifilis
Şarkot (*Charcot*) artropatiyası † (M14.6*)

Gecikmiş sifilitik:

- eşitmə sinirinin nevriti †(H94.0*)
- ensefalit† (G05.0*)
- meningit† (G01*)
- görmə sinirinin artrofiyası† (H48.0*)

- polineyropatiya† (G63.0*)
- retrobulbar nevrit† (H48.1*) Sifilitik parkinsonizm† (G22*) Bel quruması (*Tabes dorsalis*)

## A52.2 Simptomsuz neyrosifilis

## A52.3 Dəqiqləşdirilməmiş neyrosifilis

Mərkəzi sinir sisteminin ƏGO:

- qumması (sifilitik)
- sifilisi (gecikmiş)
- sifiloması

## A52.7 Gecikmiş sifilisin digər simptomları

Böyrək yumaqcıqlarının sifilitik zədələnməsi† (N08.0*)

Qumma (sifilitik) } A52.0-A52.3 rubrikalarında təsnif olunanlardan
Gecikmiş və ya üçüncülü sifilis } başqa istənilən lokalizasiyalı

Gecikmiş sifilitik:

- bursit† (M73.1*)
- xorioretinit† (H32.0*)
- episklerit† (H19.0*)
- qadının kiçik çanaq orqanlarının iltihabi xəstəlikləri† (N74.2*)
- leykoderma† (L99.8*)
- DRTO okulopatiya† (H58.8*)
- peritonit† (K67.2*)

Mərhələsi dəqiqləşdirilməyən sifilis:

- sümüyün† (M90.2*)
- qaraciyərin† (K77.0*)
- ağ ciyərin† (J99.8*)
- əzələlərin† (M63.0*)
- synovial qişaların † (M68.0*)

## A52.8 Gecikmiş gizli sifilis

Yoluxma müddəti iki ildən çox olmaq şərtilə heç bir klinik əlamət meydana çıxmadan, seroloji reaksiyanın müsbət, onurğa beyin mayesinin sınağının isə mənfi olması ilə rast gəlinən (qazanılmış) sifilis

## A52.9 Dəqiqləşdirilməmiş gecikmiş sifilis

# A53 Sifilisin digər və dəqiqləşdirilməmiş formaları

## A53.0 Erkən və ya gecikmiş olduğu dəqiqləşdirilmədən gizli sifilis

ƏGO gizli sifilis

Sifilisə görə aparılan seroloji reaksiyanın müsbət olması

## A53.9 Dəqiqləşdirilməmiş sifilis *Treponema pallidum* mənşəli ƏGO sifilis

ƏGO (qazanılmış) sifilis

***Çıxarılıb:*** 2 yaşına qədər uşaqların ölümünə səbəb olan ƏGO sifilis (A50.2)

# A54 Qonokokk infeksiyası

## A54.0 Sidik-cinsiyyət aparatının aşağı şö'bələrinin, periuretral və ya artım vəzilərinin absesləşməsi olmadan, qonokokk infeksiyası

Qonokokk mənşəli:

- ƏGO servisit
- ƏGO sistit
- ƏGO uretrit
- ƏGO vulvovaginit

***Çıxarılıb:*** sidik cinsiyyət vəzilərinin absesləşməsi ilə (A54.1);
periuretral absesla müşayiət olunan qonokokk infeksiyası (A54.1)

## A54.1 Sidik-cinsiyyət aparatının aşağı şö'bələrinin periuretral və ya

artım vəzilərinin absesləşməsi ilə müşayiət olunan qonokokk infeksiyası
Bartolin vəzilərinin qonokokk mənşəli absesi

### A54.2† Qonokokk mənşəli pelvioperitonit və sidik cinsiyyət orqanlarının digər qonokokk infeksiyası

Qonokokk mənşəli:
- epididimit† (N51.1*)
- qadının kiçik çanaq orqanlarının iltihabi xəstəlikləri† (N74.3*)
- orxit† (N51.1*)
- prostatit† (N51.0*)

***Çıxarılıb:*** qonokokk mənşəli peritonit (A54.8)

### A54.3 Gözün qonokokk infeksiyası

Qonokokk mənşəli:
- konyuktivit† (H13.1*)
- iridosiklit† (H22.0*)

Yenidoğulmuşların qonokokk mənşəli (Ophthalmia neonatorum) oftalmiyası

### A54.4† Sümük-əzələ sisteminin qonokokk infeksiyası

Qonokokk mənşəli:
- artrit (M01.3*)
- bursit (M73.0*)
- osteomielit (M90.2*)
- sinovit (M68.0*)
- tenosinovit (M68.0*)

### A54.5 Qonokokk mənşəli faringit

### A54.6 Anorektal nahiyənin qonokokk infeksiyası

### A54.8 Digər qonokokk infeksiyaları

Qonokokk mənşəli:
- beyin absesi† (G07*)
- endokardit† (I39.8*)
- meningit† (G01*)
- miokardit† (I41.0*)
- perikardit† (I32.0*)
- peritonit† (K67.1*)
- pnevmoniya† (J17.0*)
- sepsis
- dəri zədələnməsi

***Çıxarılıb:*** qonokokk mənşəli pelvioperitonit (A54.2)

### A54.9 Dəqiqləşdirilməmiş qonokokk infeksiyası

## A55 Xlamidiya mənşəli limfoqranuloma (zöhrəvi)

***Daxil edilib:*** Qasıq limfoqranulomatozu (iqlim bubonu və ya tropik bubon)
*Durand-Nikolas-Favre* xəstəliyi
Estiomen

## A56 Cinsi yolla keçən digər xlamidiya xəstəlikləri

***Daxil edilib:*** *Chlamydia trachomatis* tərəfindən törədilən və cinsi yolla keçən xəstəliklər
***Çıxarılıb:*** xlamidiya mənşəli:
- limfoqranuloma (A55)
- neonatal:
- konyuktivit (P39.1)
- pnevmoniya (P23.1)

A74.– rubrikalarında təsnif olunan xlamidiyalı vəziyyətlər

## A56.0 Sidik-cinsiyyət aparatının aşağı şö'bələrinin xlamidiya infeksiyaları

Xlamidiya mənşəli:
- servisit
- sistit
- uretrit
- vulvovaginit

## A56.1† Kiçik çanaq orqanları və digər sidik-cinsiyyət orqanlarının xlamidiya infeksiyaları

Xlamidiya mənşəli:
- epididimit† (N51.1*)
- qadının kiçik çanaq orqanlarının iltihabi xəstəlikləri† (N74.4*)
- orxit† (N51.1*)

## A56.2 Sidik-cinsiyyət aparatının dəqiqləşdirilməmiş xlamidiya infeksiyası

## A56.3 Anorektal nahiyənin xlamidiya infeksiyası

## A56.4 Xlamidiya mənşəli faringit

## A56.8 Cinsi yolla keçən digər lokalizasiyalı xlamidiya infeksiyaları

## A57 Şankroid

***Daxil edilib:*** Yumşaq şankr (ulcus molle)

## A58 Qasıq qranuloması

***Daxil edilib:*** Zöhrəvi *Brok* qranuloması (donovanoz)

## A59 Trixomonoz

***Çıxarılıb:*** bağırsaq trixomonozu (A07.8)

## A59.0 Urogenital trixomonoz

*Trichomonas (vaginalis)* tərəfindən törədilən:
- vaginal ağ ifrazat
- prostatit† (N51.0*)

## A59.8 Digər lokalizasiyalı trixomonoz

## A59.9 Dəqiqləşdirilməmiş trixomonoz

## A60 Anogenital herpetik virus infeksiyası ***[herpes simplex]***

## A60.0 Cinsiyyət orqanları və sidik-cinsiyyət aparatının herpetik infeksiyaları

Cinsiyyət aparatının herpetik infeksiyaları:
- qadınların† (N77.0-N77.1*)
- kişilərin† (N51.–*)

## A60.1 Anusətrafı nahiyənin dərisinin və düz bağırsağın herpetik infeksiyaları

## A60.9 Anogenital nahiyənin dəqiqləşdirilməmiş herpetik infeksiyası

## A63 Əsasən cinsi yolla keçən və başqa rubrikalarda təsnif olunmayan digər xəstəliklər

***Çıxarılıb:*** kontagioz mollyusk (B08.1)
uşaqlıq boynu papiloması (D26.0)

## A63.0 Anogenital (zöhrəvi) ziyillər

## A63.8 Əsasən cinsi yolla keçən digər dəqiqləşdirilmiş xəstəliklər

### A64 Cinsi yolla keçən dəqiqləşdirilməmiş xəstəliklər

***Daxil edilib:*** ƏGO zöhrəvi xəstəliklər

## Spiroxetlər tərəfindən törədilən digər xəstəliklər (A65-A69)

***Çıxarılıb:*** leptospiroz (A27.–)
sifilis (A50-A53)

### A65 Qeyri-zöhrəvi sifilis

***Daxil edilib:*** Endemik sifilis
Becel
Novera

### A66 Frambeziya

***Daxil edilib:*** bouba
pian
frambeziya (tropik)

### A66.0 Birincili frambeziya zədələnmələri

Bərk şankr
Frambeziya (birincili)
Birincili frambeziya xorası Frambezioma

### A66.1 Çoxsaylı ayaqaltı papillomalar və pianoma

Frambezioma
Pianoma
Ayaqaltı və ya ovcun frambeziya papillomaları

### A66.2 Dərinin digər erkən frambeziya zədələnmələri

Yoluxma müddətinin 5 ildən az olmaq şərtilə rast gəlinən dəri frambeziyaları Erkən (dəri) (ləkəli) (ləkəli-papulyoz) (mikropapulyoz) (papulyoz) frambeziyalar Erkən frambeziyada təzahür olunan frambezid (Framboeside of early yaws)

### A66.3 Frambeziya hiperkeratozu

«Vampir əli» (Ghoul hand)
Frambeziya zamanı əmələ gələn ovuc və ya ayaqaltının (erkən) (gecikmiş) hiperkeratozu
Ayaqaltında təzahür edən «bir-birinə bitişmiş qurdlar»(Worm-eaten soles) əlaməti

### A66.4 Frambeziya qummaları və xoraları

Qummoz frambezid (Gummatous framboeside)
Düyünlü gecikmiş (xoralı) frambeziya (Nodular late yaws ulcerated)

### A66.5 Qanqoza

Şikəst edən (eybəcər hala salan) rinofaringit

### A66.6 Frambeziya zamanı sümük və oynaqların zədələnmələri

(Erkən) (gecikmiş) frambeziya zamanı:

- qanqlion
- hidrartroz
- ostit
- periostit (hipertrofik) (Gecikmiş) frambeziya zamanı:
- qundu
- sümük qumması
- qummoz ostit və periostit

### A66.7 Frambeziyanın digər təzahürləri

Frambeziya zamanı oynaq ətrafında düyüncüklərin əmələ gəlməsi
Selikli qişaların frambeziyası

### A66.8 Latent frambeziya
Klinik əlamətlərin meydana çıxmaması , lakin seroloji reaksiyanın müsbət olması ilə rast gəlinən frambeziya

### A66.9 Dəqiqləşdirilməmiş frambeziya

## A67 Pinta [karate]

### A67.0 Pinta zamanı baş verən ilkin zədələnmələr
Pinta [karate] zamanı:
- şankr (birincili)
- papula (birincili)

### A67.1 Pinta zamanı baş verən aralıq zədələnmələr
Pinta [karate] zamanı:
- eritematoz lövhəciklər
- hiperxrom dəri zədələnmələri
- hiperkeratoz
- pintidlər

### A67.2 Pinta [karate] zamanı baş verən gec zədələnmələr
Pinta [karate] zamanı
- ürək-damar zədələnmələri † (I98.1*)
- dəri zədələnmələri:
  - depiqmentasiyalı
  - çapıqlı
  - disxrom

### A67.3 Pinta zamanı baş verən qarışıq zədələnmələr
Pinta [karate] zamanı dərinin depiqmentasiyalı və hiperxrom zədələnmələri

### A67.9 Dəqiqləşdirilməmiş pinta

## A68 Qayıdan qızdırmalar ***Daxil edilib:*** qayıdan yatalaq ***Çıxarılıb:*** Laym xəstəliyi (A69.2)

### A68.0 Bit yoluxduran qayıdan qızdırma
*Borrelia recurrentis* tərəfindən törədilən qayıdan qızdırma

### A68.1 Epidemik qayıdan yatalaq
*Borrelia recurrentis* istisna olmaqla *Borrelia species* törədicisinin istənilən növü tərəfindən törədilən qayıdan qızdırmalar

### A68.9 Dəqiqləşdirilməmiş qayıdan qızdırma

## A69 Spiroxetlər tərəfindən törədilən digər infeksiyalar

### A69.0 Nekrozlaşan xoralı stomatit
Xoralı-nekrotik stomatit
Fuzospiroxetoz qanqrena
Noma
Qanqrenoz stomatit

### A69.1 Vensanın digər infeksiyaları
Fuzospiroxetoz faringit
Xoralı (kəskin) nekrotik:
- gingivit
- gingivostomatit Spiroxetoz stomatit Xoralı-ərpli ağız

Vensan:
- anginası
- gingiviti

### A69.2 Laym xəstəliyi
*Borrelia burgdorferi* tərəfindən törədilən xroniki yayılan eritema

A69.8 Spiroxetlər tərəfindən törədilən digər dəqiqləşdirilmiş infeksiyalar

A69.9 Spiroxetlər tərəfindən törədilən dəqiqləşdirilməmiş infeksiya

## Xlamidiyalar tərəfindən törədilən digər xəstəliklər (A70-A74)

### A70 ***Chlamydia psittaci*** tərəfindən törədilən infeksiya

***Daxil edilib:*** Ornitozlar
Tutuquşu qızdırması (xəstəliyi)(parrot fever)
Psittakoz

### A71 Traxoma

***Çıxarılıb:*** traxomanın nəticələri (B94.0)

A71.0 Traxomanın başlanğıc mərhələsi
Şübhəli traxoma

A71.1 Traxomanın aktiv mərhələsi
Dənəli (traxoma) konyuktivit Traxoma :
- follikulyar konyuktiviti
- pannusu

A71.9 Dəqiqləşdirilməmiş traxoma

### A74 Xlamidiyalar tərəfindən törədilən digər xəstəliklər

***Çıxarılıb:*** xlamidiya mənşəli pnevmoniya (J16.0)
yenidoğulmuşların xlamidiyalı:
- konyuktiviti (P39.1)
- pnevmoniyası (P23.1)

cinsi yolla keçən və xlamidiyalar tərəfindən törədilən xəstəliklər (A55-A56)

A74.0† Xlamidiya mənşəli konyuktivit (H13.1*)
Paratraxoma

A74.8 Xlamidiyalar tərəfindən törədilən digər xəstəliklər
Xlamidiya mənşəli peritonit† (K67.0*)

A74.9 Dəqiqləşdirilməmiş xlamidiya infeksiyası
ƏGO xlamidioz

## Rikketsiozlar (A75-A79)

### A75 Səpgili yatalaq

***Çıxarılıb:*** *Ehrlichia sennetsu* tərəfindən törədilən rikketsioz (A79.8)

A75.0 ***Rickettsia prowazekii*** tərəfindən törədilən və bit yoluxduran epidemik yatalaq
Klassik yatalaq (qızdırma)
Epidemik səpgili yatalaq

A75.1 Residivverən yatalaq [Brill xəstəliyi]
Brill xəstəliyi

A75.2 ***Rickettsia typhi*** tərəfindən törədilən yatalaq
Siçovul səpgili yatalağı

A75.3 ***Rickettsia tsutsugamushi*** tərəfindən törədilən yatalaq
Gənə (tropik) yatalağı
Tsutsuqamuşi (yapon çay) qızdırması

A75.9 Dəqiqləşdirilməmiş səpgili yatalaq
ƏGO yatalaq (qızdırma)

A77 Ləkəli qızdırma [gənə rikketsiozları]

A77.0 ***Rickettsia rickettsii*** tərəfindən törədilən ləkəli qızdırma
*Rocky Mountain* ləkəli qızdırması
*Sao-Paulo* qızdırması

A77.1 ***Rickettsia conorii*** tərəfindən törədilən ləkəli qızdırma
Afrika ləkəli (gənə) qızdırması
Aralıq dənizinin ləkəli (gənə)qızdırması
Hindistan ləkəli (gənə)qızdırması
Keniya ləkəli (gənə)qızdırması
Marsel qızdırması

A77.2 ***Rickettsia siberica*** tərəfindən törədilən ləkəli qızdırma
Şimali Asiya ləkəli (gənə) qızdırması
Sibir ləkəli (gənə) qızdırması

A77.3 ***Rickettsia australis*** tərəfindən törədilən ləkəli qızdırma
Kvinslend gənə yatalağı

A77.8 Digər ləkəli qızdırmalar

A77.9 Dəqiqləşdirilməmiş ləkəli qızdırma
ƏGO ləkəli qızdırma

A78 Ku qızdırması
*Daxil edilib: Coxiella burnetii* tərəfindən törədilən infeksiya
Avstraliya qızdırması
Kvadrilateral qızdırma

A79 Digər rikketsiozlar

A79.0 Səngər qızdırması Beşgünlük paroksizmal qızdırma Volın [Wolhynian] qızdırması

A79.1 ***Rickettsia akari*** tərəfindən törədilən çiçəyəbənzər rikketsioz
Kyu Qarden qızdırması
Vezikulyoz rikketsioz

A79.8 Digər dəqiqləşdirilmiş rikketsiozlar
*Ehrlichia sennetsu* tərəfindən törədilən rikketsioz

A79.9 Dəqiqləşdirilməmiş rikketsioz
Rikketsiyalar tərəfindən törədilən ƏGO infeksiya

## Mərkəzi sinir sisteminin virus infeksiyaları (A80-A89)

***Çıxarılıb:*** virus ensefalitinin nəticələri (B 94.1)
poliomielitin nəticələri (B 91)

A80 Kəskin poliomielit

A80.0 Vaksinasiyadan sonra baş verən kəskin paralitik poliomielit

A80.1 Vəhşi heyvanlar tərəfindən daşınan virus tərəfindən törədilən kəskin paralitik poliomielit

A80.2 Vəhşi təbii virus tərəfindən törədilən kəskin paralitik poliomielit

A80.3 Digər və dəqiqləşdirilməmiş kəskin paralitik poliomielit
A80.4 Kəskin qeyri-paralitik poliomielit
A80.9 Dəqiqləşdirilməmiş kəskin poliomielit

A81 Mərkəzi sinir sisteminin atipik virus infeksiyaları
*Daxil edilib:* mərkəzi sinir sisteminin prion mənşəli xəstəliyi
A81.0 Kreytsfeldt-Yakob xəstəliyi
Yarımkəskin süngərəbənzər ensefalopatiya
A81.1 Yarımkəskin sklerozlaşdırıcı panensefalit Virus cisimcikləri əlavəsi ilə rast gəlinən Davson ensefaliti Sklerozlaşdırıcı Van-Boqart leykoensefalopatiyası
A81.2 Çoxocaqlı şiddətlənən leykoensefalopatiya
ƏGO çoxocaqlı leykoensefalopatiya
A81.8 Mərkəzi sinir sisteminin digər atipik virus infeksiyaları
Kuru
A81.9 Mərkəzi sinir sisteminin dəqiqləşdirilməmiş atipik virus infeksiyaları
Mərkəzi sinir sisteminin ƏGO prion mənşəli xəstəlikləri

A82 Quduzluq
A82.0 Meşə quduzluğu
A82.1 Şəhər tipli quduzluq
A82.9 Dəqiqləşdirilməmiş quduzluq

A83 Ağcaqanadla yoluxan virus ensefaliti *Daxil edilib:* ağcaqanadla yoluxan virus meninqoensefaliti *Çıxarılıb:* Venesuella at ensefaliti (A92.2)
A83.0 Yapon ensefaliti
A83.1 Qərb at ensefaliti
A83.2 Şərq at ensefaliti
A83.3 Sent-Luis ensefaliti
A83.4 Avstraliya ensefaliti
*Kunjin* virusu tərəfindən törədilən xəstəlik
A83.5 Kaliforniya ensefaliti
Kaliforniya meninqoensefaliti
La Kross ensefaliti
A83.6 Rotsio virusu tərəfindən törədilən xəstəlik
A83.8 Ağcaqanadla yoluxan digər virus ensefalitləri
A83.9 Ağcaqanadla yoluxan dəqiqləşdirilməmiş ensefalit

A84 Gənə ilə yoluxan virus ensefaliti
*Daxil edilib:* gənə ilə yoluxan virus meninqoensefaliti
A84.0 Uzaq - Şərq gənə ensefaliti [rus yaz-yay ensefaliti] A84.1 Mərkəzi Avropa gənə ensefaliti
A84.8 Gənə ilə yoluxan digər virus ensefalitləri
*Loupinq* xəstəliyi
*Povassan* virusu tərəfindən törədilən ensefalit
A84.9 Gənə ilə yoluxan dəqiqləşdirilməmiş virus ensefaliti

## A85 Başqa rubrikalarda təsnif olunmayan digər virus ensefalitləri

***Daxil edilib:*** dəqiqləşdirilmiş virus:
- ensefalomieliti BBTO
- meninqoensefaliti BBTO

***Çıxarılıb:*** xoşxassəli əzələ ensefalomieliti (G93.3)
limfositar xoriomeningit (A87.2)
törədicisi:
- herpes virusu [herpes simplex] olan ensefalit (B00.4)
- qızılca virusu olan ensefalit (B05.0)
- kəmərləyici dəmrov virusu olan ensefalit (B02.0)
- poliomielit virusu olan ensefalit (A80.–)
- epidemik parotit virusu olan ensefalit (B26.2)

### A85.0† Enterovirus ensefaliti (G05.1*)

Enterovirus ensefalomieliti

### A85.1† Adenovirus ensefaliti (G05.1*)

Adenovirus meninqoensefaliti

### A85.2 Buğumayaqlılar vasitəsilə ötürülən dəqiqləşdirilməmiş virus ensefaliti

### A85.8 Digər dəqiqləşdirilmiş virus ensefalitləri

Letargik ensefalit
*Ekonomo-Fon* xəstəliyi

## A86 Dəqiqləşdirilməmiş virus ensefaliti

Virus:
- ensefalomieliti, ƏGO
- meninqoensefaliti, ƏGO

## A87 Virus meningiti

***Çıxarılıb:*** herpes virusu [herpes simplex] tərəfindən törədilən meningit (B00.3) Qızılca virusu tərəfindən törədilən meningit (B05.1)
Kəmərləyici dəmrov virusu tərəfindən törədilən meningit (B02.1) Poliomielit virusu tərəfindən törədilən meningit (A80.–)
Epidemik parotit virusu tərəfindən törədilən meningit (B26.1)

### A87.0† Enterovirus meningiti (G02.0*)

Koksaki virusu tərəfindən törədilən meningit
ECHO-virusu tərəfindən törədilən meningit

### A87.1† Adenovirus meningiti (G02.0*)

### A87.2 Limfositar xoriomeningit

Limfositor meninqoensefalit

### A87.8 Digər virus meningiti

### A87.9 Dəqiqləşdirilməmiş virus meningiti

## A88 Mərkəzi sinir sisteminin başqa rubrikalarda təsnif olunmayan digər virus infeksiyaları

***Çıxarılıb:*** virus mənşəli:
- meningit ƏGO (A87.9)
- ensefalit ƏGO (A86)

### A88.0 Ekzantematoz enterovirus qızdırması [Boston ekzanteması]

### A88.1 Epidemik başgicəllənmə

### A88.8 Mərkəzi sinir sisteminin digər dəqiqləşdirilmiş virus infeksiyaları

## A89 Mərkəzi sinir sisteminin dəqiqləşdirilməmiş virus infeksiyası

## Buğumayaqlılar vasitəsilə ötürülən virus qızdırmaları və virus etiologiyalı hemorragik qızdırmalar (A90-A99)

### A90 Denge qızdırması [klassik denge qızdırması]
***Çıxarılıb:*** denge virusu tərəfindən törədilən hemorragik qızdırma (A91)

### A91 Denge virusu tərəfindən törədilən hemorragik qızdırma

### A92 Ağcaqanadla yoluxan digər virus qızdırmaları
***Çıxarılıb:*** Ross çayı xəstəliyi (B33.1)

A92.0 Çikunqun virusu tərəfindən törədilən xəstəlik

A92.1 O'Nonq-Nonq qızdırması

A92.2 Venesuella at qızdırması

Venesulla at :
- ensefaliti
- viruslu ensefalomieliti

A92.3 Qərbi Nil virus infeksiyası

Qərbi Nil qızdırması

A92.4 Rift-Valli [Rift vadisi] qızdırması

A92.8 Ağcaqanadla yoluxan digər dəqiqləşdirilmiş virus qızdırması

A92.9 Ağcaqandla yoluxan dəqiqləşdirilməmiş virus qızdırması

### A93 Buğumayaqlılar vasitəsilə ötürülən və başqa rubrikalarda təsnif olunmayan digər virus qızdırmaları

A93.0 Oropuş virusu tərəfindən törədilən xəstəlik

Oropuş qızdırması

A93.1 Mığmığa qızdırması

Pappataçi qızdırması
Flebotom qızdırması

A93.2 Kolorado gənə qızdırması

A93.8 Buğumayaqlılar vasitəsilə ötürülən digər dəqiqləşdirilmiş virus qızdırmaları

Piru virusu tərəfindən törədilən xəstəlik
Virus mənşəli vezukulyar stomatit [İndiana qızdırması]

### A94 Buğumayaqlılar vasitəsilə ötürülən dəqiqləşdirilməmiş virus qızdırması
ƏGO arbovirus qızdırması
ƏGO arbovirus infeksiyası

### A95 Sarı qızdırma

A95.0 Meşəlik tipli sarı qızdırma

Sarı qızdırmanın cəngəllik forması

A95.1 Şəhər tipli sarı qızdırma

A95.9 Dəqiqləşdirilməmiş sarı qızdırma

### A96 Arenovirus etiologiyalı hemorragik qızdırma

A96.0 Xunin hemorragik qızdırması

Argentina hemorragik qızdırması

A96.1 Maçupo hemorragik qızdırması
Boliviya hemorragik qızdırması
A96.2 Lassa qızdırması
A96.8 Arenovirus etiologiyalı digər hemorragik qızdırmalar
A96.9 Arenovirus etiologiyalı dəqiqləşdirilməmiş hemorragik qızdırma

A98 Başqa rubrikalarda təsnif olunmayan virus etiologiyalı digər hemorragik qızdırmalar
***Çıxarılıb:*** Çikunqun hemorragik qızdırması (A92.0) Denge hemorragik qızdırması (A91)
A98.0 Krım hemorragik qızdırması [Konqo virusu tərəfindən törədilən]
Orta Asiya hemorragik qızdırması
A98.1 Omsk hemorragik qızdırması
A98.2 Kyasanur meşə xəstəliyi
A98.3 Marburq virusu tərəfindən törədilən xəstəlik
A98.4 Ebola virusu tərəfindən törədilən xəstəlik
A98.5 Böyrək sindromu ilə müşayiət olunan hemorragik qızdırma
Hemorragik qızdırma:
- Epidemik
- Koreya
- Rusiya

Hantan virusu tərəfindən törədilən xəstəlik Hantavirus xəstəliyi, böyrək sindromu ilə Epidemik nefropatiya
***Çıxarılıb:*** ürək-ağ ciyər sindromu ilə müşayiət olunan hantavirus xəstəliyi (B33.4† J17.1*)
A98.8 Virus etiologiyalı digər dəqiqləşdirilmiş hemorragik qızdırmalar

A99 Virus etiologiyalı dəqiqləşdirilməmiş hemorragik qızdırma

## Dəri və selikli qişaların zədələnməsi ilə müşayiət olunan virus infeksiyaları (B00-B09)

**B00 Sadə herpes virusu [herpes simplex] tərəfindən törədilən** infeksiyalar
***Çıxarılıb:*** anogenital herpetik virus infeksiyası (A60.–) anadangəlmə herpetik virus infeksiyası (P35.2) qamma-herpetik virus mononukleozu (B27.0) herpetik angina (B08.5)
B00.0 Herpetik ekzema
Kapoşi sindromu ( çiçəyəbənzər səpgilər)
B00.1 Herpetik vezikulyar dermatit
Sadə herpes virusu tərəfindən törədilən:
- facialis(üz)
- labialis (dodaq)

İnsanın (alfa) 2- herpesvirusu tərəfindən törədilən:
- qulağın vezikulyar dermatiti
- dodağın vezikulyar dermatiti

B00.2 Herpetik gingivostomatit və farinqotonzillit
Herpetik faringit
B00.3† Herpetik meningit (G02.0*)

### B00.4† Herpetik ensefalit (G05.1*)
Herpetik meninqoensefalit
Törədicisi «B» herpes virusu olan meymun xəstəliyi

### B00.5† Gözün herpetik xəstəliyi
Sadə herpes virusu tərəfindən törədilən:
- konyuktivit† (H13.1*)
- göz qapağı dermatiti† (H03.1*)
- iridosiklit† (H22.0*)
- irritit† (H22.0*)
- keratit† (H19.1*)
- keratokonyuktivit† (H19.1*)
- ön uveit† (H22.0*)

### B00.7 Yayılmış (səpələnmiş) herpes xəstəliyi
Sadə herpes virusu tərəfindən törədilən sepsis

### B00.8 Herpes infeksiyalarının digər formaları
Herpetik hepatit† (K77.0*)
Barmağın distal falanqasının yumşaq toxumasının irinli herpetik iltihabı (L99.8*)

### B00.9 Dəqiqləşdirilməmiş herpes infeksiyası
ƏGO herpes infeksiyası

## B01 Su çiçəyi [varicella]

### B01.0† Meningitlə ağırlaşan su çiçəyi(G02.0*)

### B01.1† Ensefalitlə ağırlaşan su çiçəyi(G05.1*)
Su çiçəyindən sonra baş verən ensefalit
Su çiçəyi zamanı müşahidə olunan ensefalomielit

### B01.2† Pnevmoniya ilə ağırlaşan su çiçəyi (J17.1*)

### B01.8 Digər ağırlaşmalarla müşayiət olunan su çiçəyi

### B01.9 Ağırlaşmasız keçən su çiçəyi
ƏGO su çiçəyi

## B02 Kəmərləyici dəmrov [herpes zoster]
***Daxil edilib:*** kəmərləyici herpes
zona

### B02.0† Ensefalitlə ağırlaşan kəmərləyici dəmrov (G05.1*)
Meninqoensefalitlə gedən kəmərləyici dəmrov

### B02.1† Meningitlə ağırlaşan kəmərləyici dəmrov (G02.0*)

### B02.2† Sinir sistemində baş verən digər ağırlaşmalarla müşayiət olunan kəmərləyici dəmrov
Postherpetik
- Üz siniri dizciyi düyünün qanqlioniti † (G53.0*)
- Postherpetik polineyropatiya † (G63.0*)
- Üçlü sinirin postherpetik nevralgiyası † (G53.0*)

### B02.3† Gözdə baş verən ağırlaşmalarla keçən kəmərləyici dəmrov
Kəmərləyici dəmrov virusu tərəfindən törədilən:
- blefarit† (H03.1*)
- konyuktivit† (H13.1*)
- iridosiklit† (H22.0*)
- irrit† (H22.0*)
- keratit† (H19.2*)
- keratokonyuktivit† (H19.2*)
- skleritit† (H19.0*)

B02.7 Yayılmış (səpələnmiş) kəmərləyici dəmrov

B02.8 Digər ağırlaşmalarla müşayət olunan kəmərləyici dəmrov

B02.9 Ağırlaşması olmayan kəmərləyici dəmrov
ƏGO kəmərləyici dəmrov

## B03 Çiçək[1]

## B04 Meymun çiçək virusu tərəfindən törədilən infeksiyalar

## B05 Qızılca

***Daxil edilib:*** morbilli
***Çıxarılıb:*** yarımkəskin sklerozlaşan panensefalit (A81.1)

B05.0† Ensefalitlə ağırlaşmış qızılca (G05.1*)
Qızılcadan sonrakı ensefalit

B05.1† Meningitlə ağırlaşmış qızılca (G02.0*)
Qızılcadan sonrakı meningit

B05.2† Pnevmoniya ilə ağırlaşmış qızılca (J17.1*)
Qızılcadan sonrakı pnevmoniya

B05.3† Orta otitlə ağırlaşmış qızılca (H67.1*)
Qızılcadan sonrakı orta otit

B05.4 Bağırsaq əlamətlərilə ağırlaşmış qızılca

B05.8 Digər ağırlaşmalarla müşayiət olunan qızılca
Qızılca keratiti və qızılca keratokonyunktiviti† (H19.2*)

B05.9 Ağırlaşması olmayan qızılca
ƏGO qızılca

## B06 Məxmərək [alman qızılcası]

***Çıxarılıb:*** anadangəlmə məxmərək (P35.0)

B06.0† Nevroloji ağırlaşmalarla müşayiət olunan məxmərək
Məxmərək:
- ensefaliti (G05.1*)
- meningiti (G02.0*)
- meninqoensefaliti (G05.1*)

B06.8 Digər ağırlaşmalarla müşayiət olunan məxmərək
Məxmərək:
- artriti† (M01.4*)
- pnevmoniyası† (J17.1*)

B06.9 Ağırlaşması olmayan məxmərək
ƏGO məxmərək

## B07 Virus ziyilləri

***Daxil edilib:*** Sadə ziyil
Yalançı ziyil
***Çıxarılıb:*** anogenital (zöhrəvi) ziyillər (A63.0)
qırtlağın papilloması (D14.1)
sidik kisəsinin papilloması (D41.4)
uşaqlıq boynunun papilloması (D26.0)

[1] 1980-cı il Ümumdünya Səhiyyə Məclisinin (ÜSM) 33-cü sessiyasında bütün dünyada (təbii) çiçəyin tamamilə ləğv edilməsi elan olundu. Ancaq epidemioloji nəzarət aparmaq məqsədilə təsnifatda bu xəstəliyin adı saxlanılır.

## B08 Dəri və selikli qişaların zədələnməsi ilə müşayiət edilən və başqa rubrikalarda təsnif olunmayan digər virus infeksiyaları

***Çıxarılıb:*** vezikulyar stomatit virusu tərəfindən törədilən xəstəlik (A93.8)

### B08.0 Ortopoks virusu tərəfindən törədilən digər infeksiyalar

İnək çiçəyi
Yoluxucu pustulalı dermatit
Yalançı inək çiçəyi [sağıcı düyüncükləri] Peyvənd xəstəliyi
***Çıxarılıb:*** meymun çiçək virusu tərəfindən törədilən infeksiyalar (B04)

### B08.1 Yoluxucu mollyusk

### B08.2 Qəfil ekzantema (altıncı xəstəlik)

### B08.3 İnfeksion eritema (beşinci xəstəlik)

### B08.4 Ekzantema ilə müşayiət olunan enterovirus mənşəli vezikulyar stomatit

Ağız boşluğu, əlin və ayaqların virus mənşəli pemfiqusu

### B08.5 Enterovirus mənşəli vezikulyar faringit

Herpetik angina

### B08.8 Dəri və selikli qişaların zədələnməsi ilə müşayiət olunan digər dəqiqləşdirilmiş infeksiyalar

Enterovirus mənşəli limfonodulyar faringit
Dabaq xəstəliyi
Tanapoks virus xəstəliyi
Yab virus xəstəliyi

## B09 Dəri və selikli qişaların zədələnməsi ilə müşayiət olunan dəqiqləşdirilməmiş virus infeksiyası

ƏGO virus enanteması
ƏGO virus ekzanteması

# Virus hepatitləri (B15-B19)

Posttransfuzion hepatit zamanı dərman maddəsini indentifikasiya etmək lazım gələrsə, əlavə koddan (XX sinif) istifadə edin.

***Çıxarılıb:*** herpes virusu [herpes simplex] tərəfindən törədilən hepatit (B00.8)
virus hepatitinin nəticələri (B94.2)
sitomeqalovirus tərəfindən törədilən hepatit (B25.1)

## B15 Kəskin A hepatiti

### B15.0 Qaraciyər koması ilə ağırlaşan A hepatiti

### B15.9 Qaraciyər koması ilə ağırlaşmayan A hepatiti

ƏGO (kəskin) (virus mənşəli) A hepatiti

## B16 Kəskin B hepatiti

### B16.0 Delta-amillə (koinfeksiya) və qaraciyər koması ilə müşayiət olunan kəskin B hepatiti

B16.1 Qaraciyər koması baş vermədən müşayiət olunan delta-amilli (koinfeksiya) kəskin B hepatiti
B16.2 Qaraciyər koması ilə müşayiət olunan delta-amilsiz kəskin B hepatiti
B16.9 Qaraciyər koması baş vermədən və delta-amilsiz B hepatiti
ƏGO (kəskin) (virus mənşəli) B hepatiti

B17 Digər kəskin virus hepatitləri
B17.0 B hepatiti virus gəzdiricisinin kəskin delta- (super) infeksiyası
B17.1 Kəskin C hepatiti
B17.2 Kəskin E hepatiti
B17.8 Digər dəqiqləşdirilmiş kəskin virus hepatitləri
ƏGO nə A, nə B (kəskin) (virus mənşəli) hepatitlər
B17.9 Dəqiqləşdirilməmiş kəskin virus hepatitləri
ƏGO kəskin hepatit

B18 Xroniki virus hepatiti
B18.0 Delta amilli virus mənşəli xroniki B hepatiti

B18.1 Delta amilsiz virus mənşəli xroniki B hepatiti
Xroniki (virus mənşəli) B hepatiti
B18.2 Virus mənşəli xroniki C hepatiti
B18.8 Digər xroniki virus hepatiti
B18.9 Dəqiqləşdirilməmiş xroniki virus hepatiti

B19 Dəqiqləşdirilməmiş virus hepatiti
B19.0 Qaraciyər koması ilə müşayiət olunan dəqiqləşdirilməmiş virus hepatiti
B19.9 Qaraciyər koması baş vermədən dəqiqləşdirilməmiş virus hepatiti

## İnsanın immun çatışmazlıq virusu [İİÇV] tərəfindən törədilən xəstəlik (B20-B24)

***Çıxarılıb:*** insanın immun çatışmazlıq virusu [İİÇV] tərəfindən törədilən simptomsuz infeksiya (Z21)
hamiləliyi, doğuşu və zahılıq dövrünü ağırlaşdıran insanın immun çatışmazlıq virus [İİÇV] xəstəliyi (O98.7)

B20 İnfeksion və parazitar xəstəliklərlə təzahür olunan insanın immun çatışmazlıq virus (İİÇV) xəstəliyi
***Çıxarılıb:*** İİÇV tərəfindən törədilən kəskin infeksion sindrom (B23.0)
B20.0 Mikobakterial infeksiya ilə təzahür olunan İİÇV xəstəliyi
Vərəm xəstəliyi iə təzahür olunan İİÇV xəstəliyi
B20.1 Digər bakterial infeksiya ilə təzahür olunan İİÇV xəstəliyi
B20.2 Sitomeqalovirus xəstəliyi ilə təzahür olunan İİÇV xəstəliyi
B20.3 Digər virus infeksiyaları ilə təzahür olunan İİÇV xəstəliyi
B20.4 Kandidoz xəstəliyi ilə təzahür olunan İİÇV xəstəliyi

B20.5 Digər mikozlar ilə təzahür olunan İİÇV xəstəliyi

B20.6 ***Pneumocystis jirovecii*** etiologiyalı pnevmoniya ilə təzahür olunan İİÇV xəstəliyi

*Pneumocystis carinii* etiologiyalı pnevmoniya ilə təzahür olunan İİÇV xəstəliyi

B20.7 Çoxsaylı infeksiyalarla təzahür olunan İİÇV xəstəliyi

B20.8 Digər infeksion və parazitar xəstəliklərlə təzahür olunan İİÇV xəstəliyi

B20.9 Dəqiqləşdirilməmiş infeksion və parazitar xəstəliklərlə təzahür olunan İİÇV xəstəliyi

ƏGO infeksiya ilə təzahür olunan İİÇV xəstəliyi

B21 Bədxassəli yenitörəmələrlə təzahür olunan insanın immun çatışmazlıq virus [İİÇV] xəstəliyi

B21.0 Kapoşi sarkoması ilə təzahür olunan İİÇV xəstəliyi

B21.1 Berkitt limfoması ilə təzahür olunan İİÇV xəstəliyi

B21.2 Digər qeyri-Hockin limfomaları ilə təzahür olunan İİÇV xəstəliyi

B21.3 Limfoid, qanyaradıcı və onlara mənşəyinə , quruluşuna görə yaxın olan toxumaların digər bədxassəli yenitörəmələrilə təzahür olunan İİÇV xəstəliyi

B21.7 Çoxsaylı bədxassəli yenitörəmələrlə təzahür olunan İİÇV xəstəliyi

B21.8 Digər bədxassəli yenitörəmələrlə təzahür olunan İİÇV xəstəliyi

B21.9 Dəqiqləşdirilməmiş bədxassəli yenitörəmələrlə təzahür olunan İİÇV xəstəliyi

B22 Digər dəqiqləşdirilmiş xəstəliklərlə təzahür olunan insanın immun çatışmazlıq virus [İİÇV] xəstəliyi

B22.0 Ensefalopatiya ilə təzahür olunan İİÇV xəstəliyi

İİÇV xəstəsində kəmağıllıq

B22.1 Llimfatik interstisial pnevmonitlə təzahür olunan İİÇV xəstəliyi

B22.2 Üzücü sindromla təzahür olunan İİÇV xəstəliyi

Həyat nişanələrinin sönməsi ilə təzahür olunan İİÇV xəstəliyi

Üzücü xəstəlik (kəskin arıqlama sindromu)

B22.7 Başqa rubrikalarda təsnif olunmayan çoxsaylı xəstəliklərlə təzahür edən İİÇV xəstəliyi

***Qeyd:*** Bu rubrikalardan istifadə edərkən II cilddə xəstələnmə və ölüm hallarının kodlaşdırılmasına aid müvafiq təlimata istinad olunmalıdır.

B23 Digər patoloji hallarla təzahür olunan insanın immun çatışmazlıq virus [İİÇV] xəstəliyi

B23.0 Kəskin İİÇV infeksiya sindromu

B23.1 Generalizə olunmuş (persistə edən) limfadenopatiya ilə təzahür olunan İİÇV xəstəliyi

B23.2 Başqa rubrikalarda təsnif olunmayan, hematoloji və immunoloji pozğunluqlarla təzahür edən İİÇV xəstəliyi

B23.8 Digər dəqiqləşdirilmiş patoloji hallarla təzahür olunan İİÇV xəstəliyi

## B24 İnsanın immun çatışmazlıq virusu [İİÇV] tərəfindən törədilən dəqiqləşdirilməmiş xəstəlik

ƏGO qazanılmış immun çatışmazlıq sindromu
ƏGO QİÇS-assosiasiya olunmuş kompleks

# Digər virus xəstəlikləri (B25-B34)

## B25 Sitomeqalovirus xəstəliyi

***Çıxarılıb:*** anadangəlmə sitomeqalovirus infeksiyası (P35.1)
sitomeqalovirus mənşəli mononukleoz (B27.1)

B25.0† Sitomeqalovirus pnevmoniyası (J17.1*)
B25.1† Sitomeqalovirus hepatiti (K77.0*)
B25.2† Sitomeqalovirus pankreatiti (K87.1*)
B25.8 Digər sitomeqalovirus xəstəlikləri
B25.9 Dəqiqləşdirilməmiş sitomeqalovirus xəstəliyi

## B26 Epidemik parotit

***Daxil edilib:*** epidemik parotit infeksion parotit

B26.0† Parotit mənşəli orxit (N51.1*)
B26.1† Parotit mənşəli meningit (G02.0*)
B26.2† Parotit mənşəli ensefalit (G05.1*)
B26.3† Parotit mənşəli pankreatit (K87.1*)
B26.8 Digər ağırlaşmalarla müşayiət olunan epidemik parotit

Parotit mənşəli:

- artrit† (M01.5*)
- miokardit† (I41.1*)
- nefrit† (N08.0*)
- polineyropatiya† (G63.0*)

B26.9 Ağırlaşması olmayan epidemik parotit

ƏGO epidemik parotit
ƏGO parotit

## B27 İnfeksion mononukleoz

***Daxil edilib:*** Pfeyffer xəstəliyi vəzili qızdırma monositar angina

B27.0 Qamma-herpetik virus tərəfindən törədilən mononukleoz

Uşaqlarda və ya böyüklərdə bədən çəkisinin itirilməsi və ya uşaqlarda çəki artımının olmamasıdır. Bu zaman müəyyən edilən çəki etalon qrup üçün müəyyən edilmiş orta göstəricidən 2 standart kənaraçıxma az olur (və ya başqa standart metodlarla müəyyən edilmiş oxşar çəki azalması). Əgər bədən çəkisinin ölçülməsi haqda yalnız bir mə'lumat varsa, orta dərəcə çatmamazlıq haqda yalnız orta inamla danışmaq olar ki, azı 2 standart kənaraçəxma qədər aşkar edilmiş olsun.

### E44.1 Yüngül dərəcəli zülal-enerji çatmamazlığı

Uşaqlarda və ya böyüklərdə bədən çəkisinin etalon kimi götürülmüş əhali qrupunda olduğundan 1 və daha artıq, lakin 2-dən az standart kənaraçıxma qədər fərqlənən bədən çəkisinin itirilməsi və ya çəki artımının olmamasıdır. Müəyyən edilən çəki etalon qrup üçün müəyyən edilmiş orta göstəricidən 1 və ya 1-dən çox, lakin 2-dən az standart kənaraçıxma qədər az olur. (və ya başqa standart metodlarla əks olunmuş oxşar çəki azalması). Əgər bədən çəkisinin ölçülməsi haqda yalnız bir mə'lumat varsa, yüngül dərəcə zülal – enerji çatmamazlığı haqda onda inamla danışmaq olar ki, azı 1 (lakin 2-dən az) standart kənaraçıxma qədər orta göstəricidən aşağı olan bədən çəkisi qədər göstərici aşkar edilmiş olsun.

## E45 Zülal-enerji çatmamazlığı ilə əlaqədar inkişafın ləngiməsi

*Daxil edilib:* Alimentar:
- cırtdanboyluluq
- boy inkişafının ləngiməsi

Qidalanma çatmamazlığı ilə əlaqədar fiziki inkişafın ləngiməsi

## E46 Dəqiqləşdirilməmiş zülal-enerji çatmamazlığı

*Daxil edilib:* ƏGO qidalanma çatmamazlığı
ƏGO zülal-enerji disbalansı

## Qidalanma çatmamazlığının digər növləri (E50-E64)

***Çıxarılıb:*** alimentar anemiyalar (D50-D53)

### E50 A vitamini çatmamazlığı

***Çıxarılıb:*** A vitamini çatmamazlığının nəticəsi (E64.1)

**E50.0 A vitamininin konyuktivanın kserozu ilə müşayiət olunan çatmamazlığı**

**E50.1 A vitamininin bito yastıqcıqları və konyuktivanın kserozu ilə müşayiət olunan çatmamazlığı**

Kiçik yaşlı uşaqlarda Bito yastıqcıqları

**E50.2 A vitamininin buynuz qişanın kserozu ilə müşayiət olunan çatmamazlığı**

**E50.3 A vitamininin buynuz qişanın kserozu və xoralaşması ilə müşayiət olunan çatmamazlığı**

**E50.4 A vitamininin keratomalyasiya ilə müşayiət olunan çatmamazlığı**

**E50.5 A vitamininin toyuq korluğu ilə müşayiət olunan çatmamazlığı**

**E50.6 A vitamininin buynuz qişanın kseroftalmik çapıqlaşması ilə müşayiət olunan çatmamazlığı**

**E50.7 A vitamininin digər göz əlamətləri ilə müşayiət olunan çatmamazlığı**

ƏGO kseroftalmiya

**E50.8 A vitamininin çatmamazlığının digər əlamətləri**

A vitamini çatmamazlığı nəticəsində əmələ gəlmiş† (L86*):
- follikulyar keratoz
- kseroderma

**E50.9 A vitamininin dəqiqləşdirilməmiş çatmamazlığı**

ƏGO A hipovitaminozu

### E51 Tiamin çatmamazlığı

***Çıxarılıb:*** tiamin çatmamazlığının nəticələri (E64.8)

**E51.1 Beri-beri**

Beri-beri:
- quru forma
- yaş forma† (I98.8*)

**E51.2 Vernike ensefalopatiyası**

**E51.8 Tiamin çatmamazlığının digər əlamətləri**

**E51.9 Dəqiqləşdirilməmiş tiamin çatmamazlığı**

### E52 Nikotin turşusunun çatmamazlığı (pellaqra)

***Daxil edilib:*** Çatmamazlıq:
- Niasinin(-triptofan)
- Nikotinamidin

Pellaqra (alkoqol)

***Çıxarılıb:*** nikotin turşusu çatmamazlığının nəticələri (E64.8)

### E53 Digər B qrup vitaminlərin çatmamazlığı

***Çıxarılıb:*** B vitamini çatmamazlığının nəticələri (E64.8)
$B_{12}$ vitamini defisitli anemiya (D51.–)

**E53.0 Riboflavinin çatmamazlığı**
Ariboflavinoz

**E53.1 Piridoksin çatmamazlığı**
$B_6$ vitamini çatmamazlığı
***Çıxarılıb:*** piridoksin asılı sideroblast anemiya (D64.3)

**E53.8 B qrupuna aid digər dəqiqləşdirilmiş vitaminlərin çatmamazlığı**
Biotinin, Siankobalaminin, Fol turşusunun, Folatların, Pantoten turşusunun, $B_{12}$ vitaminin } çatmamazlığı

**E53.9 B qrup vitaminlərinin dəqiqləşdirilməmiş çatmamazlığı**

## E54 Askorbin turşusunun çatmamazlığı
C vitaminin çatmamazlığı
Sinqa
***Çıxarılıb:*** sinqa ilə əlaqədar əmələ gəlmiş anemiya (D53.2)
C vitamini çatmamazlığının nəticələri (E64.2)

## E55 D vitamininin çatmamazlığı
***Çıxarılıb:*** yaşlılarda osteomalyasiya (M83.–)
osteoporoz (M80-M81)
raxitin nəticələri (E64.3)

**E55.0 Aktiv raxit**
Osteomalyasiya:
- uşaqlarda
- gənclərdə

***Çıxarılıb:*** raxit:
- bağırsaq tipli (K90.0)
- Kron xəstəliyi ilə əlaqədar (E50.–)
- qeyri-aktiv (E64.3)
- böyrək mənşəli (N25.0)
- D vitamininə rezistent (E83.3)

**E55.9 D vitamininin dəqiqləşdirilməmiş çatmamazlığı**
D avitaminozu

## E56 Digər vitaminlərin çatmamazlığı
***Çıxarılıb:*** digər vitaminlərin çatmamazlığının nəticələri (E64.8)

**E56.0 E vitamininin çatmamazlığı**

**E56.1 K vitamininin çatmamazlığı**
***Çıxarılıb:*** K vitamininin defisiti nəticəsində qanın laxtalanma faktorlarının çatmamazlığı (D68.4)
yenidoğulmuşda K vitamininin çatmamazlığı (P53)

**E56.8 Digər vitaminlərin çatmamazlığı**

**E56.9 Dəqiqləşdirilməmiş vitamin çatmamazlığı**

## E58 Kalsiumun alimentar çatmamazlığı
***Çıxarılıb:*** kalsium mübadiləsinin pozğunluğu (E83.5)
kalsium çatmamazlığının nəticələri (E64.8)

## E59 Selenin alimentar çatmamazlığı
Keşan xəsətliyi
***Çıxarılıb:*** selen çatmamazlığının nəticələri (E64.8)

## E60 Sinkin alimentar çatmamazlığı

## E61 Digər qida elementlərinin çatmamazlığı

Medikamentoz mənşəli çatmamazlığa səbəb olan dərman preparatını müəyyənləşdirmək lazım gələrsə, xarici səbəblərin əlavə kodundan (XX sinif) istifadə edilir.

***Çıxarılıb:*** mineral mübadilənin pozğunluğu (E83.–)
yod çatmamazlığı ilə əlaqədar qalxanabənzər vəzinin funksiyasının pozğunluğu (E00-E02)
qidalanmanın və digər qida maddalərinin çatmamazlığının nəticələri (E64.–)

### E61.0 Mis çatmamazlığı

### E61.1 Dəmir çatmamazlığı

***Çıxarılıb:*** dəmir defisitli anemiya (D50.–)

### E61.2 Maqnezium çatmamazlığı

### E61.3 Manqan çatmamazlığı

### E61.4 Xrom çatmamazlığı

### E61.5 Molibden çatmamazlığı

### E61.6 Vanadium çatmamazlığı

### E61.7 Qidanın çox elementinin çatmamazlığı

### E61.8 Digər dəqiqləşdirilmiş qida elementlərinin çatmamazlığı

### E61.9 Qida elementlərinin dəqiqləşdirilməmiş çatmamazlığı

## E63 Qida çatmamazlığının digər növləri

***Çıxarılıb:*** susuzlaşma (E86)
böyümənin pozulması (R62.8)
yenidoğulmuşu qidalandırma problemləri (P92.–)
qidalanmanın və digər qida maddələrinin çatmamazlığının nəticələri (E64.–)

### E63.0 Əvəzolunmaz yağ turşularının çatmamazlığı

### E63.1 Qida elementlərinin qeyri-adekvat qəbul edilməsi

### E63.8 Qidalanma çatmamazlığının digər dəqiqləşdirilmiş növləri

### E63.9 Dəqiqləşdirilməmiş qidalanma çatmamazlığı

ƏGO qidalanma çatmamazlığı nəticəsində meydana çıxan kardiomiopatiya (I43.2*)

## E64 Qidalanmanın və digər qida maddələrinin çatmamazlığının nəticələri

***Qeyd:*** Qidalanmanın və ya qida maddələrinin xroniki çatmamazlığı zamanı istifadə edilməməlidir. Bu kod qidalanmanın və ya qida maddələrinin hazırda müşahidə olunan çatmamazlığı üçündür.

### E64.0 Zülal-enerji çatmamazlığının nəticələri

***Çıxarılıb:*** zülal-enerji çatmamazlığı ilə əlaqədar inkişafın ləngiməsi (E45)

### E64.1 A vitamininin çatmamazlığının nəticələri

### E64.2 C vitamininin çatmamazlığının nəticələri

### E64.3 Raxitin nəticələri

Kifozu identifikasiya etmək lazım gələrsə, əlavə koddan (M40.1, M41.5) istifadə edlir.

### E64.8 Digər vitaminlərin çatmamazlığının nəticələri

### E64.9 Dəqiqləşdirilməmiş qida maddələrinin çatmamazlığının nəticələri

## Piylənmə və artıq qidalanmanın digər növləri (E65-E68)

### E65 Lokalizə olunmuş piy toplanması
Piy yastıqları

### E66 Piylənmə
*Çıxarılıb:* adipozogenital distrofiya (E23.6)
lipomatoz:
- ƏGO (E88.2)
- Derkum xəstəliyi (E88.2)

Prader-Villi sindromu (Q87.1)

### E66.0 Energetik resursların artıq miqdarda daxil olması Ilə əlaqədar piylənmə

### E66.1 Dərman maddələrinin qəbulu ilə əlaqədar piylənmə
Dərman preparatının adını müəyyənləşdirmək lazım gələrsə, xarici səbəblərin əlavə kodundan (XX sinif) istifadə edilir.

**E66.2 Alveolyar hipoventilyasiya ilə müşayiət olunan yüksək dərəcəli piylənmə**
Pikkvik sindromu

**E66.8 Piylənmənin digər formaları**
Ağrılı piylənmə

**E66.9 Dəqiqləşdirilməmiş piylənmə**
ƏGO sadə piylənmə

### E67 Artıq qidalanmanın digər növləri
*Çıxarılıb:* ƏGO artıq qidalanma (R63.2)
artıq qidalanmanın nəticələri (E68)

**E67.0 A hipervitaminozu**
**E67.1 Hiperkarotinemiya**
**E67.2 Yüksək dozalı $B_6$ vitamini sindromu**
**E67.3 D hipervitaminozu**
**E67.8 Artıq qidalanmanın digər dəqiqləşdirilmiş formaları**

### E68 Artıq qidalanmanın nəticələri
***Qeyd:*** Xroniki artıq qidalanma üçün istifadə edilməməlidir. Bu kod hazırda müşahidə olunan artıq qidalanma üçündür.

## Maddələr mübadiləsinin pozğunluqları (E70-E90)

*Çıxarılıb:* androgen rezistentlik sindromu (E34.5)
böyrəküstü vəzilərin anadangəlmə hiperplaziyası (E25.0)
Elers-Danlo sindromu (Q79.6)
ferment pozğunluğu ilə əlaqədar hemolitik anemiya (D55.–)
Marfan sindromu (Q87.4)
5-α-reduktazanın çatmamazlığı (E29.1)

### E70 Aromatik aminturşu mübadiləsinin pozğunluqları

**E70.0 Klassik fenilketonuriya**

**E70.1 Hiperfenilalaninemiyanın digər növləri**

**E70.2 Tirozin mübadiləsinin pozğunluqları**

Alkaptonuriya Hipertirozinemiya Oxranoz Tirozinemiya Tirozinoz

**E70.3 Albinizm**

Albinizm:

- göz forması
- dəri-göz forması

Çediak-(-Steynbrink)-Hiqaşi sindromu
Kross sindromu
Hermanski-Pudlak sindromu

**E70.8 Aromatik aminturşu mübadiləsinin digər pozğunluqları**

Histidin mübadiləsinin pozğunluqları
Triptofan mübadiləsinin pozğunluqları

**E70.9 Aromatik aminturşu mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluqları**

## E71 Şaxəli zəncirli aminturşularının və yağ turşularının mübadiləsinin pozğunluqları

**E71.0 "Ağcaqayın şirəsi" xəstəliyi**

**E71.1 Şaxəli zəncirli aminturşularının digər pozğunluğu**

Hiperleysin-izoleysinemiya
Hipervalinemiya İzovalerian asidemiya Metilmalon asidemiya
Propion asidemiya

**E71.2 Şaxəli zəncirli aminturşu mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluqları**

**E71.3 Yağ turşuları mübadiləsinin pozğunluqları**

Adrenoleykodistrofiya [Addison-Şilder]
Əzələ tipli karnitin palmitiltransferazanın çatmamazlığı
***Çıxarılıb:*** Şilder xəstəliyi (G37.0)

## E72 Aminturşu mübadiləsinin digər pozğunluqları

***Çıxarılıb:*** xəstəlik əlamətləri olmadan normadan kənaraçıxma (R70-R89)
aromatik aminturşu mübadiləsinin pozğunluğu (E70.–)
şaxəli zəncirli aminturşuları mübadiləsinin pozğunluğu (E71.0-E71.2)
yağ turşuları mübadiləsinin pozğunluğu (E71.3)
purin və pirimidin mübadiləsinin pozğunluğu (E79.–)
podaqra (M10.–)

**E72.0 Aminturşuların nəqlinin pozğunluğu**

Sistinin toplanması xəstəliyi† (N29.8*) Sistinoz
Sistinuriya
Fankoni sindromu (–de Toni) (–Debre)
Xartnup xəstəliyi
Lou sindromu
***Çıxarılıb:*** triptofan metabolizminin pozğunluğu (E70.8)

**E72.1 Kükürd tərkibli aminturşuların mübadiləsinin pozğunluqları**

Sistationuriya Homosistinuriya Metioninemiya
Sulfitoksidazanın çatmamazlığı
***Çıxarılıb:*** II transkobalamin çatmamazlığı (D51.2)

### E72.2 Sidik cövhəri mübadiləsinin pozğunluqları
Arqinemiya
Arqinin aminoasiduriya Sitrulinemiya Hiperammonemiya
*Çıxarılıb:* ornitin metabolizminin pozğunluğu (E72.4)

### E72.3 Lizin və hidroksilizin mübadiləsinin pozğunluqları
Qlütarasiduriya Hidroksilizinemiya Hiperlizinemiya
*Çıxarılıb:* Refsum xəstəliyi (G60.1)
Selveger sindromu (Q87.8)

### E72.4 Ornitin mübadiləsinin pozğunluqları
Ornitinemiya (I, II tip)

### E72.5 Qlisin mübadiləsinin pozğunluqları
Hiperhidroksiprolinemiya Hiperprolinemiya (I, II tip) Qeyri-keton hiperqlisinemiya
Sarkozinemiya

### E72.8 Aminturşu mübadiləsinin digər dəqiqləşdirilmiş pozğunluqları
β-aminturşuların mübadiləsinin pozğunluğu
γ-qlütamin siklinin pozğunluğu

### E72.9 Aminturşuların mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluqları

## E73 Laktozaya dözümsüzlük

### E73.0 Laktozanın anadangəlmə çatmamazlığı
### E73.1 Laktozanın ikincili çatmamazlığı
### E73.8 Laktozaya dözümsüzlüyün digər növləri
### E73.9 Laktozaya dəqiqləşdirilməmiş dözümsüzlük

## E74 Karbohidrat mübadiləsinin digər pozğunluqları
*Çıxarılıb:* qlükaqon sekresiyasının artması (E16.3)
şəkərli diabet (E10-E14)
ƏGO hipoqlikemiya (E16.2)
mukopolisaxaridoz (E76.0-E76.3)

### E74.0 Qlikogenin toplanma xəstəliyi
Ürək qlikogenozu Andersen xəstəliyi Koru xəstəliyi Forbs xəstəliyi
Hers xəstəliyi
Mak-Ardl xəstəliyi Pompe xəstəliyi Tarui xəstəliyi Tauri xəstəliyi Hirke xəstəliyi
Qaraciyər fosforilazasının çatmamazlığı

### E74.1 Fruktoza mübadiləsinin pozğunluqları
Essensial fruktozuriya
Fruktoza-1,6-difosfatazanın çatmamazlığı
Fruktozaya irsi dözümsüzlük

### E74.2 Qalaktoza mübadiləsinin pozğunluqları
Qalaktokinazanın çatmamazlığı
Qalaktozemiya

### E74.3 Karbohidratların bağırsaqlarda sorulmasının digər pozğunluqları
Qlükoza-qalaktozanın sorulmasının pozğunluğu
Saxarozanın çatmamazlığı
*Çıxarılıb:* laktozaya dözümsüzlük ( E73.–)

### E74.4 Qlikoneogenez və piruvat mübadiləsinin pozğunluqları
Fosfoenolpiruvat-karboksikinazanın çatmamazlığı
Piruvat çatmamazlığı:
- Karboksilazanın çatmamazlığı
- Dehidrogenazanın çatmamazlığı

*Çıxarılıb:* anemiya ilə müşayiət olunan (D55.–)

**E74.8 Karbohidrat mübadiləsinin digər dəqiqləşdirilmiş pozğunluqları**

Essensial pentozuriya
Oksaloz
Oksaluriya
Böyrək mənşəli qlükozuriya

**E74.9 Karbohidrat mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluğu**

## E75 Sfinqolipid mübadiləsinin pozğunluqları və lipidlərin digər toplanma xəstəlikləri

***Çıxarılıb:*** I-III tip mukolipidoz (E77.0-E77.1)
Refsum xəstəliyi (G60.1)

**E75.0 $GM_2$ qanqliozidoz**

Sendhof xəstəliyi Tey-Saks xəstəliyi $GM_2$-qanqliozidoz:

- ƏGO
- yaşlıların
- yuvenil

**E75.1 Digər qanqliozidozlar**

Qanqliozidoz:

- ƏGO
- $GM_1$
- $GM_3$

Mukolipidoz IV

**E75.2 Digər sfinqolipidozlar**

Fabri (–Anderson) xəstəliyi
Qoşe xəstəliyi
Krabbe xəstəliyi Niman-Pik xəstəliyi Faber sindromu
Metaxromatik leykodistrofiya
Sulfatazanın çatmamazlığı
***Çıxarılıb:*** adrenoleykodistrofiya (Addison-Şilder) (E 71.3)

**E75.3 Dəqiqləşdirilməmiş sfinqolipidoz**

**E75.4 Neyronların lipofussinozu**

Batten xəstəliyi
Bilşovski-Yanski xəstəliyi
Kufs xəstəliyi
Şpilmeyer-Voqt xəstəliyi

**E75.5 Lipidlərin toplanmasının digər pozğunluqları**

Serebrotendinoz xolesteroz (Van-Boqart-Şerer-Epşteyn)

**E75.6 Lipidlərin dəqiqləşdirilməmiş toplanma xəstəliyi**

## E76 Qlikozaminoqlikan mübadiləsinin pozğunluqları

**E76.0 I tip mukopolisaxaridoz**

Qurler sindromu Qurler-Şeye sindromu Şeye sindromu

**E76.1 II tip mukopolisaxaridoz**

Qunter sindromu

**E76.2 Digər mukopolisaxaridozlar**

Betaqlükuronidazanın çatmamazlığı
III, IV, VI, VII tip mukopolisaxaridozlar Maroto-Lami (yüngül), (ağır) sindromu Morkio(-bənzər) (klassik) sindromu Sanfiloppo (B tip) (C tip) (D tip) sindromu

**E76.3 Dəqiqləşdirilməmiş mukopolisaxaridoz**

**E76.8 Qlikozaminoqlikan mübadiləsinin digər pozğunluqları**

**E76.9 Qlikozaminoqlikan mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluğu**

## E77 Qlikoprotein mübadiləsinin pozğunluqları

### E77.0 Lizosom fermentlərin posttranslyasion modifikasiyasının defektləri

Mukolipidoz II (1-hüceyrə xəstəliyi)
Mukolipidoz III (Qurler psevdopolidistrofiyası)

### E77.1 Qlikoproteinlərin deqradasiya defekti

Aspartilqlükozaminuriya
Flukozidoz
Mannozidoz
Sialidoz (mukolipidoz I)

### E77.8 Qlikoprotein mübadiləsinin digər pozğunluqları

### E77.9 Qlikoprotein mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluqları

## E78 Lipoprotein mübadiləsinin pozğunluqları və digər lipidemiyalar

***Çıxarılıb:*** sfinqolipidoz (E75.0-E75.3)

### E78.0 Həqiqi hiperxolesterinemiya

Ailəvi hiperxolesterinemiya
Frederikson hiperlipoproteinemiyası, IIa tipi
Hiper-β-lipoproteinemiya
A qrup hiperlipidemiya
Aşağı sıxlıqlı lipoproteinlərlə müşayiət olunan hiperlipoproteinemiya

### E78.1 Həqiqi hiperqliseridemiya

Endogen hiperqliseridemiya
Frederikson hiperlipoproteinemiyası IV tip
B qrup hiperlipidemiya
Hiperpre-β-lipoproteinemiya
Çox aşağı sıxlıqlı lipoproteinlərlə müşayiət olunan hiperlipoproteinemiya

### E78.2 Qarışıq hiperlipidemiya

Ümumi və ya üstünlük təşkil edən β-lipoproteinemiya
Frederikson hiperlipoproteinemiyası IIb və ya III tip
Pre-β-lipoproteinemiya ilə müşayiət olunan hiperbetalipoproteinemiya
Endogen hiperqliseridemiya ilə müşayiət olunan hiperxolisterinemiya
C qrup hiperlipidemiya Tuberoeruptiv ksantoma
Tuberoz şişəbənzər ksantoma
***Çıxarılıb:*** serebrotendinoz xolesteroz (Van-Boqart-Şerer-Epişteyn) (E75.5)

### E78.3 Hiperxilomikronemiya

Fredrikson hiperlipoproteinemiyası, I və ya V tip
D qrup hiperlipidemiya
Qarışıq hiperqliseridemiya

### E78.4 Digər hiperlipidemiyalar

Ailəvi qarışıq hiperlipidemiya

### E78.5 Dəqiqləşdirilməmiş hiperlipidemiya

### E78.6 Lipoproteinlərin çatmamazlığı

A-β-lipoproteinemiya
Yüksək sıxlıqlı lipoproteinlərin çatmamazlığı
Hipo-α-lipoproteinemiya
Hipo-β-lipoproteinemiya (ailəvi) Lesitinxolesterinasiltransferazanın çatmamazlığı Tancer xəstəliyi

### E78.8 Lipoprotein mübadiləsinin digər pozğunluqları

### E78.9 Lipoprotein mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluqları

## E79 Purin və pirimidin mübadiləsinin pozğunluqları

***Çıxarılıb:*** böyrək daşı (N20.0)
kombinə olunmuş immunodefisitlər (D81.–)
podaqra (M10.–)
oratasidurik anemiya (D53.0)
piqment kserodermiyası (Q82.1)

### E79.0 İltihabi artritlərin əlamətləri və podaqra düyünləri müşahidə olmadan hiperurikemiya

Simptomsuz hiperurikemiya

### E79.1 Leş-Nixen sindromu

### E79.8 Purin və pirimidin mübadiləsinin digər pozğunluqları

İrsi ksantinuriya

### E79.9 Purin və pirimidin mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluğu

## E80 Porfirin və bilirubin mübadiləsinin pozğunluqları

***Daxid edilib:*** katalaza və peroksidazanın defekti

### E80.0 İrsi eritropoetik porfiriya

Anadangəlmə eritropoetik porfiriya
Eritropoetik protoporfiriya

### E80.1 Ləng gedişli dəri porfiriyası

### E80.2 Digər porfiriyalar İrsi koproporfiriya Porfiriya:

- ƏGO
- kəskin fasiləli (qaraciyər)

Səbəbini göstərmək lazım gəldikdə xarici səbəblərin əlavə kodundan (XX sinif) istifadə edilir.

### E80.3 Katalaza və peroksidazanın defekti

Akatalaziya (Takaxara)

### E80.4 Jilbert sindromu

### E80.5 Kriqler-Nayyar sindromu

### E80.6 Bilirubin mübadiləsinin digər pozğunluqları

Dubin-Conson sindromu
Rotor sindromu

### E80.7 Bilirubin mübadiləsinin dəqiqləşdirilməimş pozğunluğu

## E83 Mineral mübadiləsinin pozğunluqları

***Çıxarılıb:*** Mineral maddələrin alimentar çatmamazlığı (E58-E61)
Qalxanabənzər ətraf vəzinin pozğunluqları (E20-E21) D vitaminin çatmamazlığı (E55.-)

### E83.0 Mis mübadiləsinin pozğunluqları

Minkes xəstəliyi (“qıvrım saçlar” xəstəliyi) (“polad saçlar”)
Vilson xəstəliyi

### E83.1 Dəmir mübadiləsinin pozğunluqları

Hemaxromatoz
***Çıxarılıb:*** anemiya:

- dəmir defisitli (D50.–)
- sideroblast (D64.0.–D64.3)

### E83.2 Sink mübadiləsinin pozğunluqları

Enteropatik akrodermatit

**E83.3 Fosfor mübadiləsinin pozğunluqları**

Turş fosfatazanın çatmamazlığı Ailəvi hipofosfatemiya Hipofosfataziya
D vitamininə rezistent:

- osteomalyasiya
- raxit

***Çıxarılıb:*** yaşlılarda osteomalyasiya (M83.–)
osteoporoz (M80-M81)

**E83.4 Maqnezium mübadiləsinin pozğunluğu**

Hipermaqnezemiya
Hipomaqnezemiya

**E83.5 Kalsium mübadiləsinin pozğunluqları**

Ailəvi hiperkalsiurik hiperkalsiemiya
İdiopatik hiperkalsiuriya
***Çıxarılıb:*** hiperparatiroidizm (E21.0-E21.3)
xondrokalsinoz (M11.1-M11.2)

**E83.8 Mineral mübadiləsinin digər pozğunluqları**

**E83.9 Mineral mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluğu**

## E**84** Kistoz fibroz

***Daxil edilib:*** mukovissidoz

**E84.0 Ağciyər əlamətləri ilə müşayiət olunan kistoz fibroz**

**E84.1 Bağırsaq əlamətləri ilə müşayiət olunan kistoz fibroz**

Distal bağırsaq keçməməzliyi sindromu
Kistoz fibroz zamanı mekonium (bağırsaq) keçməməzliyi † (P75*)
***Çıxarılıb:*** kistoz fibroz istisna olduğu hallarda mekonium (bağırsaq) keçməməzliyi (P76.0)

**E84.8 Digər əlamətlərlə müşayiət olunan kistoz fibroz**

Kombinə olunmuş əlamətlərlə gedən kistoz fibroz

**E84.9 Dəqiqləşdirilməmiş kistoz fibroz**

## E**85** Amiloidoz

***Çıxarılıb:*** Alsheymer xəstəliyi (G30.–)

**E85.0 Nevropatiyasız irsi ailəvi amiloidoz**

Ailəvi aralıq dənizi qızdırması
İrsi amiloid nefropatiya

**E85.1 İrsi ailəvi nevropatik amiloidoz**

Amiloid polineyropatiya (portuqaliya tipi)

**E85.2 Dəqiqləşdirilməmiş irsi ailəvi amiloidoz**

**E85.3 İkincili ailəvi amiloidoz**

Hemodializlə əlaqədar olan amiloidoz

**E85.4 Məhdud amiloidoz**

Lokalizə olunmuş amiloidoz

**E85.8 Amiloidozun digər formaları**

**E85.9 Dəqiqləşdirilməmiş amiloidoz**

## E**86** Maye həcminin azalması (hipovolemiya)

***Daxil edilib:*** Susuzlaşma
Plazma və hüceyrəarası maye həcminin azalması
Hipovolemiya
***Çıxarılıb:*** yenidoğulmuşların susuzlaşması (P74.1)
hipovolemik şok:

- ƏGO (R57.1)
- əməliyyatdan sonrakı (T81.1)
- travmatik (T79.4)

## E87 Su-duz və ya turşu-qələvi tarazlığının digər pozğunluqları

### E87.0 Hiperosmolyarlıq və hipernatriyemiya

Natriumun artıqlığı
Natriumun artıq qəbulu

### E87.1 Hipoosmolyarlıq və hiponatriyemiya

Natriumun çatmamazlığı
***Çıxarılıb:*** antidiuretik hormonun sekresiyasının pozulma sindromu (E22.2)

### E87.2 Asidoz

Asidoz:

- ƏGO
- süd turşusu
- metabolik
- respirator

***Çıxarılıb:*** diabetik asidoz (E10-E14 ümumi dördüncü .1 işarə ilə)

### E87.3 Alkaloz

Alkaloz:

- ƏGO
- Metabolik
- Respirator

### E87.4 Turşu-qələvi mübadiləsinin qarışıq pozğunluğu

### E87.5 Hiperkaliemiya Kaliumun artıqlığı Kaliumun artıq qəbulu

### E87.6 Hipokaliemiya

Kaliumun çatmamazlığı

### E87.7 Hipervolemiya

***Çıxarılıb:*** ödem (R60-)

### E87.8 Su-duz mübadiləsinin başqa rubrikalarda təsnif olunmayan digər pozğunluqları

Elektrolit balansının ƏGO pozğunluğu
Hiperxloremiya
Hipoxloremiya

## E88 Maddələr mübadiləsinin digər pozğunluqları

Medikamentoz mənşəli maddələr mübadiləsi pozğunluğu törədən dərman preparatını göstərmək lazım gələrsə, xarici səbəblərin əlavə kodundan (XX sinif) istifadə edilir .
***Çıxarılıb:*** X histiositoz (xronik) (C96.6)

### E88.0 Plazma zülalları mübadiləsinin digər rubrikalarda təsnif olunmayan pozğunluqları

Alfa-1 antitripsin defisiti
Bis-albuminemiya
***Çıxarılıb:*** lipoprotein mübadiləsinin pozğunluğu (E78.–)
monoklonal qammapatiya (D47.2)
poliklonal hiper-γ-qlobulinemiya (D89.0)
Valdenstrem makroqlobulinemiya (C88.0)

### E88.1 Digər rubrikalarda təsnif olunmayan lipodistrofiya

ƏGO lipodistrofiya
***Çıxarılıb:*** Uippl xəstəliyi (K90.8)

### E88.2 Digər rubrikalarda təsnif olunmayan lipomatoz

Lipomatoz:

- ƏGO
- Ağrılı (Derkum xəstəliyi)

**E88.3 Şiş lizisi sindromu**

Şiş lizisi (antineoplastik dərman terapiyası ilə müşayiət olunan) (spontan)

**E88.8 Maddələr mübadiləsinin digər dəqiqləşdirilmiş pozğunluqları**

Lonua-Bansod adenolipomatozu
Trimetilaminuriya

**E88.9 Maddələr mübadiləsinin dəqiqləşdirilməmiş pozğunluğu**

## E**89** Tibbi proseduralardan sonra meydana çıxan və digər rubrikalarda təsnif olunmayan endokrin və metabolik pozğunluqları

**E89.0 Tibbi proseduralardan sonra əmələ gələn hipotiroidizm**

Şüalanmanın təsirindən əmələ gələn hipotiroidizm
Cərrahi əməliyyatdan sonrakı hipotiroidizm

**E89.1 Tibbi proseduralardan sonra əmələ gələn hipoinsulinemiya**

Mədəaltı vəzi çıxarıldıqdan sonra meydana çıxan hiperqlikemiya
Cərrahi əməliyyatdan sonrakı hipoinsulinemiya

**E89.2 Tibbi proseduralardan sonra əmələ gələn hipoparatiroidizm**

Paratireopriv tetaniya

**E89.3 Tibbi proseduralardan sonra əmələ gələn hipopituitarizm**

Şüalanma nəicəsində əmələ gəlmiş hipopituitarizm

**E89.4 Tibbi proseduralardan sonra yumurtalıqların funksiyasının pozulması**

**E89.5 Tibbi proseduralardan sonra xayaların hipofunksiyası**

**E89.6 Tibbi proseduralardan sonra əmələ gələn böyrəküstü vəzinin qabıq qatının (beyin qatı) hipofunksiya**

**E89.8 Tibbi proseduralardan sonra əmələ gələn digər endokrin və maddələr mübadiləsi pozğunluqları**

**E89.9 Tibbi proseduralardan sonra əmələ gələn dəqiqləşdiqirilməmiş endokrin və maddələr mübadiləsi pozğunluqları**

## E**90** Digər rubrikalarda təsnif olunmuş xəstəliklər zamanı qidalanma və maddələr mübadiləsi pozğunluqları

# V SİNİF

## Psixi pozğunluqlar və davranış pozğunluqları (F00-F99)

***Daxil edilib:*** psixoloji inkişaf pozğunluqları
***Çıxarılıb:*** Başqa rubrikalarda təsnif olunmayan, klinik və laborator tədqiqatlar zamanı aşkar edilən simptomlar, əlamətlər və normadan kənaraçıxmalar (R00-R99)

**Bu sinif özündə aşağıdakı rubrikaları cəmləşdirir:**

| | |
|---|---|
| F00-F09 | Simptomatik forma da daxil olmaqla, üzvi psixi pozğunluqlar |
| F10-F19 | Psixoaktiv maddələrin qəbulu ilə bağlı olan psixi pozğunluqlar və davranış pozğunluqları |
| F20-F29 | Şizofreniya, şizotipik və sayıqlama pozğunluqları |
| F30-F39 | Əhval pozğunluqları [affektiv pozğunluqlar] |
| F40-F48 | Streslə bağlı və somatoform nevrotik pozğunluqlar |
| F50-F59 | Fizioloji pozğunluqlarla və fiziki amillərlə bağlı olan davranış sindromları |
| F60-F69 | Yetkin yaşlarda təsadüf olunan şəxsiyyət və davranış pozğunluqları |
| F70-F79 | Əqli gerilik (kəmağıllıq) |
| F80-F89 | Psixoloji inkişaf pozğunluqları |
| F90-F98 | Adətən uşaq və yeniyetmə yaşlarda başlayan emosional pozğunluqlar və davranış pozğunluqları |
| F99 | Dəqiqləşdirilməmiş psixi pozğunluqlar |

**Aşağıda göstərilən rubrikalar xüsusi olaraq ulduzla nişanlanmışdır:**

| | |
|---|---|
| F00* | Alsheymer xəstəliyi zamanı demensiya |
| F02* | Başqa rubrikalarda təsnif edilən digər xəstəliklər zamanı demensiya |

## Simptomatik forma da daxil olmaqla, üzvi psixi pozğunluqlar (F00-F09)

Bu rubrika özündə baş beyin xəstəliyi, baş beyin travması və ya insult kimi aşkar etioloji amillərin olmasına görə birgə qruplaşdırılan və beynin disfunksiyasına gətirib çıxaran bir sıra psixi pozğunluqları cəmləşdirir. Disfunksiya birincili (baş beyni bilavasitə və seçici olaraq zədələyən baş beyin xəstəliyi, baş beyin travması və insultlar zamanı) və ikincili (başqa orqan və sistemlərlə birgə baş beynin də patoloji prosesə cəlb olunması ilə gedən sistem xəstəliklər və ya pozğunluqlar zamanı olduğu kimi) ola bilər.

Demensiya [ağıl zəifliyi] (F00-F03) – baş beynin (adətən xronik və ya proqressiv xarakterli) zədələnməsi nəticəsində əmələ gələn və ali qabıq funksiyasının çoxlu miqdarda pozulması, o cümlədən yaddaşın, düşüncənin, orientasiyanın, anlamanın, hesablama, öyrənmə, məntiq, nitq və mühakimə yürütmək qabiliyyətinin pozulması ilə səciyyələnən sindromdur. Bu zaman şüurda dumanlanma müşahidə olunmur. İdrak (dərk etmə) funksiyasının aşağı düşməsi müşayiət olunur. Bəzən isə, emosiya, sosial davranış və ya motivasiya üzərində nəzarətin zəifləməsi şəklində təzahür olunur. Bu sindrom Alsheymer xəstəliyi, serebrovaskulyar xəstəliklər və baş beynin birincili və ya ikincili zədələnməsinə səbəb olan digər hallar zamanı müşahidə olunur.

Əgər ilkin xəstəliyin göstərilmə zərurəti yaranarsa, onda əlavə koddan istifadə edilir.

## F00* Alsheymer xəstəliyi zamanı demensiya **(G30.–†)**

Alsheymer xəstəliyi – baş beynin, naməlum etiologiyalı, neyropatoloji və neyrokimyəvi təzahürü ilə səciyyələnən birincili degenerativ xəstəliyidir. Xəstəlik adətən gizli və tədricən başlayır, ancaq ki, bir neçə il ərzində arası kəsilmədən şiddətlənir.

### F00.0* Alsheymer xəstəliyi zamanı erkən başlamış demensiya (G30.0†)

65 yaşa qədər başlayan, nisbətən tez proqressivləşməsi və kəskin nəzərə çarpan ali qabıq funksiyalarının pozulması ilə səciyyələnən, Alsheymer xəstəliyi zamanı demensiya:

2-ci tip Alsheymer xəstəliyi

Alsheymer tipli, presenil (qocalıq önü) demensiya

Alsheymer tipli, presenil (qocalıq önü) dövrdə başlanan, birincili degenaritiv demensiya

### F00.1* Alsheymer xəstəliyi zamanı gecikmiş demensiya (G30.1†)

65 yaşdan sonra (adətən 70 yaşda və daha sonra) başlayan, ləng proqressivləşməsi və əsas simptom kimi yaddaşın kəskin pozulması ilə səciyyələnən, Alsheymer xəstəliyi zamanı demensiya

1-ci tip Alsheymer xəstəliyi

Alsheymer tipli, senil (qocalıq) dövrdə başlanan, birincili degenerativ demensiya

Alsheymer tipli, senil demensiya

### F00.2* Alsheymer xəstəliyi zamanı atipik və ya qarışıq tipli demensiya (G30.8†)

Alsheymer tipli, atipik demensiya

### F00.9* Dəqiqləşdirilməmiş Alsheymer xəstəliyi zamanı demensiya (G30.9†)

## F01 Vaskulyar demensiya

Vaskulyar demensiya – hipertenziya zamanı serebrovaskulyar xəstəlik də daxil olmaqla, beyin damarları xəstəliyinin nəticəsində əmələ gələn baş beyin infarktının nəticəsi kimi. İnfarktlar, adətən, çox da böyük olmur, ancaq onların kumulyativ təsiri təzahür olunur. Xəstəlik, adətən, gec yaşlarda başlanır.

***Daxil edilib***: aterosklerotik demensiya

### F01.0 Kəskin başlanmış vaskulyar demensiya

Adətən, serebrovaskulyar tromboz, emboliya və ya qansızma nəticəsində baş verən seriya insultlardan sonra sürətlə inkişaf edir. Az hallarda isə səbəb beynin bir geniş infarktı ola bilər.

### F01.1 Multiinfarkt demensiyası

Tədrici başlanğıca malikdir; təkrarlanan keçici işemik hallarla bağlı bir haldır ki, baş beyin parenximasında infarkt ocaqlarının toplanmasına gətirib çıxarır.

Başlıca olaraq qabıq demensiyası

### F01.2 Qabıqaltı vaskulyar demensiya

Bu özündə, anamnezdə hipertenziya və beyin yarımkürələrinin ağ maddəsinin dərin qatlarında işemik, destruktiv ocaqların olması ilə səciyyələnən halları birləşdirir. Beyin qabığı adətən prosesə cəlb olunmur, bu isə Alsheymer xəstəliyi zamanı demensiyanın klinik mənzərəsi ilə ziddiyyətliyin yaranmasına səbəb olur.

### F01.3 Qarışıq qabıq və qabıqaltı vaskulyar demensiya

### F01.8 Digər vaskulyar demensiya

### F01.9 Dəqiqləşdirilməmiş vaskulyar demensiya

## F02* Başqa rubrikalarda təsnif edilən digər xəstəliklər zamanı demensiya

Nə Alsheymer xəstəliyinə, nə də ki, serebrovaskulyar xəstəliyə aid olmayan səbəblərlə bağlı olan (və ya bağlı olması güman edilən) demensiya halları. Xəstəlik istənilən yaşda başlaya bilər, ancaq ahıl yaşlarda nisbətən az təsadüf edilir.

### F02.0* Pik xəstəliyi zamanı demensiya (G31.0†)

Orta yaşlarda başlayan, etinasızlıq, eyforiya və bəzi hallarda ekstrapiramid təzahürlərlə müşayiət olunan, erkən və tədricən proqressivləşmə dəyişiklikləri, sosial deqradasiya, şüurun, yaddaşın və nitq funksiyasının zəifləməsi ilə
səciyyələnən proqressiv demensiya.

## F02.1* Kreystfeld–Yakob xəstəliyi zamanı demensiya (A81.0†)

Transmissiv amillə törənməsi güman edilən və sinir sisteminin spesifik dəyişiklikləri nəticəsində əmələ gələn, çox sayda nevroloji simptomlarla gedən proqressiv demensiya. Orta və ya ahıl yaşlarda başlayır, ancaq istənilən yetkin yaş dövründə başlanması mümkündür. Gedişi yarımkəskin olub, ölüm 1-2 ildən sonra baş verir.

## F02.2* Qentinqton xəstəliyi zamanı demensiya (G10†)

Beynin yayılmış degenerasiyasının bir əlaməti kimi inkişaf edən demensiya. Bu pozuntu, irsi olaraq, autosom-dominant yolla ötürülür. Xəstəlik əlamətləri, adətən, insan həyatının üçüncü və ya dördüncü onilliyində təzahür olunur. Tədricən proqressivləşən xəstəlik, adətən, 10-15 ildən sonra ölümə gətirib çıxarır.

Qentinqton xoreyası zamanı demensiya

## F02.3* Parkinson xəstəliyi zamanı demensiya (G20†)

Parkinson xəstəliyinin gedişi prosesində əmələ gələn demensiya. Hər-hansı bir səciyyəvi klinik əlaməti mövcud deyil.

Əsmə-iflic
Parkinsonizm } zamanı demensiya

## F02.4* İnsanın immun çatışmazlıq virusu (İİÇV) tərəfindən törədilən xəstəlik zamanı müşahidə olunan demensiya (B22.0†)

İnsanın immun çatmamazlıq virusunun (İİÇV) törətdiyi xəstəliyin gedişi prosesində, İİÇV-dən başqa, xəstəliyin klinik mənzərəsini izah etməyə əsas verən digər yanaşı gedən xəstəlik və ya hallar müstəsna olmaqla rast gəlinən demensiya

## F02.8* Başqa rubrikalarda təsnif edilən, digər dəqiqləşdirilmiş xəstəliklər zamanı demensiya

- serebral lipidoz (E75.–†)
- epilepsiya (G40.–†)
- hepatolentikulyar degenerasiya (E83.0†)
- hiperkalsiemiya (E83.5†)
- qazanılmış hipertireoz (E01.–†, E03.–†)
- intoksikasiyalar (T36–T65†)
- dağınıq skleroz (G35†)
- neyrosifilis (A52.1†)
- nikotin turşusu çatmamazlığı [pellaqra] (E52†)
- düyünlü poliarteriit (M30.0†)
- sistem qırmızı qurdeşənəyi (M32.–†)
- tripanosomoz (B56.–†, B57.–†)
- uremiya (N18.5†)
- $B_{12}$ vitamini çatmamazlığı (E53.8†)

} zamanı demensiya

## F03 Dəqiqləşdirilməmiş demensiya

***Daxil edilib:*** Presenil:
- ƏGO demensiya
- ƏGO psixoz

ƏGO birincili degenerativ demensiya

Senil:
- demensiya:
  - -ƏGO
  - -depressiv və ya paranoid tipli
- ƏGO psixoz

***Çıxarılıb:*** sayıqlama və ya şüurun kəskin çaşqınlığı ilə gedən senil demensiya (F05.1)
ƏGO qocalıq (R54)

## F04 Alkoqol və ya digər psixoaktiv maddələr tərəfindən törədilməyən üzvi amnestik sindrom

Yaxın zamanlarda və çoxdan baş vermiş hadisələrə görə yaddaşın kəskin zəifləməsi, son hadisələri xatırlamaq qabiliyyətinin saxlanması, yeni materialları öyrənmə qabiliyyətinin aşağı düşməsi və vaxt orientasiyasında müşahidə olunan pozğunluqlarla səciyyələnən sindrom. Səciyyəvi xüsusiyyət uydurma ilə danışma (konfabulyasiya) ola bilər, ancaq ki, qavrama və digər dərk etmə funksiyaları, şüur da daxil olmaqla adətən saxlanılır. Proqnoz əsas xəstəliyin gedişindən asılıdır.

***Daxil edilib:*** Qeyri-alkoqol mənşəli Korsakov psixozu və ya sindromu
***Çıxarılıb***: ƏGO (R41.3)
anteroqrad (R41.1)
dissosiativ (F44.0)
retroqrad (R41.2)
} amneziya
Korsakov sindromu:
alkoqol mənşəli və ya dəqiqləşdirilməmiş (F10.6)
digər psixoaktiv maddələrin qəbulundan törənən (ümumi ".6" nişanəsi ilə F11-F19)

## F05 Alkoqol və ya digər psixoaktiv maddələr tərəfindən törədilməyən sayıqlama (delirium)

Etioloji olaraq qeyri-spesifik üzvi serebral sindrom – eyni zamanda şüurun, diqqətin, qavramanın, təfəkkürün, yaddaşın, psixomator davranışın, emosiyanın, yuxu tsiklinin və ayıqlığın pozulması ilə səciyyələnir. Patoloji vəziyyətin müddəti dəyişkən olur və ağırlıq dərəcəsi orta dərəcədən ağır vəziyyətə qədər dəyişilə bilir.

***Daxil edilib:*** kəskin və ya yarımkəskin:
-beyin sindromu
şüurun çaşqınlıq vəziyyəti (qeyri-alkoqol mənşəli):
-infeksion psixoz -üzvi reaksiya
-psixoorqanik sindrom

***Çıxarılıb:*** alkoqol və ya dəqiqləşdirilməmiş ağ isitmə (F10.4)

### F05.0 Demensiya fonunda olmayan sayıqlama (belə göstərilmiş)

### F05.1 Demensiya fonunda sayıqlama

Yuxarıda qeyd olunan kriterilərə uyğun gələn, ancaq demensiya prosesində inkişaf edən vəziyyət (F00-F03)

### F05.8 Digər sayıqlama

Qarışıq mənşəli sayıqlama Əməliyyatdan sonrakı sayıqlama

### F05.9 Dəqiqləşdirilməmiş sayıqlama

## F06 Baş beynin zədələnməsi və disfunksiyası və ya somatik xəstəliyi nəticəsində yaranan digər psixi pozğunluqlar

Bu rubrikaya, səbəbi baş beynin birincili xəstəliyi, sistem xəstəliyi, baş beynin ikincili xəstəliyi nəticəsində yaranan baş beyin pozğunluğu ilə bağlı olan və ekzogen toksik maddələrin və ya hormonların təsiri, endokrin pozğunluqlar və ya digər somatik xəstəliklər nəticəsində yaranan hallar daxil edilmişdir.

***Çıxarılıb:*** sayıqlama ilə bağlı olan psixi pozğunluqlar (F05.–)
"F00-F03" rubrikalarında təsnif edilən demensiya ilə əlaqəli psixi pozğunluqlar
alkoqol və digər psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan psixi pozğunluqlar (F10-F19)

### F06.0 Üzvi hallyüsinoz

Davamlı və ya residivverən, adətən görmə və ya eşitmə hallyüsinasiyası ilə gedən pozğunluq. Bu zaman şüur aydın olur. Hallyüsinasiyanın traktovkasında sayıqlama qeyd edilir. Ancaq klinik mənzərədə sayıqlama dominant rol oynamır; ətraf aləmi dərk etmə saxlanıla bilər.

Üzvi (qeyri-alkoqol) hallyüsinator hal ***Çıxarılıb:*** alkoqol hallyüsinozu (F10.5) şizofreniya (F20.–)

### F06.1 Üzvi-katatonik hal

Katatonik simptomlarla birgə rast gəlinən, psixomator fəallığın zəifləməsi (stupor) və ya güclənməsi (oyanma) formasında pozğunluq. Psixomator pozğunluğun son təzahürü növbələnə bilər.

***Çıxarılıb:*** katatonik şizofreniya (F20.2)
stupor:
-ƏGO (R40.1)
-dissosiativ (F44.2)

### F06.2 Üzvi sayıqlama [şizofreniyayabənzər] pozğunluğu

Klinik mənzərəsində başlıca olaraq daimi və ya residivverən sayıqlama üstünlük təşkil edən pozğunluq. Sayıqlama hallyüsinasiyalarla müşayiət oluna bilər. Bir sıra simptomlarla təsadüf olunması şizofreniyadan şübhələnməyə əsas verir. Onlardan inadcıl hallyüsinasiyaları və təfəkkür pozğunluqlarını misal göstərmək olar.

Paranoid və paranoid-hallyüsinator hallar
Epilepsiya zamanı şizofreniyayabənzər psixoz

*Çıxarılıb:* kəskin və ya ötüb keçən psixotik (F23.–) pozğunluq
davamlı sayıqlama (F22.–) pozğunluq
dərman maddələri tərəfindən törədilən psixotik (F11-F19, ümumi ".5" dördüncü nişanı ilə) şizofreniya (F20.–) pozğunluq

## F06.3 Əhvalın üzvi mənşəli [affektiv] pozğunluğu

Adətən fəallığın ümumi səviyyəsinin dəyişikliyi, depressiya, hipomaniya, maniya və ya bipolyar, hallarla (bax: F30-F38) müşayiət olunan, əhvalın və ya affektin dəyişikliyi ilə səciyyələnən, üzvi xəstəliyin nəticəsi kimi meydana çıxan pozğunluq

*Çıxarılıb:* əhvalın qeyri-üzvi mənşəli və ya dəqiqləşdirilməmiş pozğunluğu (F30-F39)

## F06.4 Üzvi mənşəli həyəcan pozğunluğu

Üzvi patologiya nəticəsində yaranan, ümumi həyəcan pozğunluğu əlamətləri ilə (F41.1) və ya vahimə pozğunluğu (F41.0) və ya onların birgə rast gəlinməsi ilə səciyyələnən pozğunluq

*Çıxarılıb*: dəqiqləşdirilməmiş və ya qeyri-üzvi mənşəli həyəcan pozğunluğu (F41.–)

## F06.5 Üzvi dissosiativ pozğunluq

Yaddaşın ayrı-ayrı müddətləri arasında vəhdətin, özünü şəxsiyyət kimi dərk etməyin, bədənin müxtəlif hərəkətlərini hiss etməyin və bu hərəkətlərə nəzarətin (F44.–) qismən və ya tam itirilməsi və üzvi patologiyalar nəticəsində əmələ gəlməsi ilə səciyyələnən pozğunluq

*Çıxarılıb*: qeyri-üzvi mənşəli və ya dəqiqləşdirilməmiş dissosiativ [konversion] pozğunluq

## F06.6 Üzvi mənşəli emosional labil [astenik] pozğunluq

Emosional səbirsizliklə və ya labilliklə, yorğunluqla, çox sayda xoşagəlməz fiziki hissiyyatlarla məsələn, başgicəllənmə ilə, ağrılarla və üzvi patologiyalar nəticəsində əmələ gəlməsi ilə səciyyələnən pozğunluq

*Çıxarılıb*: qeyri-üzvi mənşəli və ya dəqiqləşdirilməmiş somatoform pozğunluq (F45.–)

## F06.7 Yüngül koqnitiv pozğunluq

Yaddaşın zəifləməsi, təlimdə çətinliyin meydana çıxması, hər hansı bir tapşırığı uzun müddət yerinə yetirmək bacarığının aşağı düşməsi ilə səciyyələnən pozğunluq. Tez-tez hallarda hər hansı bir zehni tapşırığı yerinə yetirərkən kəskin nəzərə çarpan psixi yorğunluğun meydana çıxması müşahidə olunur. Yeni bir materialın öyrənilməsi zamanı obyektiv olaraq uğur qazanıldığı halda subyektiv çətinlik yaranır. Göstərilən simptomların heç biri o qədər kəskin nəzərə çarpmır ki, demensiya (F00-F03) və ya sayıqlama (F05.–) diaqnozu qoymaq mümkün olsun. Bu diaqnoz ancaq somatik pozğunluq halını dəqiqləşdirən zaman, "F10-F99" rubrikalarında təsnif edilən hər hansı psixi və ya davranış pozğunluğuna əsaslanaraq qoyulmalıdır. Pozğunluq spektrə malik olan infeksion və somatik xəstəliklər (həm serebral, həm də sistem) nəicəsində meydana çıxa bilər, onları müşayiət edə bilər və ya onlardan sonra yarana bilər. Ancaq, bu zaman baş beynin prosesə cəlb olunması vacib deyil. Haqqında bəhs olunan pozğunuluğu postensefalit sindromla (F07.1) və postkontuzion sindromla (F07.2) diferensasiya etmək lazımdır. Bu pozğunluq göstərilənlərdən etiologiyasına, əlamətlərin kəskin nəzərə çarpmasına və davam etmə müddətinin çox da uzun olmamasına görə fərqlənir.

## F06.8 Baş beynin zədələnməsi və disfunksiyası və ya somatik xəstəliyi nəticəsində yaranan digər dəqiqləşdirilmiş psixi pozğunluqlar

ƏGO epileptik psixoz

## F06.9 Baş beynin zədələnməsi və disfunksiyası və ya somatik xəstəliyi nəticəsində yaranan dəqiqləşdirilməmiş pozğunluq

Üzvi mənşəli:
- ƏGO beyin sindromu
- ƏGO psixi pozğunluq

# F07 Baş beynin xəstəliyi, zədələnməsi və ya disfunksiyası nəticəsində yaranan şəxsiyyət və davranış pozğunluqları

Şəxsiyyət və davranışda rast gəlinən dəyişikliklər baş beynin xəstəliyi, zədələnməsi və disfunksiyası zamanı qalıq əlamətləri və ya yanaşı gedən pozğunluq şəklində rast gəlinə bilər.

## F07.0 Üzvi mənşəli şəxsiyyət pozğunluğu

Pozğunluq emosiya, tələbat və meylləri də daxil olmaqla, xəstənin adət edilmiş premorbid modellərinin xeyli dərəcədə dəyişilməsi ilə səciyyələnir. Klinik mənzərəyə koqnitiv və təfəkkür funksiyasının zəifləməsi, həmçinin seksual dəyişiklik də əlavə oluna bilər.

Üzvi mənşəli:
- psevdopsixopatik şəxsiyyət
- psixi inkişafın qeyri-həqiqi ləngiməsi ilə gedən şəxsiyyət

Alın payı
Limbik epilepsiya zamanı şəxsiyyət
Lobotomiya
Postleykotomiya
} sindromu

*Çıxarılıb*: •katastrof halı keçirəndən (F62.0)
•psixi xəstəlikdən (F62.1)
} sonra baş verən davamlı şəxsiyyət pozğunluğu
postkontuzion sindrom (F07.2)
postensefalit sindromu (F07.1)
spesifik şəxsiyyət pozğunluğu (F60.–)

### F07.1 Postensefalit sindromu

Keçirilmiş virus və ya bakterial ensefalitin sağalma dövrü ilə müşayiət olunan, davranışın qeyri-spesifik və müxtəlif qalıq dəyişiklikləri. Bu pozğunluğun üzvi mənşəli şəxsiyyət pozğunluğundan prinsipial fərqi prosesin dönər olmasındadır.

*Çıxarılıb:* üzvi mənşəli şəxsiyyət pozğunluğu (F07.0)

### F07.2 Postkontuzion sindrom

Başın travmasından (adətən kifayət dərəcədə ağır, huşun itməsi ilə müşayiət olunan) sonra əmələ gələn və başağrısı, başgicəllənmə, yorğunluq, hirslilik, zehni tapşırığın yerinə yetirilməsinin çətinləşməsi, yaddaşın zəifləməsi, yuxusuzluq və stresə, emosional gərginliyə və alkoqola qarşı dözümlülüyün aşağı düşməsi kimi müxtəlif simptomları özündə cəmləşdirən sindrom

Kontuziyadan sonrakı sindrom (ensefalopatiya) Qeyri-psixotik posttravmatik beyin sindromu

*Çıxarılıb:* beynin hazırkı kontuziyası (S06.0)

### F07.8 Baş beynin xəstəliyi, travması və disfunksiyası nəticəsində yaranan digər üzvi mənşəli şəxsiyyət və davranış pozğunluqları

Sağ beyin yarımkürəsinin zədələnməsi nəticəsində yaranan üzvi, affektiv pozğunluq

### F07.9 Baş beynin xəstəliyi, zədələnməsi və ya disfunksiyası nəticəsində yaranan üzvi mənşəli, dəqiqləşdirilməmiş şəxsiyyət və davranış pozğunluğu

Üzvi psixosindrom

## F09 Dəqiqləşdirilməmiş üzvi və ya simptomatik psixi pozğunluq

ƏGO üzvi
ƏGO simptomatik
} psixoz

*Çıxarılıb*: ƏGO psixoz (F29)

# Psixoaktiv maddələrin qəbulu ilə bağlı olan psixi pozğunluqlar və davranış pozğunluqları (F10-F19)

Bu rubrika özündə ağırlığına və klinik təzahürlərinə görə müxtəlif pozğunluqların geniş bir spektrini cəmləşdirir ki, onların da əmələ gəlmə səbəbi həmişə həkimin təyinatı ilə və ya həkimin təyinatı olmadan bir və ya bir neçə psixoaktiv maddənin qəbulu ilə bağlı olur. Üçrəqəmli rubrikadan maddənin adını göstərmək üçün, dördüncü rəqəmdən isə vəziyyətin klinik xüsusiyyətini əks etdirmək üçün istifadə edilir. Hər bir dəqiqləşdirilmiş maddə üçün bu cür kodlaşdırmanın aparılması məsləhət görülür. Ancaq onu da qeyd etmək lazımdır ki, dördrəqəmli kodların heç də hamısı, bütün maddələrin göstərilməsi üçün məqbul deyil.

Psixoaktiv maddələrin göstərilməsi üçün mümkün qədər daha çox informasiya mənbəyinə istinad olunmalıdır. Bunlara fərdin özünün verdiyi məlumatı, qanın və digər bioloji mayelərin tədqiqinin nəticəsini, səciyyəvi somatik və psixoloji nişanələri, klinik və davranış simptomlarını, habelə məlum faktlar, məsələn, pasientin əli altında olan maddələr və ya hər hansı üçüncü şəxsin verdiyi məlumatı misal göstərmək olar.

Əksər narkomanlar bir deyil, bir neçə növ narkotik maddədən istifadə edirlər. Əsas diaqnoz, imkan daxilində, klinik simptomları törədən və ya bu simptomların yaranmasına şərait yaradan maddəyə (və ya maddələr qrupuna) əsasən qoyulmalıdır. Digər diaqnozlar o zaman kodlaşdırılır ki, digər psixoaktiv maddə zəhərlənməyə səbəb olan miqdarda qəbul edilmiş olsun (ümumi dördüncü nişan olan: ".0"), sağlamlığa zərər vermiş olsun (ümumi dördüncü nişan olan: ".1"), asılılığa gətirib çıxarmış olsun (ümumi dördüncü nişan olan: ".2") və ya digər pozğunluqlara səbəb olmuş olsun (ümumi dördüncü nişan olan: ".3-.9").

Ancaq narkotik maddələrin qəbulu xaotik və qarışıq xarakter daşıdığı hallarda və ya klinik mənzərənin yaranmasında hansı psixoaktiv maddənin səbəb olduğunu müəyyən etmək çətin olarsa, o zaman bir neçə narkotik maddənin qəbulundan törənən pozğunluq (F19.–) diaqnozu qoyulmalıdır.
***Çıxarılıb:*** asılılıq törətməyən maddələrdən sui-istifadə (F55)
Növbəti dördüncü rəqəmlər "F10-F19" rubrikalarında istifadə edilir:

**.0 Kəskin intoksikasiya**

Psixoaktiv maddənin qəbulu nəticəsində törənən, huşun, dərketmə qabiliyyətinin, emosiyanın və davranışın və ya digər psixofizioloji funksiyalar və ya reaksiyaların pozulması şəklində təzahür olunan hal. Bu pozğunluq larmaddənin kəskin farmakoloji təsiri ilə bilavasitə bağlı olur və bir müddətdən sonra, toxumaların zədələnməsi və digər ağırlaşmaların olduğu hallar istisna olmaqla, keçib gedir. Ağırlaşmalara travma, qusuntu kütləsinin aspirasiyası, sayıqlama, koma və qıcolma misal ola bilər. Ağırlaşmanın xüsusiyyəti maddənin hansı farmakoloji sinfə aid olmasından və onun daxil olma üsulundan asılıdır.

Alkoqolizm zamanı kəskin sərxoşluq
Hallyusinasiyalar (dərman mənşəli)
Patoloji intoksikasiya
ƏGO alkoqol sərxoşluğu
Psixoaktiv maddələr tərəfindən törədilən və "huşun itməsi" və "duruxma" şəklində təzahür olunan pozğunluq
***Çıxarılıb:*** dərman vasitələri, dərman preparatları və bioloji maddələrlə zəhərlənmələr (T36-T50)

**.1 Zərərli istifadə**

Psixoaktiv maddənin qəbul edilmə üsulunun özü sağlamlıq üçün zərərli hesab olunur. Zərərvermə fiziki (məsələn, özünə psixoaktiv maddənin iynə formasında vurarkən törənən hepatit) və ya psixiki ola bilər (məsələn, ağır alkoqol sərxoşluğuna münasibətə görə ikincili hesab olunan depressiv pozğunluq epizodları)

Psixoaktiv maddələrdən zərərli istifadə

**.2 Asılılıq sindromu**

Davranış, dərketmə və fizioloji simptomlar kompleksi olub, maddənin təkrar qəbulundan sonra yaranır və adətən təkrar olaraq qəbul etmə istəyinin yaranması; maddənin qəbuluna nəzarətin çətinləşməsi, həmin maddənin öldürücü təsirə malik olmasına baxmayaraq, bu maddəni davamlı qəbul etmə; əmək fəaliyyətinin və tutduğu vəzifənin icrasını çətinləşdirməsinə baxmayaraq psixoaktiv maddə qəbuluna üstünlük verilməsi; dozanın yol verilən həddinin artması və bəzən abstinensiya vəziyyəti.
Asılılıq sindromu konkret olaraq hər hansı bir maddəyə (məsələn, tütünə, alkoqola və diazepama), maddələr sinfinə (məsələn, narkotik maddələr olan opioidlərə) və ya psixoaktiv maddələrin çox geniş sırasına qarşı yarana bilər.

Xroniki alkoqolizm
Dipsomaniya
Narkomaniya

**.3 Abstinensiya vəziyyəti**

Müxtəlif xarakter və ağırlıq dərəcəsinə malik olan simptomlar qrupu olub, daimi olaraq qəbul etmiş şəxsin orqanizmindən psixoaktiv maddənin tam və ya qismən kənar edilməsi nəticəsində yaranır. Abstinensiya vəziyyətinin başlanma vaxtı və davam etmə müddəti psixoaktiv maddənin növündən, bu maddənin qəbulunun dayandırılması və ya azaldılmasından əvvəl qəbul edilmiş dozadan asılıdır. Abstinensiya vəziyyəti qıcolmalarla ağırlaşa bilər.

**.4 Sayıqlama ilə müşayiət olunan abstinensiya vəziyyəti**

Yuxarıda səciyyələndirilən abstinensiya vəziyyətinin (ümumi dördüncü nişan olan .3), sayıqlama ilə ağırlaşmış forması F05.– rubrikasında göstərilir. Bu vəziyyət qıcolmalarla da müşayiət oluna bilər. Əgər bəhs edilən vəziyyətin etiologiyasında üzvi amil rol oynayırsa, onda bu vəziyyət F05.8 rubrikasında təsnif edilir.

Ağ isitmə (alkoqol mənşəli)

**.5 Psixotik pozğunluq**

Psixoaktiv maddənin qəbulu zamanı və ya qəbulundan sonra yaranan psixotik simptomlar kompleksidir. Ancaq bu pozğunluq, kəskin intoksikasiya ilə və ya abstinensiya vəziyyətinin tərkib hissəsi kimi səciyyələndirilə bilməz.

Pozğunluq hallyüsinasiyalarla (adətən eşitmə, əksər hallarda isə bir neçə növ hallyüsinasiyanın birgə rast gəlinməsi ilə) qavrayış pozğunluğu, sayıqlama (ən çox paranoid xarakterli və ya təqib etmə ideyaları ilə), psixomator pozğunluqlarla (oyanma və ya stupor), güclü vahimədən ekstaz həddinə qədər müşahidə olunan qeyri-normal affektasiya ilə səciyyələnir. Huş adətən aydın olur, ancaq ağır çaşqınlıq müstəsna olmaqla: huşun qaralması hallarına təsadüf oluna bilər.

Alkoqol mənşəli:
- hallyüsinoz
- qısqanclıq sayıqlaması
- paranoya
- ƏGO psixoz

***Çıxarılıb:*** alkoqol və ya digər psixoaktiv maddə qəbulundan yaranan rezidual və təxirə salınmış psixotik pozğunluq (F10-F19, ümumi dördüncü nişan olan .7 ilə)

**.6 Amnestik sindrom**

Uzaq və yaxın keçmişdə baş vermiş hadisələrə görə yaddaşın güclü nəzərə çarpan, xroniki olaraq zəifləməsi ilə səciyyələnən sindrom. Yaddaşın bilavasitə hadisələri canlandırma qabiliyyəti adətən pozulmur. Yaxın vaxtlarda baş vermiş hadisələrin xatırlanması, uzaq keçmişə nisbətən daha güclü pozulur. Adətən zamana görə oriyentasiya və baş vermiş hadisələrin xronoloji ardıcıllığının yadda saxlanmasındakı pozğunluqlar və yeni materialın öyrənilməsindəki çətinliklər daha güclü nəzərə çarpır. Uydurmaqla danışma əlaməti mümkündür, lakin mütləq deyil. Digər qavrayış funksiyaları adətən nisbi olaraq yaxşı saxlanılır və amnestik pozğunluq, digər pozğunluqlarla nəzərə çarpma dərəcəsinə görə qeyri-proporsional olur.

Alkoqol və ya dərman maddələrinin qəbulu nəticəsində yaranan amnestik pozğunluq
Alkoqol və ya digər psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan və ya dəqiqləşdirilməmiş Korsakov sindromu və ya psixozu
Vernike sindromu və ya xəstəliyi ilə əlaqəli ağırlaşmanı göstərmək lazım gələrsə, əlavə koddan (E51.2† , G32.8*) istifadə edilir.

***Çıxarılıb:*** qeyri-alkoqol mənşəli Korsakov psixozu və ya sindromu (F04)

**.7 Rezidual və təxirə salınmış psixotik pozğunluq**

Bu pozğunluqla alkoqol və ya psixoaktiv maddələrin qəbulundan törənən qavrama funksiyaları, emosiya, şəxsiyyət və ya davranış pozğunluqları, psixoaktiv maddələrin bilavasitə təsirinin təzahür etdiyi dövrdən sonra da qala bilər.
Bu pozğunluğun başlanğıc mərhələsi psixoaktiv maddənin qəbulu ilə bilavasitə bağlı olmalıdır. Yox, əgər pozğunluq əlamətləri psixoaktiv maddənin qəbulundan müəyyən vaxt keçdikdən sonra təzahür olunarsa, onda ancaq inandırıcı dəlillər əsasında bu əlamətlərin psixoaktiv maddənin təsirinin qalıq əlamətləri kimi qiymətləndirilməli və yuxarıda göstərilən dördüncü nişanla kodlaşdırılmalıdır. Rezidual əlamətləri psixotik vəziyyətdən onların epizodikliyinə, qısa müddət ərzində davam etməsinə, alkoqol və ya narkotiklərin əvvəlki təzahürlərinin təkrarlanmasına görə fərqləndirmək mümkündür.

ƏGO alkoqol demensiyası
Xroniki alkoqol mənşəli beyin sindromu
Demensiya və digər yüngül formalı, davamlı qavrama pozğunluqları
"Fleşbek"
Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranan təxirə salınmış psixotik pozğunluqlar
Hallyüsinogen maddə qəbulundan sonra yaranan qavrama pozğunluğu
Rezidual:
- emosional [affektiv] pozğunluq
- şəxsiyyət və davranış pozğunluğu

***Çıxarılıb:*** alkoqol və ya psixoaktiv maddələrlə əlaqəli:
-Korsakov sindromu (F10-F19 ümumi dördüncü nişan .6 ilə)
-psixotik hal (F10-F19 ümumi dördüncü nişan .5 ilə)

**.8 Digər psixi pozğunluqlar və davranış pozğunluqları**

**.9 Dəqiqləşdirilməmiş psixi pozğunluq və davranış pozğunluğu**

## F10.– Alkoqol qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F11.– Opioidlərin qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F12.– Kannabioidlərin qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F13.– Sedativ və ya yuxu dərmanlarının qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F14.– Kokainin qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F15.– Digər stimulyatorların (kofein də daxil olmaqla) qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F16.– Hallyüsinogen maddələrin qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F17.– Tütündən istifadə nəticəsində yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F18.– Uçucu həlledicilərin qəbulundan yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]

## F19.– Eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozğunluqları

[yuxarıda F10-dan əvvəl verilmiş yarımrubrikalara bax]
Bu rubrikalardan o zaman istifadə edilir ki, iki və daha artıq psixoaktiv maddə qəbul edilmiş olsun, lakin, bu maddələrdən hansının yaranan pozğunluqda əsas rol oynaması barədə məlumat olmasın. Bu rubrikadan həmçinin o zaman istifadə edilə bilər ki, hansı psixoaktiv maddədən istifadə olunduğunu müəyyənləşdirmək çətin olsun. Belə ki, bəzən narkomanların özləri, çox vaxt dəqiq bilmirlər ki, nə qəbul edirlər.
***Daxil edilib:*** ƏGO narkotiklərdən sui-istifadə

# Şizofreniya, şizotipik və sayıqlama pozğunluqları (F20-F29)

Bu rubrika özündə, qrupun əsas hissəsini təşkil edən şizofreniyanı, şizotipik pozğunluğu, davamlı sayıqlama pozğunluğunu və kəskin, ötüb keçən psixotik pozğunluqların böyük bir qrupunu cəmləşdirir. Ziddiyyət təşkil etməsinə baxmayaraq, bu rubrikada şizoaffektiv pozğunluqlar da saxlanılmışdır.

## F20 Şizofreniya

Şizofrenik pozğunluq, başlıca olaraq, təfəkkür və qavrayışın təhrif olunması, həmçinin qeyri-adekvat affektlə səciyyələnir. Şüurun aydınlığı və əqli qabiliyyət adətən saxlanılır. Ancaq zaman keçdikcə dərketmə qabiliyyətinin tədricən aşağı düşməsi halı da mümkündür. Başlıca psixopatoloji simptomatika bunlardan ibarətdir: fikrin əks olunma hissiyyatı (əks-səda), yad fikirlərin toplanması və ya öz fikrinin oğurlanması, fikrin müəyyən məsafəyə ötürülməsi, sayıqlama xarakterli qavrayış və kənardan nəzarət sayıqlaması; süstlük; üçüncü şəxs tərəfindən xəstəni şərh və ya müzakirə etmə şəklində eşitmə hallyüsinasiyası; fikrin qarmaqarışıqlığı və neqativizm simptomları.

Şizofrenik pozğunluğun gedişi, pozulmaların proqressivləşməsi və ya stabilləşməsi ilə müşahidə olunaraq uzun müddətli və ya epizodik ola bilər. Bu, xəstəliyin tam və ya natamam remissiyası ilə nəticələnən bir və ya bir neçə epizoddan ibarət ola bilər. Əgər geniş depressiv və ya maniakal simptomatika müşahidə olunarsa, o vaxta qədər "şizofreniya" diaqnozu qoyulmur ki, şizofrenik simptomatikanın sələfinin affektiv pozğunluq olduğu aydınlaşsın. Beynin aşkar xəstəliyi varsa, həmçinin narkotik maddələrin intoksikasiyası və ya abstinensiyası dövründə "şizofreniya" diaqnozu qoyulmur. Epilepsiya və ya baş beynin digər xəstəlikləri zamanı yaranan analoji pozğunluqlar "F06.2" rubrikasında kodlaşdırılmalıdır. Əgər bunların əmələ gəlməsi psixoaktiv maddələrin qəbulu ilə bağlıdırsa, onda "F10-F19" rubrikasında, ümumi dördüncü ".5" nişanı ilə kodlaşdırılır.

***Çıxarılıb:*** şizofreniya:
- kəskin (diferensiasiya edilməmiş) (F23.2)
- tsiklik (F25.2)
- şizofrenik reaksiya (F23.2)
- şizotipik pozğunluq (F21)

### F20.0 Paranoid şizofreniya

Şizofreniyanın paranoid forması – hallyüsinasiyalarla, xüsusən də eşitmə hallyüsinasiyası və qavrayış pozğunluğu ilə müşayiət olunan, klinik mənzərəsini əsasən davamlı, tez-tez müşahidə olunan paranoid sayıqlama təşkil edən bir patologiyadır. Emosiya, iradə, nitq pozğunluqları və katatonik simptomlar müşahidə edilmir və ya nisbətən zəif nəzərə çarpır.

Parafrenik şizofreniya

***Çıxarılıb:*** involyüsion paranoid hal (F22.8)
paranoyya (F22.0)

### F20.1 Hebefrenik şizofreniya

Şizofreniyanın bu formasında affektiv dəyişikliklər üstünlük təşkil edir. Sayıqlama və hallyüsinasiyalar səthi və yarımçıq olur, davranış isə boş-boş və əvvəlcədən düşünülməmiş, adətən özünü əzib-büzmək formasında olur. Əhval-ruhiyyə dəyişkən və qeyri-adekvat, təfəkkür dağınıq, nitq əlaqəsiz olur. Tək qalmağa meyllik olur. Proqnoz, adətən, "neqativ" simptomların sürətlə inkişaf etməsi nəticəsində, xüsusən də iradənin itməsinə görə xoşagəlməz olur. Hebefreniyaya ancaq yeniyetmə və gənc yaşlarda diaqnoz qoyulmalıdır.

Dağınıq şizofreniya
Hebefreniya

### F20.2 Katatonik şizofreniya

Katatonik şizofreniyanın klinik mənzərəsində növbələşən, polyar xarakterli, psixomator pozğunluqlar üstünlük təşkil edir ki, onlardan hiperkinez və süstlük və ya avtomatik tabeçilik və neqativizm hallarını göstərmək olar. "Donub qalmış" poza uzun müddət davam edə bilər. Belə vəziyyətdə, bəzən, kəskin oyanma halının olması da mümkündür. Katatonik əlamətlər parlaq səhnəli hallyüsinasiyalarla müşayiət olunan yuxuya bənzər (oneyroid) vəziyyətlə birgə də rast gəlinə bilər.

Katatonik stupor
Şizofrenik:
- katalepsiya
- katatoniya
- mum elastikliyi

### F20.3 Differensasiya edilməmiş şizofreniya

Şizofreniyanın bütün əsas diaqnostik kriterilərinə cavab verən, lakin, "F20.0- F20.2" yarımrubrikalarında təsnif edilən formaların heç birinə uyğun gəlməyən və ya diaqnostik əhəmiyyətli hər hansı spesifik kompleksin aşkar üstünlüyü olmadan iki və daha artıq yuxarıda göstərilən formalara uyğun təzahürlərə malik olan psixotik hal

Atipik şizofreniya

*Çıxarılıb:* kəskin şizofreniyaya bənzər psixotik pozğunluq (F23.2) xroniki differensasiya edilməmiş şizofreniya (F20.5) postşizofrenik depressiya (F20.4)

## F20.4 Postşizofrenik depressiya

Depressiv epizod, hansı ki, uzun müddət davam edə bilər, şizofreniya xəstəliyinin nəticəsi kimi meydana çıxır. Şizofreniyanın bəzi simptomları ("pozitiv" və ya "neqativ") hələ də davam edir, lakin klinik mənzərədə əvvəlki kimi üstünlük təşkil edə bilmir. Bu depressiv vəziyyətlərlə özünü öldürməyə yüksək risk arasında bağlılıq vardır. Artıq xəstədə şizofreniya əlamətlərinə rast gəlinmirsə, onda "depressiv epizod" diaqnozu (F32.–) qoymaq lazımdır. Yox, əgər şizofreniyanın əlamətləri hələ də aydın, dəqiq nəzərə çarpırsa, onda şizofreniyanın müvafiq tipinə uyğun gələn diaqnoz qoyulmalıdır (F20.0- F20.3).

## F20.5 Qalıq şizofreniya

Şizofreniya xəstəliyinin inkişafının xronik mərhələsi olub, erkən mərhələdən gecikmiş mərhələyə keçidin aydın nəzərə çarpması, uzun müddətli (ancaq geri qayıtmaması məcburi deyil) "neqativ" simptomlarla, belə ki, psixomator tormozlanma; az fəallıq; emosional kütlük; təşəbbüs göstərməkdə passivlik və çatışmamazlıq; nitqində kasıblıq; danışıqla, intonasiya ilə mimiki hərəkətlərin uyğun gəlməməsi; özünə qulluq etməyin aşağı səviyyəyə düşməsi və ictimai həyatda cüzi fəaliyyətə malik olmaqla səciyyələnir.

Xroniki differensiasiya edilməmiş şizofreniya

Rezidual şizofrenik hal

## F20.6 Şizofreniyanın sadə tipi

Pozğunluq əvvəlcə nəzərə çarpmayan dərəcədə olur, lakin sonradan davranışda müşahidə edilən qeyri-adilik, cəmiyyətin tələbatını ödəməkdə bacarıqsızlıq və bütün fəaliyyət növlərinin zəifləməsi getdikcə dərinləşir. Qalıq şizofreniyanın xarakterik neqativ əlamətləri (məsələn, iradənin itirilməsi) əvvəlcədən heç bir psixotik simptomlara rast gəlinmədən inkişaf edir.

## F20.8 Şizofreniyanın digər tipi

Senestopatik şizofreniya Şizofreniyaya bənzər:

- ƏGO pozğunluq
- ƏGO psixoz

*Çıxarılıb:* qısa şizofreniyaya bənzər pozğunluq (F23.2)

## F20.9 Dəqiqləşdirilməmiş şizofreniya

# F21 Şizotipik pozğunluq

Pozğunluq ekssentrik davranış, təfəkkür anomaliyaları və emosional reaksiyalarla səciyyələnir. Bu əlamətlər şizofreniya xəstəliyi zamanı rast gəlinən əlamətlərə oxşayır. Lakin, şizofreniya zamanı bu əlamətlər özünəməxsus olur, bu patologiyanın heç bir mərhələsində şizofreniya zamanı təsadüf edilən səciyyəvi əlamətlərə təsadüf olunmur.

Bu pozğunluq özündə aşağıda göstərilən simptomları cəmləşdirir: emosional reaksiyaların soyuqluluğu və qeyri- adekvatlığı, qeyri-adi və ya ekssentrik davranış, tək qalmağa cəhd etmə, aydın nəzərə çarpan sayıqlamaya gətirib çıxarmayan paranoid və ya qeyri-adi ideyalar, ağrılı sarışanlıq, təfəkkür və qavrayış pozğunluqları, kəskin illüzor hissiyyatlar və eşitmə və ya digər hallyüsinasiyalar, sayıqlama ideyaları (özü də heç bir səbəb olmadan) ilə müşayiət olunan çox nadir keçici kvazipsixator epizodlar. Xəstəliyin başlanğıcı və ya inkişafı müəyyən qanunauyğunluğa tabe olmur, gedişi isə şəxsiyyət pozğunluğuna uyğun gəlir.

***Daxil edilib:*** Latent şizofrenik reaksiya

Şizofreniya:

- hüdudi
- latent
- predpsixotik
- prodromal
- psevdonevrotik
- psevdopsixopatik

Şəxsiyyətin şizotipik pozğunluğu

*Çıxarılıb:* Asperger sindromu (F84.5)
Şəxsiyyətin şizoid pozğunluğu (F60.1)

# F22 Xroniki sayıqlama pozğunluqları

Bir sıra pozğunluqları özündə cəmləşdirir ki, bu pozğunluqlar üçün yeganə və ya ən başlıca klinik əlamət davamlı sayıqlamadır və bunlar üzvi mənşəli, şizofrenik və ya affektiv pozğunluqlar kimi təsnif edilə bilməz. Bir neçə aydan az davam edən sayıqlama pozğunluğunu, heç olmasa müvəqqəti olaraq "F23.–" rubrikasına daxil etmək lazımdır.

## F22.0 Sayıqlama pozğunluğu

Pozğunluq, ancaq tək bir sayıqlama şəklində və ya bir-biri ilə bağlı olan ayrı-ayrı sayıqlama seriyaları şəklində təzahür olunur ki, bu isə çox davamlı olub, bəzən bütün ömür boyu davam edir. Sayıqlamanın və ya

sayıqlama seriyalarının məzmunu son dərəcə dəyişkən olur. Bu diaqnozla qətiyyən uyuşmaz hesab edilən əlamətlər bunlardır: aydın və davamlı eşitmə hallyüsinasiyaları (səs), şizofreniya simptomları (kənardan nəzarət sayıqlaması, kəskin emosional kütlük), həmçinin beyin xəstəliyinin aydın nəzərə çarpan simptomları. Ancaq, şizofreniya üçün çox səciyyəvi olmayan, təsadüfi və ya ötüb keçən eşitmə hallyüsinasiyalarının rast gəlinməsi xüsusi və ahıl yaşlarda bu diaqnozu istisna etmir (bu əlamətlər ümumi klinik mənzərənin cüzi bir hissəsini təşkil etmək şərti ilə)

Paranoya

Paranoid:

- psixoz
- vəziyyət

Parafreniya (gecikmiş)

Sensitiv münasibət sayıqlaması

***Çıxarılıb:*** paranoid:

- şəxsiyyət pozğunluğu (F60.0)
- psixogen psixoz (F23.3)
- reaksiya (F23.3)
- şizofreniya (F20.0)

## F22.8 Digər xroniki sayıqlama pozğunluqları

Bir və ya bir neçə sayıqlama şəkli davamlı eşitmə hallyüsinasiyası (səs) və ya digər şizofrenik simptomlar ilə müşayiət olunarsa və yaranmış klinik mənzərə şizofreniya diaqnozuna (F20.–) aid edilə bilməzsə, bu pozğunluq adı altında müəyyənləşdirilir. Sayıqlama dismorfofobiyası İnvolyüsion paranoid vəziyyət Kverulyant paranoyya

## F22.9 Dəqiqləşdirilməmiş xroniki sayıqlama pozğunluğu

# F23 Kəskin və ötüb keçən psixotik pozğunluqlar

Kəskin başlanan psixotik simptomlarla: sayıqlama, hallyüsinasiya, qavrayış pozğunluğu, adi davranışın ağır pozğunluğu ilə səciyyələnən çoxnövlü pozğunluqlar qrupu. Kəskin başlanğıc dedikdə, xəstəliyin iki həftə və daha az müddətə təzahür olunması nəzərdə tutulur. Bu pozğunluqların aşkar üzvi mənşəyi (etiologiyası) olmur. Çox tez-tez çaşıb qalma, başa düşməmə hallarına rast gəlinir, ancaq vaxta, yerə və ətrafa görə oriyentasiyanın pozulması o qədər davamlı və ağır olmur ki, üzvi mənşəli sayıqlama (F05.–) diaqnozu qoymaq mümkün olsun. Tamam sağalma adətən bir neçə ay, çox hallarda isə bir neçə həftə və ya hətta bir neçə gün ərzində baş verir. Əgər bu pozğunluqlar davamlı xarakter daşıyarsa, onda başqa koddan istifadə edilməlidir. Haqqında bəhs edilən pozğunluq kəskin streslə (həmişə yox) əlaqəli ola bilər. Stres vəziyyəti dedikdə, pozğunluqdan 1-2 həftə əvvəl baş vermiş stres nəzərdə tutulur.

## F23.0 Şizofreniya əlamətləri müşahidə olunmadan kəskin polimorf psixotik pozğunluq

Kəskin psixotik pozğunluq zamanı günbəgün və saatbasaat dəyişən həddən artıq müxtəlif hallyüsinasiyalar, sayıqlama və ya qavrayış pozğunluqları şübhəsizdir. Bundan başqa kəskin nəzərə çarpan və ötüb keçən xoşbəxtlik, ekstaz və ya narahatlıq, hirslilik hissiyyatları formasında müşahidə olunan emosional davamsızlığa tez-tez rast gəlinir. Polimorfizm və qeyri-stabillik bütün klinik formalar üçün səciyyəvi olub, psixi əlamətlər "şizofreniya" (F20.–) diaqnozu qoymağa əsas vermir. Bu pozğunluqlar əksər hallarda qəflətən başlayır, tez (bir neçə gün ərzində) inkişaf edir və bəzi hallarda isə, növbəti mərhələyə keçmədən dərhal da sönür. Əgər yuxarıda göstərilən simptomatika davamlıdırsa, onda diaqnoz dəyişdirilib, "xroniki sayıqlama pozğunluğu" (F22.–) diaqnozu qoyulmalıdır.

Şizofreniya əlamətləri olmadan və ya dəqiqləşdirilməmiş kəskin sayıqlama

Şizofreniya əlamətləri olmadan və ya dəqiqləşdirilməmiş sikloid psixoz

## F23.1 Şizofreniya əlamətləri ilə müşayiət olunan kəskin polimorf psixotik pozğunluq

"F23.0" yarımrubrikasında təsvir edilən, polimorf və davamsız klinik mənzərəyə malik olan kəskin psixotik pozğunluq; ancaq, bu qeyri-stabilliyə baxmayaraq, əksər hallarda, bir sıra şizofreniya əlamətləri müşahidə edilir. Əgər, şizofreniya əlamətləri davamlıdırsa, diaqnoz dəyişdirilib "şizofreniya" (F20.–) diaqnozu qoyulmalıdır.

Şizofreniya əlamətləri ilə gedən kəskin sayıqlama

Şizofreniya əlamətləri ilə gedən sikloid psixoz

## F23.2 Kəskin şizofreniyaya bənzər psixotik pozğunluq

Kəskin psixotik pozğunluq olub, psixotik əlamətlərin nisbətən davamlı olması və bu əlamətlərin şizofreniya diaqnozuna uyğun gəlməsi ilə səciyyələnir. Ancaq bunlar cəmisi bir aya qədər davam edir. "F23.0" yarımrubrikasında göstərilən polimorf və davamsız əlamətlər burada qeyd olunmur. Əgər, şizofreniya əlamətləri davamlıdırsa, onda diaqnozu dəyişdirib, "şizofreniya" (F20.–) diaqnozu qoymaq lazımdır.

Kəskin (differensasiya edilməmiş) şizofreniya

Qısa, şizofreniyaya bənzər:

- psixoz
- pozğunluq Oneyrofreniya Şizofrenik reaksiya

***Çıxarılıb:*** üzvi mənşəli sayıqlama [şizofreniyaya bənzər] pozğunluğu (F06.2)
ƏGO şizofreniyaya bənzər pozğunluq (F20.8)

### F23.3 Digər kəskin, başlıca olaraq psixotik sayıqlama pozğunluqları

Kəskin psixotik pozğunluq olub, əsas klinik əlaməti nisbətən stabil sayıqlama və ya hallyüsinasiya təşkil edir. Ancaq ki, bu əlamətlər "şizofreniya" (F20.–) diaqnozu qoymaq üçün kifayət etmir. Əgər ki, sayıqlama davamlıdırsa, onda diaqnoz dəyişdirilib, "xroniki sayıqlama pozğunluğu" (F22.–) diaqnozu qoyulmalıdır.

Paranoid reaksiya
Psixogen paranoid psixoz

### F23.8 Digər kəskin və ötüb keçən psixotik pozğunluqlar

Aşkar üzvi mənşəyə malik olmayan və ona görə də "F23.0- F23.3" rubrikalarına aid edilə bilməyən, istənilən digər dəqiqləşdirilmiş kəskin psixotik pozğunluqlar

### F23.9 Dəqiqləşdirilməmiş, kəskin və ötüb keçən psixotik pozğunluq

ƏGO qısa reaktiv psixoz
Reaktiv psixoz

## F24 Törədilmiş sayıqlama pozğunluğu

Yaxın emosional təmasda olan iki və daha artıq şəxs üçün ümumi olan sayıqlama pozğunluğu. Lakin, bu şəxslərdən biri həqiqi psixotik pozğunluqdan əziyyət çəkir; sayıqlama digər şəxs(lər)ə induksiya yolu ilə ötürülür və adətən xəstə ilə təmas kəsilən kimi, bu əlamət də keçib gedir.

Folie a deux(ikili maniya)
Törədilmiş:

- paranoid pozğunluq
- psixotik pozğunluq

## F25 Şizoaffektiv pozğunluqlar

Epizodik pozğunluq olub, şizofreniya əlamətləri və maniakal əlamətlər o dərəcədə aydın və o dərəcədə eyni təzahür olunur ki, bunların əsasında nə ancaq "şizofreniya" diaqnozu və nədə ki, "depressiv" və ya "maniakal epizod" diaqnozu qoymaq mümkün olmur. Digər hallarda, hansı ki, affektiv əlamətlər artıq mövcud olan şizofreniya üzərinə əlavə olunur, onda bu patologiyaları "F20-F29" rubrikalarında təsnif etmək lazımdır. Affektiv pozğunluqlar zamanı kəskin nəzərə çarpan əhval pozğunluqları psixotik simptomatika kimi "şizoaffektiv pozğunluq" diaqnozu qoymağa əsas vermir.

### F25.0 Şizoaffektiv pozğunluq, maniakal tip

Bu pozğunluq zamanı şizofreniya əlamətləri və maniakal əlamətlər o dərəcədə kəskin təzahür olunur ki, nə "şizofreniya" diaqnozu, nədə ki, "maniakal epizod" diaqnozu qoymaq mümkün olmur. Bu rubrikadan ancaq tək epizodlar üçün və ya residivverən pozğunluqlar zamanı istifadə edilə bilər ki, bu zaman əsas epizodları şizoaffektiv, maniakal tip təşkil etmiş olsun.

Şizoaffektiv psixoz, maniakal tip
Şizofreniyaya bənzər psixoz, maniakal tip

### F25.1 Şizoaffektiv pozğunluq, depressiv tip

Bu pozğunluq zamanı şizofreniya əlamətləri və depressiv əlamətlər o dərəcədə kəskin təzahür olunur ki, nə "şizofreniya" diaqnozu, nədə ki, "depressiv epizod" diaqnozu qoymaq mümkün olmur. Bu rubrikadan ancaq tək epizodlar üçün və ya residivverən pozğunluqlar zamanı istifadə edilə bilər ki, bu zaman əsas epizodları şizoaffektiv, depressiv tip təşkil etmiş olsun.

Şizoaffektiv psixoz, depressiv tip
Şizofreniyaya bənzər psixoz, depressiv tip

### F25.2 Şizoaffektiv pozğunluq, qarışıq tip

Tsiklik şizofreniya
Qarışıq şizofrenik və affektiv psixoz

### F25.8 Digər şizoaffektiv pozğunluqlar

### F25.9 Dəqiqləşdirilməmiş şizoaffektiv pozğunluq

ƏGO şizoaffektiv psixoz

## F28 Digər qeyri-üzvi mənşəli psixotik pozğunluqlar

Şizofreniya (F20.–), xroniki sayıqlama pozğunluğu (F22.–), kəskin və ötüb keçən psixotik pozğunluqlar (F23.–), maniakal epizodun psixotik tipləri (F30.2) və ya ağır depressiv epizod (F32.3) diaqnozlarından heç birini qoymağa əsas verməyən sayıqlama və ya hallyüsinasiya pozğunluqları

***Daxil edilib:***Xroniki hallyüsinator psixoz

## F29 Qeyri-üzvi mənşəli dəqiqləşdirilməmiş psixoz

***Daxil edilib*** ƏGO psixoz
***Çıxarılıb:*** ƏGO psixi pozğunluq (F99)
ƏGO üzvi mənşəli və ya simptomatik psixoz (F09)

# Əhval pozğunluqları [affektiv pozğunluqlar] (F30- F39)

Bu rubrika özündə, emosiya və əhvalın depressiya (həyəcanlı və ya onsuz) və ya yüksəlmə istiqamətində dəyişilməsi ilə müşahidə olunan pozğunluqları birləşdirir. Əhvalın dəyişilməsi, adətən, ümumi fəallığın dəyişilməsi ilə müşayiət olunur. Digər əksəriyyət simptomlar ikincili olub və ya əhval və fəallığın dəyişilməsi fonunda asanlıqla izah olunur. Belə pozğunluqlar residiv verməyə meyilli olurlar, özü də ayrıca epizodun başlanğıcı stress hadisəsi və vəziyyəti ilə bağlı ola bilər.

## F30 Maniakal epizod

Bu üçrəqəmli rubrikanın bütün yarımrubrikaları təkcə bir epizod üçün istifadə edilməlidir. Hipomaniakal və ya maniakal epizodlar; o halda ki, artıq keçmişdə bir və ya bir neçə affektiv epizodlar (depressiv, hipomaniakal, maniakal və ya qarışıq xarakterli) təzahür olunmuşdur, o zaman "biopolyar affektiv pozğunluq" (F31.–) kimi kodlaşdırılmalıdır.

***Daxil edilib***: bipolyar pozğunluq, vahid maniakal epizod

### F30.0 Hipomaniya

Əhvalın davamlı yüksəlməsi, həddən artıq çalışqanlıq, yüksək fəallıq və əsasən kəskin nəzərə çarpan firavanlıq, zehni və fiziki məhsuldarlıq kimi xüsusiyyətlərlə səciyyələnən pozğunluq. Əksər hallarda ünsiyyət yaratmağın güclənməsi, boşboğazlıq, artıq şitlik, üzlülük, seksual tələbatın artması və yuxuya tələbatın aşağı düşməsi müşahidə olunur. Ancaq o dərəcədə olmur ki, fəaliyyətin ağır dərəcədə pozulmasına və ictimai təklənməyə gətirib çıxarsın. Hirslilik, lovğalıq, kobudluq adi, eyforik ünsiyyəti əvəz edə bilir. Əhval və davranış pozğunluğu hallyüsinasiya və ya sayıqlama ilə müşayiət olunmur.

### F30.1 Psixotik simptomlarsız müşahidə olunan maniya

Xəstənin əhvalı onun real həyat tərzinə uyğun gəlmədən yüksəlmiş olur və qayğısız şənlənmədən nəzarət oluna bilməyən oyanmaya qədər dəyişə bilər. Əhvalın yüksəlməsi çalışqanlıq, fəallığın artması, söhbətçillik və yuxuya olan tələbatın aşağı düşməsi ilə müşayiət oluna bilər. Diqqətin bir səmtə yönəldilə bilinməməsi, bəzi hallarda isə fikir dağınıqlığı qeyd olunur. Öz-özünə qiymət vermə, bəzən, məğrurluq, böyük ideyalar vermə və özünə qürrələnmə şəklində müşahidə olunur. Normal ictimai təmkinin itməsi tədbirsiz, təhlükəli, yersiz və xəstənin xasiyyətinə uyğun gəlməyən addımlar atmağa gətirib çıxarır.

### F30.2 Psixotik simptomlarla müşahidə olunan maniya

"F30.1" yarımrubrikasında təsvir olunan klinik mənzərəyə aşağıda göstərilən əlamətlər əlavə olunur: sayıqlama (adətən böyük ideyalar şəklində) və ya hallyüsinasiyalar (adətən, bilavasitə xəstəyə ünvanlanan səs) və ya oyanma, həddən artıq hərəki fəallıq, həm də bu ideyalar coşqunluğu ona gətirib çıxarır ki, fərd, adi ünsiyyət üçün yararsız olur.

Əhvalla əlaqəli psixotik simptomlarla müşahidə olunan } maniya
Əhvalla əlaqəli olmayan psixotik simptomlarla müşahidə olunan } maniya

Maniakal stupor

### F30.8 Digər maniakal epizodlar

### F30.9 Dəqiqləşdirilməmiş maniakal epizod

ƏGO maniya

## F31 Bipolyar affektiv pozğunluq

Pozğunluq, iki və daha artıq epizodun rast gəlinməsi ilə səciyyələnir ki, bu zaman xəstənin əhvalı və fəallıq səviyyəsi kifayət dərəcədə pozulmuş olur. Bu pozğunluq əhvalın yüksəlməsi, çalışqanlığın artması və fəallığın güclənməsi (hipomaniya və ya maniya) və ya əhvalın, çalışqlanlığın və fəallığın kəskin aşağı düşməsi (depressiya) ilə səciyyələnir. Ancaq hipomaniya və ya maniya epizodlarının təkrarlanması "bipolyar" kimi təsnif edilir.

***Daxil edilib***: maniakal-depressiv

- xəstəlik
- psixoz
- reaksiya

***Çaxırılıb:*** vahid maniakal epizodlu, bipolyar pozğunluq (F30.–)
siklotimiya (F34.0)

### F31.0 Bipolyar affektiv pozğunluq, hipomaniyaların növbəti epizodu

Xəstədə hal-hazırda hipomaniakal əlamətlər mövcuddur və keçmişdə, heç olmazsa, bir dəfə, digər affektiv epizod (hipomaniakal, maniakal, depressiv və ya qarışıq xarakterli) qeyd olunmuşdu.

### F31.1 Bipolyar affektiv pozğunluq, psixotik simptomlarsız növbəti maniya epizodu

Xəstədə psixotik əlamətlər olmadan maniakal əlamətlər mövcud olur (F30.1 yarımrubrikasında olduğu kimi) və keçmişdə, heç olmasa bir dəfə, digər affektiv epizod (hipomaniakal, maniakal, depressiv və ya qarışıq xarakterli) müşahidə olunmuş olur.

### F31.2 Bipolyar affektiv pozğunluq, psixotik simptomlarla növbəti maniya epizodu

Xəstədə psixotik əlamətlərlə müşahidə olunan maniakal əlamətlər mövcud olur (F30.2 yarımrubrikasında olduğu kimi) və keçmişdə, heç olmasa bir dəfə, digər affektiv epizod (hipomaniakal, maniakal, depressiv və ya qarışıq xarakterli) müşahidə olunmuş olur.

### F31.3 Bipolyar affektiv pozğunluq, yüngül və ya orta dərəcəli depressiyaların növbəti epizodu

Xəstədə yüngül və ya orta dərəcəli depressiv epizodlarda olduğu kimi (F32.0 və ya F32.1) depressiya əlamətləri mövcud olur və keçmişdə, heç olmasa bir dəfə, digər affektiv epizod hipomaniakal, maniakal, depressiv və ya qarışıq tipli affektiv epizod müşahidə olunmuş olur.

### F31.4 Bipolyar affektiv pozğunluq, psixotik simptomlarsız müşahidə olunan ağır dərəcəli depressiyanın növbəti epizodu

Xəstədə psixotik simptomlarsız gedən, ağır dərəcəli depressiv epizodda olduğu kimi (F32.2) depressiya əlamətləri mövcud olur və keçmişdə, heç olmasa bir dəfə, digər affektiv epizod hipomaniakal, maniakal, depressiv və ya qarışıq tipli affektiv epizod müşahidə olunmuş olur.

### F31.5 Bipolyar affektiv pozğunluq, psixotik simptomlarla müşahidə olunan ağır dərəcəli depressiyanın növbəti epizodu

Xəstədə psixotik simptomlarla gedən, ağır dərəcəli depressiv epizodda olduğu kimi (F32.3) depressiya əlamətləri mövcud olur və keçmişdə, heç olmasa bir dəfə, digər affektiv epizod hipomaniakal, maniakal, depressiv və ya qarışıq tipli affektiv epizod müşahidə olunmuş olur.

### F31.6 Bipolyar affektiv pozğunluq, qarışıq xarakterli növbəti epizod

Xəstədə əvvələr, heç olmasa bir dəfə, təsdiq olunmuş hipomaniakal, maniakal, depressiv və ya qarışıq tipli affektiv epizod müşahidə olunmuş olur, növbəti hal isə maniakal və depressiv simptomların cəmindən və ya onların tez-tez bir-birini əvəz etməsindən ibarət olur.

***Çıxarılıb***: qarışıq xarakterli təkcə bir affektiv epizod (F38.0)

### F31.7 Bipolyar affektiv pozğunluq, növbəti remissiya

Xəstədə əvvələr, heç olmasa bir dəfə, təsdiq olunmuş hipomaniakal, maniakal, depressiv və ya qarışıq tipli affektiv epizod və heç olmasa bir dəfə, digər affektiv epizod (hipomaniakal, maniakal, depressiv və ya qarışıq xarakterli) müşahidə olunmuş olur. Növbəti mərhələdə (hal-hazırda) isə onda artıq bir neçə aydır ki, nəzərə çarpan dərəcədə əhval pozğunluğu qeyd olunmur. Profilaktik müalicə aparılan remissiya dövrləri də bu yarımrubrika ilə kodlaşdırılmalıdır.

### F31.8 Digər bipolyar affektiv pozğunluqlar

Bipolyar II pozğunluq

ƏGO residivləşən maniakal epizodlar

### F31.9 Dəqiqləşdirilməmiş bipolyar affektiv pozğunluq

## F32 Depressiv epizod

Depressiv epizodların yüngül, orta hallarında, xəstədə əhvalın aşağı düşməsi, işgüzarlıq və fəallığın azalması baş verir. Həmçinin sevinmək, ləzzət almaq, maraqlanmaq, fikrini cəmləşdirmək kimi xüsusiyyətlər də aşağı düşmüş olur. Cüzi bir iş gördükdə kəskin yorulma baş verir. Adətən yuxu pozulur və iştaha zəifləyir. Hətta xəstəliyin yüngül formasında belə, "özünü qiymətləndirmək" və özünəinam həmişə azalmış olur. Əksər vaxt, xəstəni "özünün günahkar və faydasız olması" fikirləri narahat edir. Şəraitdən asılı olmayaraq, günbəgün çox cüzi dəyişilən, əhvalın aşağı düşməsi və bu halın somatik simptomlarla müşahidə olunması müşahidə edilir. Bunlara insanı həvəsləndirən, ruhlandıran ətraf amillərə marağın itməsini, səhərlər, özü də sübh tezdən güclənmiş depressiyanın yaranmasını, kəskin nəzərə çarpan psixomator tormozlanmanı, həyəcanlılığı, iştahanın itməsini, arıqlamanı və libidonun (cinsi meylin) aşağı düşməsini misal göstərmək olar. Təzahür olunan simptomların sayından və ağırlıq dərəcəsindən asılı olaraq «depressiv epizod» yüngül, orta və ağır dərəcəli kimi təsnif oluna bilər.

***Daxil edilib***: təkcə bir epizodlu:

- depressiv reaksiya
- psixogen depressiya
- reaktiv depressiya

***Çıxarılıb***: uyğunlaşma reaksiyalarının pozğunluğu (F43.2)
qayıdan depressiv pozğunluq (F33.–)
F91.– rubrikasında təsnif edilən, davranış pozğunluqları ilə bağlı olan depressiv epizod (F92.0)

## F32.0 Yüngül dərəcəli depressiv epizod

Adətən yuxarıda göstərilən iki-üç simptom nəzərə çarpır. Xəstə, əlbəttə ki, bu əlamətlərdən əziyyət çəkir, ancaq öz fəaliyyətini davam etdirə bilir.

## F32.1 Orta dərəcəli depressiv epizod

Yuxarıda göstərilən dörd və daha artıq simptom meydana çıxır, xəstə öz əsas fəaliyyətini çox çətinliklə davam etdirir.

## F32.2 Psixotik simptomlarsız müşahidə olunan ağır dərəcəli depressiv epizod

Depressiya epizodu, yuxarıda göstərilən bir sıra simptomların aydın təzahür olunması şəklində xəstəyə əziyyət verir; adətən özü-özünə qiymət vermənin aşağı düşməsi, özünün gərəksizliyi və günahkar olması fikri daha çox nəzərə çarpır. İntihar etmək fikirləri və cəhdləri, həmçinin bir sıra psevdosomatik simptomlar xəstəni narahat edir.

Qıcıqlanma ilə keçən depressiya
Aydın nəzərəçarpan depressiya
Vital depressiya
} psixotik simptomlarsız təkcə bir epizod

## F32.3 Psixotik simptomlarla müşahidə olunan ağır dərəcəli depressiv epizod

F32.2 yarımrubrikasında təsvir olunduğu kimi və hallyüsinasiya, sayıqlama, psixomator süstlük və ya stupor (bu əlamətlər o dərəcədə güclü təzahür olunur ki, adətən xəstənin sosial aktivliyi mümkün olmur) əlamətlərinin də olması ilə gedən depressiya epizodu. İntihar etmə cəhdi, susuzluq və aclıq nəticəsində xəstənin həyatı təhlükə qarşısında qalır. Hallyüsinasiyalar və sayıqlama xəstənin əhvalına uyğun gələ də bilər, gəlməyə də bilər.

Təkcə bir epizodlu:

- psixotik simptomlarla gedən və aydın nəzərəçarpan depressiya
- psixogen depressiv psixoz
- psixotik depressiya
- reaktiv depressiv psixoz

## F32.8 Digər depressiv epizodlar

Atipik depressiya
ƏGO təkcə bir epizodlu "gizli" depressiya

## F32.9 Dəqiqləşdirilməmiş depressiv epizod

ƏGO depressiya
ƏGO depressiv pozğunluq

# F33 Qayıdan depressiv pozğunluq

"Depressiv epizod"da (F32.–) təsvir olunanlara müvafiq, təkrar depressiya epizodlarının baş verməsi və anamnezdə əhvalın yüksəlməsi və enerji axını (maniya) kimi müstəqil epizodların olmaması ilə səciyyələnən pozğunluq. Ancaq, bəzən depressiv epizoddan dərhal sonra, bəzi hallarda antidepressantlarla müalicənin təsirindən əhvalın azacıq yüksəlməsi və hiperreaktivlik (hipomaniya) kimi qısa epizodlar təsadüf oluna bilər. Qayıdan depressiv pozğunluqların ən ağır formaları (F33.2 və F33.3) əvvəlki anlayışlar olan maniakal-depressiv depressiya, melanxoliya, vital depressiya və endogen depressiya ilə bir sıra cəhətlərinə görə oxşardır. İlk epizod istənilən yaşda (uşaqlardan qocalığa qədər) təzahür oluna bilər. Onun başlanğıcı kəskin və ya gizli ola bilər, davam etmə müddəti isə bir neçə həftədən bir neçə aya qədər olur. "Qayıdan depressiv pozğunluq"lu bütün ömrü boyu "maniakal epizod"un təzahür olunma qorxusu vardır. Əgər bu baş verərsə, onda diaqnoz "bipolyar affektiv pozğunluq" (F31.–) diaqnozu ilə əvəz olunmalıdır.

***Daxil edilib***: təkrar baş verən:

- depressiv reaksiya
- psixogen depressiya
- reaktiv depressiya

} epizodları

***Çıxarılıb***: qayıdan, qısa müddətli depressiv epizodlar (F38.1)

## F33.0 Qayıdan depressiv pozğunluq, yüngül dərəcəli növbəti epizod

Pozğunluq, depressiya epizodlarının təkrarlanması ilə səciyyələnir. Növbəti epizod yüngül olur (F32.0 yarımrubrikasında təsvir olunduğu kimi) və anamnezde maniya olması qeyd edilmir.

## F33.1 Qayıdan depressiv pozğunluq, orta dərəcəli növbəti epizod

Pozğunluq, depresiya epizodlarının təkrarlanması ilə səciyyələnir. Növbəti epizod orta dərəcəli olur (F32.1 yarımrubrikasında təsvir olunduğu kimi) və anamnezde maniya olması qeyd edilmir.

## F33.2 Qayıdan depressiv pozğunluq, psixotik əlamətlər olmadan ağır dərəcəli növbəti epizod

Pozğunluq, təkrarlanan depressiya epizodları ilə səciyyələnir. Növbəti epizod, aydın nəzərə çarpır. Anamnezdə psixotik simptomlar (F32.2 yarımrubrikasında göstərildiyi kimi) və maniyalar olmur.

Psixotik əlamətlər olmadan endogen depressiya

Psixotik əlamətlər olmadan, qayıdan, böyük depressiya

Psixotik əlamətlər olmadan rast gəlinən depressiv tipli maniakal-depressiv psixoz

Psixotik əlamətlər olmadan, qayıdan, vital depressiya

## F33.3 Qayıdan depressiv pozğunluq, psixotik əlamətlərlə müşahidə olunan ağır dərəcəli növbəti epizod

Pozğunluq, təkrarlanan depressiya epizodları ilə səciyyələnir. Növbəti epizod, F32.3 yarımrubrikasında təsvir olunduğu kimi ancaq əvvəllər maniya epizodlarının olmaması şərti ilə, kəskin nəzərə çarpan psixotik əlamətlərə müşayiət olunur.

Psixotik simptomlarla müşahidə olunan endogen depressiya

Psixotik simptomlarla müşahidə olunan, depressiv tipli maniakal-depressiv psixoz

Psixotik əlamətlərlə müşahidə olunan böyük depressiyaların }
Psixogen depressiv psixozun } təkrarlanan ağır epizodları
Psixotik depressiyanın }
Reaktiv depressiv psixozun }

## F33.4 Qayıdan depressiv pozğunluq, növbəti remissiya mərhələsi

Xəstədə, keçmişdə iki və ya daha artıq depressiv epizod (F33.0-F33.3 yarımrubrikalarında təsvir olunduğu kimi), ancaq bir neçə aydır ki, depressiv əlamətlər müşahidə olunur.

## F33.8 Digər qayıdan depressiv pozğunluqlar

## F33.9 Dəqiqləşdirilməmiş qayıdan depressiv pozğunluq

ƏGO monopolyar depressiya

# F34 Davamlı əhval pozğunluqları [affektiv pozğunluqlar]

Davamlı və adətən enib-qalxan əhval pozğunluqları olub, ayrı-ayrı əksəriyyət epizodların kifayət dərəcədə ağır olmamasına görə, hipomaniakal və ya yüngül depressiv epizod kimi adlandırmaq mümkün olmur. Bunlar bəzən o qədər üzün müddət (bəzi hallarda xəstənin həyatının çox hissəsini təşkil edir) davam edir ki, xəstədə kəskin nəzərə çarpan süstlük və əmək qabiliyyətini itirmə meydana çıxır. Bəzi hallarda təkrarlanan və ya vahid maniakal və ya depressiv epizodlar "xroniki affektiv pozğunluq" üzərinə əlavə oluna bilər.

## F34.0 Siklotimiya

Davamlı, qeyri-stabil əhvali-ruhiyyə olub, bir neçə depressiya mərhələsi və və azca yüksəlmiş əhvali-ruhiyyə dövrlərini özündə birləşdirir. Lakin, bunların heç biri kifayət dərəcədə ağır və ya uzun müddətli olmur ki, xəstəyə "bipolyar affektiv pozğunluq" (F31.–) və ya qayıdan depressiv diaqnozu qoymaq mümkün olsun. Bu cur pozğunluq, adətən, "bipolyar affektiv pozğunluq" diaqnozu olan xəstənin qohumlarında əmələ gəlir. Siklotimiyalı xəstələrin bəzisində isə əvvəl-axır "bipolyar affektiv pozğunluğu" yaranır.

Affektiv şəxsiyyət pozğunluğu

Sikloid şəxsiyyət

Siklotimik şəxsiyyət

## F34.1 Distimiya

Xroniki depressiv əhval pozğunluğu olub, davam etmə müddəti bir neçə ildir. Ağırlıq dərəcəsi kifayət dərəcədə yüksək və ya ayrı-ayrı epizodları kifayət dərəcədə uzun müddətli deyil ki, ağır, orta və ya yüngül dərəcəli "qayıdan depressiv pozğunluq" diaqnozu (F33.–) qoymaq mümkün olsun.

Depressiv:
- nevroz
- şəxsiyyət pozğunluğu

Nevrotik depressiya

Davamlı həyəcanlı depressiya

***Çıxarılıb***: həyəcanlı depressiya (yüngül və ya davamsız) (F41.2)

## F34.8 Digər davamlı əhval pozğunluqları [affektiv pozğunluqlar] F34.9 Dəqiqləşdirilməmiş, davamlı əhval pozğunluqları [affektiv pozğunluqlar]

## F38 Digər əhval pozğunluqları [affektiv pozğunluqlar]

"F30-F34" rubrikalarında təsnif olunmağa əsas verməyən, istənilən digər əhval pozğunluqları. Bunun səbəbi isə əlamətlərin bir o dərəcədə ağır olmaması və uzun müddət davam etməməsidir.

### F38.0 Digər tək əhval pozğunluqları [affektiv pozğunluqlar]

Qarışıq affektiv epizod

### F38.1 Digər qayıdan əhval pozğunluqları [affektiv pozğunluqlar]

Qayıdan, qısa müddətli depressiv epizodlar

### F38.8 Digər dəqiqləşdirilmiş əhval pozğunluqları [affektiv pozğunluqlar]

## F39 Dəqiqləşdirilməmiş əhval pozğunluqları [affektiv pozğunluqlar]

ƏGO affektiv psixoz

# Nevrotik, stresslə əlaqədar və somatoform pozğunluqlar (F40–F48)

***Çıxarılıb***: F91.– rubrikalarında təsnif olunan davranış pozğunluqları ilə əlaqədar (F92.8)

## F40 Fobiyalı həyəcan pozğunluqları

Əsas və üstünlük təşkil edən simptomu, heç bir təhlükə ifadə etməyən müəyyən situasiyalardan qorxu olan pozğunluqlar qrupudur. Nəticədə xəstə adətən belə situasiyalardan qaçır və ya ehtiyat edir. Xəstənin narahatlığı ayrı–ayrı simptomlarda, belə ki, qorxudan titrəmə və ya bayılma hissiyatında toplanır və tez–tez ölümdən qorxma ilə, özünü idarə etməni itirmə ilə və ya dəli olma ilə assosiasiya olunur. Fobik situasiyaya düşə bilməni gözləmək adətən vaxtından qabaq həyəcan törədir. Fobik həyəcan və depressiya tez-tez müştərək olur. İki diaqnozun (fobiyalı həyəcan pozğunluğu və depressiv epizod) və ya birinin qoyulması haqqında qərar, bu halların davam etmə müddəti ilə və xəstənin konsultasiya zamanı terapiya barəsində həkimin düşüncələri ilə müəyyən olunur.

### F40.0 Aqorafobiya

Evdən çıxmaqdan, mağazaya daxil olmaqdan qorxmanı, kütlədən və içtimai yerlərdən qorxmanı, tək qatarla, avtobusla, təyyarə ilə səyahət etməkdən qorxmanı özündə birləşdirən kifayət qədər yaxşı təsvir olunmuş fobiyalar qrupudur. Vahiməyə düşmə pozğunluğu həm keçmiş, həm də hazırki epizodların adi cizgilərindən ibarətdir. Bundan əlavə xarakteristika kimi depressiv və sarışan simptomlar sosial fobiyalar tez–tez müşahidə olunur. Adətən fobiyalı situasiyalardan qaçma ifadə olunur və aqorafobiyadan əziyyət çəkən şəxslər elə bir böyük narahatçılıq keçirirlər, belə ki, onlar belə «təhlükələrdən» qaça bilirlər.

Anamnezdə vəlvələyə düşmə pozğunluğu olmayan aqorafobiya

Aqrofobiyalı vəlvələyə düşmə pozğunluğu

### F40.1 Sosial fobiyalar

Sosial situasiyalardan qaçmaya səbəb olan, digər insanların yetirdiyi diqqətdən qorxma. Daha dərin sosial fobiyalar aşağı dərəcəli özünü qiymətləndirmə və tənqiddən qorxma ilə əlaqədardır. Onların olması üzün qızarmasında, əllərin əsməsində, ürək bulanmada, daima sidiyə çağırışlarda özünü göstərir. Bə′zən xəstəyə elə gəlir ki, onun əsas problemi bu ikincili əlamətlərdən hər hansı biridir. Simptomatika vəlvələ tutmalarına qədər proqressivləşə bilər.

Antropofobiya

Sosial nevroz

### F40.2 Spesifik (izolə olunmuş) fobiyalar

Buraya, son dərəcə xüsusi situasiyalarla məhdudlaşmış, belə ki, xüsusi heyvanların yaxınlığı, hündürlük, ildırım, qaranlıq, uçuş, qapalı yer, içtimai ayaqyolunda sidik ifrazı və defekasiya, müəyyən qida məhsullarının istifadəsi, dişlərin müalicəsi, qanın və ya travmanın görünüşü kimi fobiyalar daxildir. Baxmayaraq belə situasiya haqqında fikir abstraktdır, ona düşmə zamanı aqrofobiyada və ya sosial fobiyada olduğu kimi vəlvələ yaranır.

Akrofobiya Heyvanlardan qorxma Klaustrofobiya

Sadə fobiya

***Çıxarılıb***: dismorfofobiya (sayıqlamasız) (F45.2)
xəstələnməkdən qorxma (nozofobiya) (F45.2)

### F40.8 Digər fobiyalı həyəcan pozğunluqları

### F40.9 Dəqiqləşdirilməmiş fobiyalı həyəcan pozğunluğu

ƏGO fobiya

ƏGO fobiya vəziyyəti

## F41 Digər həyəcan pozğunluqları

Əsas simptomu həyəcan olan və hər hansı konkret xarici situasiya ilə məhdudlaşmayan pozğunluqdur. Həmçinin ikincili və daha az ağırlıqda olmaq şərti ilə, depressiv və sarışan simptomlar və hətta bəzi fobiyalı həyəcan elementləri də müşahidə edilə bilər.

### F41.0 Vəlvələ pozğunluğu [epizodik paroksizmal həyəcanlılıq]

Pozğunluğun xarakter əlaməti, konkret olaraq hər hansı xüsusi situasiya ilə və ya şərait kompleksi ilə məhdudlaşmayan, buna görə də qabaqcadan deyilə bilməyən residivləşən kəskin ifadə olunmuş həyəcan (vəlvələ) tutmalarıdır. Digər həyəcan pozğunluqlarında olduğu kimi, əsas simptomatikaya, qəflətən meydana çıxan ürək döyünmə, döş sümüyü arxasında ağrı, boğulma, ürəkbulanma hissiyatı, qeyri – reallıq hissi (depersonalizasiya və ya derealizasiya) daxildir. Bundan əlavə, ikincili, olaraq tez – tez ölümdən, özü üzərində kontrolu itirməkdən və ya dəli olmaqdan qorxu müşahidə olunur. Əgər pasientdə vəlvələ tutmasının əvvəlində depressiv pozğunluq vardırsa, vəlvələ pozğunluğu əsas diaqnoz kimi istifadə edilə bilməz. Bu halda vəlvələ tutması, depressiyaya nəzərən ikincilidir.

Vəlvələ:

- tutması
- halı

***Çıxarılıb***: aqorafobiya ilə birlikdə vəlvələ pozğunluğu (F40.0)

### F41.1 Generalizə edilmiş həyəcan pozğunluğu

Yayılmış və davamlı olan, lakin hər hansı xüsusi ətraf şərait elementləri ilə məhdudlaşmayan və ya əsas etibari ilə onlarla törənən (başqa sözlə, sərbəst üzən və ya «free–floating») həyəcandır. Dominant simptomlar dəyişkəndirlər, lakin davamlı nevrozluq, qorxu hissiyatı, əzələ gərginliyi, tərləmə, ağılsızlıq hissiyatı, titrəmə, baş hərlənmə, epiqastral nahiyyədə diskomfort hissiyatı şikayətlərini özündə birləşdirir. Xəstəyə bir çox hallarda onu və ya qohumlarını yaxın zamanlarda gözləyən bədbəxt hadisədən və ya xəstəlikdən qorxu ifadə edir.

Həyəcan:

- reaksiyası
- halı
- nevrozu

***Çıxarılıb***: nevrasteniya (F48.0)

### F41.2 Qarışıq həyəcan və depressiv pozğunluq

Bu rubrikanı o halda istifadə etmək lazımdır ki, eyni zamanda həm həyəcan, həm də depressiya mövcud olsun, lakin bu hallardan heç biri üstünlüyə malik olmasın, onların simptomatikasının dərəcəsi isə hər birinə ayrıca diaqnoz qoymağa imkan verməsin. Əgər həm həyəcan, həm də depressiya simptomları o dərəcədə ifadə olunur ki, bu pozğunluqların hər birinə ayrıca diaqnoz qoymağa imkan verir, bu halda hər iki diaqnozu kodlaşdırmaq lazımdır və bu halda hazırkı rubrika istifadə olunmamalıdır.

Həyəcan depressiyası (yüngül və ya davamsız)

### F41.3 Digər qarışıq həyəcan pozğunluqları

Həyəcan simptomları F42-F48 rubrikalarında təsnif olunan digər pozğunluqların əlamətləri ilə müştərək olur. Bu zaman bu pozğunluqlarda simptomların ifadə dərəcəsi o dərəcədə ağır olmur ki, onlara ayrıca baxdıqda diaqnoz qoymaq mümkun olsun.

### F41.8 Digər dəqiqləşdirilmiş həyəcan pozğunluqları

Həyəcan isteriyası

### F41.9 Dəqiqləşdirilməmiş həyəcan pozğunluğu

ƏGO həyəcan

## F42 Obsessiv-kompulsiv (sarışan-məcburi) pozğunluqlar

Belə vəziyyətin əsas xüsusiyyəti təkrari sarışan fikirlərin və ya məcburi hərəkətlərin olmasıdır. Sarışan fikirlər stereotip şəkildə xəstənin təkrar-təkrar ağlına gələn ideyalardan, obrazlardan və ya arzulardan ibarətdir. Onlar demək olar ki, həmişə kədərləndiricidirlər və pasient adətən səmərəsiz onlara müqavimət göstərməyə çalışır. Bununla belə xəstə bu fikirləri nə qədər qeyri-iradi və pis olsalar belə özününkü sayır. Sarışan hərəkətlər və ya rituallar siereotip materialardan ibarətdir ki, xəstə onları təkrar-təkrar yerinə yetirir. Onlar zövq alma üsulu və ya faydalı məsələlərin yerinə yetirilməsində atribut deyildirlər. Bu hərəkətlər xəstənin ehtiyat etdiyi xoşagəlməz hadisənin baş verməsinin qarşısını almaq üsuludur, hansı ki, əks halda baş verərək onun özünə və ya xəstə tərəfindən digər şəxsə zərər yetirə bilər. Adətən belə davranış xəstə tərəfindən mə'nasız və ya effektsiz kimi başa düşülür və ona qarşı təkrari cəhdlər görülür. Demək olar ki, həmişə həyəcan müşahidə edilir. Əgər kompulsiv hərəkətlər tormozlanırsa, həyəcan daha da artır.

***Daxil edilib***: anankastik nevroz
obsessiv-kompulsiv nevroz

***Çıxarılıb***: obsessiv-kompulsiv şəxsiyyət (pozğunluq) (F60.5)

## F42.0 Əsasən sarışan fikirlər və ya düşüncələr

Onlar demək olar ki, xəstəyə əziyyət verən ideyalar, fikir obrazları və ya hərəkətə təhrik etmə formasını ala bilərlər. Bə'zən ideyalar bitkin olmurlar, gündəlik həyata aid olan adi, lakin vacib qərar qəbul etmək qabiliyyətinin olmaması ilə əlaqədar sonsuz müzakirə olunan alternativ fikir olurlar. Sarışan düşüncələr və depressiya arasında əlaqə xüsusi ilə sıxdır, buna görə də obsessiv-kompulsiv pozğunluq diaqnozuna o halda üstünlük vermək olar ki, əgər sarışan fikirlər depressiv epizodu olmadan yaranır və ya saxlanılır.

## F42.1 Əsasən kompulsiv hərəkətlər [sarışan rituallar]

Kompulsiv məcburi hərəkətlərin əksəriyyəti çirkin təmizlənməsinə aid olur (əsasən əllərin yuyulması), potensial təhlükəli situasiyanın yarana bilməməsi haqqında zəmanətin alınması üçün təkrari yoxlamalara və ya təmizkarlığa və səliqəliliyə riayət etməyə aid olur. Belə aydın davranışın əsasında pasienti gözləyən təhlükədən və ya onun özünün başqa birisini təhlükəyə düçar edəcəyi qorxusu durur və ritual hərəkətlər nəticəsiz qalır və ya təhlükənin qarşısını almaq üçün simvolik cəhdlər olur.

## F42.2 Qarışıq sarışan fikirlər və hərəkətlər

## F42.8 Digər obsessiv-kompulsiv pozğunluqlar

## F42.9 Dəqiqləşdirilməmiş obsessiv-kompulsiv pozğunluqlar

# F43 Ağır stresə və adaptasiya pozğunluğuna qarşı reaksiya

Bu pozğunluqlar qrupu digər qruplardan onunla fərqlənirlər ki, bu qrupa təkcə simptomatika və gedişin xarakteri əsasında deyil, həmçinin bir və ya hər iki səbəbin: - kəskin stress reaksiyasına səbəb olmuş həddindən artıq xoşagəlməz həyat hadisəsi və ya uzunmüddətli xoşagəlməz şəraitə və adaptasiya pozğunluğuna səbəb olmuş həyatda baş vermiş əhəmiyyətli dəyişikliklərin təsirinin aşkar görünməsi əsasında təsnif olunan pozğunluqlar daxil edilib. Baxmayaraq ki, az ağır psixososial stress (həyat şəraiti) bu sinifdə göstərilmiş xəstəliklərin başlanmasını sur'ətləndirə bilər və ya geniş spektr pozğunluqların yaranmasına səbəb ola bilər, onun etioloji əhəmiyyəti həmişə aydın deyil və hər bir halda fərddən asılılıq, tez-tez onun yüksək həssaslığından və zəifliyindən asılılıq e'tiraf olunacaq (başqa sözlə, həyat hadisələri pozğunluğun yaranmasını və formasını izah etmək üçün vacib və kifayət deyildir). Bu rubrikadatoplanmış pozğunluqlara, əksinə, həmişə bilavasitə kəskin ağır stresin və ya uzunmuddətli travmanın səbəbi kimi baxılacaq. Stress hadisələri və ya uzunmüddətli əlverişsiz şərait birincili və ya üstünlüyə malik səbəb faktoru olurlar və pozğunluq onların tə'siri olmadan yarana bilməz. Beləliklə, bu rubrikada təsnif olunan pozğunluqlar ağır və ya uzunmüddətli stresə qarşı uyğunlaşma reaksiyası kimi baxıla bilər, bu zaman onlar stresin öhdəsindən gəlməyə mane olurlar və nəticə etibarı ilə sosial funksiya yerinə yetirmə problemlərinə səbəb olurlar.

## F43.0 Stresə qarşı kəskin reaksiya

İnsanda qeyri-adi fiziki və ya psixi stresə qarşı cavab olaraq, psixi pozğunluqların digər əlamətləri olmadan yaranan və adətən bir neçə saatdan və ya gündən sonra sönən keçici pozğunluqdur. Stress reaksiyalarının yaranmasında və ağırlığında, fərdi tez tə'sirlənmə və özunu idarə etmək qabiliyyəti böyük əhəmiyyətə malikdir. Simptomlar tipik qarışıq və dəyişkən mənzərəyə malik olurlar və bir qədər düşüncə və diqqət sferasının daralması ilə, qıcıqlandırıcıları tam dərk etməyin qeyri-mumkunluyu ilə və dezorientasiya ilə ilkin «heyrət» halından ibarət olurlar. Bu hal növbəti ətraf situasiyadan «uzaqlaşma» ilə (dissosiativ stupor halına qədər – F44.2) və ya həyəcan və yuksək aktivliklə (uçuş və ya fuqa reaksiyası) ilə müşaiyət oluna bilər. Adətən vəlvələ pozğunluğunun ayrı-ayrı əlamətləri mövcud olur (taxikardiya, həddən artıq tərləmə, qızarma). Simptomatika adətən stress stimullarının və ya hadisənin tə`sirindən bir neçə dəqiqə sonra yaranır və 2-3 gündən sonra (çox vaxt bir neçə saatdan sonra) sönur. Stress hadisəyə qarşı hissəvi və ya tam amneziya (F44.0) mövcud ola bilər. Əgər yuxarıda göstərilmiş simptomatika davamlıdırsa, diaqnozu dəyişmək lazımdır.

Kəskin:

- krizis reaksiyası
- stresə qarşı reaksiya Hərbi xidmət dövrünün nevrozu

Krizis halı

Psixi şok

## F43.1 Posttravmatik stress pozğunluğu

Hər bir şəxsdə dərin stress törədə biləcək, xüsusi ilə təhlükəli və ya faciəli xarakterli stress hadisəsinə (qısa və ya uzunmüddətli) təxirəsalınmış və ya yubanmış cavab kimi meydana çıxır. Meyl etdirici faktorlar, belə ki, şəxsi xüsusiyyətlər (kompulsivlik, asteniklik) və ya anamnezdə sinir xəstəliyi sindromun inkişafı üçün qıcıq qapsını azalda və ya onun gedişini ağırlaşdıra bilər, amma onlar heç zaman onun yaranmasının izahı üçün vacib və kifayət olmurlar. Tipik əlamətlərə sarışan xatirələrdə («kadrlar») travma yetirmiş hadisənin təkrarlanan təəssüratlarından, təəccübdən donub qalma hissiyatı fonunda yaranan fikirlərdən və ya qarabasmalardan, emosional tormozlanmadan, digər insanlardan uzaqlaşmaqdan, ətrafa reaksiyasızlıqdan və travmanı xatırladan hərəkətlər və situasiyadan qaçmaqdan ibarət epizodlar daxildir. Adətən həddən artıq oyanıqlıq və ifadə olunmuş yüksək ehtiyatlılıq, qorxu ya və yuxusuzluğa yüksək reaksiya mövcud olur. Həyəcan və depressiya çox vaxt yuxarıda göstərilmiş simptomlarla əlaqədar olur və bir çox hallarda özünü öldürmə ideyaları da yarana bilər. Pozğunluq simptomlarından əvvəl travmadan sonra bir neçə həftədən, bir neçə aya kimi dəyişən latent dövr olur. Pozğunluğun gedişi müxtəlifdir, amma əksər hallarda sağalma gözləmək olar. Bəzi hallarda bu vəziyyət bir neçə il davam edəcək, şəxsiyyətin davamlı dəyişilməsinə keçidlə xronik gedişə çevrilə bilər. (F62.0)

Travmatik nevroz

## F43.2 Uyğunlaşdırıcı reaksiyaların pozğunluğu

Həyatda mühüm dəyişikliklərə və ya stress hadisələrinə adaptasiya periodunda yaranan, içtimai fəaliyyətə və hərəkətlərə çətinlik törədən subyektiv distress və emosional pozğunluq halıdır. Stress halı fərdin sosial əlaqələrinin tamlığını (ağır itki, ayrılıq) və ya sosial müdafiə və dəyərlərin geniş sistemini (miqrasiya, qaçqınlıq statusu) poza bilər və ya həyatda dəyişikliklərin və dönüşlərin geniş diapazonunu (məktəbə daxil olma, valideyinlik statusu əldə etmə, müqəddəs şəxsi məqsədə çatmaqda müvəffəqiyyətsizlik, istefaya getmə) təqdim edə bilər. Fərdi meyllik və tez tə'sirlənmə uyğunlaşdırıcı reaksiyaların pozğunluqlarının yaranma riskində və meydana çıxma formasında əsas rol oynayır, lakin belə pozğunluqların travma törədici faktorların iştirakı olmadan meydana çıxması qəbul edilmir. Əlamətlər çox variabeldirlər və əhval-ruhiyyənin olmaması, ehtiyatlılıq və ya narahatçılıq (və ya bu halların kompleksi), situasiyanın öhdəsindən gəlməmək hissiyatı, hər şeyi əvvəlcədən planlaşdırma və ya hazırki situasiyada qalmaq qərarı daxildir, həmçinin gündəlik həyatda fəaliyyət qabiliyyətinin bir qədər azalma dərəcəsini özündə birləşdirir. Eyni zamanda davranış pozğunluqları da, xüsusi ilə yeniyetmə yaş dövründə qoşula bilər. Xarakter əlaməti kimi qısa və ya uzunmüddətli depressiv reaksiya və ya digər emosiyaların və davranışın pozulmaları ola bilər.

Mədəni şok
Kədər reaksiyası
Uşaqlarda hospitalizm

***Çıxarılıb***: uşaqlarda ayrılıqdan törənmiş həyəcan pozğunluğu (F93.0)

## F43.8 Ağır stresə qarşı digər reaksiyalar

## F43.9 Dəqiqləşdirilməmiş ağır stresə qarşı reaksiya

# F44 Dissosiativ [konversion] pozğunluqlar

Dissosiativ və ya konversion pozğunluqlar, keçmiş hadisələrə qarşı yaddaş, özünü şəxsiyyət kimi başa düşmək qabiliyyəti və bədənin hissiyatı və hərəkətini, idarə etmək qabiliyyəti arasında normal inteqrasiyanın tam və ya hissəvi itirilməsi kimi ümumi qəbul edilmiş müddəaların əsasında ayırd edilir. Dissosiativ pozğunluqların bütün növləri bir neçə həftə və ya aydan sonra xüsusi ilə əgər onların yaranması həyatda baş vermiş hər hansı travma törətmiş hadisə ilə əlaqədardırsa, sönməyə meyllidirlər. Əksər xronik pozğunluqlar, xüsusən ifliclər və hissiyatın itirilməsi həlli mümkün olmayan problemlərin və şəxsiyyətlər arası çətinliklərin fonunda inkişaf edə bilər. Bu pozğunluqlar əvvəllər əsasən «konversion isteriya»nın müxtəlif növləri kimi təsnif olunurdular. Hesab edilir ki, onlar psixogen etiologiyaya malikdirlər belə ki, yaranma vaxtına görə travma törətmiş hadisələrlə, həll olunmayan və dözülməz problemlərlə və ya pozulmuş qarşılıqlı münasibətlərlə sıx əlaqəlidir. Simptomlar adətən xəstənin psixi xəstəliyin əlamətləri haqqında fikirlərinə uyğun olurlar. Tibbi baxış və müayinə hər hansı aydın fiziki və ya nevroloji pozğunluqlar aşkar etmir. Lakin tamamilə aydındır ki, funksiyanın itirilməsi emosional konfliktin və ya ehtiyacın ifadəsi kimi meydana çıxır. Simptomlar psixoloji stresslə sıx əlaqədar inkişaf edə bilər və çox vaxt qəflətən meydana çıxır. Bu rubrikaya normada iradi kontrol edilən yalnız fiziki funksiyaların pozğunluqları və hissiyatın itirilməsi daxil edilib. Ağrı hissiyatı və vegetativ sinir sistemi tərəfindən digər fiziki hissiyat kompleksi daxil olan pozğunluqlar psixosomatik pozğunluqlar rubrikasında (F45.0) təsnif olunmuşdur. Həmişə gələcəkdə ciddi fiziki və ya psixi pozğunluqların inkişaf etməsi ehtimalını yadda saxlamaq lazımdır.

***Daxil edilib***: konversion:

- isteriya
- reaksiya isteriya

isterik psixoz

***Çıxarılıb***: simulyasiya [düşünülmüş simulyasiya] (Z76.5)

## F44.0 Dissosiativ amneziya

Əsas əlamət xüsusi ilə vacib yaxın hadisələrə qarşı yaddaşın itirilməsi olub, bu zaman üzvi psixi xəstəlik ayırd edilir və o dərəcədə ifadə olunur ki, onu adi unutqanlıqla və yorğunluqla izah etmək mümkün olur. Amneziya adətən bədbəxt hadisə və ya qəflətən ağır itgi kimi travma törədici hadisələrdə toplanır və adətən hissəvi və seçici olur. Tam və generalizə olunmuş amneziya nadir hallarda və adətən ambulator avtomatizmin (fuqalar) (F44.1) hissəsi olur; bu halda pozğunluğu məhz belə təsnif etmək lazımdır. Dissosiativ amneziya diaqnozunu beynin üzvi xəstəliyi, intoksikasiyalar və ya həddən artıq yorğunluq olduqda qoymaq olmaz.

***Çıxarılıb***: alkoqolun və ya digər psixoaktiv maddənin istifadəsi ilə əlaqədar amnestik pozğunluq (F10–F19 ümumi dördüncü .6 işarəsi ilə)

amneziya:

- ƏGO (R41.3)
- anteroqrad (R41.1)
- retroqrad (R41.2)

qeyri-alkoqol üzvi amnestik sindrom (F04)
epilepsiya tutmasından sonra amneziya (G40.–)

## F44.1 Dissosiativ fuqa

Dissosiativ fuqa, adi hər bir gündəlik sərhəddən kənara çıxan məqsədyönlü yerdəyişmələrlə birlikdə dissosiativ amneziyanın bütün əlamətlərinə malikdir. Baxmayaraq ki, fuqa periodunda amneziya mövcud olur, kənar müşahidəçilərə bu zaman pasientin davranışı tam normal təsir bağışlayır.

***Çıxarılıb***: epilepsiya tutmasından sonra fuqa (G40.–)

### F44.2 Dissosiativ stupor

Dissosiativ stupora işıq, küy, toxunma kimi xarici qıcıqlandırıcılara qarşı iradi hərəkətlərin və normal cavab reaksiyalarının ifadə olunmuş dərəcədə azalması və ya olmaması əsasında diaqnoz qoyulur, lakin baxış və müayinə aşkar fiziki səbəb ayırd etmir. Bundan əlavə, yaxınlarda baş vermiş hadisələr və ya problemlər şəklində psixogen səbəb tam aşkarlıqla mövcud olur.

***Çıxarılıb***: üzvi katatonik pozğunluqlar (F06.1)

stupor:
- ƏGO (R40.1)
- katatonik (F20.2)
- depressiv (F31 – F33)
- maniakal (F30.2)

### F44.3 Trans və mübtəlalıq

Müvəqqəti olaraq özünü bir şəxsiyyət kimi hiss etmənin və ətrafın tam dərk edilməsinin itirilməsi mövcud olan
pozğunluq. Bu rubrikaya yalnız qeyri-iradi və arzuolunmaz olan, dindən və ya mədəni-münasib situasiyalardan xaric meydana çıxan trans halları daxil edilib.

***Çıxarılıb***: aşağıdakılarla əlaqədar hallar:
- kəskin və ya keçici psixotik pozğunluqlarla (F23.–)
- üzvi etiologiyalı şəxsiyyət pozğunluğu ilə (F07.0)
- postkontuzion sindromla (F07.2)
- psixoaktiv maddələrin istifadəsi nəticəsində baş verən intoksikasiya ilə (F10-F19 ümumi dördüncü .0 işarəsi ilə)
- şizofreniya ilə (F20.–)

### F44.4 Dissosiativ hərəkət pozğunluqları

Bütün müxtəlifliyi ilə bərabər, ətrafla və ətraflarla hərəkət etdirmək qabiliyyətinin tam və ya hissəvi itirilməsi mövcud olur. Ataksiyanın, apraksiyanın, aksineziyanın, afoniyanın, dizartriyanın, diskineziyanın, tutmaların və ya iflicin hər hansı növləri ilə demək olar ki, sıx oxşarlıq görülə bilər.

Psixogen:
- afoniya
- disfoniya

### F44.5 Dissosiativ konvulsiyalar

Dissosiativ konvulsiyalar epileptik tutmalara bənzəyir, lakin dilin dişlənməsi, yıxılmalarla əlaqədar qansızmalar və qeyri-iradi sidik ifrazı nadir hallarda olur. Düşüncə saxlanılır və ya stupor və ya trans halı ilə əvəz olunur.

### F44.6 Dissosiativ anesteziya və ya hissi qavramanın itirilməsi

Dəri anesteziya nahiyyələri adətən sərhədlərə malik olurlar. Bu o deməkdir ki, onlar pasiyentin tibbi biliklərdən fərqli orqanizmin funksiyaları haqda təsəvvürləri ilə əlaqədardırlar. Nevroloji zədələnmə ilə əlaqədar olması vacib olmayan, sensor modulyasiyalar arasında fərqin itirilməsi mümkündür. Hissi qavramanın itirilməsi paresteziya şikayətləri ilə müşaiyət oluna bilər. Dissosiativ pozğunluqlarda görmənin və eşitmənin itirilməsi nadir hallarda total olur.

Psixogen karlıq

### F44.7 Qarışıq dissosiativ [konversion] pozğunluqlar

F44.0 – F44.6 rubrikalarında təsnif olunan pozğunluqların birləşməsi.

### F44.8 Digər dissosiativ [konversion] pozğunluqlar

Hanser sindromu

Şəxsiyyətin ikiləşməsi

Psixogen:
- özünü itirmə
- alaqaranlıq hal

### F44.9 Dəqiqləşdirilməmiş dissosiativ [konversion] pozğunluq

## F45 Somatoform pozğunluqlar

Əsas xüsusiyyət, simptomların somatik təbiətinin olmaması haqqında tibbi müayinələrin mənfi nəticələrinə və həkimlərin inandırmalarına baxmayaraq, inadkarlıqla belə müayinələrin keçirilməsini tələb etməklə eyni zamanda təkrari somatik simptomatikanın təqdim edilməsindən ibarətdir. Əgər xəstədə hər hansı somatik xəstəlik mövcud olursa, onlar simptomların və ya əziyyətlərin və xəstənin şikayətlərinin təbiətini və ifadə olunma dərəcəsini izah etmirlər.

***Çıxarılıb***: dissosiativ pozğunluqlar (F44.–)
saçların dartılması (F98.4)
nitqin uşaq forması [kəkələmə] (F80.0)
şirin danışma (F80.8)
dırnaqların dişlənməsi (F98.8)
digər rubrikalarda təsnif olunan pozğunluqlarla və ya xəstəliklərlə əlaqədar psixoloji və davranış faktorları (F54)
üzvi pozğunluqlar və ya xəstəliklərlə əlaqədar olmayan seksual disfunksiya (F52.–)
barmağın sorulması (F98.8)
tiklər (uşaq və yeniyetmə yaş dövründə) (F95.–)
de la Turett sindromu (F95.2)
trixotillamaniya (F63.3)

## F45.0 Somatikləşdirilmiş pozğunluq

Əsas əlamətlər ən azı iki il mövcud olan çoxsaylı, təkrari, tez-tez dəyişən fiziki simptomlardan ibarətdir. Əksər pasientlərin ilkin və ixtisaslaşdırılmış tibbi yardım xidmətləri ilə əlaqəli uzunmüddətli və mürəkkəb kontakt tarixi olur, amma bu zaman çoxsaylı nəticəsiz müayinələr və diaqnostik manipulyasiyalar icra olunmuş olur. Simptomatika bədənin hər hansı bir hissəsinə və ya orqanlar sisteminə aid ola bilər. Pozğunluğun gedişi xroniki və davamsız olub, tez-tez sosial, şəxsiyyətlərarası və ailə davranışı pozğunluqları ilə müştərək olur. Az müddətli mövcud olan (iki ildən az) və daha az parlaqlıqla ifadə olunmuş simptomatikanın nümunələri differensasiya olunmamış somatoform pozğunluq kimi (F45.1) təsnif olunmalıdır.

Çoxsaylı psixomatik pozğunluqlar
Briket xəstəliyi
***Çıxarılıb***: simulyasiya [düşünülmüş simulyasiya] (Z76.5)

## F45.1 Differensasiya olunmamış somatoform pozğunluq

Differensasiya olunmamış somatoform pozğunluq diaqnozunu, əgər xəstənin şikayətləri çoxsaylı, variabel və davamlıdırlarsa, lakin somatikləşdirilmiş pozğunluğun tam və tipik mənzərəsini qane etmirsə, qoymaq olar.

Differensasiya olunmamış psixosomatik pozğunluqlar

## F45.2 İpoxondrik pozğunluq

Vacib əlamət pasientdə özündə ağır, proqressivləşən xəstəliyin və ya bir neçə xəstəliyin olması haqqında davamlı narahatçılığın olmasıdır. Pasient davamlı somatik şikayətlər təqdim edir və ya onların yaranması haqda davamlı narahatlıq göstərir. Normal, adi hissiyatlar və əlamətlər tez-tez xəstə tərəfindən anormal narahatedici kimi qavranılır; o öz diqqətini adətən orqanizmin bir və ya iki üzvündə və ya sistemində cəmləyir. Tez-tez ifadə olunmuş dərəcədə depressiya və həyəcan mövcud olur ki, bununla əlavə diaqnozları izah etmək olar.

Şəxsi sağlamlıq barəsində narahatçılıqla ifadə edilmiş pozğunluq Dismorfofobiya (sayıqlamasız)
İpoxondrik nevroz
İpoxondriya
Nozofobiya
***Çıxarılıb***: sayıqlama dismorfofobiyası (F22.8)
Öz bədəninin funksiyalarında və ya xarici görünüşündə fiksə olunmuş sayıqlama (F22.–)

## F45.3 Vegetativ sinir sisteminin somatoform disfunksiyası

Pasient tərəfindən təqdim olunan simptomatikaya əsasən və ya tamamilə vegetativ sinir sistemi ilə innervasiya olunan və kontrol edilən orqanın və ya orqanlar sisteminin, başqa sözlə, ürək-damar, mə`də-bağırsaq, tənəffüs və sidik-cinsiyyət sistemlərinin zədələnməsi zamanı müşahidə olunanlara uyğundur. Simptomlar adətən iki tipdə olurlar, lakin onlardan heç biri konkret orqan və ya sistemin zədələnməsini göstərmir. Birinci tip simptomlar – vegetativ qıcıqlanmanın obyektiv əlamətlərinə əsaslanan şikayətlərdir, bunlar ürəkdöyünmə, tərləmə, qızarma, tremor və sağlamlığın mümkün pozulmasına qarşı qorxu və narahatlığın ifadəsi şikayətləridir. İkinci tip simptomlar – bu qeyri-spesifik və ya dəyişkən xarakterli subyektiv şikayətlərdir, bunlar pasientin hər hansı orqanlarla və ya orqanlar sistemi ilə əlaqələndirdiyi, bütün bədən boyu sür`ətlə yayılan ağrı, istiliyin, ağırlığın, yorğunluğun və ya qarın köpməsinin hiss edilməsi şikayətləridir.

Kardial nevroz
Da Kosta sindromu Qastronevroz Neyrosirkulyator asteniya Psixogen formalı:

- aerofagiyalar
- öskürəklər
- ishallar
- dispepsiyalar
- meteorizm
- hıcqırıqlar
- dərin və tezləşmiş tənəffüs
- tezləşmiş sidik ifrazı

- qıcıqlanmış bağırsaq sindromu
- dizuriyalar
- pilorospazm

***Çıxarılıb***: digər rubrikalarda təsnif olunan, pozğunluqlar və ya xəstəliklərlə əlaqədar psixoloji və davranış faktorları (F54)

### F45.4 Davamlı somatoform ağrı pozğunluğu

Əsas şikayət davamlı, kəskin əziyyətverici ağrı olub, bunları tamamilə fizioloji pozğunluqla və ya somatik xəstəliklə izah etmək mümkün deyildir və bunlar emosional konfliktlə və ya psixososial problemlərlə yaranır, beləliklə əsas etioloji səbəb kimi baxmağa imkan verir. Nəticə şəxsi və ya tibbi xarakterli köməyin və diqqətin aşkar güclənməsi olur. Depressiv pozğunluq və şizofreniya prosesində yaranan psixogen təbiətli ağrı bu qrupa daxil edilə bilməz.

Psixalgiya

Psixogen:

- beldə ağrı
- baş ağrısı

Somatoform ağrı pozğunluqları

***Çıxarılıb***: ƏGO beldə ağrı (M 54.9)

ağrı:

- ƏGO (R52.9)
- kəskin (R52.0)
- xroniki (52.2)
- aradan qaldırıla bilməyən (R52.1)

gərginlik tipli baş ağrısı (G44.2)

### F45.8 Digər somatoform pozğunluqlar

Somatik pozulmalar nəticəsində yaranmayan, hissiyatın, funksiyaların və ya davranışın hər hansı digər pozğunluqları. Vegetativ sinir sistemi ilə dolayısı əlaqəli olmayan pozğunluqlar orqanizmin müəyyən sistemləri və ya nahiyələri ilə məhdudlaşır və travma törədici hadisələrlə və ya problemlərlə sıx müvəqqəti əlaqələrə malikdirlər.

Psixogen:

- dismenoreya
- disfagiya, "qlobus isterikus" (globus hystericus) daxil olmaqla
- qaşınma
- əyri-boyunluq

Dişləri sürtmək

### F45.9 Dəqiqləşdirilməmiş somatoform pozğunluq

ƏGO psixosomatik pozğunluq

## F48 Digər nevrotik pozğunluqlar

### F48.0 Nevrasteniya

Bu pozğunluqda həddən artıq dərəcədə mədəniyyətlə əlaqədar variabellik müşahidə olunur. Aşkar dərəcədə bir-birini əhatə edən iki əsas tip pozğunluq ayırd edilir. Birinci tipin əsas xarakter əlaməti əqli gərginlikdən sonra artıq dərəcədə yorğunluq şikayətləridir ki, bunlarla da istehsalat göstəricilərinin və ya gündəlik işlərdə produktivliyin müəyyən qədər azalması əlaqədardır. Əqli yorğunluq xəstələr tərəfindən xoşagəlməz unutqanlığın yaranması, yaddaşın azalması, diqqətin cəmlənməsinin mümkünsüzlüyü və əqli fəaliyyətin qeyri-effektivliyi kimi təsvir edilir. Digər tip pozğunluqda hətta minimal gərginlikdən sonra belə, əzələ ağrısı hissiyatı və fiziki rahatlığın qeyri-mümkünlüyü ilə müşaiyət olunan fiziki yorğunluq və əldən düşmə hissiyatına əsas diqqət yönəlir. Hər iki tip pozğunluq bir sıra ümumi xoşagəlməz fiziki duyğulara belə ki, baş gicəllənmə ilə, gərgin baş ağrısı və ümumi qeyri-stabilliyin hissedilməsi ilə xarakterizə olunur. Ümumi əlamətlər həmçinin öz əqli və fiziki qabiliyyətinin azalmasına görə narahatçılıq, qıcıqlanma, sevinmə qabiliyətinin itirilməsi və zəif ifadə olunmuş depressiya və həyəcan kimi şikayətlərdir. Yuxu adətən başlanğıç və orta fazalarda pozulmuş olur, amma həmçinin yuxululuq artmış dərəcədə də ola bilər.

Yorğunluq sindromu

Bu pozğunluqdan əvvəl yaranmış somatik xəstəliyi müəyyənləşdirməyə ehtiyac olarsa, əlavə koddan istifadə olunur.

***Çıxarılıb***: ƏGO asteniya (R53)

həyat qüvvələrinin üzülməsi halı (Z73.0)

əzginlik və yorğunluq (R53)

keçirilmiş virus xəstəliyindən sonra yorğunluq sindromu (G93.3)

psixasteniya (F48.8)

### F48.1 Depersonalizasiya – derealizasiya sindromu

Nadir pozğunluq olub, bu zaman pasient qeyri-iradi olaraq, özünün əqli fəaliyyətinin, bədəninin, ətraf mühitin keyfiyyətcə elə dəyişilməsindən şikayət edir ki, onlar qeyri-real, uzaqlaşmış və avtomatikləşmiş kimi təsvir edilir. Bu sindromun ən müxtəlif əlamətləri içərisində ən çox rast gələni-emosiyaların itirilməsi, öz fikirlərindən, bədənindən və ya real aləmdən uzaqlaşma və soyuqluq hissiyatı şikayətidir. Təəssüratların dramatik xarakterinə baxmayaraq, pasient bu dəyişikliklərin qeyri-reallığını başa düşür. Düşüncə saxlanılır və emosiyaları ifadə etmək qabiliyyəti itirilmir. Depersonalizasiya-derealizasiya sindromu şizofreniya, depressiv, fobik və ya absessiv-kompulsiv pozğunluq diaqnozunun tərkib hissəsi ola bilər. Bu halda diaqnoz əsas pozğunluq əsasında qoyulur.

### F48.8 Digər dəqiqləşdirilmiş nevrotik pozğunluqlar

Dat sindromu
Yazı spazmı daxil olmaqla peşə nevrozu
Psixasteniya
Psixastenik nevroz
Psixogen özündən getmə

### F48.9 Dəqiqləşdirilməmiş nevrotik pozğunluq

ƏGO nevroz

## Fizioloji pozğunluqlar və fiziki faktorlarla bağlı davranış sindromları (F50-F59)

### F50 Qida qəbulu pozğunluqları

***Çıxarılıb***: ƏGO anoreksiya (R63.0)
Qidalanma ilə bağlı:
qidalandırma və qidanın yeridilməsində çətinliklər (R63.3) körpə və uşaq yaşlarında qida qəbulu pozğunluğu (F98.2) polifagiya (R63.2)

### F50.0 Sinir anoreksiyası

Pasient tərəfindən qəsdən bədən çəkisinin azaldılması və bu şəkildə saxlanması ilə xarakterizə olunan pozğunluqdur. Bu pozğunluq bir qayda olaraq yeniyetmə yaşlı qızlarda və cavan qadınlarda müşahidə olunur, lakin yeniyetmə oğlanlar, cavan kişilər, həmçinin uşaqlar (pubertat dövrə yaxınlaşan) və yaşlı qadınlar (menopauza başlanmasına qədər) bu pozğunluğa cəlb oluna bilərlər. Pozğunluq piylənmədən və bədənin bürüşüklüyündən spesifik psixopatoloji qorxu ilə müştərək olur və bu bezikdirici ideyaya çevrilir və nəticədə pasientlər özləri üçün bədən çəkisinin aşağı sərhədini tə`yin edirlər. Bir qayda olaraq, müxtəlif ikincili endokrin və mübadilə pozğunluqları və funksional pozğunluqlar mövcud olur. Simptomatikaya pəhrizin məhdudlaşdırılması, həddən artıq fiziki gərginlik, qusma törədici, işlədici və sidik qovucu preparatların, həmçinin iştah azaldan preparatların qəbulu daxildir.

***Çıxarılıb***: iştahın itirilməsi (R63.0)
psixogen (F50.8)

### F50.1 Atipik sinir anoreksiyası

Sinir anoreksiyasının bəzi əlamətlərinə uyğun olan, lakin klinik mənzərəsi bu diaqnozu qoymağa imkan verməyən pozğunluqdur. Yuxarıda göstərilən pozğunluğun amenoreya və piylənmədən həddsiz qorxma kimi əsas simptomlardan biri və arıqlamağa yönəlmiş davranış, bədən çəkisinin aşkar itirilməsi zamanı mövcud olmaya bilər. Əgər bədən çəkisinin itməsini törətmiş somatik xəstəliyin olması haqda məlumat vardırsa, bu diaqnozu qoymaq olmaz.

### F50.2 Sinir bulimiyası

Təkrari, çox yemək tutmaları ilə və bədən çəkisinin nəzarəti haqda narahatçılıqla xarakterizə olunan sindrom. Bu, qusma törənməsi və işlədici preparatların istifadəsi ilə müşahidə olunan çox yemək üslubunun yaranmasına gətirir. Bu pozğunluq, öz bədən quruluşuna, və kütləsinə yüksək narahatçılıq daxil olmaqla, sinir anoreksiyası ilə çoxlu ümumi əlamətlərə malikdir. Təkrari qusmalar elektrolit balansının pozulmasına və somatik ağırlaşmalara səbəb olur. Tez-tez (lakin həmişə yox) pasientin anamnezində bir neçə aydan, bir neçə ilə kimi davam etmiş, əvvəllər baş vermiş sinir anoreksiyası epizodu müşahidə olunur.

ƏGO bulimiya
Sinir kinoreksiyası

### F50.3 Atipik sinir bulimiyası

Sinir bulimiyasının, bəzi əlamətləri olan, lakin tam klinik mənzərə bu diaqnozu qoymağa imkan verməyən, pozğunqluqdur. Məsələn, bədən kütləsinin elə bir dəyişikliyi olmayan təkrari çox yemək tutmaları və həddsiz işlədici maddələrin istifadəsi mövcud ola bilər və ya öz bədən quruluşu və çəkisi üçün tipik yüksək narahatlıq olmaya bilər.

### F50.4 Digər psixoloji pozğunluqlarla əlaqədar çox yemək

Ağır itki, bədbəxt hadisə, uşaq doğulması və s. kimi stress hadisələri nəticəsində çox yemək. Psixogen çox yemək
***Çıxarılıb***: piylənmə (E66.–)

## F50.5 Digər psixoloji pozğunluqlarla əlaqədar qusma

Dissosiativ pozğunluqlar (F44.–) və ipoxondrik pozğunluq (F45.2) zamanı yaranan, bu sinfin siyahısına daxil olmayan təkrari qusma. Bu yarımrubrika əgər emosional faktorlar hamilə qadınlarda təkrari ürəkbulanma və qusma üçün dominant səbəb olarsa, O21.– rubrikasına (hamiləlik zamanı həddən artıq qusma) əlavə kimi istifadə oluna bilər.

Psixogen qusma

***Çıxarılıb***: ürəkbulanma (R11)
ƏGO qusma (R11)

## F50.8 Qida qəbulunun digər pozğunluqları

Yaşlı şəxslərin yeyilməyən qidaları yeməsi [anomal iştah]

İştahın psixogen itirilməsi

***Çıxarılıb***: körpələrin və uşaqların yeyilməyən qidaları yeməsi [anomal iştah] (F98.3)

## F50.9 Qida qəbulunun dəqiləşdirilməmiş pozğunluğu

# F51 Qeyri-üzvi etiologiyalı yuxu poğunluğu

Əksər hallarda yuxu poğunluğu digər psixi və ya somatik poğunluqların simptomlarından biri olur. Müəyyən bir pasientdə yuxu poğunluğunun müstəqil hal və ya bu və ya hər hansı digər sinfin rubrikalarında təsnif olunmuş digər poğunluğun simptomlarından biri olduğunu pozğunluğun gedişi və klinik mənzərəsi əsasında, həmçinin konsultasiya zamanı birincilərin terapevtik rəylərinin əsasında müəyyən etmək lazımdır. Bir qayda olaraq, əgər yuxu pozğunluğu əsas xəstəlikdirsə və öz-özluyundə xəstəlik halı kimi qəbul edilirsə, hazırki kodu bu hala aid psixopatoloji və patofizioloji pozğunluqlar diaqnozlarının digər kodları ilə birlikdə istifadə etmək lazımdır. Bu rubrikaya yalnız əsas etioloji faktorları emosional səbəblər olan və əsasında hər hansı rubrikalarda təyin olunmuş fiziki pozğunluq olmayan yuxu pozğunluqları daxildir.

***Çıxarılıb***: yuxu poğunluqları (üzvi etiologiyalı) (G47.–)

## F51.0 Qeyri-üzvi etiologiyalı yuxusuzluq

Böyük zaman ərzində saxlanılan, qeyri-qənaətbəxş müddətli və ya qeyri-qənaətbəxş keyfiyyətli yuxu halı olub, yuxuya getməkdə çətinliklərdən, yatma zamanı çətinliklərdən, erkən tam oyanmadan ibarətdir. Yuxusuzluq çoxsaylı psixi və somatik pozğunluqların ümumi simptomudur və əsas xəstəliyə əlavə kimi bu yarımrubrika ilə yalnız klinik mənzərədə əgər dominantlıq təşkil edərsə, təsnif olunmalıdır.

***Çıxarılıb***: yuxusuzluq (üzvi etiologiyalı) (G47.0)

## F51.1 Qeyri-üzvi etiologiyalı yuxululuq [hipersomniya]

Hipersomniya gündüz vaxtı həddən artıq yuxululuq və yuxu tutmaları və ya ayılma zamanı tam ayıqlıq halına gec çatma halı kimi müəyyən olunur. Əgər hipersomniyanın etiologiyasında üzvi faktor yoxdursa, bu halı psixi pozğunluqla əlaqələndirirlər.

***Çıxarılıb***: hipersomniya (üzvi etiologiyalı) (G47.1)
narkolepsiya (G47.4)

## F51.2 Yuxu və ayıqlıq rejiminin qeyri-üzvi etiologiyalı pozğunluqları

Pasientdə yuxu və ayıqlıq rejimləri arasında sinxronluğun və onu əhatə edən mühitin tələb etdiyi yuxu və oyanıqlıq rejiminin çatışmamazlığıdır ki, nəticədə yuxusuzluq və hipersomniya şikayətləri yaranır.

Sirkad
Niktohemeral } ritminin psixogen inversiyası
Yuxu

***Çıxarılıb***: Yuxu və oyanıqlıq siklinin pozulması (üzvi etiologiyalı) (G47.2)

## F51.3 Yuxuda gəzmə [somnambulizm]

Yuxu və oyanıqlıq halının eyni zamanda müşahidə olunduğu, dəyişilmiş düşüncə formasıdır. Somnambulizm epizodu zamanı insan yataqdan, adətən, gecə yuxusunun ilkin üçdə biri ərzində durur və gəzir, bu zaman düşüncənin, reaktivliyin və hərəki qabiliyyətin aşağı səviyyəsi görülür. Oyandıqda hadisələr yadından çıxmış olur.

## F51.4 Vahiməli yuxular [gecə vahimələri]

İntensiv qışqırıqlarla, hərəkətlərlə və vegetativ əlamətlərin yüksək dərəcəsi ilə müşahidə olunan həddən artıq vahimə və vəlvələlərin gecə epizodları. Xəstə vəlvələvi qışqırıqla gecə yuxusunun ,adətən, ilk üçdə biri ərzində yataqda oturur və ya tez qalxır. Kifayət qədər tez-tez qapıya can atır, sanki qaçmaq istəyir, lakin nadir hallarda otağı tərk edir. Baş verənlər haqda xatirə əgər vardırsa, çox məhduddur (adətən xəyali təsəvvürlərin bir və ya iki fraqmenti).

## F51.5 Qorxulu yuxular

Yuxu təəssüratları həyəcan və qorxu ilə zəngin olur. Xəstə yuxunun tərkibinin bütün detallarını xatırlayır. Yuxu mənzərələri çox aydın olur və adətən, həyati əhəmiyyətli, təhlükəsizlik və özünü qiymətləndirmə mövzusunda olur. Kifayət qədər tez-tez eyni, oxşar qorxulu yuxuların təkrarlanması müşaidə olunur. Bu pozğunluğun tipik epizodu ərzində vegetativ əlamətlər olur, amma gözlə görünən qışqırıq və bədən hərəkətləri olmur. Ayıldıqda insan tez bir zamanda gümrah və orientasiyalı olur.

Gecə qorxulu yuxu ilə bağlı həyəcan pozğunluğu

### F51.8 Qeyri-üzvi etiologiyalı digər yuxu pozğunluqları

### F51.9 Dəqiqləşdirilməmiş qeyri-üzvi etiologiyalı yuxu pozğunluqları

ƏGO emosional yuxu pozğunluqları

## F52 Üzvi pozğunluqlar və ya xəstəliklərlə əlaqədar olmayan seksual disfunksiyalar

Seksual disfunksiyalara fərdin istəməsinə baxmayaraq, seksual əlaqəyə girə bilmək qabiliyyətinin olmaması halları daxildir. Cinsi reaksiya psixosomatik prosesdir və adətən həm psixoloji, həm də somatik proseslər seksual disfunksiyalara səbəb olurlar.

***Çıxarılıb***: Dat sindromu (F48.8)

### F52.0 Seksual meylliyin olmaması və ya itirilməsi

Seksual meylliyin itirilməsi əsas problemdir və ereksiyanın çatışmamazlığı və ya dispareuniya kimi digər seksual problemlərə nəzərən ikincili deyildir.

Frigidlik

Seksual meylliyin azalması

### F52.1 Cinsi əlaqələrə nifrət etmək və cinsi həzz almanın olmaması

Cinsi əlaqənin perspektivi elə bir qorxu və ya həyəcan yaradır ki, cinsi əlaqə aktından çəkinməyə səbəb olur (cinsi əlaqələrə nifrət) və ya cinsi reaksiya normal olur və orqazm keçirilir, amma uyğun xoş hissiyat olmur (cinsi həzz almanın olmaması)

Angedoniya (seksual)

### F52.2 Genital reaksiyanın çatışmamazlığı

Kişilər üçün əsas problem ereksiyanın pozulmasıdır (əlverişli cinsi əlaqəyə kifayət edən, ereksiyanın yaranmasında və ya saxlanılmasında çətinliklər). Qadınlarda əsas problem uşaqlıq yolunun quruluğu və ya vagina mayesinin azlığı.

Qadınlarda cinsi ehtirasın pozğunluğu

Kişilərdə erektiv pozğunluq

Psixogen impotensiya

***Çıxarılıb***: üzvi mənşəli impotensiya (N48.4)

### F52.3 Orqazm disfunksiyası

Orqazm olmur və ya ləngiyir.

Ləngimiş orqazm (kişilərdə) (qadınlarda)

Orqazmın psixogen olmaması

### F52.4 Vaxtından qabaq eyakulyasiya

Hər iki partnyorun cinsi əlaqədən həzz almasına imkan verən səviyyədə, eyakulyasiyanın idarə edilməsinin qeyri-mümkünlüyü.

### F52.5 Qeyri-üzvi mənşəli vaginizm

Uşaqlıq yolunun açılmasını qeyri-mümkün edən, uşaqlıqyolu ətrafı çanaq dibi əzələlərinin spazmı. Cinsiyyət üzvünü daxil etmək ya mümkün deyil, ya da ağrılıdır.

Psixogen vaginizm.

***Çıxarılıb***: vaginizm (üzvi) (N94.2)

### F52.6 Qeyri-üzvi mənşəli dispareuniya

Dispareuniya (cinsi əlaqə zamanı ağrı hiss edilməsi) həm kişilərdə, həm də qadınlarda müşahidə olunur. Tez-tez dispareuniya lokal patoloji proseslə əlaqədar olur ki, bu zaman onu bu patoloji hala uyğun olaraq təsnif etmək lazımdır. Hazırkı yarımrubrikanı birincili qeyri-üzvi seksual disfunksiya (məsələn, vaginizm və ya uşaqlıq yolunun quruluğu) olmadıqda istifadə etmək lazımdır.

Psixogen dispareuniya

***Çıxarılıb***: dispareuniya (üzvi) (N94.1)

### F52.7 Yüksək cinsi meyllik

Nimfomaniya

Satiriaz

### F52.8 Üzvi pozğunluq və ya xəstəliklə əlaqədar olmayan digər seksual disfunksiya

### F52.9 Dəqiqləşdirilməmiş, üzvi pozğunluq və ya xəstəliklə əlaqədar olmayan seksual disfunksiya

## F53 Digər rubrikalarda təsnif olunmayan, doğuşdan sonrakı dövrlə əlaqədar psixi pozğunluqlar və davranış pozğunluqları

Bu rubrikaya yalnız doğuşdan sonrakı dövrlə (doğuşdan sonra 6 həftə ərzində yaranan) əlaqədar, bu sinfin hər hansı digər rubrikalarında təsnif olunmuş, pozğunluqlara tətbiq olunan kriteriyalara uyğun olmayan psixi pozğunluqlar daxildir; bu əldə olan məlumatın azlığı ilə və ya bu poğunluqların hər hansı digər rubrikalarda təsnif olunmasını yersiz edən əlavə kliniki əlamətlərin olması ilə izah olunur.

### F53.0 Digər rubrikalarda təsnif olunmayan, doğuşdan sonrakı dövrlə əlaqədar yüngül psixi pozğunluqlar və davranış pozğunluqları

Depressiya:
ƏGO postnatal
ƏGO doğuşdan sonrakı

### F53.1 Digər rubrikalarda təsnif olunmayan, doğuşdan sonrakı dövrlə əlaqədar ağır psixi pozğunluqlar və davranış pozğunluqları

Doğuşdan sonrakı psixoz

### F53.8 Digər rubrikalarda təsnif olunmayan, doğuşdan sonrakı dövrlə əlaqədar digər psixi pozğunluqlar və davranış pozğunluqları

### F53.9 Doğuşdan sonrakı dəqiqləşdirilməmiş psixi pozğunluq

## F54 Digər rubrikalarda təsnif olunan pozğunluqlar və ya xəstəliklərlə əlaqədar psixoloji və davranış faktorları

Bu rubrikanı xəstəliklərin digər siniflərinə aid edilə bilən somatik pozğunluqların əsas etioloji səbəbi kimi baxılan psixoloji və davranış faktorlarının kodlaşdırılması üçün istifadə etmək lazımdır.

Bu zaman meydana gələn psixi pozğunluqlar adətən zəif ifadə olunur və davamlı olurlar (məsələn, narahatlıq, emosional konflikt, ürəyə dammalar) və öz-özlüyündə bu sinfin hər hansı digər rubrikanı istifadə etməyə imkan vermir.

***Daxil edilib***: Fiziki vəziyyətə təsir edən psixoloji faktorlar

Bu rubrikanın istifadə nümunələri aşağıdakılar ola bilər:

- astma F54 və J45.-
- dermatit F54 və L23-L25
- mədə xorası F54 və K25.-
- selikli kolit F54 və K58.-
- xoralı kolit F54 və K51.-
- övrə F54 və L50.-

Əlaqəli somatik pozğunluğu göstərməyə ehtiyac olduqda əlavə koddan istifadə olunur.

***Çıxarılıb***: Gərginlik tipli baş ağrısı (G44.2)

## F55 Asılılıq yaratmayan maddələrdən sui-istifadə

Geniş spektr medikamentlər və xalq təbabəti vasitələri istifadə oluna bilər, lakin əsas etibarı ilə: a) asılılıq yaratmayan psixotrop vasitələr, məsələn, antidepressantlar: b) işlədici vasitələr və c) həkim tə`yinatı olmadan istifadə oluna bilən ağrıkəsici vasitələr (məsələn, aspirin və parasetamol).

Bu preparatlardan daimi istifadə həkimlərlə və digər tibb personalı ilə lazımsız kontaktlara tez-tez səbəb olur və bəzən bu maddələrə qarşı əlavə reaksiyaların inkişafı ilə müşayiət olunur.

Bu preparatların qəbulunun məqsədəuyğun olmadığını inandırmağa cəhdlər və ya istifadəsinə qadağalar, söhbət işlədici və ağrıkəsici vasitələrin qəbulundan getdikdə müqavimətlə üzləşirlər. Belə muqavimət böyrək funksiyası və ya elektrolit balansının pozğunluğu tipli əlavə reaksiyaların mümkünlüyü qorxusu olduqda belə, mövcud ola bilər. Baxmayaraq ki, maddələrin qəbuluna qarşı yüksək motivasiyanın olması adətən aydındır, asılılıq və ya abstinensiya simptomları (F10-F19 rubrikalarda təsnif olunan), psixoaktiv maddələrin istifadəsində olduğu kimi inkişaf etmir.

Aşağıdakılardan sui-istifadə:

- antasid vasitələrdən
- xalq təbabəti otları və ya vasitələrindən
- steroid və ya digər hormonlardan
- vitaminlərdən
- işlədici vasitələrdən

***Çıxarılıb***: psixoaktiv maddələrdən sui-istifadə (F10 -F19)

## F59 Dəqiqləşdirilməmiş fizioliji pozğunluqlarla və fiziki faktorlarla əlaqədar davranış sindromları

***Daxil edilib***: ƏGO psixogen psixoloji disfunksiya

Bu rubrikaya davamlı olmağa meylli və fərdin xarakter həyat tərzini və ətrafdakılarla qarşılıqlı münasibətinin ifadəsi kimi meydana gələn, klinik əhəmiyyətli müxtəlif davranış halları və modelləri daxildir. Bu hallardan və davranış nümunələrindən bəziləri konstitusional faktorların və sosial təcrübənin eyni zamanda tə`sirinin nəticəsi kimi fərdi inkişafın gedişində erkən yaranırlar, lakin digərləri isə, həyatın gec mərhələlərində əldə olunur. Şəxsiyyətin spesifik pozğunluqları (F60.–), şəxsiyyətin qarışıq və və digər pozğunluqları (F61.–), şəxsiyyətin uzun müddət davam edən dəyişiklikləri (F62.–) ən müxtəlif şəxsi və sosial situasiyalara ləng cavab reaksiyası kimi meydana çıxan dərin köklü və uzun müddətli davranış modelləridirlər. Belə pozğunluqlar belə mədəniyyət səviyyəsinə malik adi insanın qəbul etmək, düşünmək hiss etmək və xüsusilə ətrafdakılarla münasibətdə olmaq üsulundan fövqəladə və artıq kənara çıxmalardır. Belə davranış modelləri davamlı olmağa meyllidir və çoxsaylı davranış və psixoloji funksiya sahələrini əhatə edir. Bu pozğunluqlar müxtəlif dərəcəli subyektiv təəssüratlarla və sosial xarakterdə problemlərlə tez-tez (lakin həmişə yox) əlaqəlidirlər.

## F60 Spesifik şəxsiyyət pozğunluqları

Bu rubrikaya xəstəliklərin, zədələnmələrin və ya baş beynin digər kəskin zədələnməsinin və ya digər psixi pozğunluqların bir başa nəticəsi olmayan şəxsiyyətin ağır pozğunluqları və fərdin davranışında kəskin kənara çıxmalar daxil edilib. Adətən bu pozğunluqlar şəxsiyyətin bir neçə sahəsini əhatə edir; demək olar ki, həmişə onlar böyük şəxsi iztirablar və sosial dağıntılarla sıx əlaqəli olurlar. Bu pozğunluqlar adətən uşaqlıqda və ya yeniyetmə dövrdə meydana gəlir və bütün həyat boyu davam edir.

### F60.0 Şəxsiyyətin paranoid pozğunluğu

Uğursuzluqlara hədsiz həssaslıqla, incikliyi bağışlaya bilməməklə, şübhəliliklə və ətrafdakıların neytral və dostcasına hərəkətlərini düşməncəsinə və saymazlıq kimi qəbul etmə yolu ilə reallığın dəyişdirilməsinə meylliliklə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Həyat yoldaşına və ya seksual partnyora sədaqətsizlikdə təkrari, əsaslanmamış şübhələnmələr, davakarcasına və inadkarcasına həmişə yalnız özünün haqlı olduğuna inam hissi müşahidə olunur. Belə adamlar özü haqda yüksək fikirdə olmağa, özündən bədgümanlığa meylli olurlar.

Şəxsiyyət (pozğunluğu):
- ekspansiv – paranoid
- fanatik
- kverulyant
- paranoid
- həssas paranoid

***Çıxarılıb***: paranoya (F22.0)
kverulyant (F22.8)
paranoid:
- psixoz (F22.0)
- şizofreniya (F20.0)
- hal (F22.0)

### F60.1 Şizoid şəxsiyyət pozğunluğu

Sədaqətliliyin, sosial və digər kontaktların zəifliyi ilə, fantaziyalara, tərkdünyalıqla və özünüanalizlə zarakterizə olunan şəxsiyyət pozğunluğudur. Öz hisslərini məhdud şəkildə ifadə etmək və həzz almaq mövcud ola bilər.

***Çıxarılıb***: Asperger sindromu (F84.5)
sayıqlama pozğunluğu (F22.0)
uşaq yaşlarında şizoid pozğunluq (F84.5)
şizofreniya (F20.–)
şizotipik pozğunluq (F21)

### F60.2 Şəxsiyyətin dissosial pozğunluğu

Sosial vəzifələrə etinasızlıqla, ətrafdakılara daşürəkli laqeydliklə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Xəstənin davranışı və əsas sosial normalar arasında xeyli uyğunsuzluq müşahidə olunur. Davranış sınaqdan çıxmış tərbiyəvi üsullarla, o cümlədən cəzalandırma yolları ilə çətinliklə dəyişikliyə məruz qalır. Xəstələr uğursuzluqları pis həzm edirlər və zorakılıq da daxil olmaqla asan aqressiyaya məruz qalırlar. Onlar digərlərini günahlandırmağa və ya onların cəmiyyətlə konfliktinə səbəb olmuş davranışlarına doğruyabənzər izahat verməyə meyllidirlər.

Şəxsiyyət (pozğunluğu):
- əxlaqsız
- antisosial
- asosial
- psixopatik
- sosiopatik

***Çıxarılıb***: davranış pozğunluğu (F91.–)
şəxsiyyətin emosional davamsız pozğunluğu (F60.3)

## F60.3 Şəxsiyyətin emosional davamsız pozğunluğu

Nəticələri nəzərə almadan müəyyən impulsiv hərəkətlərə meyllikliklə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Əhval-ruhiyyə əvvəlcədən deyilə bilən deyil və şıltaqcasınadır. Emosiyaların partlamasına və partlamış davranışın idarə edilməsinin mümkünsüzlüyünə meyllik olur. Deyingənlik və xüsusilə impulsiv əməllər əgər kəsilmirsə və tənqid olunursa, ətrafdakılarla konfliktlik müşahidə olunur. İki tip pozğunluq ayırmaq olar: əsasən qeyri-stabilliklə və emosional kontrolun çatmamazlığı ilə xarakterizə olunan impulsiv tip və deyilənlərə əlavə olaraq özünüdərk, məqsədlər və daxili niyyətlər pozğunluqları, gərgin və qeyri-stabil şəxsiyyətlər arası münasibətlər və supsidal jestlər və cəhdlər də daxil olmaqla özünüməhv etmə davranışlarına meyllər xarakter olan sərhədi tip.

Şəxsiyyət (pozğunluğu):

- aqressiv
- sərhədi
- oyanıcı

***Çıxarılıb***: şəxsiyyətin disosial pozğunluğu (F60.2)

## F60.4 Şəxsiyyətin isterik pozğunluğu

Səthi və davamsız oyanıqlıqla, hər şeyi dramatikləşdirməyə, tamaşaya çevirməyə, həmçinin emosiyaların artıq ifadə olunmasına, təsirlənməyə, eqosentrizmə, öz arzularını necə gəldi biruzə verməyə, ətrafdakılara məhəl qoymamağa, asan toxunulan hissiyatlara və daima müvəffəqiyyət və diqqət əldə etməyə meyllikliklə xarakterizə olunan şəxsiyyət pozğunluğudur.

Şəxsiyyət (pozğunluğu):

- isterik
- psixoinfantil

## F60.5 Anankast şəxsiyyət pozğunluğu

Özünə inamsızlıq hissiyatı ilə, hədsiz xırdaçılıqla, təmkinliliklə və nüanslara qarşı olmaq, inadkarlıqla, ehtiyatlılıqla və yenilməzliklə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Abssesiv-kompulsiv pozğunluq dərəcəsinə çatmayan inadlıq və ya beynə girmiş fikirlər və ya hərəkətlər mövcud ola bilər.

Şəxsiyyət (pozğunluğu):

- kompulsiv
- absessiv
- absessiv-kompulsiv

***Çıxarılıb***: absessiv-kompulsiv pozğunluq (F42.–)

## F60.6 Şəxsiyyətin həyəcan (yayındırıcı) pozğunluğu

Daxili gərginlik hissiyatı ilə, tutqun hissiyatların olması ilə, təhlükəsizlik hissiyatının olmaması ilə və qeyri-tamlıq kompleksi ilə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Şəxsi bağlılığın məhdud olması ilə, potensial təhlükələrin və adi situasiya risklərinin adəti üzrə artırılması yolu ilə bəzi hərəkətlərdən uzaqlaşmağa meylliliklə yanaşı, daimi güclü bəyənilmə, hamı tərəfindən qəbul edilmə arzusu, rəddlərə və tənqidə yüksək həssaslıq reaksiyası ifadə olunur.

## F60.7 Asılı şəxsiyyət tipli pozğunluq

Böyük və kiçik həyati qərarların qəbulunda ətraf insanlara dərin passiv tabeçilik, tənhalıq qarşısında güclü qorxu ilə, köməksizlik, səriştəsizlik hissiyatı ilə, yaşlıların və ətrafdakıların arzuları ilə passiv razılaşma ilə və gündəlik həyatın tələblərinə zəif reaksiya ilə xarakterizə olunan şəxsiyyət pozğunluğudur. Aktivliyin olmaması intellektual və emosional sferalarda ifadə oluna bilər; tez-tez cavabdehliyin başqalarının üzərinə yıxmaq meyli ifadə olunur.

Şəxsiyyət (pozğunluğu):

- astenik
- qeyri - adekvat
- passiv
- özünü məyus edən

## F60.8 Şəxsiyyətin digər spesifik pozğunluqları

Şəxsiyyət (pozğunluğu):

- ekssentrik
- qarşısı alınmaz ("qabağı alınmaz")
- infantil
- özünəməftun (narsistik)
- passiv-aqressiv
- psixonevrotik

## F60.9 Dəqiqləşdirilməmiş şəxsiyyət pozğunluğu

ƏGO xarakterli nevroz
ƏGO patoloji şəxsiyyət

## F61 Şəxsiyyətin qarışıq və digər pozğunluqları

Bu rubrikaya, adətən, narahatlıq yaradan, lakin spesifik simptomlar mənzərəsi olmayan, F60.– rubrikasında təsnif olunan pozğunluqları xarakterizə edən şəxsiyyət pozğunluqları üçün nəzərdə tutulub, buna görə də F60.– rubrikasında kodlaşdırılan pozğunluqlara nisbətən onlara diaqnoz qoymaq çətindir.

Məsələn:

- F60. – rubrikasında təsnif olunan, bəzi pozğunluqların əlamətləri olan, lakin daha spesifik diaqnoz qoymağa imkan verən dominant simptomlar kompleksinin olmadığı qarışıq şəxsiyyət pozğunluqları;
- F60. - və ya F62 rubrikalarında təsnif olunmayan, mövcud affektiv və ya həyəcan pozğunluğunun əsas diaqnozuna nəzərən ikincili hesab olunan şəxsiyyətin narahatlıq yaradan dəyişiklikləri.

***Çıxarılıb***: vurğulanmış şəxsiyyət xüsusiyyətləri (Z73.1)

## F62 Baş beyin zədələnməsi və ya xəstəliyi ilə əlaqədar olmayan şəxsiyyətin davamlı dəyişiklikləri

Əvvəllər şəxsiyyət pozğunluğu olmayan, bədbəxt hadisə və ya güclü uzunmüddətli stress keçirmiş və ya ağır psixi xəstəlik keçirmiş yetkin yaşlı insanda şəxsiyyət və davranış pozğunluğudur. Bu rubrikanın diaqnozlarını ətraf şərait və şəxsən özünə nəzərən qavramanın, münasibətlərin və fikirlərin şəxsi modelinin müəyyən və uzunmüddətli dəyişikliklərinin olması aydındırsa, qoymaq olar. Şəxsiyyətin dəyişikliyi xeyli dərəcədə olmalıdır və əvvəllər göstərilməyən tərs, uyğunsuz davranış normaları ilə assosiasiya edilməlidir. Dəyişiklik mövcud digər psixi pozğunluğun və ya hər hansı əvvəlki psixi xəstəliyin qalıq simptomunun bilavasitə əlaməti olmamalıdır.

***Çıxarılıb***: baş beynin xəstəliyi, zədələnməsi və ya disfunksiyası ilə əlaqədar şəxsiyyət və davranış pozğunluğu (F07.–)

### F62.0 Fəlakət keçirdikdən sonra şəxsiyyətin davamlı dəyişikliyi

Fəlakət stressinin təsiri ilə yaranmış uzun müddət saxlanan (ən azı iki il) şəxsiyyətin dəyişikliyidir. Stress elə ekstremal ola bilər ki, onun şəxsiyyətə tə`sirinin dərinliyini izah etmək üçün fərdi həssaslığı diqqətə almağa ehtiyac yoxdur. Psixi pozğunluq ətrafa düşməncəsinə və ya şübhəli münasibətlə, sosial özünü izolə ilə boşluq və çarəsizlik hissiyatı ilə, daimi hədələr zamanı müşahidə olunan davamlı «sərhədi halda olma» hissiyatı ilə, soyuqluqla xarakterizə olunur. Şəxsiyyətin bu tip dəyişikliyindən əvvəl travmatik stresslə törənmiş pozğunluq ola bilər (F43.1).

Aşağıdakılardan sonra şəxsiyyət dəyişikliyi:

- həbs düşərgəsində olma
- bədbəxtlik
- uzun müddət:
  - ölüm qorxusu ideyası ilə yaşamaq
  - terrorizmin qurbanı olma tipli həyati təhlükəli situasiyada olma
- işgəncələr

***Çıxarılıb***: posttravmatik stress pozğunluğu (F43.1)

### F62.1 Psixi xəstəlikdən sonra şəxsiyyətin davamlı dəyişikliyi

Ən azı iki il davam edən, ağır psixi xəstəliyin travma törədici tə`sirindən törənən şəxsiyyət dəyişikliyidir. Dəyişiklik əvvəlki şəxsiyyət pozğunluğu ilə izah oluna bilməz. Onu şizofreniyanın qalıq əlamətləri ilə və əvvəlki psixi xəstəlikdən sonra digər natamam sağalma halları ilə diferensiasiya etmək lazımdır. Bu pozğunluq digərlərdən həddən artıq asılılıqla və başqalarına ehtiyacla xarakterizə olunur. İnsanın, xəstəliyin onu dəyişdiyi və üzərinə damğa qoyduğu haqda əminliyi sıx etibarlı şəxsiyyətlər arası münasibətlərin yaradılması və saxlanmasının qeyri-mümkünlüyünə səbəb olur və sosial izolyasiya ilə nəticələnir. Passivlik, maraqların məhdudluğu, asudə vaxtın aktiv keçirilməsinin zəifliyi müşahidə olunur. İpoxondrik iddialarla və xəstə davranışla əlaqəli ola bilən pis hissiyat şikayətləri davamlı olur. Cari psixi pozğunluğun və ya qalıq affektiv simptomlarla əvvəlki psixi xəstəliyin nəticəsi olmayan aşağı və ya davamsız əhval-ruhiyyə, həmçinin sosial və peşə fəaliyyətinin köhnə problemləri müşahidə olunur.

### F62.8 Şəxsiyyətin digər davamlı dəyişiklikləri

Xroniki ağrılı şəxsiyyət sindromu

### F62.9 Dəqiqləşdirilməmiş davamlı şəxsiyyət dəyişikliyi

## F63 Adətlərin və meyllərin pozğunluqları

Bu rubrikaya digər rubrikalarda təsnif olunmayan bəzi davranış pozğunluqları daxildir. Bu pozğunluqlar aydın ifadə olunmuş rasional motivasiyası olmayan, kontrol edilə bilməyən təkrari hərəkətlərlə xarakterizə olunur və adətən xəstənin özünə və ətrafdakılara zərər yetirir. Pasient öz davranışının hərəkətə meylliklə əlaqədar olduğunu deyir. Bu pozğunluqların səbəbi müəyyən edilməyib və onlar bir yerdə hər hansı məlum digər vacib ümumi xüsusiyyətlərin olmasına görə deyil, aydın ifadə olunmuş uyğunluğun əsasında quraşdırılıb.

***Çıxarılıb***: alkoqolun və ya psixoaktiv maddələrin adəti olaraq həddən artıq istifadəsi (F10–F19)
seksual davranışa təsir edən adət və meyllərin pozğunluğu (F65.–)

### F63.0 Azartlı oyunlara patoloji meyl

Pozğunluğun mahiyyəti sosial, peşə, maddi və ailəvi dəyərlərin və vəzifələrin ziyanına olaraq, pasientin həyatında dominantlıq təşkil edən tez-tez təkrari azart oyunlar epizodlarından ibarətdir.

Azart oyunlara güclü meyl

***Çıxarılıb:*** maniakal epizodlu şəxslərin azart oyunlara meyli (F30.–)
ƏGO azart oyunlara və mərclərə meyllik (Z72.6)
şəxsiyyətin dissosial pozğunluğu zamanı azart oyunlara meyl (F60.2)

### F63.1 Yanğına pataloji hərislik [piromaniya]

Bu pozğunluq əmlak və digər obyektlərin çox saylı yandırılması və ya heç bir motiv olmadan yandırma cəhdi, o cümlədən alov və yanma ilə hərisliklə xarakterizə olunur. Bu dövrdə forması həmin hərəkətdən əvvəl artan gərginlik, sonra isə güclü oyanma ilə bağlıdır.

***Çıxarılıb:*** yanğın (törədilmiş):

- dissosial şəxsiyyət pozğunluğu olan yetkin şəxs tərəfindən (F60.2)
- psixi pozğunluğu olan şəxs üzərində müşahidə məqsədi kimi (Z03.2)
- alkaqol və ya psixoaktiv maddə ilə intoksikasiyalar fonunda (F10-F19 ümumi 4-cü işarə ilə .0)
- davranış pozğunluqları zamanı (F91.–)
- üzvi psixi pozğunluqlar zamanı (F00-F09)
- şizofreniyalı şəxs tərəfindən (F20.–)

### F63.2 Oğurluğa patoloji hərislik (kleptomaniya)

Bu pozğunluq zəruri olmayan və ya dəyər kəsb etməyən əşyanın bir neçə dəfə uğursuz oğurlama istəyi qarşısında şəxsin iradəsizlik göstərməsi ilə xarakterizə olunur. Oğurlanmış əşya isə xarab edilə, havayı verilə və gizlədilə bilər. Bu davranış forması oğurluğa qədər artan gərginlik hissiyyatı, oğurluq vaxtı və sonra isə həzz alma ilə müşayiət olunur.

***Çıxarılıb***: oğurluqla birgə depressiv pozğunluq (F31-F33)
üzvi psixi pozğunluqlar (F00-F09)
mağazanın qarət edilməsi ilə əlaqədar psixi pozğunluğa şübhəli şəxs üzərində müşahidə (Z03.2)

### F63.3 Trixotillomaniya

Bu pozğunluq saçları yolmaq arzusunu növbəti dəfə boğmaq cəhdi uğursuzluqla bitdikdən sonra, saçın nəzərəçarpan seyrəlməsi ilə xarakterizə olunur; saçın yolunmasından əvvəl artan gərginlik, sonra isə yüngülləşmə və həzz almaq hissiyyatı olur. Əgər əvvəl dərinin iltihabı olarsa və ya saçın yolunması sayıqlama və hallüsinasiyaya qarşı olarsa bu diaqnozu qoymaq tövsiyə edilmir.

***Çıxarılıb***: saçın yolunması ilə müşayiət olunan stereotip hərəki pozğunluq (F98.4)

### F63.8 Adətlərin və meyllərin digər pozğunluqları

Qeyri-adekvat davranış pozğunluğlarının digər formaları pasientin bu meyli boğmaq cəhdinin bir neçə dəfə uğursuz olması ilə xarakterizə olunur və qoyulmuş psixi diaqnoza görə ikincili olmur. Şəxs prodromal gərginlik dövrü, sonra isə bu hərəkət prosesində yüngülləşmə hiss edir.

Partlayış xarakterli fasiləli pozğunluq

### F63.9 Adətlərin və meyllərin dəqiqləşdirilməmiş pozğunluğu

## F64 Cinsi müəyyənləşdirilmənin pozğunluqları

### F64.0 Transseksualizm

Ətrafdakılar tərəfindən əks cins kimi qəbul edilmək və yaşamaq arzusu olub öz anatomiyasından və ya cinsə mənsubiyyət uyğunsuzluğundan narahatlıq hissi ilə müşayiət olunur. Cərrahi əməliyyata məruz qalmaq və hormonal müalicə ilə arzu olunan cinsə çevrilmək istəyi vardır.

### F64.1 Transvestizm(ikili rol)

Cinsini cərrahi və digər yollarla dəyişmək istəyi və cinsi oyanma olmadan dövri olaraq əks cins kimi yaşamaq istəyini təmin etmək məqsədilə onun kimi geyinmə gənclikdə və yetkin dövrdə qeyri-transseksual tipli cinsi müəyyənləşmə pozğunluğu.

Böyüklərdə və ya yeniyetmələrdə qeyri transseksual tip cinsi müəyyənləşdirmə pozğunluğu

***Çıxarılıb***: fetişistik transvestizm (F65.1)

### F64.2 Uşaq yaşında cinsi müəyyənləşmənin pozğunluğu

Bu pozğunluq ilkin olaraq erkən uşaqlıq dövründə (həmişə pubertat dövründən çox əvvəl) təzahür edib, öz cinsinə görə davamlı və güclü iztirabla, onun əks cins kimi qəbul edilmək və olmaq arzusu ilə xarakterizə olunur. Daim əks cinsin geyimi və məşğuliyyətlərinə hərislik, öz cinsi xüsusiyyətlərinə isə ikrah xarakterikdir. Bu diaqnoz cinsi müəyyənləşmənin ciddi pozğunluqlarında qoyulmalıdır, qızda adicə dəcəllik və ya oğlanda qız xasiyyəti olmasına görə bu diaqnoz qoyula bilməz. Pubertat dövründə olan və ya cinsi yetkinliyə çatmış şəxslərdə olan pozğunluqlar bu

rubrikada deyil, F66 rubrikasında təsnif olunmalıdır.
*Çıxarılıb*: eqodistonik cinsi orientasiya (F66.1)
seksual formalaşmanın pozğunluğu (F66.0)

### F64.8 Cinsi müəyyənləşmənin digər pozğunluğu

### F64.9 Cinsi müəyyənləşmənin dəqiqləşdirilməmiş pozğunluğu

ƏGO cinsi müəyyənləşmə pozğunluğu

## F65 Seksual seçimin pozğunluğu

*Daxil edilib*: parafiliya

### F65.0 Fetişizm

Cinsi oyanmanın və həzz almanın stimulyatoru kimi bəzi qeyri-canlı obyektlərə hərislik. Fetişlərin çoxu insan bədəninə əlavədir (məsələn paltar və ayaqqabı əşyaları). Fetişlərin digər yayılmış nümunələri bəzi spesifik materiallardır (məs. plastik, rezin dəri). Fetiş obyektlər fərd üçün əhəmiyyətinə görə fərqlənə bilər. Bəzən onlar sadəçə olaraq adi üsulla seksual oyanmanın güclənməsinə səbəb olur (məsələn, partnyora spesifik geyimi geydirməklə).

### F65.1 Fetişistik transvestizm

Əks cinsin obrazını təzahür etdirmək və seksual oyanma yaratmaq məqsədilə həmin cinsin paltarını geyinmə. Fetişistik transvestizm transseksual transvestizmdən seksual oyanma ilə sıx bağlı və orqazmdan sonda seksual yüngülləşmənin olması və paltardan azad olma istəyi ilə fərqlənir. Bu pozğunluq transseksualizmin inkişafının erkən mərhələsi ola bilər.

Transvestik fetişizm

### F65.2 Esgibisionizm

İctiman yerlərdə cinsi əlaqəyə girmək istəyi olmadan digər şəxslərə, xüsusilə əks cinsə öz cinsiyyət orqanlarını dəfələrlə və ya davamlı göstərmək meylidir. Bu akt həmişə olmasa da adətən, cinsiyyət orqanlarını göstərən zaman seksual oyanma və masturbasiya ilə müşayiət olunur.

### F65.3 Vuayerizm

Təkrari və daimi olaraq digər şəxslərin seksual əlaqələrinə və ya soyunmaq kimi digər intim hərəkətlərinə baxmaq istəyi. Bu gizli edilərək seksual oyanmaya və masturbasiyaya gətirib çıxarır.

### F65.4 Pedofiliya

Prepubertat və ya erkən pubertat yaşında olan uşaqlara (oğlanlara, qızlara və ya hər ikisinə) seksual meyl.

### F65.5 Sadomazoxizm

Xəsarət yetirmə, alçaltma və asılı vəziyyətə salma hərəkətlərinə seksual meyl. Əgər fərd bu cur stimulyasiyanın obyekti olmaq istəyirsə mazoxizm, icra edirsə sadizm adlanır. Fərd əsasən sadistik və mazoxistik hərəkətlərdən seksual həzz alır.

Mazoxizm
Sadizm

### F65.6 Seksual seçimin çoxsaylı pozğunluqları

Bəzən bir pasientdə fərqləndirilməsi çətin olan bir neçə seksual pozğunluq rast gəlinir. Ən çox rast gəlinən kombinasiyalar fetişizm, transvestizm və sadomazoxizm olur.

### F65.8 Seksual seçimin digər pozğunluqları

İctimai yerdə kütlə içərisində cinsi oyanma məqsədilə digər şəxslərlə sıxlaşma istəyi, "çirkin" telefon zəngləri etmə, heyvanlarla cinsi əlaqə, cinsi oyanma məqsədilə boğma və anoksiya daxil olmaqla təhrif olunmuş seksual meyl və hərəkətlərin digər müxtəlif formaları.

Frottarizm (frottaj)
Nekrofiliya

### F65.9 Seksual seçimin dəqiqləşdirilməmiş pozğunluğu

ƏGO seksual deviasiya

## F66 Cinsi inkişaf və orientasiya ilə bağlı psixoloji və davranış pozğunluğu

***Qeyd:*** Seksual orientasiya özlüyündə pozğunluq kimi nəzərdən keçirilmir.

### F66.0 Seksual yetişkənliyin pozğunluğu

Pasient seksual orientasiya və ya cinsi mənsubiyyətin qeyri müəyyənliyindən əziyyət çəkir və bu həyəcan və depressiyaya səbəb olur. Bu pozğunluq ən çox homoseksual, heteroseksual və ya biseksual olduğuna əmin olmayan yeniyetmələrdə və ya stabil seksual oriyentasiya dövründən sonra oriyentasiya dəyişikliyini hiss edən fərdlərdə meydana çıxır.

### F66.1 Eqodistonik cinsi orientasiya
Cinsi mənsubiyyəti və seksual meylləri (heteroseksual, homoseksual, biseksual və ya prepubertant) şübhə döğurmasa da şəxs qoşulmuş psixoloji pozğunluqlarla və davranış pozğunluqları ilə bağlı bunu dəyişmək istəyir və bu məqsədlə mualicəyə nail olur.

### F66.2 Seksual münasibətlərin pozğunluğu
Cinsi mənsubiyyət və ya seksual oriyentasiya (heteroseksual, homoseksual və ya biseksual) cinsi partnyorla əlaqənin formalaşdırılmasında və saxlanılmasında çətinliyə səbəb olur.

### F66.8 Psixoseksual inkişafın digər pozğunluqları

### F66.9 Psixoseksual inkişafın dəqiqləşdirilməmiş pozğunluğu

## F68 Ahıl yaşda şəxsiyyət və davranışın digər pozğunluqları

### F68.0 Somatik simptomların psixoloji səbəblərdən şişirdilməsi
Somatik simptomlar hansı ki, məlum fiziki pozğunluq, xəstəlik və ya fiziki qabiliyyətin azalması nəticəsində əmələ gəlib və bunlara da uyğun gəlir, pasientin psixoloji vəziyyəti ilə bağlı şişirdilir və ya uzadılır. Pasient adətən ağrıdan və əmək qabiliyyətinin azalmasından əziyyət çəkir və ağrının və əmək qabiliyyətinin itirilməsinin proqressivləşməsi qorxusuna çatılmışdır.

Kompensasiya olunmuş nevroz

### F68.1 Simptomların , fiziki və ya psixolojı xarakterli əlilliyin düşünülmüş şəkildə törədilməsi və ya simulyasiyası [saxta pozğunluqlar]
Pasient pozğunluq əlamətləri törətmək məqsədi ilə tam məlum olmayan səbəbdən, hətta özünə zədə yetirəcək dərəcədə simptomları dəfələrlə simulyasiya edir. Pozğunluq əksər vaxt şəxsiyyətin və qarşılıqlı münasibətlərin nəzərə çarpacaq dərəcədə pozulması ilə birgə rast gəlinir.

Kliniki təsdiq olunmamış və ya aşkar edilməmiş kəskin ağrıların hissetmə ("Hospital birələri" ) sindromu

Münhauzen sindromu

Köçən pasient

***Çıxarılıb***: süni [artifisial] dermatit (L98.1)
xəstəliyi simulyasiya edən şəxsiyyət (aşkar motivasiya ilə) (Z76.5)

### F68.8 Ahıl yaşda şəxsiyyət və davranışın digər dəqiqləşdirilmiş pozğunluqları
Xarakterin ƏGO pozğunluğu

Qarşılıqlı münasibətin ƏGO pozğunluğu

## F69 Ahıl yaşda şəxsiyyət və davranışın dəqiqləşdirilməmiş pozğunluğu

# Əqli gerilik (F70–F79)

İntellektin ümumi səviyyəsini müəyyən edən (qavrama qabiliyyəti, dil, motorika və s.) və inkişaf prosesində meydana çıxan vərdişlərin zəifləməsi ilə xarakterizə olunan ləngimə halı və ya natamam əqli inkişaf. Əqli gerilik digər psixiki və ya fiziki pozğunluq fonunda və ya onsuz meydana çıxa bilər. Əqli geriliyin dərəcəsi intelektin vəziyyətini müəyyənləşdirməyə imkan verən standartlaşmış testlərlə qiymətləndirilir. Bu testlər müəyyən ətraf mühitdə sosial adaptasiyanı qiymətləndirməyə imkan verən şkalalarla tamamlana bilər. Bu metodlar əqli geriliyi orientasiya olunmuş dərəcədə qiymətləndirməyə imkan verir. Diaqnoz vərdişlərinin aşkar olunması səviyyəsinə görə intelektual fəaliyyətin ümumi qiymətindən də aslı olur.

İntelektual qabiliyyət və sosial adaptasiya tədricən dəyişsə də, zəif olur. Bu yaxşılaşma məşq və reabilitasiyanın nəticəsi ola bilər. Diaqnoz hazırda əqli fəaliyyətin əldə olunmuş səviyyəsinə əsaslanmalıdır.

Əqli çatmamazlığın dərəcəsini müəyyənləşdirmək üçün F70-F79 rubrikaları aşağıdakı dördrəqəmli işarə ilə istifadə edilir:

**.0 Davranış pozğunluğunun olmamasını və ya zəif dərəcədə təzahür etməsini göstərməklə**

**.1 Qulluq və müalicə tələb edən ciddi davranış pozğunluğu**

**.8 Davranışın digər pozğunluğu**

**.9 Davranış pozğunluğu göstərilməyən**

## F70 Yüngül dərəcəli əqli gerilik

(Yarımrubrikanı təyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

Təxmini IQ 50-69 (ahıl yaşda əqli inkişaf 9-12 yaşa uyğundur). Məktəbdə təhsillə bağlı çətinliklər olur. Bu şəxslər işləmək, normal ictimai münasibətlər yaratmaq və cəmiyyətə fayda verə bilmək iqtidarındadır.

***Daxil edilib***: ağıl zəifliyi
zəif dərəcəli əqli subnormallıq

## F71 Orta dərəcəli əqli gerilik

(Yarımrubrikanı təyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

Təxmini IQ 35-dən 49-a qədər tərəddüd edir (ahıl yaşda əqli inkişaf 6-9 yaşa uyğundur). Uşaqlıqdan nəzərə çarpacaq inkişaf geriliyi olsa da, əksəriyyəti təhsil alaraq adekvat ünsiyyət və dərs vərdişləri və özünə xidmət edəcək səviyyə qazana bilər. Yaşlılar həyatda və işdə müxtəlif yardım növlərinə möhtacdır.

***Daxil edilib***: orta dərəcəli əqli subnormallıq

## F72 Ağır dərəcəli əqli gerilik

(Yarımrubrikanı təyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

Təxmini IQ 20-dən 34-ə qədər tərəddüd edir (ahıl yaşda əqli inkişaf 3-6 yaşa uyğundur). Daimi yardım zəruridir.

***Daxil edilib***: kəskin nəzərə çarpan əqli subnormallıq

## F73 Çox ağır əqli gerilik

(Yarımrubrikanıtəyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

Təxmini IQ 20-dir (ahıl yaşda əqli inkişaf 3 yaşa uyğundur). Bunun nəticəsində özünə xidmətin, ünsiyyət qabiliyyətinin məhdudluğu, seksuallığın artması nəzərə çarpır.

***Daxil edilib***: çox ağır əqli subnormalıq

## F78 Əqli geriliyin digər formaları

(Yarımrubrikanıtəyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

## F79 Dəqiqləşdirilməmiş əqli gerilik

(Yarımrubrikanı təyin etmək üçün F70-dək olan yarımrubrikalara bax)

***Daxil edilib***: ƏGO əqli çatmamazlıq
ƏGO əqli subnormallıq

# Psixoloji inkişaf pozğunluqları (F80-F89)

Bu rubrikaya daxil edilmiş pozğunluqlar ümumi xüsusiyyətlərə malikdir: a) başlanğıcı mütləq südəmər və ya uşaq yaşına təsadüf edir; b) funksiyaların inkişafının ləngiməsi və ya pozğunluğu mərkəzi sinir sisteminin bioloji inkişafı ilə sıx bağlıdır; c) remissiya və residivlər olmadan davamlı gedişə malikdir. Əksər hallarda nitq, hərəki koordinasiya və görmə-mühit vərdişləri zədələnir. Adətən, erkən aşkar edilmiş pozğunluq və ya ləngimə uşağın böyüməsi ilə proqressiv surətdə azalır, lakin ahıl yaşda yüngül çatmamazlıq əksər vaxt saxlanılmış olur.

## F80 Nitq və dilin inkişafının spesifik pozğunluqları

İnkişafın erkən mərhələsində dil vərdişləri qazanma xarakterinin pozğunluqlarıdır. Bu hal nervoloji və ya nitq mexanizimlərinin pozğunluğu ilə sensor çatmamazlıqla, əqli gerilik və ətraf mühit faktorları ilə bilavasitə əlaqədar deyil. Nitq və dilin inkişafının spesifik pozğunluğu oxuma, tələffüz çətinliyi, emosional və davranış pozğunluğu, şəxsiyyətlərarası münasibətlərin uyğunsuzluğu kimi problemlərlə müşayiət olunur.

### F80.0 Nitq artikulyasiyasının spesifik pozğunluğu

İnkişafla bağlı spesifik pozğunluq olub, dil vərdişlərinin normal olmasına baxmayaraq danışıq səslərinin işlədilməsi aşağı səviyyədə olur.

İnkişafla bağlı:

- fonoloji pozğunluq
- nitq artikulyasiyanın pozğunluğu

Dislaliya [diliağırlılıq]
Nitq artikulyasiyasının funksional pozğunluğu
Lepet [nitqin uşaq forması]

*Çıxarılıb*: nitq artikulyasiyanın çatmamazlığı:
- ƏGO afaziya (R47.0)
- apraksiya (R48.2)
- eşitmənin itirilməsi nəticəsində (H90-H91)
- əqli gerilik nəticəsində (F70-F79)
- dilin inkişaf pozğunluğu ilə birgə:
  - ekspressiv tip (F80.1)
  - reseptiv tip (F80.2)

## F80.1 Ekspressiv nitq pozğunluğu

İnkişafla bağlı spesifik pozğunluq olub, uşağın danışıq dilindən istifadə etmək qabiliyyəti yaşına görə çox aşağı səviyyədə olub, dilin başa düşülməsi normal səviyyədə olur. Bu tip pozğunluqda artikulyasiya anomaliyası olmaya bilər.

İnkişafla bağlı ekspressiv tipli disfaziya və ya afaziya

*Çıxarılıb*: epilepsiya ilə qazanılma afaziya (Landau-Klefner) (F80.3)
disfaziya və afaziya:
- ƏGO (R47.0)
- inkişafla əlaqəli reseptiv tip (F80.2)

elektiv mutizm (F94.0)
əqli gerilik (F70-F79)
inkişafla bağlı pervaziv pozğunluq (F84.–)

## F80.2 Reseptiv nitq pozğunluğu

İnkişafla bağlı spesifik pozğunluq olub, uşağın dili başa düşməsi yaşına görə çox aşağı səviyyədə olur. Dilin hər tərəfli pozğunluğu və səslərin tələffüzündə kənara çıxmalar nəzərə çarpır.

Eşitmə qabiliyyətinin anadangəlmə pozğunluğu
İnkişafla bağlı:
- reseptiv tipli disfaziya və ya afaziya
- Vernike afaziyası

Sensor qabıq afaziyası (sözlərin qavranılmaması)

*Çıxarılıb*: epilepsiyada qazanılma afaziya [Landau-Klefner] (F80.3)
autizm (F84.0-F84.1)
disfaziya və afaziya:
- ƏGO (R47.0)
- inkişafla əlaqəli ekspressiv tip (F80.1)

elektiv mutizm (F94.0)
karlıq nəticəsində dil inkişafının ləngiməsi (H90-H95)
əqli gerilik (F70-F79)

## F80.3 Epilepsiya ilə qazanılma afaziya [Landau-Klefner]

Normal nitq inkişafına malik uşağın ümumi intellekti saxlamaqla reseptiv və eksperessiv dil vərdişlərini itirməsi ilə gedən pozğunluq. Bu pozğunluğun başlanğıcı EEQ-də paroksimal dəyişikliklərlə və əksər hallarda epileptik tutmalarla müşayiət olunur. Pozğunluğun başlanğıcı 3-7 yaş arasına təsadüf edir. Vərdişlərin itirilməsi isə bir neçə gündən və ya həftədən sonra baş verir. Tutmaların başlanğıcı ilə dil vərdişlərinin itirilməsi arasında müvəqqəti əlaqə dəyişkən olub bir neçə aydan, bir neçə ilə qədər ola bilər. Bu pozğunluğun baş beyində iltihabi proseslə əlaqədar olması ehtimal edilir. Hadisələrin üçdə ikisi dilin başa düşülməsinin bu və ya digər dərəcədə çatmamazlıqlarının saxlanması ilə xarakterizə olunur.

***Çıxarılıb:*** afaziya:
- ƏGO (R47.0)
- autizmdə (F84.0–F84.1)
- uşaq yaşlarının dezinteqrativ pozğunluqlarının nəticəsində (F84.2–F84.3)

## F80.8 Dil və nitq inkişafının digər pozğunluqları

Şirin danışma

## F80.9 Dil və nitq inkişafının dəqiqləşdirilməmiş pozğunluqları

ƏGO nitq pozğunluğu

# F81 Dərs vərdişləri inkişafının spesifik pozğunluqları

İnkişafın erkən mərhələlərindən başlayaraq dərs vərdişlərinin qazanılmasının normal göstəricilərinin pozulması ilə xarakterizə olunan pozğunluq. Bu cür pozğunluq təhsil almaq imkanının olmamasının, əqli geriliyin nəticəsi deyil və nə də alınmış travma və ya keçirilmiş baş beyin xəstəliyi ilə əlaqədar deyil.

## F81.0 Oxumanın spesifik pozğunluğu

Bu pozğunluğun əsas xüsusiyyəti intellektin səviyyəsi, qeyri-adekvat təhsil və görmə zəifliyi ilə izah edilə bilməyən oxuma vərdişlərinin inkişafının əhəmiyyətli dərəcədə çatmamazlığıdır. Bu pozğunluqla birgə yeniyetmə dövrünə qədər saxlanılan düzgün yazma çətinliyi rast gəlinir (oxumada inkişaf olmasına baxmayaraq). Bu şəxslərin anamnezində nitq vərdişlərinin və leksikonun qazanılması pozğunluğu olur. Məktəb dövründə davranış pozğunluqları və emosional pozğunluq adi hal olur.

"Oxuma geriliyi"
İnkişaf disleksiyası
Oxumada spesifik geri qalma

***Çıxarılıb***: ƏGO aleksiya (R48.0)
ƏGO disleksiya (R48.0)
emosional pozğunluqlu şəxslərdə ikincili oxuma çətinliyi (F93.–)

## F81.1 Həriflənənin spesifik pozğunluğu

Anamnezdə spesifik oxuma pozğunluğu hərfləmə vərdişlərinin inkişafının spesifik, nəzərə çarpan çatmamazlığı ilə xarakterizə olunan pozğunluq. Bu intelektin aşağı səviyyədə olması ilə qeyri-adekvat təhsillə və görmə itiliyi ilə olan problemlərlə əlaqədar deyil. Pozğunluq həm sözlərin hərflərlə tələfüzündə, həm də düzgün yazılışda olur.

Hərfləmədə spesifik ləngimə (oxuma pozğunluğu olmadan)

***Çıxarılıb***: ƏGO aqrafiya (R48.8)
hərfləmə çətinliyi:
- oxuma pozğunluğu ilə bağlı (F81.0)
- qeyri-adekvat təhsil nəticəsində (Z55.8)

## F81.2 Hesablama vərdişlərinin spesfik pozğunluğu

Vərdişlərin qazanılmasının qeyri-adekvat təhsillə və əqli geriliklə izah edilə bilməyən spesefik pozğunluğudur. Bu pozğunluq təkcə mürəkkəb riyazi hesablamaların aparılmasına deyil, daha çox toplama, çıxma, vurma və bölmə əməliyyatlarına aiddir.

İnkişafla bağlı:
- akalkuliya
- hesablama pozğunluğu
- Herstman sindromu

***Çıxarılıb***: ƏGO akalkuliya (R48.8)
hesablama çətinliyi:
- oxuma və ya hərfləmə pozğunluğu ilə bağlı (F81.3)
- qeyri-adekvat təhsil nəticəsində (Z55.8)

## F81.3 Dərs vərdişlərinin qarışıq pozğunluğu

Hesablama, oxu, düzgün yazma vərdişlərində əqli gerilik və qeyri-adekvat təhsillə əlaqədar olmayan çatmamazlıqların çox pis təsvir olunmuş qalan qrupu. Bu rubrikadan F81.2 və F81.0 ya da F81.1 yarımrubrikalardaki kriterilərə uyğun gələn pozğunluqların təyini üçün istifadə etmək tövsiyə edilir.

***Çıxarılıb***: hesablama (F81.2), oxuma (F81.0), hərfləmə (F81.1) } vərdişlərinin spesifik pozğunluğu

## F81.8 Dərs vərdişlərinin inkişafının digər pozğunluqları

Ekspressiv yazı inkişafının pozğunluğu

## F81.9 Dərs vərdişlərinin inkişafının dəqiqləşdirilməmiş pozğunluğu

ƏGO bilik qazanma qabiliyyətinin olmaması ƏGO təhsil alma qabiliyyətinin pozğunluğu ƏGO təhsil alma pozğunluğu

# F82 Motor funksiyaların inkişafının spesifik pozğunluqları

Motor koordinasiyaların inkişafının intelektual gerilik, spesifik qazanılma və ya anadangəlmə nevroloji pozğunluqlarla izah edilə bilməyən nəzərə çarpacaq dərəçədə zəifləməsi ilə xarakterizə olunan pozğunluq. Lakin əksər hallarda hərtərəfli klinik müayinələr nevroloji inkişafın tam olmamasını aşkar etməyə imkan verir. Bu şəxslərdə sakitlik halında ətrafların xoreyaya bənzər hərəkətləri, reflektor hərəkətlər, motorika ilə bağlı digər əlamətlər, o cümlədən səthi və dərin motor koordinasiya pozğunluqları nəzərə çarpır.

***Daxil edilib***: Yondəmsiz uşaq sindromu
İnkişafla bağlı:
- koordinasiya pozğunluğu
- dispraksiya

***Çıxarılıb***: Koordinasiya pozğunluğu (R27.-)
Əqli geriliyə münasibətinə görə ikincili (F70-F79)
Yeriş və hərəkət pozğunluqları (R26.–)

## F83 Psixoloji inkişafın qarışıq spesifik pozğunluqları

Bu rubrikada nitq və dil inkişafının, dərs vərdişlərinin və motorikanın, spesifik pozğunluqlarının məcmusu cəmləşdirilmişdir. Pozğunluqlar bərabər dərəcədə təzahür etdiyinə görə bunlardan birini əsas diaqnoz kimi seçməyə imkan vermir. Bu rubrikadan yuxarıdakı inkişaf pozğunluqlarının qarışıq düşməsi hallarında istifadə etmək tövsiyə edilir. Bu pozğunluq heç də həmişə qavrama funksiyalarının ümumi çatmamazlığının müəyyən dərəcəsi ilə bağlı deyildir. Beləliklə bu rubrikadan F80, F81, F82 rubrikaların kriteriyalarına cavab verən disfunksiyaların birgə rast gəlinməsində istifadə etmək tövsiyə edilir.

## F84 Psixoloji inkişafın ümumi pozğunluğu

Bu pozğunluqlar qrupu sosial münasibətlərdə, ünsiyyət yaratmaq göstəricilərində keyfiyyət kənara çıxmaları ilə, o cümlədən məhdud, stereotip, təkrarlanan maraq və hərəkət kompleksləri ilə xarakterizə olunur. Bu keyfiyyət kənaraçıxmaları fərdin, bütün situasiyalarda fəaliyyətinin ümumi xarakterik xüsusiyyətidir.

Bu pozğunluqla bağlı xəstəlik və ya əqli geriliyi müəyyənləşdirmək lazım gəldikdə əlavə koddan istifadə edilir.

### F84.0 Uşaq autizmi

İnkişafın ümumi tip pozğunluğu olub: a) 3 yaşına qədər inkişaf ləngiməsi və anomaliyası, b) məhdud, stereotip və monoton davranışda, ünsiyyət funksiyalarında və ekvivalent sosial qarşılıqlı təsirlərdə psixoloji dəyişiklərlə müəyyən olunur. Bu spesifik diaqnostik xüsusiyyətlər, fobiyalar, yuxu və qida qəbulu pozğunluqları, özünə qarşı aqressivlik kimi qeyri spesifik problemləri tamamlayır.

Autik pozğunluq

İnfantil:

- autism
- psixoz

Kanner sindromu

***Çıxarılıb***: autik psixopatiya (F84.5)

### F84.1 Atipik autizm

Ümumi inkişaf pozğunluğu olub, uşaq autizmindən pozğunluğun başlanma vaxtına görə və ya uşaq autizmi diaqnozunun qoyulması üçün zəruri olan patoloji pozğunluq triadasının olmaması ilə fərqlənir. Bu yarımrubrikadan yalnız inkişaf ləngiməsi və anomaliyası 3 yaşından sonra inkişaf edildikdə və uşaq autizmi diaqnozu qoymaq üçün psixopatoloji triadadan biri və ikisi aydın təzahür etmədikdə istifadə etmək tövsiyə olunur. Atipik autizm ən çox dərin inkişaf ləngiməsi olan və ağır, spesifik reseptiv nitq pozğunluğu olan şəxslərdə rast gəlinir.

Atipik uşaq psixozu

Autizm əlamətləri ilə müşayiət olunan əqli gerilik.

Əqli geriliyi müəyyənləşdirmək lazım gəldikdə əlavə koddan(F70-F79) istifadə edilir

### F84.2 Retta sindromu

Bu vaxta qədər yalnız qızlarda rast gəlinən bu sindrom əvvəl normal olan inkişafın nitqin, lokomotor vərdişlərin tam və ya hissəvi itirilməsi, iki əlli işləmək vərdişi və başın inkişafının ləngiməsi ilə ağırlaşır. Həyatının 7-24 aylığında rast gəlinir.

Əllərlə iradi hərəkətlərin, əllərin stereotip dairəvi hərəkətlərinin və dərin tənəffüsün itirilməsi xarakterikdir. İctimai inkişaf vəoyunların inkişafı dayansa da, ünsiyyətə meyl axlanır. 4 yaşından etibarən gövdənin xoreoatetoid hərəkətləri ilə müşayiət olunan adaksiyası və apraksiyası inkişaf etməyə başlayır. Dəyişilməz ağır əqli gerilik qeyd edilir.

### F84.3 Uşaq yaşının digər dezinteqrativ pozğunluğu

İnkişafın ümumi tip pozğunluğu olub pozğunluq əlamətlərinin təzahür etməsinə qədər tam normal inkişaf dövrünün olması ilə xarakterikdir. Pozğunluğun başlanması ilə həmin dövrə qədər qazanılmış vərdişlər itirilir. Bu vərdişlərin itirilməsi bir neçə ay ərzində baş verir. Bu ətraf mühitə qarşı marağın itirilməsi, stereotip, monoton hərəki davranışla və autizm üçün xarakterik olan ictimai qarşılıqlı təsir və ünsiyyət funksiyalarının itirilməsi ilə müşayiət olunur. Bəzi hallarda bu pozğunluğun ensefalopatiya ilə əlaqədar olması müəyyən edilsə də diaqnoz davranış xüsusiyyətlərinə əsaslanmalıdır.

Uşaq demensiyası Dezinteqrativ psixoz Qeller sindromu Simbioz psixoz

Pozğunluqla bağlı nevroloji xəstəliyi müəyyənləşdirmək lazım gəldikdə əlavə koddan istifadə edilir.

***Çıxarılıb***: Retta sindromu (F84.2)

### F84.4 Əqli gerilik və stereotip hərəkətlərlə birgə rast gəlinən hiperaktiv pozğunluq

Pis işarələnmiş qeyri-müəyyən nozologiyalı pozğunluq. Bu kateqoriya diqqət pozğunluğu, stereotip davranışı, hiperaktivliyi olan aydın nəzərə çarpan əqli geri qalmış (İQ 34-dən aşağı) uşaq qrupları üçün nəzərdə tutulmuşdur.

Bu uşaqlarda stimulyasiyaedici preparatlar normal IQ səviyyəsi olan uşaqlardan fərqli olaraq disforik (bəzən psixomotor retardasiya ilə) reaksiyaya səbəb olur. Yeniyetmə dövründə hiperaktivlik zəifləşmiş aktivliklə əvəz olunmağa meylli olur. Bu sindrom əsasən müxtəlif ümumi və spesifik xarakterli inkişaf geriliyi ilə bağlı olur. Aşağı IQ və beynin üzvi zədələnməsinin bu pozğunluğun etiologiyasında rolu məlum deyil.

### F84.5 Asperger sindromu

Qeyri-müəyyən nozologiyalı pozğunluq olub, autizm üçün xarakterik olan və maraq və məşğuliyyətin məhdudluğu, stereotipliyi və monotonluğu ilə birgə rast gəlinən keyfiyyət anomaliyaları ilə xarakterizə olunur. Autizmdən fərqli olaraq nitq və qavrama inkişafının ləngiməsi və dayanması olmur. Bu pozğunluq tez-tez kəskin ləngliklə müşayiət olunur. Bu dəyişikliklər yeniyetmə və yetkin yaşda saxlanmağa meyllidir. Yetkinlik dövrünün başlanğıcında psixotik epizodların dövri olaraq rast gəlinməsi qeyd edilir.

Autik psixopatiya

Uşaq yaşında şizoid pozğunluq

### F84.8 İnkişafın digər ümumi pozğunluqları

### F84.9 İnkişafın dəqiqləşdirilməmiş ümumi pozğunluğu

## F88 Psixoloji inkişafın digər pozğunluqları

***Daxil edilib***:İnkişaf aqnoziyası

## F89 Psixoloji inkişafın dəqiqləşdirilməmiş pozğunluğu

ƏGO inkişafın pozğunluğu

# Uşaq və yeniyetmə yaşında başlayan emosional pozğunluqlar və davranış pozğunluqları (F90-F98)

## F90 Hiperkinetik pozğunluqlar

Pozğunluqlar qrupu olub erkən başlanması, (adətən həyatın ilk 5 ilində) zehni əmək zamanı diqqətin cəmləşməsində iradənin olmaması və bir işi başa çatdırmadan digərinə keçməyə meylliliklə xarakterizə olunur. Bununla yanaşı qeyri-mütəşəkkil, nizamlanmayan və ifrat aktivlik qeyd edilir. Bunlara digər pozğunluqlar da qoşula bilər. Hiperkinetik pozğunluğu olan uşaqlar əsasən dalğın və impulsiv olub, qaydaları qeyri-iradi olaraq pozduqlarına görə bədbəxt hadisələrə və tənbehlərə məruz qalırlar. Digər uşaqlar tərəfindən sevgi ilə qarşılanmırlar və təkliyə düşə bilərlər. Qavrama funksiyalarının çatmamazlığı, danışıq və hərəki inkişafın spesifik ləngiməsi xarakterikdir. İkincili ağırlaşma dissosial davranış və aşağı səviyyəli özünə qiymətdən ibarətdir.

***Çıxarılıb:*** həyəcanlı pozğunluqlar (F41.–)
əhvali-ruhiyyənin (affektiv) pozğunluğu (F30-F39) psixoloji inkişafın ümumi pozğunluğu (F84.-) şizofreniya (F20.–)

### F90.0 Aktivlik və diqqət pozğunluğu

Diqqət çatmamazlığı:

- Hiper aktivlik pozğunluq ilə müşayiət olunan
- Hiperdinamik sindromla müşayiət olunan
- Hiperaktivliklə müşayiət olunan

***Çıxarılıb***: davranış pozğunluğu ilə bağlı hiperkinetik pozğunluq (F90.1)

### F90.1 Hiperkinetik davranış pozğunluğu

Davranış pozğunluğu ilə bağlı hiperkinetik pozğunluq

### F90.8 Digər hiperkinetik pozğunluqlar

### F90.9 Dəqiqləşdirilməmiş hiperkinetik pozğunluq

Uşaq və yeniyetmə yaşın ƏGO hiperkinetik reaksiyası

ƏGO hiperkinetik sindrom

## F91 Davranış pozğunluğu

Ünsiyyətsiz, aqressiv və ədəbsiz davranışın təkrarlanan, davamlı nümunələri ilə xarakterizə olunan pozğunluqdur. Bu davranış sosial yaş pozğunluqlarının ən yüksək təzahür forması olub uşaq və yeniyetmə intizamsızlığından daha ağır və uzunmüddətli 6 ay və daha çox olması ilə fərqlənir. Bu pozğunluğun xüsusiyyətləri digər psixi halların simptomları da ola bilər və belə hallarda əsas diaqnoza üstünlük verilir.

Diaqnozun əsaslandığı davranış nümunəsi davakarlıqdan, əmlakı xarab etmədən, insan və heyvanlara qarşı sərt davranmaqdan, oğurluqdan, yanğın törətməkdən, yalan danışmaqdan, əsəbilikdən, məşğələlərdən və evdən yayınmaqdan birətdir. Yuxarıdakı əlamətlərdən birinin aydın təzahür etməsi diaqnozun qoyulması üçün kafidir. Lakin ayrı-ayrı dissosial hərəkətlər diaqnoz üçün əsas ola bilməz.

*Çıxarılıb:* əhval-ruhiyyə pozğunluğu [affektiv] (F30-F39)
ümumi inkişaf pozğunluğu (F84.–)
şizofreniya (F20.–)
davranış pozğunluğu:
- emosional (F92.-)
- hiperkinetik (F90.1)

} pozğunluqlarla bağlı

## F91.0 Davranışın ailə ilə məhdudlaşmış pozğunluğu

Davranış pozğunluğu olub, davranış kənaraçıxmaları tam surətdə ailə üzvləri ilə ünsiyyətlərdə özünü göstərir və dissosial, aqressiv (nəinki müxalif, kobud, dağıdıcı) tipdə olur. Valideynlərlə uşaqlar arasında ağır dərəcəli münasibət pozğunluqları diaqnoz qoymaq üçün kafi olmayıb, kriteriyaların tam kompleksini tələb edir.

## F91.1 Davranışın ictimailəşdirilməmiş pozğunluğu

Pozğunluq, davamlı dissosial və ya aqressiv davranışın müştərək rast gəlinməsi ilə (F91.–rubrikasının kriteriyalarına tam uyğun nəinki təkcə dağıdıcı, müxalif, kobud) və fərdin digər uşaqlarla münasibətində anomaliyaların nəzərə çarpaçaq dərəcədə olması ilə xarakterizə olunur. Tək aqressiv tipli davranış pozğunluğu
İctimailəşdirilməmiş davranış pozğunluğu

## F91.2 İctimailəşmiş davranış pozğunluğu

Davamlı dissosial və ya aqressiv davranışla xarakterizə olunub, əsasən öz ictimai qrupunda yaxşı inteqrasiya olunmuş fərdlərdə rast gəlinir.

Qrup tipli davranış pozğunluğu
Qrup şəkilli hüquq pozğunluğu
Dəstə üzvü situasiyalarında hüquq pozğunluğu Digər şəxslərlə kompaniya halında oğurluq
Dərslərə laqeydlik, dərsburaxmalar

## F91.3 Nəzakətsiz müxalifət pozğunluğu

Əsasən kiçik yaşlı uşaqlarda rast gəlinən davranış pozğunluğu olub sözə baxmama, ədəbsizliklə, uyğunsuz münasibətlə xarakterizə olunaraq, hüquq pozğunluğu hərəkətləri və ya dissosial və aqressiv tip davranış rast gəlinir. Diaqnoz üçün F91 rubrikasının bütün kriteriyalarının uyğunluğu tələb olunur. Ağır formalı dəcəllik və sözə baxmama diaqnozun qoyulması üçün kifayət deyil. Bu rubrikanın yuxarı yaşlı uşaqlara tətbiq olunması zamanı ehtiyatlı olmaq tələb olunur, çünki kliniki əhəmiyyətli davranış pozğunluğu adətən dissosial və aqressiv davranışla müşayiət olunur ki, bu da adi ədəbsiz davranış, sözə baxmamazlıq və ya uyğunsuz davranış münasibətlərini ötüb keçir.

## F91.8 Davranışın digər pozğunluqları

## F91.9 Dəqiqləşdirilməmiş davranış pozğunluğu

Yeniyetmə:
- ƏGO davranış pozğunluğu
- davranışın ƏGO pozğunluğu

# F92 Davranış və emosiyaların qarışıq pozğunluqları

Davamlı dissosial, aqressiv və ya nəzakətsiz davranışın kəskin ifadə olunmuş depressiya, həyəcan və ya digər emosional pozğunluqlarla birgə rast gəlinməsilə xarakterizə olunan pozğunluqlar qrupudur. Bu hal uşaq yaşında davranış pozğunluğunun (F91) uşaq yaşında emosional pozğunluqların, yaşlıların nevrotik (F40-F48) və ya davranış pozğunluqlarının (F30-F39) kriteriyalarına uyğun olmalıdır.

## F92.0 Davranışın depressiv pozğunluğu

Bu yarımrubrika davranış pozğunluğunun (F91.–) davamlı və ifadəli depressiya ilə (F32.–) birgə rast gəlinməsini nəzərdə tutur. Bu pozğunluq tipi öz fəaliyyətindən həzz almama, marağın itməsi, iztirab çəkmə, yuxu və iştah pozğunluğu ilə xarakterizə olunur.

F91.– rubrikasına aid olan davranış pozğunluğu F32.– rubrikasına aid olan depressiv pozğunluqla birgə

## F92.8 Digər qarışıq davranış və emosiya pozğunluqları

Bu rubrika davranış pozğunluğunun (F91) həyəcan, dipersonalizasiya, fobiyalar, hipoxondriya, derealizasiya kimi simptomlardan ibarət davamlı və kəskin emosional pozğunluqla birgə rast gəlinməsini nəzərdə tutur.

F91.– rubrikasına aid edilən davranış pozğunluğu:
- F93.– rubrikasında göstərilmiş emosional pozğunluqla birgə
- F40-F48 rubrikalarında göstərilmiş nevrotik pozğunluqlarla birgə

## F92.9 Dəqiqləşdirilməmiş qarışıq davranış və emosiya pozğunluğu

## F93 Başlanğıcı uşaq yaşı üçün spesifik olan emosional pozğunluqlar

Bu kənaraçıxmaların keyfiyyət anomaliyalarına nisbətən daha çox adı inkişaf tendensiyasının qabarıq ifadə olunmasıdır. İnkişaf dövrünün xüsusiliyi uşaq yaşında başlayan bu emosional pozğunluğu nevrotik pozğunluqdan (F40-F48) diferensiasiya etməyə imkan verən əsas diaqnostik əlamətdir.

***Çıxarılıb:*** davranış pozğunluğu ilə bağlı (F92.–)

### F93.0 Uşaqlarda ayrılıqla əlaqədar həyəcan pozğunluğu

Bu diaqnozun qoyulması ayrılıq qorxusu həyəcan fokusu yaratdıqda və bu həyəcan həyatın ilk ilində yarandıqda tövsiyə edilir. Ayrılıqla əlaqədar yaranmış normal narahatlıqdan bu pozğunluq, ictimai fəaliyyət üçün ciddi problemlər törətməsi, bu yaş dövrü üçün qeyri-normal olaraq uzun müddət davam etdiyinə görə daha ağır formada təzahür etməsi ilə fərqlənir.

***Çıxarılıb***: əhval-ruhiyyə pozğunluğu (affektiv pozğunluq) (F30-F39)
nevrotik pozğunluq (F40-F48)
uşaq yaşında fobik həyəcan pozğunluğu (F93.1)
uşaq yaşında ictimai həyəcan pozğunluğu (F93.2)

### F93.1 Uşaq yaşında fobik həyəcan pozğunluğu

İfadə dərəcəsinə görə çox güclü olan, uşaqların əksəriyyətində meydana çıxan və inkişafın müəyyən mərhələsini spesifik olaraq xarakterizə edən uşaqlıqda meydana çıxan qorxulardır. Uşaqlıqda meydana çıxan lakin, psixososial inkişafın normal hissəsi olan digər qorxuları müvafiq F40-F48 rubrikaları ilə kodlaşdırmaq tövsiyə edilir.

***Çıxarılıb***: generalizə olunmuş həyəcan pozğunluğu (F41.1)

### F93.2 Uşaq yaşında ictimai həyəcan pozğunluğu

Bu pozğunluqda tanış olmayan şəxslərdən qorxma, ictimai həyəcan, gözlənilməz xəbərlərlə və ictimai təhlükəli vəziyyətlərlə bağlı narahatlıq qeyd edilir. Bu rubrikadan göstərilən qorxular ictimai fəaliyyət problemləri ilə müşayiət olunduqda, qeyri-adi təzahür dərəcəsinə malik olduqda və həyatın ilk illərində rast gəldikdə istifadə etmək tövsiyə edilir.

Uşaq və yeniyetmələrdə ictimai həyəcan pozğunluğu

### F93.3 Siblinq rəqabəti pozğunluğu

Emosional pozğunluqlar kiçik yaşlı uşaqlarda qardaş və bacının doğulmasından sonra meydana çıxır. Sibislər arasında meydana çıxan bu cür pozğunluqların diaqnozu yalnız ifadə dərəcəsi və müddəti statistik olaraq qeyri-adi olduqda və ictimai münasibətlərdə kənaraçıxmalarla bağlı olarsa qoyulur.

Siblinq qısqanclığı

### F93.8 Uşaq yaşında digər emosional pozğunluqlar

Müəyyənləşdirmə pozğunluğu
Artıq dərəcədə həyəcan pozğunluğu

***Çıxarılıb***: uşaq yaşında cinsi müəyyənləşmə pozğunluğu (F64.2)

### F93.9 Uşaq yaşında dəqiqləşdirilməmiş emosional pozğunluq

## F94 Başlanğıcı uşaq və yeniyetmə yaşı üçün xarakterik olan ictimai fəaliyyət pozğunluğu

Müəyyən dərəcədə müxtəlif pozğunluqlar qrupu olub, sosial fəaliyyətdə kənaraçıxmalarla xarakterizə olunur; bu pozğunluq böyümə və inkişaf dövründə–meydana çıxır, lakin ümumi inkişaf pozğunluqlarından fərqli olaraq bütün fəaliyyət sferalarını əhatə edən üzvi mənşəli qüsurlarla xarakterizə olunmur. Əksər hallarda bu pozğunluqların etiologiyasında ətraf mühitlə bağlı məhrumiyyətlər əsas yer tutur.

### F94.0 Elektiv mutizm

Nitqdə aydın emosionallıqla əlaqəli selektivliklə xarakterizə olunur: uşaq bir situasiyada dil vərdişləri nümayiş etdirsə də, digər situasiyada danışmaq iqtidarında olmur. Bu pozğunluq adətən ictimai narahatlıq, qapalılıq və həssaslıq kimi şəxsi xüsusiyyətlərlə assosiasiya olunur.

Selektiv mutizm

***Çıxarılıb***: psixoloji inkişafın ümumi pozğunluğu (F84.–)
şizofreniya (F20.–)
nitq və dil inkişafının spesifik pozğunluğu (F80.–)
erkən yaşlı uşaqlarda ayrılıq qorxusunun tərkib hissəsi olan keçici mutizm (F93.0)

### F94.1 Uşaq yaşında bağlılığın reaktiv pozğunluğu

Həyatının ilk 5 ilindən başlayaraq ictimai münasibətlərdə ətraf mühitin dəyişikliklərinə (qorxu, həddən artıq sayıqlıq, yaşıdlarla münasibətlərin zəifliyi, özünə və başqalarına qarşı aqresivlik) qarşı reaktivlik və emosional pozğunluqlarla bağlı uşaq ictimai münasibətlərində kənaraçıxmalarla xarakterizə olunur. Ehtimal olunur ki, sindrom uşağa qarşı valideyn qayğısının olmaması və sərt davranışla bağlıdır.

Bununla bağlı hər hansı inkişaf pozğunluğu vələngiməsini müəyyənləşdirmək lazım gəldikdə əlavə koddan istifadə edilir.

*Çıxarılıb*: Asperger sindromu (F84.5)
uşaq yaşında bağlılığın tormozlanmış tipli pozğunluğu (F94.2)
sərt davranış sindromu (T74.–)
selektiv bağlılıq strukturunda normal variasiya
uşaqlıqda psixososial problemlərə gətirib çıxaran seksual və ya fiziki zor (Z61.4-Z61.6)

### F94.2 Uşaq yaşında bağlılığın tormozlanmış tipdə pozğunluğu

Anomal ictimai fəaliyyətin xüsusi modeli olub, həyatının ilk 5 ilində meydana çıxır və ətraf mühitdə aydın fasilələrə baxmayaraq saxlanmağa meylli olur. Vəziyyətdən asılı olaraq emosional və davranış pozğunluğu qoşula bilər.

Sevgi və qayğı çatmamazlığı ilə əlaqədar psixopatiya
Qapalı uşaq sindromu

*Çıxarılıb*: Asperger sindromu (F84.5) uşaqlarda hospitalizm (F43.2) heperkinetik pozğunluq (F90.-)
uşaq yaşında bağlılığın reaktiv pozğunluqları (F94.1)

### F94.8 Uşaq yaşında ictimal fəaliyyətin digər pozğunluğu

### F94.9 Uşaq yaşında ictimai fəaliyyətin dəqiqləşdirilməmiş pozğunluğu

## F95 Tiklər

Əsas təzahür forması bəzi tik növləri olan sindromlardır. Tik təflətən çıxarılan və müəyyən məqsəd daşımayan səs və ya qeyri-iradi, cəld, təkrarlanan, qeyri-ritmik hərəkətdir. Tiklər əsasən aradan qaldırılmağa meylli olmasa da, müəyyən müddətə yatırıla bilər. Yuxu vaxtı sadə həraki tiklər üz qrimaslarından, göz qırpmadan, çiyinlərin çəkilməsindən və boynun qıcolma şəklində dartılmasından ibarət olur. Səs tikləri isə öskürmədən, fit çalmaq və fınxırmadan ibarət olur. Mürəkkəb tiklər isə özünə zərbə endirmək, bir ayaq üstündə tullanmaqdan və s. ibarətdir. Mürəkkəb səs tikləri isə spesifik sözlərin təkrar edilməsi, bəzən ictimai nalayiq sözlərin deyilişi (koprolaliya), özünəməxsus səs və sözlərin (palilaliya) təkrari ilə təzahür edir.

### F95.0 Tranzitor tiklər

Oxşar pozğunluğun əsas kriteriyalarına oxşar olub, tiklər 12 aydan artıq davam etmir. Tiklər göz qırpma, üz qırışması, başın dartınması xarakterində olur.

### F95.1 Xroniki motor tiklər və ya vokalizimlər

Oxşar pozğunluğun əsas kriteriyalarına uyğun olub motor tiklər tək-tək və çoxsaylı olmaqla bir ildən artıq davam edir.

### F95.2 Vokalizimlərin və çox saylı motor tiklərinin kombinasiyası [de la Turetta sindromu]

Tiklərin çox saylı motor tiklər, bir və ya bir neçə vokalizimlə təzahür edən formasıdır. Pozğunluq yeniyetmə yaşında güclənir və yetkin yaşda saxlanmağa meyyli olur. Vokalizimlər çoxsaylı olur: nalayiq sözlərin işlədilməsi, qəfləti təkrari səslər, öskürmə və .s. Bəzən nalayiq xarakter (kopropraksiya) daşıyan jest exopraksiyası qoşulur.

### F95.8 Digər tiklər

### F95.9 Dəqiqləşdirilməmiş tiklər

ƏGO tiklər

## F98 Uşaq və yeniyetmə yaşında başlayan digər emosional pozğunluqlar və davranış pozğunluğu

Çox növlü pozğunluqlar qrupu olub bir çox parametrlərin fərqli olması və uşaq yaşında başlanması ilə xarakterizə olunur. Onlardan bəziləri dəqiq müəyyənləşdirilməmiş sindromlar, bəziləri isə digər sindromlarla birləşdirilməsi mümkün olmadığına, psixosial problemlərlə bağlı və rast gəlmə tezliyinə görə bu rubrikaya daxil edilməsi zəruri olan simptromlar kompleksidir.

*Çıxarılıb:* tənəffüsün saxlanma tutmaları (R06.8)
uşaq yaşında cinsi müəyyənləşmənin pozğunluğu (F64.2)
Kleyn-Levin sindromu (G47.8)
obsessiv-kompulsiv pozğunluq (F42.–)
emosional səbəblərdən yuxu pozğunluğu (F51.–)

### F98.0 Qeyri-üzvi mənşəli enurez

Gecə və ya gündüz sidik yollarının struktur anomaliyaları, epilepsiya tutmaları və nevroloji pozğunluq olmadan və sidik kisəsi funksiyalarına nəzarətin kifayət qədər olmamasının nəticəsi kimi meydana çıxmayan qeyri-iradi

sidik ifrazıdır. Doğulduqdan sonra və ya sidik ifrazına nəzarətin formalaşması dövründən sonra qeyd edilə bilər. Enurez dərin emosional pozğunluqlarla və davranış pozğunluğu ilə assosiasiya oluna bilər.

Qeyri-üzvi təbiətli (birincili) (ikincili) enurez
Funksional enurez
Psixogen enurez
Qeyri-uzvi mənşəli sidik saxlamamazlıq
*Çıxarılıb*: ƏGO enurez (R32)

## F98.1 Qeyri-üzvi mənşəli enkoprez

İctimai-mədəni mühütdə normal konsitensiyalı iradi və ya qeyri-iradi nəcis ifrazıdır. Bu əvvəl bağırsaq fəaliyyəti üzərində mövcud olan vərdişlərin itirilməsi ilə bağlı və ya düşünülmüş şəkildə ola bilər. Monosimptomatik və ya emosional (F93) və ya davranış pozğunluğunun (F91) tərkib hissəsi kimi rast gəlinə bilər.

Funksional enkoprez
Nəcis ifrazatının qeyri-uzvi mənşəli saxlanılmaması
Psixogen enkoprez
Enkoprezlə birgə rast gəlinən qəbizliyi müəyyənləşdirmək lazım gəldikdə əlavə koddan istifadə edilir.
*Çıxarılıb:* ƏGO enkoprez (R15)

## F98.2 Körpə və uşaq yaşında qida qəbulu pozğunluğu

Müxtəlif əlamətləri körpə və uşaq yaşı üçün xarakterik olan qida qəbulu pozğunluğudur. Heç bir uzvi xəstəlik olmadan uşağın artıq dərəcədə ərköyünlük etməsi və qida qəbulundan imtina etməsidir. Bu pozğunluğa "saqqız çeynənməsi" halı (ürəkbulanma və mədə-bağırsaq xəstəliyi olmadan qidanın təkrar-təkrar gəyirilməsi) qoşula bilər.

Körpələrdə qusma pozğunluğu
*Çıxarılıb*: sinir anoreksiyası və digər qida qəbulu pozğunluqları (F50.–)
qidalandırma çətinliyi (R63.3)
yenidoğulmuş problemləri (P92.–)
körpə və uşaqların yeyilməyən şeyləri yeməsi (F98.3)

## F98.3 Uşaqların və körpələrni yeyilməyən şeyləri yeməsi

Qeyri qida məhsullarının (torpaq, boya və s.) yeyilməsinə qarşı davamlı meyl. Bu simptom dərin psixiki pozğunluğun (autizm) tərkib hissəsi ola bilər və ya nisbi müstəqil davranış pozğunluğu kimi təzahür edə bilər. Yalnız son halda bu rubrikadan istifadə etmək olar. Eybəcər iştah ən çox əqli geri qalmış uşaqlar arasında rast gəlinir. Əqli geriliklə birgə rast gəlinən hallar əsas diaqnoza uyğun olaraq F70-F79 rubrikaları ilə kodlaşdırılır.

## F98.4 Stereotip hərəki pozğunluqlar

Diaqnozu təsdiq edilmiş psixiki və nevroloji xəstəliyin tərkib hissəsi olmayan funksional əhəmiyyət daşımayan təkrarlanan, stereotip hərəkətlərdir. Əgər bu cür hərəkətlər hər hansı xəstəliyin əlaməti olarsa yalnız xəstəliyi kodlaşdırmaq tövsiyə edilir. Bunlar özünəxəsarətə səbəb olmayan, barmaqlarla tıqqıldatma, yellənmə, saçlarla müxtəlif hərəkətlər və s. ola bilər. Stereotip, özünəxəsarət şəklində hərəkətlər başla zərbə, dodaq və barmaqları dişləmə, gözə nə isə soxma və s. ibarətdir. Bu cür stereotip hərəkətlərlə müşayiət olunan pozğunluq əsasən əqli geriliklə bağlı olur. (Bu zaman hər iki hal kodlaşdırılır). Əgər gözə nə isə soxma görmə pozğunluğu ilə müşayiət olunursa uyğun olaraq bu rubrika ilə və somatik xəstəliklər kodu ilə kodlaşdırılır.

Adəti stereotiplik
*Çıxarılıb*: anomal qeyri-iradi hərəkət (R25.–)
üzvi mənşəli hərəki pozğunluq (G20-G25)
dırnaqların dişlənməsi (F98.8)
burnu qurdalamaq (F98.8)
daha dərin psixiki xəstəliyin tərkib hissəsi olan setreotiplik (F00-F95)
barmağı sorma (F98.8) tiklər (F95.–) trixotillomaniya (F63.3)

## F98.5 Kəkələmə [hıqqana-hıqqana danışmaq]

Səslərin, heçaların və ya sözlərin tez-tez təkrarlanması və ya uzanması ilə və yaxud niqtin ritmiki pozan pauzalar və ya kəkələmələrlə xarakterizə olunan nitq. Bu hal, yalnız nitqdə ciddi pozğunluq torətdikdə pozğunluq kimi təsnif olunur.

*Çıxarılıb:* tiklər (F95.–)
tələsik nitq (F98.6)

## F98.6 Tələsik nitq

Təkrarlanma və kekələmə olmadan nitqin axıcılığının pozulması ilə sürətli nitq tempi. Nitq nizamsız, qeyri-ritmik, sürətli olub düzgün olmayan ifadə və sözlərdən ibarətdir.

*Çıxarılıb:* kəkələmə (F98.5)
tiklər (F95.–)

### F98.8 Başlanğıcı uşaq və yeniyetmə yaşında təsadüf edən digər dəqiqləşdirilmiş emosional pozğunluqlar və davranış pozğunluqları

Hineraktivlik olmadan diqqət çatmamazlığı
Hədsiz masturbasiya Dırnaqları dişləmə Burnu qurdalama Barmaq sorma

### F98.9 Başlanğıcı uşaq və yeniyetmə yaşına təsadüf edən dəqiqləşdirilməmiş emosional pozğunluq və davranış pozğunluğu

## F99 Dəqiqləşdirilməmiş psixiki pozğunluq

ƏGO psixiki xəstəlik
***Çıxarılıb:*** ƏGO üzvi psixiki pozğunluq (F06.9)

# VI SİNİF

## Sinir sistemi xəstəlikləri (G00-G99)

*Çıxarılıb:* perinatal dövrdə meydana çıxan xüsusi hallar (P00–P96)
bəzi infeksion və parazitar xəstəliklər (A00–B99)
hamiləliyin, doğuşların və zahılıq dövrünün ağırlaşmaları (O00–O99)
anadangəlmə anomaliyalar, deformasiyalar və xromosom pozğunluqları (Q00–Q99)
endokrin sisteminin xəstəlikləri, qidalanma və maddələr mübadiləsi pozğunluqları (E00–E90)
travmalar, zədələnmələr və xarici səbəblərin təsirinin bəzi digər nəticələri (S00–T98)
yenitörəmələr (C00–D48)
digər rubrikalarda təsnif olunmayan klinik və laborator müayinələrlə aşkar edilən simptomlar, əlamətlər və normadan kənaraçıxmalar (R00–R99)

**Bu sinif aşağıdakı rubrikalardan ibarətdir:**
G00–G09 Mərkəzi sinir sisteminin iltihabi xəstəlikləri
G10–G14 Əsasən mərkəzi sinir sistemini zədələyən sistemli atrofiyalar
G20–G26 Ekstrapiramid və digər hərəki pozğunluqlar
G30–G32 Sinir sisteminin digər degenerativ xəstəlikləri
G35–G37 Mərkəzi sinir sisteminin demielinsizləşmə xəstəlikləri
G40–G47 Epizodik və paroksizmal pozğunluqlar
G50–G59 Ayrı-ayrı sinirlərin, sinir köklərinin və kələflərinin zədələnmələri
G60–G64 Polinevropatiyalar və periferik sinir sisteminin digər zədələnmələri
G70–G73 Əzələlərin və sinir-əzələ sinapsının xəstəlikləri
G80–G83 Serebral iflic və digər paralitik sindromlar
G90–G99 Sinir sisteminin digər pozğunluqları

**Ulduzla aşağıdakı kateqoriyalar işarələnmişdir:**
G01* Digər rubrikalarda təsnif olunan bakterial xəstəliklərdə meningit
G02* Digər rubrikalarda təsnif olunan başqa infeksion və parazitar xəstəliklərdə meningit
G05* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə ensefalit, mielit və ensefalomielit
G07* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə kəllədaxili və onurğadaxili abses və qranuloma
G13* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə, əsasən mərkəzi sinir sistemini zədələyən sistemli atrofiyalar
G22* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə parkinsonizm
G26* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə ekstrapiramid və hərəki pozğunluqlar
G32* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə sinir sisteminin başqa degenerativ pozğunluqları
G46* Serebrovaskulyar xəstəliklərdə vaskulyar beyin sindromları
G53* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə kəllə sinirlərinin zədələnmələri
G55* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə sinir kələflərinin və kötüklərinin sıxılması
G59* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə mononevropatiya
G63* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə polinevropatiya
G73* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə əzələlərin və sinir-əzələ sinapsının zədələnməsi
G94* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə beyinin zədələnməsi
G99* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə sinir sisteminin başqa zədələnmələri

# Mərkəzi sinir sisteminin iltihabi xəstəlikləri (G00-G09)

## **G00** Digər rubrikalarda təsnif olunmayan bakterial meningit

***Daxil edilib:*** bakterial:
- araxnoidit
- leptomeningit
- meningit
- paximeningit

***Çıxarılıb:*** bakterial:
- meninqoensefalit (G04.2)
- meninqomielit (G04.2)

### **G00.0 Hemofil meningit**

*Haemophilus influenzae* tərəfindən törədilən meningit

### **G00.1 Pnevmokokk meningiti**
### **G00.2 Streptokokk meningiti**
### **G00.3 Stafilokokk meningiti**
### **G00.8 Digər bakteriyalar tərəfindən törədilən meningit**

Fridlender çöpləri, *Esherichia coli*, *Klebsiella* } tərəfindən törədilən meningit

### **G00.9 Dəqiqləşdirilməmiş bakterial meningit**

ƏGO irinli, ƏGO piogen, ƏGO irin törədən } meningit

## **G01*** Digər rubrikalarda təsnif olunan bakterial xəstəliklərdə meningit

qarayara (A22.8†)
qonokokk (A54.8†)
leptospiroz (A27.–†)
listerioz (A32.1†)
Laym xəstəliyində (A69.2†)
meninqokokk mənşəli (A39.0†)
neyrosifilis (A52.1†)
salmonellyoz (A02.2†)
sifilis:
- anadangəlmə (A50.4†)
- ikincili (A51.4†)

vərəm (A17.0†)
} meningiti

tifoid qızdırmada (A01.0†)

***Çıxarılıb:*** digər rubrikalarda təsnif olunan bakterial xəstəliklərdə meninqoensefalit və meninqomielit (G05.0*)

## **G02*** Digər rubrikalarda təsnif olunan infeksion və parazitar xəstəliklərdə meninqoensefalit və meninqomielit **(G05.1–G05.2*)**

***Çıxarılıb:*** digər rubrikalarda təsnif olunan infeksion və parazitar xəstəliklərdə meninqoensefalit və meninqomielit (G05.1–G05.2*)

**G02.0*** **Digər rubrikalarda təsnif olunan virus xəstəliklərində meningit**

adenovirus (A87.1†)
enterovirus (A87.0†)
sadə herpes virusu (B00.3†)
infeksion mononukleoz (B27.–†)
qızılca virusu (B05.1†) epidemik
parotit (B26.1†) məxmərək
(B06.0†)
su çiçəyi (B01.0†)
kəmərləyici dəmrov (B02.1†)
} tərəfindən törədilən meningit

**G02.1*** **Mikozlarda meningit**

kandidoz (B37.5†)
koksidomikoz (B38.4†)
kriptokokkoz (B45.1†)
} meningiti

**G02.8*** **Digər** rubrikalarda **təsnif olunan başqa dəqiqləşdirilmiş infeksion və parazitar xəstəliklərdə meningit**

afrika tripanosomozu (B56.–†)
Şaqas xəstəliyi (B57.4†)
} tərəfindən törədilmiş meningit

**G03** Digər dəqiqləşdirilməmiş səbəblərlə bağlı meningit

***Daxil edilib:*** başqa və dəqiqləşdirilməmiş səbəblərdən yaranan:

- araxnoidit
- leptomeningit
- meningit
- paximeningit

***Çıxarılıb:*** meninqoensefalit(G04.–)
meninqomielit (G04.–)

**G03.0** **Qeyri-piogen meningit**

Qeyri-bakterial meningit

**G03.1** **Xroniki meningit**

**G03.2** **Xoşxassəli residivləşən meningit [Mollare]**

**G03.8** **Digər dəqiqləşdirilmiş törədicilər tərəfindən törədilən meningit**

**G03.9** **Dəqiqləşdirilməmiş meningit**

ƏGO araxnoidit (spinal)

**G04** Ensefalit, mielit və ensefalomielit

***Daxil edilib:*** kəskin qalxan mielit meninqoensefalit meninqomielit

***Çıxarılıb:*** xoşxassəli mialgik ensefalit (G93.3)
ensefalopatiya:

- ƏGO (G93.4)
- alkoqol mənşəli (G31.2)
- toksiki (G92) dağınıq skleroz (G35) mielit:
- kəskin köndələn (G37.3)
- yarımkəskin nekrozlaşan (G37.4)

**G04.0** **Kəskin disseminə olunmuş ensefalit**

İmmunizasiyadan sonrakı:

- ensefalit
- ensefalomielit

Peyvəndi müəyyənləşdirmək lazım gəldikdə xarici səbəblərin əlavə kodundan (XX sinif) istifadə edilir.

**G04.1** **Tropik spastik paraplegiya**

**G04.2** **Digər** rubrikalarda **təsnif olunmayan bakterial meninqoensefalit və meninqomielit**

### G04.8 Digər ensefalit, mielit və ensefalomielit
ƏGO postinfeksion ensefalit və ensefalomielit

### G04.9 Dəqiqləşdirilməmiş ensefalit, mielit və ya ensefalomielit
ƏGO ventrikulit (serebral)

## G05* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə ensefalit, mielit və ensefalomielit
*Daxil edilib:* digər rubrikalarda təsnif olunan xəstəliklərdə meninqoensefalit və meninqomielit

### G05.0* Digər rubrikalarda təsnif olunan bakterial xəstəliklərdə ensefalit, mielit və ensefalomielit
- listeriozda (A32.1†)
- meninqokokk mənşəli (A39.8†)
- anadangəlmə sifilisdə (A50.4†)
- gecikmiş sifilisdə (A52.1†)
- vərəm mənşəli (A17.8†)

} ensefalit, mielit və ensefalomielit

### G05.1* Digər rubrikalarda təsnif olunan virus xəstəliklərində ensefalit, mielit və ensefalomielit
- adenovirus (A85.1†)
- sitomeqalovirus (B25.8†)
- enterovirus (A85.0†)
- sadə herpes (B00.4†)
- qrip (J09†, J10.8†, J11.8†)
- qızılca (B05.0†)
- epidemik parotit (B26.2†)
- su çiçəyindən sonra (B01.1†)
- məxmərək (B06.0†)
- kəmərləyici dəmrov (B02.0†)

} zamanı ensefalit, mielit və ensefalomielit

### G05.2* Digər rubrikalarda təsnif olunan başqa infeksion və parazitar xəstəliklərdə ensefalit, mielit və ensefalomielit
- Afrika tripanosamozunda (B56.–†)
- Şaqas xəstəliyində (xroniki forma) (B57.4†)
- Sərbəst yaşayan amöblər (naegleria) tərəfindən törədilən (B60.2†)
- toksoplazmozda (B58.2†)

} zamanı ensefalit, mielit və ensefalomielit

Eozinofil meninqoensefalit (B83.2†)

### G05.8* Digər rubrikalarda təsnif olunan başqa xəstəliklərdə ensefalit, mielit və ensefalomielit
Qırmızı qurd eşənəyində ensefalit (M32.1†)

## G06 Kəllədaxili və onurğadaxili abses və qranuloma
İnfeksion agenti müəyyənləşdirmək lazım gələrsə, əlavə koddan (B95–B97) istifadə edilir.

### G06.0 Kəllədaxili abses və qranuloma
- baş beynin [istənilən hissənin]
- beyinciyin
  serebral
- otogen

} abses (-i) (embolik)

Kəllədaxili abses və qranuloma:
- epidural
- ekstradural
- subdural

**G06.1 Onurğadaxili abses və qranuloma** Onurğa beyninin (istənilən hissənin) (embolik) absesi Onurğadaxili abses və qranuloma:
- epidural
- ekstradural
- subdural

**G06.2 Dəqiqləşdirilməmiş ekstradural və subdural abses**

## G07* Digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə kəllədaxili və onurğadaxili abses və qranuloma

***Daxil edilib:*** Baş beynin absesi:
- amöb mənşəli(A06.6†)
- qonokokk mənşəli (A54.8†)
- vərəm mənşəli (A17.8†)

Şistosomozda baş beynin qranuloması (B65.–†)
Tuberkuloma:
•Baş beynin (A17.8†)
•Beyin qişalarının (A17.1†)

## G08 Kəllədaxili və onurğadaxili flebit və tromboflebit

***Daxil edilib:*** Kəllədaxili və ya onurğadaxili venoz sinusların və venaların septik:
- emboliyası
- endoflebiti
- flebiti
- tromboflebiti
- trombozu

***Çıxarılıb:*** kəllə daxili flebit və tromboflebitlər:
- abortu, uşaqlıqdan kənar və ya molyar hamiləliyi (O00–O07, O08.7)
- hamiləliyi, doğuşları və ya zahılıq dövrünü (O22.5, O87.3)
- qeyri-irin mənşəli flebitlər və tromboflebitlər (I67.6)

} ağırlaşdıran

irinsiz onurğadaxili flebitlər və tromboflebitlər (G95.1)

## G09 Mərkəzi sinir sisteminin iltihabi xəstəliklərinin nəticələri

***Qeyd:*** G09 rubrikasından nəticələrin səbəbi kimi özləri digər rubrikalara aid edilən, birincili olaraq G00–G08 rubrikalarında təsnif olunan (* işarələnənlər istisna olmaqla) halların kodlaşdırılması üçün istifadə etmək tövsiyə olunur. "Nəticələr" anlayışı onlara səbəb olan halların ya indi, ya bir il ərzində və ya bir ildən artıq davam etməsi dəqiqləşdirilən vəziyyətləri əhatə edir. Bu rubrikadan istifadə edərkən II cilddə verilən xəstələnmə və ölümün kodlaşdırılmasının müvafiq qayda və tövsiyələrinə əsaslanmaq lazımdır. Mərkəzi sinir sisteminin xroniki iltihabı xəstəlikləri üçün istifadə edilmir. Bu koddan mərkəzi sinir sisteminin kəskin iltihabı xəstəlikləri üçün istifadə olunur.

# Əsasən mərkəzi sinir sistemini zədələyən sistemli atrofiyalar (G10-G14)

## G10 Hentinqton xəstəliyi

Hentinqton xoreyası

## G11 İrsi ataksiya

***Çıxarılıb:*** irsi və idiopatik nevropatiya (G60.–)
serebral iflic (G80.–)
maddələr mübadiləsinin pozğunluğu (E70–E90)

**G11.0 Anadangəlmə proqressivləşməyən ataksiya**

**G11.1 Erkən beyincik ataksiyası**

***Qeyd:*** Adətən, 20 yaşdan kiçik şəxslərdə başlanır.
Erkən beyincik ataksiyası:
- essensial tremorla
- mioklonusla [Xant ataksiyası]
- vətər reflekslərinin ləngiməsi ilə

Fridreyx ataksiyası (autosom-resessiv)
X-xromosomu ilə əlaqəli ressesiv spino-serebral ataksiya

**G11.2 Gecikmiş beyincik ataksiyası**

***Qeyd:*** Adətən, 20 yaşdan yuxarı şəxslərdə başlanır

**G11.3 DNT-nin reparasiya pozğunluğu ilə gedən beyincik ataksiyası**

Teleangiektatik ataksiya [Lui-Bar sindromu]
***Çıxarılıb:*** Kokkeyn sindromu (Q87.1)
piqmentli kserodermiya (Q82.1)

**G11.4 İrsi spastik paraplegiya**

**G11.8 Digər irsi ataksiya**

**G11.9 Dəqiqləşdirilməmiş irsi ataksiya**

İrsi beyincik:
- ƏGO ataksiyası
- degenerasiyası
- xəstəliyi
- sindromu

## G12 Spinal əzələ atrofiyası və oxşar sindromlar

**G12.0 I tip uşaq spinal əzələ atrofiyası [Verdniq-Hoffman]**

**G12.1 Digər irsi spinal əzələ atrofiyaları** Uşaqlarda proqressivləşən bulbar iflic [Fasio-Londe] Spinal əzələ atrofiyası:
- yaşlı forması
- uşaq forması, II tip
- distal
- gənclik forması, III tip [Kuqelberq-Velander]
- kürək-peroneal forması

**G12.2 Hərəki neyronun xəstəliyi**

Hərəki neyronun ailəvi xəstəliyi
Yan skleroz:
- amiotrofik
- birincili

Proqressivləşən:
- bulbar iflic
- spinal əzələ atrofiyası

**G12.8 Digər spinal əzələ atrofiyaları və oxşar sindromlar**

**G12.9 Dəqiqləşdirilməmiş spinal əzələ atrofiyası**

## G13* Digər rubrikalarda təsnif olunan xəstəliklərdə, əsasən mərkəzi sinir sistemini zədələyən sistemli atrofiyalar

**G13.0* Paraneoplastik nevromiopatiya və nevropatiya**

Karsinomatoz neyromiopatiya (C00–C97†)
Şiş prosesində hissiyyat orqanlarının nevropatiyası [Denin-Braun] (C00–D48†)

**G13.1*** **Şiş xəstəliklərində əsasən mərkəzi sinir sitemınə təsir edən digər sistemli atrofiyalar**
Paraneoplastik limbik ensefalopatiya (C00–D48)

**G13.2*** **Miksedemada əsasən mərkəzi sinir sisteminə təsir edən sistemli atrofiyalar (E00.1†, E03.–†)**

### I79.8* Digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı, arteriyalar, arteriolalar və kapilyarların başqa zədələnmələri

# Venalar, limfa damarları və limfa düyünlərinin digər rubrikalarda təsnif olunmayan xəstəlikləri (I80-I89)

## I80 Flebit və tromboflebit

***Daxil edilib:*** endoflebit venaların iltihabı periflebit
irinli flebit

Medikamentoz mənşəli olduqda, dərman maddəsinin adını göstərmək zərurəti yaranarsa, xarici səbəblərin kodundan (XX sinif) istifadə edilir.

***Çıxarılıb:*** flebit (-i) və tromboflebit (-i):

- abortu, uşaqlıqdankənar və ya molyar hamiləliyi ağırlaşdıran (O00-O07, O08.7)
- hamiləliyi, doğuşu və zahılıq dövrünü ağırlaşdıran (O22.–, O87.–)
- kəllədaxili və onurğa beyninin, septiki və ya ƏGO (G08)
- kəllədaxili qeyri-piogen (I67.6)
- onurğa beyninin qeyri-piogen (G95.1)
- qapı venasının (K75.1) postflebitik sindrom (I87.0) miqrasiyaedici tromboflebit (I82.1)

**I80.0 Aşağı ətrafların səthi damarlarının flebit və tromboflebiti**

**I80.1 Bud venasının flebit və tromboflebiti**

**I80.2 Aşağı ətrafların digər dərin damarlarının flebit və tromboflebiti**

Dərin venaların ƏGO trombozu

**I80.3 Aşağı ətrafların dəqiqləşdirilməmiş flebit və tromboflebiti**

Aşağı ətrafların ƏGO emboliya və ya trombozu

**I80.8 Digər lokalizasiyalı flebit və tromboflebit**

**I80.9 Diqiqləşdirilməmiş loklizasiyalı flebit və tromboflebiti**

## I81 Qapı venasının trombozu

***Daxil edilib:*** Portal (venanın) obstruksiya

***Çıxarılıb:*** portal venanın flebiti (K75.1)

## I82 Digər venaların emboliya və trombozu

***Çıxarılıb:*** göstərilən venaların emboliya və trombozu:

- beyin (I63.6, I67.6)
- koronar (I21-I25)
- kəllədaxili və onurğa beyin, septik və ya ƏGO (G08)
- kəllədaxili, qeyri-piogen (I67.6)
- onurğa beyin, qeyri-piogen (G95.1)
- aşağı ətrafların (I80.–)
- müsariqə (K55.0)
- qapı (I81)
- ağciyər (I26.–)
- abortu, uşaqlıqdankənar və ya molyar hamiləliyi ağırlaşdıran (O00-O07, O08.8)
- hamiləliyi, doğuşu və zahılıq dövrünü ağırlaşdıran (O22.–, O87.–)

**I82.0 Badda-Kiari sindromu**

**I82.1 Miqrasiyaedən tromboflebit**

**I82.2 Boş venanın emboliya və trombozu**

**I82.3 Böyrək venasının emboliya və trombozu**

**I82.8 Digər dəqiqləşdirilmiş venaların emboliya və trombozu**

**I82.9 Dəqiqləşdirilməmiş venanın emboliya və trombozu**

ƏGO venanın emboliyası ƏGO (venanın) tromboz

## I83 Aşağı ətraf venalarının vakrikoz genəlməsi

*Çıxarılıb:* hamiləliyi ağırlaşdıran (O22.0)
zahılıq dövrünü ağırlaşdıran (O87.8)

### I83.0 Aşağı ətraf venalarının xora ilə birgə müşahidə olunan varikoz genəlməsi

Xora ilə birgə təsadüf olunan və ya xoralı olduğu müəyyən edilən, I83.9 rubrikasında təsnif olunan istənilən hal
Varikoz xora (aşağı ətrafların istənilən hissəsinin)

### I83.1 Aşağı ətraf venalarının iltihabı proseslə birgə müşahidə olunan varikoz genəlməsi

İltihabı proseslə birgə rast gəlinən və ya iltihablaşmış kimi müəyyən edilən, I83.9 rubrikasında təsnif edilən istənilən hal
Durğunluq dermatiti, ƏGO

### I83.2 Aşağı ətraf venalarının xora və iltihabı proseslə birgə müşahidə olunan varikoz genəlməsi

Xora və iltihabı proseslə birgə göstərilən, I83.9 rubrikasında təsnif edilən istənilən hal

### I83.9 Aşağı ətraf venalarının xora və ya iltihabı proses müşahidə olunmadan varikoz genəlməsi

Aşağı ətrafların [istənilən nahiyəsinin] və ya dəqiqləşdirilməmiş lokalizasiyalı:
- flebektaziya [-sı]
- varikoz venaları
- venaların varikoz genəlməsi

## I84 Babasil

*Daxil edilib:* Babasil düyünləri
Anusun və ya düz bağırsaq venalarının varikoz genəlməsi
*Çıxarılıb:* -doğuş və ya zahılıq dövrünü ağırlaşdıran (O87.2)
-hamiləliyi ağırlaşdıran(O22.4)

### I84.0 Daxili tromblaşan babasil

### I84.1 Digər ağırlaşmalarla müşayiət olunan daxili babasil

Daxili babasil:
- qanayan
- düyünlərin sallanması
- sıxılan
- xoralı

### I84.2 Ağırlaşmasız müşayiət olunan daxili babasil

ƏGO daxili babasil

### I84.3 Xarici tromblaşan babasil

Perianal (qeyri-travmatik) hematoma
Perianal tromboz

### I84.4 Digər ağırlaşmalarla müşayiət olunan xarici babasil

Xarici babasil:
- qanayan
- düyünlərin sallanması
- sıxılan
- xoralı

### I84.5 Ağırlaşmasız müşayiət olunan xarici babasil

ƏGO xarici babasil

### I84.6 Dəridə qalıq hemorroidal izlər

Anus və ya düz bağırsaq nahiyəsində dəri izləri

### I84.7 Dəqiqləşdirilməmiş tromblaşan babasil

Daxili və ya xarici olduğu dəqiqləşdirilməmiş tromblaşan babasil

I84.8 Digər ağırlaşmalarla müşayiət olunan dəqiqləşdirilməmiş babasil

Daxili və ya xarici olduğu dəqiqləşdirilməmiş babasil:
- qanayan
- düyünlərin sallanması
- sıxılan
- xoralı

I84.9 Ağırlaşmasız müşayiət olunan dəqiqləşdirilməmiş babasil

ƏGO babasil

## I85 Qida borusu venalarının varikoz genəlməsi

**I85.0 Qida borusunun qanaxma ilə müşayiət olunan varikoz genəlməsi**

**I85.9 Qida borusu venalarının qanaxma müşahidə olunmadan varikoz genəlməsi**

Qida borusu venalarının ƏGO varikoz genəlməsi

## I86 Digər lokalizasiyalı venaların varikoz genəlməsi

***Çıxarılıb:*** tor qişa venalarının varikoz genəlməsi (H35.0)
venaların dəqiqləşdirilməmiş lokalizasiyalı varikoz genəlməsi (I83.9)

**I86.0 Dilaltı venaların varikoz genəlməsi**

**I86.1 Xayalıq venalarının varikoz genəlməsi**

Varikosele (toxum ciyəsi venalarının genəlməsi)

**I86.2 Çanaq venalarının varikoz genəlməsi**

**I86.3 Vulva venalarının varikoz genəlməsi**

***Çıxarılıb:*** doğuşu və zahılıq dövrünü ağırlaşdıran (O87.8)
hamiləliyi ağırlaşdıran (O22.1)

**I86.4 Mədə venalarının varikoz genəlməsi**

**I86.8 Digər dəqiqləşdirilmiş lokalizasiyalı venaların varikoz genəlməsi**

Burun çəpərinin varikoz xorası

## I87 Venaların digər zədələnmələri

**I87.0 Posttrombotik sindrom**

Postflebitik sindrom

**I87.1 Venaların sıxılması**

Venaların daralması
Boş vena sindromu (yuxarı) (aşağı)
***Çıxarılıb:*** ağciyərin (I28.8)

**I87.2 (Xroniki) (periferik) venoz çatmamazlıq**

**I87.8 Venaların digər dəqiqləşdirilmiş zədələnmələri**

**I87.9 Venanın dəqiqləşdirilməmiş zədələnməsi**

## I88 Qeyri-spesifik limfadenit

***Çıxarılıb:*** kəskin limfadenit, müsariqə limfadeniti istisna olmaqla (L04.–)
limfa düyünlərinin ƏGO böyüməsi (R59.–)
generalizə olunmuş limfadenopatiya şəklində təzahür olunan, insanın immun çatışmazlıq virusu (İİÇV) tərəfindən törədilən xəstəlik (B23.1)

**I88.0 Qeyri-spesifik müsariqə limfadeniti**

Müsariqə limfadeniti (Kəskin) (xroniki)

### I88.1 Xroniki, müsariqə istisna olmaqla, limfadenit

Müsariqə istisna olmaqla, istənilən limfa düyününün xroniki:
- adeniti
- limfadeniti

### I88.8 Digər qeyri-spesifik limfadenitlər

### I88.9 Dəqiqləşdirilməmiş qeyri-spesifik limfadenit

ƏGO limfadenit

## I89 Limfa damarları və limfa düyünlərinin digər qeyri-infeksion xəstəlikləri

***Çıxarılıb:*** xilosele:
- filorioz mənşəli (B74.–)
- uşaqlıq yolu qişasının ƏGO (qeyri-filarioz) (N50.8) limfa düyünlərinin ƏGO böyüməsi (R59.–)

anadangəlmə limfa ödemi (Q82.0)
mastektomiyadan sonrakı limfa ödemi (I97.2)

### I89.0 Digər rubrikalarda təsnif olunmayan limfa ödemi

Limfangiektaziya

### I89.1 Limfangit

Limfangit:
- ƏGO
- xroniki
- yarımkəskin

***Çıxarılıb:*** kəskin limfangit (L03.–)

### I89.8 Limfa damarları və limfa düyünlərinin digər dəqiqləşdirilmiş qeyri-infeksion xəstəlikləri

Xilosele (qeyri-filarioz)
Lipomelanotik retikulyoz

### I89.9 Limfa damarları və limfa düyünlərinin dəqiqləşdirilməmiş qeyri-infeksion xəstəliyi

Limfa damarlarının ƏGO xəstəliyi

# Qan dövranı sisteminin digər və dəqiqləşdirilməmiş xəstəlikləri (I95-I99)

## I95 Hipotenziya

***Çıxarılıb:*** ürək-damar kollapsı (R57.9)
Anada hipotenziv sindrom (O26.5)
aşağı qan təzyiqinin ƏGO qeyri-spesifik göstəricisi (R03.1)

### I95.0 İdiopatik hipotenziya

### I95.1 Ortostatik hipotenziya

Vəziyyətinin dəyişilməsi ilə əlaqədar olan hipotenziya
***Çıxarılıb:*** neyrogen ortostatik hipotenziya [Şay-Dreycer] (G90.3)

### I95.2 Dərman maddələri təsirindən əmələ gələn hipotenziya

Dərman maddəsinin adını göstərmək zərurəti yaranarsa, xarici səbəblər kodundan (XX sinif) istifadə edilir.

### I95.8 Hipotenziyanın digər növləri

Xroniki hipotenziya

### I95.9 Dəqiqləşdirilməmiş hipotenziya

**I97** Digər rubrikalarda təsnif olunmayan tibbi proseduralardan sonra yaranmış qan dövranı sisteminin pozğunluqları

*Çıxarılıb:* əməliyyatdan sonrakı şok (T81.1)

**I97.0 Postkardiotomik sindrom**

**I97.1 Ürək üzərində aparılan cərrahi əməliyyatlardan sonra baş verən digər funksional pozğunluqlar**

Ürək üzərində aparılan cərrahi əməliyyatdan sonra və ya ürək protezinin olması ilə əlaqədar:
- ürək çatmamazlığı
- ürək əzələsinin zəifliyi

**I97.2 Postmastektomik limfatik ödem sindromu**

Mastektomiya nəticəsində əmələ gələn:
- elefantiaz(fil xəstəliyi)
- limfa damarlarının obliterasiyası

**I97.8** Digər rubrikalarda təsnif olunmayan **tibbi proseduralardan sonra yaranan qan dövranı sisteminin başqa pozğunluqları**

**I97.9 Tibbi proseduralardan sonra qan dövranı sistemində yaranan dəqiqləşdirilməmiş pozğunluqlar**

**I98*** Qan dövranı sisteminin digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı başqa pozğunluqları

*Çıxarılıb:* xüsusi olaraq ulduzla nişanlanan, bu sinfin başqa üçrəqəmli rubrikalarında təsnif olunan pozğunluqlar

**I98.0* Ürək-damar sisteminin sifilisi**

Ürək-damar sisteminin:
- ƏGO (A52.0†) } sifilisi
- anadangəlmə, gecikmiş (A50.5†) } sifilisi

**I98.1*** Digər rubrikalarda təsnif olunan **başqa infeksion və parazitar xəstəliklər zamanı ürək-damar sisteminin zədələnməsi**
- Şaqasa xəstəliyi zamanı (xroniki) rast gəlinən, başqa rubrikalarda kodlaşdırılmayan, ürək-damar pozğunluqları (B57.2†)
- pinte [karate] zamanı ürək-damar sisteminin zədələnmələri (A67.2†)

**I98.2* Qida borusu venalarının** digər rubrikalarda təsnif olunan **xəstəliklər zamanı qanaxma olmadan varikoz genəlməsi**

Qida borusu venalarının:
- qaraciyər xəstəlikləri zamanı (K70-K71†, K74.–†) } varikoz genəlməsi
- şistosomoz zamanı (B65.–†) } varikoz genəlməsi

**I98.3* Qida borusu venalarının** digər rubrikalarda təsnif olunan **xəstəliklər zamanı qanaxma ilə müşayiət edilən varikoz genəlməsi**

Qida borusu venalarının:
- qaraciyər xəstəlikləri zamanı (K70-K71†, K74.–†) } varikoz genəlməs
- şistosomoz zamanı (B65.–†) } varikoz genəlməs

**I98.8* Qan dövranı sisteminin** digər rubrikalarda təsnif olunan **xəstəliklər zamanı başqa dəqiqləşdirilmiş pozğunluqları**

**I99** Qan dövranı sisteminin digər və dəqiqləşdirilməmiş pozğunluqları

# X SİNİF

# Tənəffüs orqanlarının xəstəlikləri (J00-J99)

***Qeyd:*** əgər tənəffüs orqanlarının zədələnməsi zamanı bir deyil, bir neçə anatomik nahiyə prosesə cəlb olunubsa və bu patologiya üçün xüsusi rubrika ayrılmayıbsa, onda bu xəstəliyi anatomik cəhətcə aşağı lokalizasiyaya müvafiq olan rubrika ilə kodlaşdırmaq lazımdır (məsələn, traxeobronxit J40 rubrikasında bronxit kimi kodlaşdırılır).

***Çıxarılıb:*** perinatal dövrdə əmələ gələn ayrı-ayrı vəziyyətlər (P00-P96)
bir sıra infeksion və parazitar xəstəliklər (A00-B99)
hamiləliyin, doğuşun və zahılıq dövrünün ağırlaşmaları (O00-O99)
anadangəlmə anomaliyalar, deformasiyalar və xromosom pozğunluqları (Q00-Q99)
endokrin sistemin xəstəlikləri, qidalanma və maddələr mübadiləsi pozğunluqları (E00-E90)
travmalar, zəhərlənmələr və xarici amillərin təsirinin digər nəticələri (S00-T98)
yenitörəmələr (C00-D48)
başqa rubrikalarda təsnif olunmayan, klinik və laborator tədqiqatlar nəticəsində aşkar edilən simptomlar, nişanələr və normadan kənaraçıxmalar (R00-R99)

**Bu sinif özündə aşağıdakı rubrikaları cəmləşdirir:**

| | |
|---|---|
| J00-J06 | Yuxarı tənəffüs yollarının kəskin respirator infeksiyaları |
| J09-J18 | Qrip və pnevmoniya |
| J20-J22 | Aşağı tənəffüs yollarının digər kəskin respirator infeksiyaları |
| J30-J39 | Yuxarı tənəffüs yollarının digər xəstəlikləri |
| J40-J47 | Aşağı tənəffüs yollarının xroniki xəstəlikləri |
| J60-J70 | Xarici amillərin təsirindən yaranan ağciyər xəstəlikləri |
| J80-J84 | Əsasən interstisial toxumanın zədələnməsi ilə müşahidə olunan digər respirator xəstəliklər |
| J85-J86 | Aşağı tənəffüs yollarının irinli və nekrotik vəziyyətləri |
| J90-J94 | Plevranın digər xəstəlikləri |
| J95-J99 | Tənəffüs orqanlarının digər xəstəlikləri |

**Aşağıda göstərilən kodlar xüsusi ulduzla nişanlanmışdır:**

| | |
|---|---|
| J17* | Digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı müşahidə olunan pnevmoniyalar |
| J91* | Digər rubrikalarda təsnif olunan hallar zamanı müşahidə olunan plevral eksudat |
| J99* | Digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı müşahidə olunan respirator pozğunluqlar |

## Yuxarı tənəffüs yollarının kəskin respirator infeksiyaları (J00-J06)

***Çıxarılıb:*** ağciyərlərin ƏGO kəskinləşmə ilə müşayiət olunan xroniki obstruktiv xəstəliyi (J44.1)

### J00 Kəskin nazofaringit (zökəm)

***Daxil edilib:***Rinit (kəskin)
Kəskin kataral rinit Nazofaringit:
- ƏGO
- ƏGO infeksion

Rinit:
- kəskin
- infeksion

***Çıxarılıb:*** xroniki nazofaringit (J31.1)
faringit:
- ƏGO (J02.9)
- kəskin (J02.-)
- xroniki (J31.2)

rinit:
- ƏGO (J31.0)
- allergik (J30.1-J30.4)
- xroniki (J31.0)
- vazomotor (J30.0)

angina:
- ƏGO (J02.9)
- kəskin (J02.-)
- xroniki (J31.2)

## J01 Kəskin sinusit

***Daxil edilib:*** (burnun) (əlavə) cibinin kəskin:
- absesi
- empieması
- infeksiyası
- iltihabı
- irinləməsi

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir.
***Çıxarılıb:*** xroniki və ya ƏGO sinusit (J32.–)

### J01.0 Kəskin yuxarı çənə sinusiti

Kəskin antrit

### J01.1 Kəskin frontal sinusit

### J01.2 Kəskin etmoidal sinusit

### J01.3 Kəskin sfenoidal sinusit

### J01.4 Kəskin pansinusit

### J01.8 Digər kəskin sinusit

Pansinusit istisna olmaqla, bir deyil, bir neçə cibin prosesə cəlb olunması ilə müşayiət edilən kəskin sinusitlər

### J01.9 Dəqiqləşdirilməmiş kəskin sinusit

## J02 Kəskin faringit

***Daxil edilib:*** Kəskin angina
***Çıxarılıb:*** abses:
- peritonzillyar (J36)
- retrofaringeal (J39.0)
- faringeal (J39.1)

kəskin laringofaringit (J06.0) xroniki faringit (J31.2)

### J02.0 Streptokokk mənşəli faringit

Streptokokk mənşəli angina
***Çıxarılıb:*** skarlatina (A38)

### J02.8 Digər dəqiqləşdirilmiş törədicilər tərəfindən törədilən kəskin faringit

İnfekison amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir
***Çıxarılıb:*** faringit:
- enterovirus mənşəli vezikulyar (B08.5)
- infeksion mononukleoz zamanı (B27.–)
- sadə herpes virusu [herpes simplex] (B00.2) } tərəfindən törədilən
- müəyyən olunan qrip virusu (J10.1) } tərəfindən törədilən
- müəyyən olunmayan qrip virusu (J11.1) } tərəfindən törədilən

### J02.9 Dəqiqləşdirilməmiş kəskin faringit

Faringit (kəskin):
- ƏGO
- qanqrenoz
- ƏGO infeksion
- irinli
- xoralı
- ƏGO angina (kəskin)

## J03 Kəskin tonzillit

***Çıxarılıb:*** peritonzillyar abses (J36) Angina:
- ƏGO (J02.9)
- kəskin (J02.-)
- streptokokk mənşəli (J02.0)

### J03.0 Streptokokk mənşəli tonzillit

### J03.8 Digər dəqiqləşdirilmiş törədicilər tərəfindən törədilən kəskin tonzillit

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir.
***Çıxarılıb:*** sadə herpes virusu [herpes simplex] tərəfindən törədilən farinqotonzillit (B00.2)

### J03.9 Dəqiqləşdirilməmiş kəskin tonzillit

Tonzillit (kəskin):
- ƏGO
- follikulyar
- qanqrenoz
- infeksion
- xoralı

## J04 Kəskin laringit və traxeit

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir.
***Çıxarılıb:*** kəskin obstruktiv laringit [inağ] və epiqlottit (J05.–)
laringizm (stridor) (J38.5)

### J04.0 Kəskin laringit

Laringit (kəskin):
- ƏGO
- ödemli
- səs aparatının alt nahiyəsinin
- irinli
- xoralı

***Çıxarılıb:*** xroniki laringit(J37.0)
qripoz laringit:
- müəyyən olunan qrip virusu (J10.1) tərəfindən törədilən
- müəyyən olunmayan qrip virusu (J11.1) tərəfindən törədilən

### J04.1 Kəskin traxeit

Traxeit (kəskin):
- ƏGO
- kataral

***Çıxarılıb:*** xroniki traxeit (J42)

### J04.2 Kəskin laringotraxeit Laringotraxeit ƏGO

Traxeit (kəskin) laringitlə (kəskin) birgə
***Çıxarılıb:*** xroniki laringotraxeit (J37.1)

## J05 Kəskin obstruktiv laringit [inağ] və epiqlottit

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə kodan (B95-B98) istifadə edilir.

**J05.0 Kəskin obstruktiv laringit [inağ]**

ƏGO obstruktiv laringit

**J05.1 Kəskin epiqlottit** ƏGO epiqlottit

## J06 Yuxarı tənəffüs yollarının çox saylı və dəqiqləşdirilməmiş lokalizasiyalı kəskin infeksiyaları

***Çıxarılıb:*** ƏGO kəskin respirator infeksiya (J22) Müəyyən olunan qrip virusu (J10.1) Müəyyən olunmayan qrip virusu (J11.1)

**J06.0 Kəskin larinqofaringit**

**J06.8 Yuxarı tənəffüs yollarının çox lokalizasiyalı digər kəskin infeksiyaları**

**J06.9 Yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin infeksiyası**

Yuxarı tənəffüs yollarının:

- kəskin xəstəliyi
- ƏGO infeksiyası

# Qrip və pnevmoniya (J09-J18)

## J09 Müəyyən edilmiş qrip virusu tərəfindən törədilən qrip

Xüsusi epidemioloji əhəmiyyət kəsb edən qrip virusunun ştammları tərəfindən törədilən, heyvandan insana və ya insandan insana yayılan qrip.

***Qeyd:*** Əlavə virus ştammları yalnız ÜST-nın tövsiyəsi ilə təsnifata daxil edilə bilər.

***Daxil edilib:*** pandemik 2009 A/H1N1 qripi [donuz qripi]
epidemik A/H5N1 qripi [quş qripi]

Pnevmoniya və ya digər əlamətləri göstərmək lazım gələrsə, əlavə koddan istifadə edilir.

***Çıxarılıb:*** *Haemophilus influenzae [H. influenzae]* törətmiş:

- ƏGO infeksiya (A49.2)
- meningit (G00.0)
- pnevmoniya (J14)

## J10 Müəyyən olunan qrip virusu tərəfindən törədilən qrip

***Çıxarılıb:*** *Haemophilus influenzae* [Afanasyev- Pfeyffer çöpü] tərəfindən törədilən:

- ƏGO infeksiya (A49.2)
- meningit (G00.0)
- pnevmoniya (J14)

**J10.0 Pnevmoniya ilə birgə müşahidə olunan qrip, digər qrip virusu müəyyən olunub**

Qripoz (bronxo) pnevmoniya, digər qrip virusu müəyyən olunub

**J10.1 Digər respirator əlamətlərlə müşayiət olunan qrip, digər qrip virusu müəyyən olunub**

Qrip

Qripoz:

- yuxarı tənəffüs yollarının kəskin respirator infeksiyası
- laringit
- faringit
- plevral eksudat

} digər qrip virusu müəyyən olunub

### J10.8 Digər əlamətlərlə müşayiət olunan qrip, digər qrip virusu müəyyən olunub

Qrip tərəfindən törədilən ensefalopatiya, digər qrip virusu müəyyən olunmuşdur.
Qripoz:
- qastroenterit
- miokardit (kəskin)

} digər qrip virusu müəyyən olunub

## J11 Qrip, virus müəyyən olunmamışdır

***Daxil edilib:*** qrip, virusun müəyyən olunması barədə məlumat verilmir.
viruslu qrip, virusun müəyyən olunması barədə məlumat verilmir.

***Çıxarılıb:*** *Haemophilus influenzae* [Afanasyev-Pfeyffer çöpü] tərəfindən törədilən:
- ƏGO infeksiya (A49.2)
- meningit (G00.0)
- pnevmoniya (J14)

### J11.0 Pnevmoniya ilə birgə müşahidə olunan qrip, virus müəyyən olunmamışdır

Dəqiqləşdirilməmiş qripoz (bronxo) pnevmoniya və ya virus müəyyən olunmamışdır.

### J11.1 Digər respirator əlamətlərlə müşayiət olunan qrip, virus müəyyən olunmamışdır

ƏGO qrip
Qripoz:
- kəskin respirator infeksiya
- laringit
- faringit
- plevral eksudat

} virus dəqiqləşdirilməmiş və ya müəyyən olunmamışdır

### J11.8 Digər əlamətlərlə müşayiət olunan qrip, virus müəyyən olunmamışdır

Qrip tərəfindən törədilən ensefalopatiya
Qripoz:
- qastroenterit
- (kəskin) miokardit

} virus dəqiqləşdirilməmiş və ya müəyyən olunmamışdır

## J12 Başqa rubrikalarda təsnif olunmayan virus mənşəli pnevmoniya

***Daxil edilib:*** qrip virusundan fərqlənən digər viruslar tərəfindən törədilən bronxopnevmoniya

***Çıxarılıb:*** anadangəlmə məxmərək pnevmoniti (P35.0)
pnevmoniya (-sı):
- aspirasion:
  - ƏGO (J69.0)
    - anesteziya zamanı:
      - doğuş zamanı və doğuşu qəbul edərkən (O74.0)
      - hamiləlik zamanı (O29.0)
      - zahılıq dövründə (O89.0)
  - yenidoğulmuşun (P24.9)
  - bərk və maye maddələrin nəfəs alarkən orqanizmə daxil olması (J69.–)
- anadangəlmə (P23.0)
- qrip zamanı (J09, J10.0, J11.0)
- ƏGO interstisial (J84.9)
- piy mübadiləsinin pozulması nəticəsində yaranan (J69.1)

ağır kəskin respirator sindrom [AKRS] (U04.9)

### J12.0 Adenovirus mənşəli pnevmoniya

### J12.1 Respirator sinsitial virus tərəfindən törədilən pnevmoniya

**J12.2 Paraqrip virusu tərəfindən törədilən pnevmoniya**
**J12.3 İnsan metapnevmovirusu tərəfindən törədilən pnevmoniya**
**J12.8 Digər virus mənşəli pnevmoniyalar**
**J12.9 Dəqiqləşdirilməmiş virus mənşəli pnevmoniya**

## J13 ***Streptococcus pneumoniae*** tərəfindən törədilən pnevmoniya

*Streptococcus pneumoniae* tərəfindən törədilən bronxopnevmoniya
***Çıxarılıb:*** *S. pneumoniae* tərəfindən törədilən anadangəlmə pnevmoniya (P23.6)
Digər streptokokklar tərəfindən törədilən pnevmoniya (J15.3–J15.4)

## J14 ***Haemophilus influenzae*** [Afanasyev-Pfeyffer çöpü] tərəfindən törədilən pnevmoniya

***Daxil edilib:*** *H. influenzae* tərəfindən törədilən bronxopnevmoniya
***Çıxarılıb:*** *H. influenzae* tərəfindən törədilən anadangəlmə pnevmoniya(P23.6)

## J15 Başqa rubrikalarda təsnif olunmayan bakterial pnevmoniya

***Daxil edilib:*** *S. pneumoniae* və *H. influenzae* bakteriyalarından fərqli olan, digər bakteriyalar tərəfindən törədilən bronxopnevmoniya
***Çıxarılıb:*** xlamidiyalar tərəfindən törədilən pnevmoniya (J16.0)
anadangəlmə pnevmoniya (P23.–)
legionerlər xəstəliyi (A48.1)

**J15.0 *Klebsiella pneumoniae* tərəfindən törədilən pnevmoniya**
**J15.1 *Pseudomonas(göy-yaşıl irin çöpü)* tərəfindən törədilən pnevmoniya**
**J15.2 Stafilokokk tərəfindən törədilən pnevmoniya**
**J15.3 B qrup streptokokk tərəfindən törədilən pnevmoniya**
**J15.4 Digər streptokokklar tərəfindən törədilən pnevmoniya**

***Çıxarılıb:*** B qrup streptokokk tərəfindən törədilən pnevmoniya (J15.3)
*Streptococcus pneumoniae* tərəfindən törədilən pnevmoniya (J13)

**J15.5 *Escherichia coli* tərəfindən törədilən pnevmoniya**
**J15.6 Digər aerob, qrammənfi bakteriyalar tərəfindən törədilən pnevmoniya**

*Serratia marcescens* tərəfindən törədilən pnevmoniya

**J15.7 *Mycorplasma pneumoniae* tərəfindən törədilən pnevmoniya**
**J15.8 Digər bakterial pnevmoniyalar**
**J15.9 Dəqiqləşdirilməmiş bakterial pnevmoniya**

## J16 Başqa rubrikalarda təsnif olunmayan digər infeksion amillər tərəfindən törədilən pnevmoniya

***Çıxarılıb:*** ornitoz (A70) pnevmosistoz (B59) pnevmoniya:
- ƏGO (J18.9)
- anadangəlmə (P23.–)

**J16.0 Xlamidiyalar tərəfindən törədilən pnevmoniya**
**J16.8 Digər dəqiqləşdirilməmiş infeksion amillər tərəfindən törədilən pnevmoniya**

## J17* Digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı müşahidə edilən pnevmoniyalar

## J17.0* Digər rubrikalarda təsnif olunan bakterial xəstəliklər zamanı müşahidə edilən pnevmoniya

Aktinomikoz (A42.0†)
Qarayara (A22.1†)
Qonoreya (süzənək) (A54.8†)
Streptotrixoz (A43.0†)
Salmonellyoz (A02.2†)
Tulyaremiya (A21.2†)
Qarın yatalığı (A01.0†)
Göy öskürək (A37.–†)
} tərəfindən törədilən pnevmoniya

## J17.1* Digər rubrikalarda təsnif olunan virus xəstəlikləri zamanı müşahidə edilən pnevmoniya

- Sitomeqalovirus (B25.0†)
- Qızılca (B05.2†)
- Məxmərək (B06.8†)
- Su çiçəyi (B01.2†)

} zamanı pnevmoniya

## J17.2* Mikozlar zamanı pnevmoniya

- Aspergillyoz (B44.0-B44.1†)
- Kandidoz (B37.1†)
- Koksidomikoz (B38.0-B38.2†)
- Histoplazmoz (B39.–†)

} zamanı pnevmoniya

## J17.3* Parazitar xəstəliklər zamanı pnevmoniya

- Askaridoz (B77.8†)
- Şistosomoz (B65-†)
- Toksoplazmoz (B58.3†)

} zamanı pnevmoniya

## J17.8* Digər rubrikalarda təsnif olunan başqa xəstəliklər zamanı müşahidə edilən pnevmoniya

Ornitoz (A70†)
Kü qızdırması (A78†)
Revmatik qızdırma (I00†)
Başqa rubrikalarda təsnif olunmayan spiroxetoz (A69.8†)
} zamanı pnevmoniya

## J18 Törədici dəqiqləşdirilməyən pnevmoniya

***Çıxarılıb:*** pnevmoniya ilə müşayiət olunan ağciyər absesi (J85.1)
ağciyərin dərman mənşəli interstisial xəstəliyi (J70.2-J70.4)
- pnevmoniya: aspirasion:
  - ƏGO (J69.0)
- anesteziya zamanı:
  - doğuş zamanı (O74.0)
  - hamiləlik zamanı (O29.0)
  - zahılıq dövründə (O89.0)
- yenidoğulmuşun (P24.9)
- bərk və maye maddələrin nəfəs alarkən orqanizmə daxil olması (J69.–)
- anadangəlmə (R23.9)
- ƏGO interstisial (J84.9)
- piy mübadiləsinin pozulması nəticəsində yaranan (J69.1)
- sadə interstisial (J84.1)

xarici amillərin təsirindən törənən pnevmoniya (J67-J70)

**J18.0 Dəqiqləşdirilməmiş bronxopnevmoniya**

*Çıxarılıb:* bronxolit (J21.–)

**J18.1 Dəqiqləşdirilməmiş pay (lobulyar) pnevmoniyası**

**J18.2 Dəqiqləşdirilməmiş hipostatik pnevmoniya**

**J18.8 Törədicisi müəyyən olunmamış digər pnevmoniya**

**J18.9 Dəqiqləşdirilməmiş pnevmoniya**

## Aşağı tənəffüs yollarının digər kəskin respirator infeksiyaları (J20-J22)

*Çıxarılıb:* kəskinləşmə ilə müşayiət olunan ƏGO xroniki obstruktiv ağciyər xəstəliyi (O44.1)
aşağı tənəffüs yollarının kəskin respirator infeksiyası ilə müşayiət olunan xroniki obstruktiv ağciyər xəstəliyi (J44.0)

## J20 Kəskin bronxit

*Daxil edilib:* bronxit:

- ƏGO 15 yaşadək uşaqlarda
- kəskin və yarımkəskin:
  - bronxospazm ilə
  - fibrinoz
  - membranoz
  - irinli
  - septik
  - traxeit ilə

kəskin traxeobronxit

*Çıxarılıb:* bronxit:

- ƏGO 15 yaşında və ondan böyük şəxslərdə (J40)
- ƏGO allergik (J45.0)
- xroniki:
  - ƏGO (J42)
  - selikli-irinli (J41.1)
  - obstruktiv (J44.–)
  - sadə (J41.0)

traxeobronxit:

- ƏGO (J40)
- xroniki (J42)
- obstruktiv (J44.–)

**J20.0 *Mycorplasma pneumoniae* tərəfindən törədilən kəskin bronxit**

**J20.1 *Haemophilus influenzae* [Afanasyev-Pfeyffer çöpü] tərəfindən törədilən kəskin bronxit**

**J20.2 Streptokokk tərəfindən törədilən kəskin bronxit**

**J20.3 Koksaki virusu tərəfindən törədilən kəskin bronxit**

**J20.4 Paraqrip virusu tərəfindən törədilən kəskin bronxit**

**J20.5 Respirator sinsitial virus tərəfindən törədilən kəskin bronxit**

**J20.6 Rinovirus tərəfindən törədilən kəskin bronxit**

**J20.7 Exovirus tərəfindən törədilən kəskin bronxit**

**J20.8 Digər dəqiqləşdirilmiş infeksion amillər tərəfindən törədilən kəskin bronxit**

**J20.9 Dəqiqləşdirilməmiş kəskin bronxit**

## J21 Kəskin bronxiolit

***Daxil edilib:*** bronxospazm ilə birgə

**J21.0 Respirator sinsitial virus tərəfindən törədilən kəskin bronxiolit**

**J21.1 İnsan metapnevmovirusu tərəfindən törədilən kəskin bronxiolit**

**J21.8 Digər dəqiqləşdirilmiş infeksion amillər tərəfindən törədilən kəskin bronxiolit**

**J21.9 Dəqiqləşdirilməmiş kəskin bronxiolit**

Bronxiolit (kəskin)

## J22 Aşağı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin respirator infeksiyası

***Daxil edilib:*** tənəffüs yollarınının (aşağı) ƏGO kəskin respirator infeksiyası

***Çıxarılıb:*** yuxarı tənəffüs yollarının respirator infeksiyası (kəskin) (J06.9)

# Yuxarı tənəffüs yollarının digər xəstəlikləri (J30-J39)

## J30 Vazomotor və allergik rinit

***Daxil edilib:*** spazmatik zökəm

***Çıxarılıb:*** astma ilə birgə allergik rinit (J45.0)
ƏGO rinit (J31.0)

**J30.0 Vazomotor rinit**

**J30.1 Bitki tözcuğu tərəfindən törədilən allergik rinit**

Bitki tözcuğu tərəfindən törədilən ƏGO allergiya
Ot qızdırması
Pollinoz

**J30.2 Digər mövsümi allergik rinitlər**

**J30.3 Digər allergik rinitlər**

Xroniki (ilboyu müşahidə olunan) allergik rinit

**J30.4 Dəqiqləşdirilməmiş allergik rinit**

## J31 Xroniki rinit, nazofaringit və faringit

**J31.0 Xroniki rinit**

Ozena (uzun sürən zökəm)
Rinit (xroniki):

- ƏGO
- atrofik
- qranulomatoz
- hipertrofik
- obstruktiv
- irinli
- xoralı

***Çıxarılıb:*** rinit:
-allergik (J30.1-J30.4)
-vazomotor (J30.0)

**J31.1 Xroniki nazofaringit**

***Çıxarılıb:*** ƏGO və ya kəskin nazofaringit (J00)

### J31.2 Xroniki faringit

Xroniki angina
Faringit (xroniki):
- atrofik
- qranulyoz
- hipertrofik

***Çıxarılıb:*** ƏGO və ya kəskin faringit (J02.9)

## J32 Xroniki sinusit

***Daxil edilib:*** (Əlavə) (burun) cibin (-in) xroniki:
- absesi
- empieması
- infeksiyası
- irinləməsi

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir.
***Çıxarılıb:*** kəskin sinusit (J01.–)

### J32.0 Xroniki əng sinusiti

Antrit (xroniki)
ƏGO haymorit

### J32.1 Xroniki frontal sinusit

ƏGO frontal sinusit

### J32.2 Xroniki etmoidal sinusit

ƏGO etmoidal sinusit

### J32.3 Xroniki sfenoidal sinusit

ƏGO sfenoidal sinusit

### J32.4 Xroniki pansinusit

ƏGO pansinusit

### J32.8 Digər xroniki sinusitlər

Pansinusit istisna olmaqla, bir neçə cibin prosesə cəlb olunması ilə müşahidə edilən sinusit (xroniki)

### J32.9 Dəqiqləşdirilməmiş xroniki sinusit

ƏGO sinusit (xroniki)

## J33 Burun polipi

***Çıxarılıb:*** adenomatoz poliplər (D14.0)

### J33.0 Burun boşluğu polipi

Polip:
- xoanal
- nazofaringeal

### J33.1 Polipoz sinus degenerasiyası

Uokes sindromu və ya etmoidit

### J33.8 Sinusun digər polipləri

Əlavə, Xəlbir, Əng, Əsas } cibin polipləri

### J33.9 Burnun dəqiqləşdirilməmiş polipi

## J34 Burnun və burun ciblərinin digər xəstəlikləri

***Çıxarılıb:*** burun arakəsməsinin varikoz xorası (I86.8)

### J34.0 Burnun absesi, furunkulu və karbunkulu
Burnun (arakəsmənin):
- sellüliti
- nekrozu
- xoralaşması

### J34.1 Burun və burun cibinin kista və mukoselesi

### J34.2 Burun arakəsməsinin yerdəyişməsi
Burun arakəsməsinin əyilməsi və ya yerdəyişməsi (qazanılmış)

### J34.3 Burun balıqqulağının hipertrofiyası

### J34.8 Burnun və burun ciblərinin digər dəqiqləşdirilmiş xəstəlikləri
Burun arakəsməsinin ƏGO perforasiyası
Rinolit (burun daşı)

## J35 Badamcıqların və adenoidlərin xroniki xəstəlikləri

### J35.0 Xroniki tonzillit
***Çıxarılıb:*** tonzillit:
ƏGO (J03.9)
kəskin (J03.–)

### J35.1 Badamcıqların hipertrofiyası
Badamcıqların böyuməsi

### J35.2 Adenoidlərin hipertrofiyası
Adenoidlərin böyüməsi

### J35.3 Badamcıqların və adenoidlərin birgə hipertrofiyası

### J35.8 Badamcıqların və adenoidlərin digər xroniki xəstəlikləri
Adenoidlərin vegetasiyaları
Amiqdalolit
Badamcığın (və adenoidin) çapığı
Tonzillyar «polip»
Badamcığın xorası

### J35.9 Badamcıqların və adenoidlərin dəqiqləşdirilməmiş xroniki xəstəliyi
Badamcıqların və adenoidlərin ƏGO xəstəliyi (xroniki)

## J36 Peritonzillyar abses
***Daxil edilib:*** Badamcığın absesi
Peritonzillyar fleqmona
Paratonzillyar abses

İnfeksion amilin göstərilmə zərurəti yaranarsa, əlavə koddan (B95-B98) istifadə edilir.

***Çıxarılıb:*** retrofaringeal abses (J39.0)
tonzillit:
- ƏGO (J03.9)
- kəskin (J03.–)
- xroniki (J35.0)

## J37 Xroniki laringit və laringotraxeit
İnfeksion amilin göstərilmə zərurəti meydana çıxarsa, əlavə koddan (B95-B98) istifadə edilir.

### J37.0 Xroniki laringit
Laringit:
- kataral
- hipertrofik
- quru

***Çıxarılıb:*** laringit:
- ƏGO (J04.0)
- kəskin (J04.0)
- obstruktiv (kəskin) (J05.0)

### J37.1 Xroniki laringotraxeit

Xroniki laringit (xroniki) traxeitlə birgə
Xroniki traxeit laringitlə birgə
***Çıxarılıb:*** laringotraxeit:
- ƏGO (J04.2)
- kəskin (J04.2)

traxeit:
- ƏGO (J04.1)
- kəskin (J04.1)
- xroniki (J42)

## J38 Səs büküşlərinin və qırtlağın başqa rubrikalarda təsnif olunmayan xəstəlikləri

***Çıxarılıb:*** laringit:
- obstruktiv (kəskin) (J05.0)
- xoralı (J04.0)

qırtlağın, səs yarığından aşağı hissəsinin əməliyyatdan sonrakı stenozu (J95.5)
stridoru:
- qırtlağın ƏGO anadangəlmə (P28.8)
- ƏGO (R06.1)

### J38.0 Səs büküşlərinin və qırtlağın iflici

Laringoplegiya
Səs tellərinin iflici

### J38.1 Səs büküşü və qırtlağın polipi

***Çıxarılıb:*** adenomatoz poliplər (D14.1)

### J38.2 Səs büküşlərinin düyüncükləri

Səs tellərinin iltihabı –xordit (fibrinoz) (düyüncüklü) (qabarcıqlı)
Xanəndə düyüncükləri
Müəllim düyüncükləri

### J38.3 Səs büküşlərinin digər xəstəlikləri

Səs tellərinin (büküşlərinin):
- absesi
- sellüliti
- qranuloması
- leykokeratozu
- leykoplagiyası

### J38.4 Qırtlağın odemi

Səs tellərinin ödemi
Səs tellərindən alt hissənin ödemi
Səs tellərindən üst hissənin ödemi
***Çıxarılıb:*** laringit:
kəskin obstruktiv [inağ] (J05.0)
ödemli (J04.0)

### J38.5 Qırtlağın spazmı

Laringizm (stridor)

### J38.6 Qırtlağın stenozu

### J38.7 Qırtlağın digər xəstəlikləri

Qırtlağın:
- absesi
- sellüliti
- ƏGO xəstəliyi
- nekrozu
- paxidermiyası
- perixondriti
- xorası

## J39 Yuxarı tənəffüs yollarının digər xəstəlikləri

***Çıxarılıb:*** ƏGO kəskin respirator infeksiya (J22)
ƏGO kəskin respirator infeksiya:
- yuxarı tənəffüs yollarının (J06.9)

yuxarı tənəffüs yollarının kimyəvi maddələr, qazlar, tüstülər və buxar təsirindən törənən iltihabı (J68.2)

### J39.0 Retrofaringeal və parafaringeal abses

Perifaringeal abses
***Çıxarılıb:*** peritonzillyar abses (J36)

### J39.1 Udlağın digər absesi

Udlağın sellüliti
Nazofaringeal abses

### J39.2 Udlağın digər xəstəlikləri

Udlağın və ya burun-udlağın:
- kistası
- ödemi

***Çıxarılıb:*** faringit:
- xroniki (J31.2)
- xoralı (J02.9)

### J39.3 Yuxarı tənəffüs yollarının lokalizasiyası dəqiqələşdirilməmiş yüksək həssaslıq reaksiyası

### J39.8 Yuxarı tənəffüs yollarının digər dəqiqləşdirilmiş xəstəlikləri

### J39.9 Yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş xəstəliyi

# Aşağı tənəffüs yollarının xroniki xəstəlikləri (J40-J47)

***Çıxarılıb:*** kistoz fibroz (E84.–)

## J40 Kəskin və ya xroniki olması dəqiqləşdirilmədən bronxit

***Qeyd:*** Əgər bronxitin kəskin və ya xroniki olması dəqiqləşdirilməyibsə və bu xəstəlik 15 yaşdan kiçik uşaqda müşahidə olunursa, onda buna bronxitin kəskin forması kimi baxmaq və xarakterinə görə J20.-rubrikasına aid etmək lazımdır.

***Daxil edilib:*** bronxit:
- ƏGO
- kataral
- ƏGO traxeitlə birgə ƏGO traxeobronxit

***Çıxarılıb:*** bronxit:
- ƏGO allergik (J45.0)
- ƏGO astmatik (J45.9)
- kimyəvi maddələr tərəfindən törədilən (kəskin) (J68.0)

## J41 Sadə və selikli-irinli xroniki bronxit

***Çıxarılıb:*** xroniki bronxit: ƏGO (J42) obstruktiv (J44.–)

### J41.0 Sadə xroniki bronxit

### J41.1 Selikli-irinli xroniki bronxit

### J41.8 Qarışıq, sadə və selikli-irinli xroniki bronxit

## J42 Dəqiqləşdirilməmiş xroniki bronxit

***Daxil edilib:*** Xroniki:

- ƏGO bronxit
- traxeit
- traxeobronxit

***Çıxarılıb:*** xroniki:

- astmatik bronxit (J44.–)
- bronxit:
  - sadə və selikli-irinli (J41.–)
  - tənəffüs yollarının obstruksiyası ilə müşayiət olunan (J44.–)
- emfizematoz bronxit (J44.–)
- ƏGO obstruktiv ağciyər xəstəliyi (J44.9)

## J43 Emfizema

***Çıxarılıb:*** emfizema:

- kompensator (J98.3)
- kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan (J68.4)
- interstisial (J98.2)
  - interstisial:
  - – yenidoğulmuşun (P25.0)
- mediastinal (J98.2)
- cərrahi (dərialtı) (T81.8)
- travmatik dərialtı (T79.7)
- xroniki (obstruktiv) bronxitlə birgə müşahidə olunan (J44.–)
- emfizematoz (obstruktiv) bronxit (J44.–)

### J43.0 Mak-Leoda sindromu

Birtərəfli:

- emfizema
- ağciyər şəffaflığı

### J43.1 Panlobulyar emfizema

Panasinoz emfizema

### J43.2 Mərkəzi lobulyar emfizema

### J43.8 Digər emfizema

### J43.9 Dəqiqləşdirilməmiş emfizema

Emfizema (ağciyər):

- ƏGO
- Bullyoz
- Vezikulyar

Emfizematoz qovuqcuq

## J44 Digər xroniki obstruktiv ağciyər xəstəliyi

***Daxil edilib:*** xroniki:

- bronxit:
  - – astmatik (obstruktiv)
  - – emfizematoz
  - – tənəffüs yollarının obstruksiyası ilə
  - – emfizema ilə:

- obstruktiv:
  - astma
  - bronxit
  - traxeobronxit

***Çıxarılıb:*** astma (J45.–)
ƏGO astmatik bronxit (J45.9)
bronxoektaziya (J47)
xroniki:
- bronxit:
  - ƏGO (J42)
  - sadə və selikli-irinli (J41.–)
- traxeit (J42)
- traxeobronxit (J42)

emfizema (J43.–)
xarici amillərin təsirindən yaranan ağciyər xəstəliyi (J60-J70)

### J44.0 Ağciyərin xroniki obstruktiv xəstəliyinin aşağı tənəffüs yollarının kəskin respirator infeksiyası ilə birgə müşahidə olunması

***Çıxarılıb:*** qrip ilə birgə (J09-J11)

### J44.1 Ağciyərin dəqiqləşdirilməmiş, kəskinləşmə ilə müşahidə olunan xroniki obstruktiv xəstəliyi

### J44.8 Ağciyərin digər dəqiqləşdirilmiş xroniki obstruktiv xəstəliyi

Xroniki bronxit:
- ƏGO astmatik (obstruktiv)
- ƏGO emfizematoz
- ƏGO obstruktiv

***Çıxarılıb:*** aşağı tənəffüs yollarının kəskin infeksiyası ilə (J44.0)
kəskin residivlə (J44.1)

### J44.9 Ağciyərin dəqiqələşdirilməmiş xroniki obstruktiv xəstəliyi

Tənəffüs yollarının ƏGO xroniki obstruktiv xəstəliyi
Ağciyərlərin ƏGO xroniki obstruktiv xəstəliyi

## J45 Astma

***Çıxarılıb:*** astmatik status (J46)
xroniki astmatik (obstruktiv) bronxit (J44.–)
xroniki obstruktiv astma (J44.–)
eozinofil astma (J82)
xarici amillərin təsirindən yaranan ağciyər xəstəliyi (J60-J70)
ağır gedişli kəskin astma (J46)

### J45.0 Allergik komponentin üstünlüyü ilə müşahidə olunan astma

ƏGO allergik bronxit
Astma ilə birgə müşahidə olunan allergik rinit
Atopik astma
Ekzogen allergik astma
Astma ilə birgə müşahidə olunan ot qızdırması

### J45.1 Qeyri-allergik astma

İdiosinkratik astma
İrsi qeyri-allergik astma

### J45.8 Qarışıq astma

J45.0 və J45.1 rubrikalarında göstərilən halların birgə müşahidə olunması

### J45.9 Dəqiqləşdirilməmiş astma

ƏGO astmatik bronxit
Gec başlanan astma

## J46 Astmatik status ***[status asthmaticus]***
***Daxil edilib:*** Astmatik vəziyyət

## J47 Bronxoektaziya xəstəliyi
***Daxil edilib:*** Bronxiolektaziyalar
***Çıxarılıb:*** anadangəlmə bronxoektaziya (Q33.4)
vərəm zamanı bronxoektaziyalar (cari xəstəlik) (A15-A16)

# Xarici amillərin təsirindən yaranan ağciyər xəstəlikləri (J60-J70)

***Çıxarılıb:*** J45.– rubrikasında təsnif edilən astma

## J60 Kömürçü pnevmokoniozu
***Daxil edilib:***Antrakosilikoz
Antrakoz
Kömürçü ağciyəri
***Çıxarılıb:*** A15-A16 rubrikalarında təsnif olunan vərəm ilə birgə pnevmokonioz(J65)

## J61 Asbest və digər mineral maddələrin təsirindən yaranan pnevmokonioz
***Daxil edilib:***Asbestoz
***Çıxarılıb:*** asbestoz ilə birgə müşahidə olunan plevra piləyi (J92.0)
A15-A16 rubrikalarında təsnif olunan vərəm ilə birgə pnevmokonioz (J65)

## J62 Tərkibində silisium olan tozun təsirindən yaranan pnevmokonioz
***Daxil edilib:*** ağciyərin silikat fibrozu (geniş)
***Çıxarılıb:*** A15-A16 rubrikalarında təsnif olunan vərəm ilə birgə pnevmokonioz (J65)

**J62.0 Talk tozunun** təsirindən yaranan **pnevmokonioz**

**J62.8 Tərkibində silisium olan digər tozun** təsirindən yaranan **pnevmokonioz**
ƏGO silikoz

## J63 Digər qeyri-üzvi tozun təsirindən yaranan pnevmokonioz
***Çıxarılıb:*** A15-A16 rubrikalarında təsnif olunan vərəm ilə birgə pnevmokonioz (J65)

**J63.0 Alüminoz (ağciyərin)**
**J63.1 Boksitli fibroz (ağciyərin)**
**J63.2 Berillioz**
**J63.3 Qrafitli fibroz (ağciyərin)**
**J63.4 Sideroz**
**J63.5 Stannoz**
**J63.8 Digər dəqiqləşdirilmiş qeyri-üzvi tozun** təsirindən yaranan **pnevmokonioz**

## J64 Dəqiqləşdirilməmiş pnevmokonioz
***Çıxarılıb:*** A15-A16 rubrikalarında təsnif olunan vərəm ilə birgə pnevmokonioz (J65)

## J65 Vərəmlə əlaqəli pnevmokonioz
***Daxil edilib:*** J60-J64 rubrikalarında göstərilən istənilən halın A15-A16 rubrikalarında göstərilmiş vərəm xəstəliyi ilə birgə müşahidə olunması

## J66 Tənəffus yollarının spesifik üzvi tozun təsirindən yaranan xəstəliyi

*Çıxarılıb:* baqassoz (J67.1)
fermer ağciyəri (J67.0)
üzvi tozun təsirindən yaranan hipersensitiv pnevmonit (J67.–)
tənəffüs yollarının reaktiv disfunksiya sindromu (J68.3)

### J66.0 Bissinoz

Tənəffüs yollarının pambıq tozunun təsirindən yaranan xəstəliyi

### J66.1 Kətandidənlər xəstəliyi

### J66.2 Kannabinoz

### J66.8 Tənəffüs yollarının digər dəqiqləşdirilmiş üzvi tozun təsirindən yaranan xəstəliyi

## J67 Üzvi tozun təsirindən yaranan hipersensitiv pnevmonit

*Daxil edilib:* nəfəsalma zamanı ağciyərlərə daxil olan üzvi toz və aktinomiset göbələyinin hissəciklərinin və ya digər mənşəli hissəciklərin təsirindən yaranan allergik alveolit və pnevmonit

*Çıxarılıb:* nəfəsalma zamanı ağciyərlərə daxil olan kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan pnevmonit (J68.0)

### J67.0 Fermer (kənd təsərrüfatı işçisi) ağciyəri

Biçinçi ağciyəri
Otçalan ağciyəri
Kiflənmiş otun təsirindən yaranan xəstəlik

### J67.1 Baqassoz (şəkər qamışı tozunun təsirindən yaranan)

Baqassoz:
- xəstəliyi
- pnevmoniti

### J67.2 Quşçu ağciyəri

Tutuquşu həvəskarının ağciyərlərinin xəstəliyi
Göyərçin həvəskarının ağciyərlərinin xəstəliyi

### J67.3 Suberoz

Mantar ağacı emal edən şəxsin ağciyərlərinin xəstəliyi
Mantar istehsalı sahəsində çalışan işçinin ağciyərlərinin xəstəliyi

### J67.4 Maya ilə işləyən şəxsin ağciyəri

*Aspergillus clavatus* təsirindən yaranan alveolit

### J67.5 Göbələklərlə işləyən şəxsin ağciyəri

### J67.6 Ağcaqayın qabığı toplayan şəxsin ağciyəri

*Cryptostroma corticale* təsirindən yaranan alveolit
Kriptostromoz

### J67.7 Kondisionerlə və havanı nəmləndiricilərlə təmasda olan şəxsin ağciyəri

Kif köbələyi, termofil aktinomisetlər , havanın ventilyasiya və ya kondisionerləşmə sistemində çoxalan digər mikroorqanizmlərin təsirindən yaranan allergik alveolit

### J67.8 Digər üzvi tozun təsirindən yaranan hipersensitiv pnevmonitlər

Pendir yuyanın ağciyəri
Qəhvə üyüdənin ağciyəri
Balıq-un müəssisəsində çalışan şəxsin ağciyəri
Xəzlə işləyənin [dəriçi] ağciyəri
Sekvoyoz (Sekvoyya- şimali Amerikada bitən ağac ilə işləyənin ağciyəri)

**J67.9 Dəqiqləşdirilməmiş üzvi tozun təsirindən yaranan hipersensitiv pnevmonit**

ƏGO allergik alveolit (ekzogen)
ƏGO hipersensitiv pnevmonit

## J68 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan respirator hallar

Etioloji amilin göstərilmə zərurəti yaranarsa, xarici səbəblər kodundan (XX sinif) istifadə edilir.

**J68.0 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan bronxit və pnevmonit**

Kimyəvi bronxit (kəskin)

**J68.1 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan ağciyər ödemi**

Ağciyərlərin kimyəvi ödemi (kəskin)

**J68.2 Yuxarı tənəffüs yollarının kimyəvi madddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan və başqa rubrikalarda təsnif olunmayan iltihabı**

**J68.3 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan digər kəskin və yarımkəskin respirator hallar**

Tənəffüs yollarının reaktiv disfunksiya sindromu

**J68.4 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan xroniki respirator hallar**

Nəfəsalma zamanı ağciyərlərə daxil olan kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan:

- emfizema (diffuz) (xroniki)
- obliterasiyaedən bronxit (xroniki) (yarımkəskin)
- ağciyər fibrozu (xroniki)

**J68.8 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan digər respirator hallar**

**J68.9 Kimyəvi maddələr, qazlar, tüstülər və buxarların təsirindən yaranan dəqiqləşdirilməmiş respirator hallar**

## J69 Bərk maddələr və mayelərin təsirindən yaranan pnevmonit

Etioloji amilin göstərilmə zərurəti yaranarsa, xarici səbəblər (XX sinif) kodundan istifadə edilir.

***Çıxarılıb:*** yenidoğulmuşun aspirasion sindromu (P24.–)

**J69.0 Qida və qusuntu kütləsi təsirindən yaranan pnevmonit**

Aspirasion pnevmoniya:

- ƏGO
- qida mənşəli (requrqitasiya zamanı)
- mədə şirəsindən
- süddən
- qusuntu kütləsindən

***Çıxarılıb:*** Mendelson sindromu (J95.4)

**J69.1 Nəfəsalma zamanı ağciyərlərə daxil olan yağ və sirkənin təsirindən yaranan pnevmonit**

Piy mənşəli pnevmoniya

**J69.8 Digər bərk maddələr və mayelərin təsirindən yaranan pnevmonit**
Qanla aspirasiya nəticəsində yaranan pnevmonit

### J70 Digər xarici amillərin təsirindən yaranan respirator hallar
Etioloji amilin göstərilmə zərurəti yaranarsa, xarici səbəblər kodundan (XX sinif) istifadə edilir.

**J70.0 Şüalanma təsirindən** yaranan **kəskin ağciyər əlamətləri**
Radiasion (şüalanma) pnevmonit

**J70.1 Şüalanma təsirindən** yaranan **xroniki və digər ağciyər əlamətləri**
Şüalanma nəticəsində yaranan ağciyərlərin fibrozu

**J70.2 Dərman maddələrinin təsirindən yaranan kəskin interstisial ağciyər pozğunluqları**

**J70.3 Dərman maddələrinin təsirindən yaranan xroniki interstisial ağciyər pozğunluqları**

**J70.4 Dərman maddələrinin təsirindən yaranan dəqiqləşdirilməmiş interstisial ağciyər pozğunluqları**

**J70.8 Digər dəqiqləşdirilmiş xarici amillərin təsirindən yaranan respirator hallar**

**J70.9 Dəqiqləşdirilməmiş xarici amillərin təsirindən yaranan respirator hallar**

## Əsasən interstisial toxumanın zədələnməsi ilə müşahidə olunan digər respirator xəstəliklər (C80-C84)

### J80 Böyüklərin respirator pozğunluq (distress) sindromu
***Daxil edilib:***Böyüklərin hialin membran xəstəliyi

### J81 Ağciyər ödemi
***Daxil edilib:*** Kəskin ağciyərin ödemi Ağciyər durğunluğu (passiv)
***Çıxarılıb:*** hipostatik pnevmoniya (J18.2)
ağciyər ödemi:
- kimyəvi (kəskin) (J68.1)
- xarici amillərin təsirindən yaranan (J60-J70)
- ƏGO ürək xəstəliyi və ya ürək çatmamazlığı göstərilməklə (I50.1)

### J82 Başqa rubrikalarda təsnif olunmayan ağciyər eozinofiliyası
***Daxil edilib:*** Eozinofil astması
Leffler pnevmoniyası
ƏGO tropik (ağciyər) eozinofiliyası
***Çıxarılıb:*** aspergillyoz tərəfindən törədilən (B44.–)
dərman maddələrinin təsirindən yaranan (J70.2-J70.4)
dəqiqləşdirilmiş parazitar infeksiya tərəfindən törədilən (B50-B83)
birləşdirici toxumanın sistem zədələnməsi nəticəsində yaranan (M30-M36)

## J84 Digər interstisial ağciyər xəstəlikləri

*Çıxarılıb:* ağciyərin dərman maddələrinin təsirindən yaranan interstisial xəstəliyi (J70.2-J70.4)
interstisial emfizema (J98.2)
xarici amillərin təsirindən yaranan ağciyər xəstəliyi (J60-J70)
insanın immun çatışmazlıq virusu (İİÇV) tərəfindən törədilən limfoid interstisial pnevmonit (B22.1)

### J84.0 Alveolyar və pariyeto-alveolyar pozğunluqlar

Alveolyar proteinoz
Alveolyar ağciyər mikrolitiazı

### J84.1 Fibroz oldugu göstərilməklə digər interstisial ağciyər xəstəlikləri

Diffuz ağciyər fibrozu Fibrozlaşan alveolit (kriptogen) Hammen-Riç sindromu
İdiopatik ağciyər fibrozu
Sadə interstisial pnevmoniya
